Ələmdar Quluzadə

# QADAN MƏNƏ QARABAĞ



Az 2
Q 86

ƏLƏMDAR QULUZADƏ

# QADAN MƏNƏ, QARABAĞ

*(Şeirlər, poemalar, mənzum pyes)*

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 98804

Bakı - "Ozan" - 2006

Q(Az)-2
Q-86

*Kitab müəllifin vəsaiti hesabına çap olunmuşdur.*

*Redaktoru:* **Asif Rüstəmli,
filologiya elmləri namizədi**

**Ələmdar Quluzadə.**
"Qadan mənə, Qarabağ", Bakı, "Ozan" - 2006. 456 səh.

Hələ ötən əsrin 70-ci illərindən imzası oxuculara yaxşı tanış olan Ələmdar Quluzadənin "Qadan mənə, Qarabağ" kitabına Qarabağ mövzusunda yazdığı şeirlərlə yanaşı, müharibədən bəhs edən beş poeması və qədim Şuşaya həsr olunan "Pənah evi" adlı mənzum pyesi daxil edilmişdir.

Şairin doğulub boya-başa çatdığı Xocalının ermənilər tərəfindən işğal edilməsi, uşaqdan-böyüyə yüzlərlə dinc Xocalı sakininin fəhşicəsinə qətlə yetirilməsi onun qəlbində və qələmində ağrılı-acılı iz buraxmışdır. 15-ə qədər kitabın müəllifi yeni toplusunda Vətən oğullarını ayıq-sayıq olmağa, dostu düşməndən, əbədini ötəridən seçməyə, əzəli və əbədi torpaqlarımızın işğalı ilə barışmamağa, daim mübariz olmağa çağırır.

"Qadan mənə, Qarabağ" kitabının geniş oxucu auditoriyası və peşəkar ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanıb lazımınca qiymətləndiriləcəyinə inanırıq.

F. Köçərli adına
Azərb. Resp. Uşaq
KİTABXANASI
İNV. №

4702060201-16
Q ------------------- qrifli nəşr
On-047-06

© "Ozan" nəşriyyatı, 2006



## *ÖN SÖZ ƏVƏZİ*

### QANIMLA YAZILAN QARABAĞNAMƏ

Divarda kərpici, daşı ağrıyıb
Durub gözlərini döyən kişinin.
Ürəyi ağrıyıb, başı ağrıyıb
Son sözü salamda deyən kişinin.

Yalı duzsuz imiş yalağımızın,
Dişimin dibində söz altıaylıq.
Çapılan, talanan torpağımızın
Ağaran başında qapqara yaylıq.

Beş yerə bölündüm beş tərəzidə,
Təndir bədənimə soyuq tər gəldi.
Bahar tərəzidə, qış tərəzidə,
Bürkü sazaq ilə bərabər gəldi.

Allah hövsələmi daşdan yaradıb,
Qəbrim sızıldayır, səbrim daşmayır.
Kürü gözümdəki yaşdan yaradıb,
Mənə çinar kimi boy yaraşmayır.

Özümüz kükrəyən, özümüz batan,
Alçaq qapılarda az əyilmədik.
Vətəni torpağın altında yatan
Qara qarışqa tək sevə bilmədik.

Dərdim yüyən olub keçdi ağzıma,
Ağlım keçəl oldu ağılar ilə.
Xəttim qara düşdü ağ kağızıma,
Qələmlə vuruşdum yağılar ilə.

* * *

Bizim üstümüzə əsnəmək üçün
Qılıqlı, quyruqlu it verdi dünya.
Çitə tamarzını ipəyə bükdü,
İpək geyinənə çit verdi dünya.

Neçə qara saça qəhər dən salıb,
Neçə bağ-bostanı bəhərdən salıb.
Yalmana yatanı yəhərdən salıb,
Eşşək minməyənə at verdi dünya.

Özü ələyəndə, özü əyəndə,
Sözü çeynəyəndə, sözü əyəndə,
Əyriyə düz deyib düzü əyəndə
Oğrunu, əyrini cüt verdi dünya.

Topu tabutlarda aparmazdılar,
Bir yurdu kökündən qoparmazdılar.
Köksündə o qədər səngər qazdılar,
Nar kimi, gor kimi çat verdi dünya.

* * *

Alçalıb enmədim mən bircə pillə,
Öz göyüm, öz əlim, öz daşımdı bu.
Tarixin üzünə vurduğum şillə,
Zaman kişi ilə savaşımdı bu.

Dərdimi-odumu qələmə alıb
Məktub yollayıram gələcəyə mən.
Bir gün görəcəyəm yaram sağalıb,
Axırda sevinib güləcəyəm mən.

Döydük başımızı əhlət daşına.
Külüm gözlərimdə qarışdı nəmə.
Bu da millətimin qan yaddaşına
Qanımla yazılan Qarabağnamə.

*Bakı. 20.05.206.*





# DÜNYANIN QARABAĞ AĞRISI

## QADAN MƏNƏ, QARABAĞ

Araz üstə bir zaman od tutub buz yanardı,
Səsini kökləyəndə tarında söz yanardı,
İçində qış donanda çölündə yaz yanardı.
Baş girlədik başına dönə-dönə, Qarabağ!
Qadan mənə, Qarabağ!

Söz əlimdə açılıb dilimi güllələyir,
Əllərim yelpənəkdir, dizimi şillələyir,
Dərdim yetim quzudur, seygah üstə mələyir.
Mələklər süd verməyir mələyənə, Qarabağ!
Qadan mənə, Qarabağ!

Niyə buludun ötmür, niyə göyün açılmır?
Gərdəyinmi tutulub, toy-düyünün açılmır,
Falçının əli ilə kor düyünün açılmır.
Fələyin əli dəyib bu düyünə, Qarabağ!
Qadan mənə, Qarabağ!

Qədəhdəki qanımdı, əlimdəki qədəhdi,
Soyunduğum zirehdi, geyindiyim qədəkdi,
Sənin dastanın uzun, mənim dilim gödəkdi.
Mənim gödək dilimi bük kəfənə, Qarabağ!
Qadan mənə, Qarabağ!

Əkildiyim torpaqda cücərmirəm, bitmirəm,
İtirdiyim dağların göylərində ötmürəm,
Ad çəkib kişilərin ruhunu incitmirəm.
Piyadayıq kəhərə minə-minə, Qarabağ!
Qadan mənə, Qarabağ!

Dəllal bazarımızın bezindən keçməmişik,
Cibimizin bir çürük qozundan keçməmişik,

Biz qızanda kafərin qızından keçməmişik.
Gah dosta dost olmuşuq, gah düşmənə, Qarabağ!
Qadan mənə, Qarabağ!

Azərbaycan yağ olub tavalarda əridi,
Nə ölməyin vədəsi, nə gülməyin yeridi,
Sabahkı qisasımız evimizin sirridi.
Nə gedənə söz denən, nə gələnə, Qarabağ!
Qadan mənə, Qarabağ!»

***Bakı.20.05.2004.***





## EŞQİMSƏN GÜCÜM OLSA...

Bircə gilə şeh olsam,
Sırğa ollam bir gülə,
Sırğa ollam yarpağa.
Palıd olsam, köklərim
Qulac-qulac bağlanar
Bu yerə, bu torpağa.

Qaya olsam, dağların
Sinəsini qoruyan
Daş dəbilqə olaram.
Qollarım çatsa əgər,
Həsrətli sahilləri
Bir-birinə çalaram.

Ulduz olsam, göylərin
Sinəsində sübhəcən
Alışmağa nə var ki.
Tütək olsam, bu müdrik,
Dünya görmüş dağlarla
Danışmağa nə var ki.

Zümrüd quşuna dönsəm,
Neçə Məlikməmmədi
Yerindən götürərəm.
Lələyim yanan kimi,
Harda olsam, özümü
Bu yurda yetirərəm.

Bir ovuc torpaq olsam,
Sinəmin arasında
Bənövşə bitirərəm.
Eşqimsən, gücüm olsa,
Anam Azərbaycanı
Çiynimə götürərəm.

***Xankəndi. 13.06.1976.***

## NƏ QƏDƏR Kİ...

Üzü üstə sərilib
Qucaqladım torpağı,
Sinəm əzdi xəzəli,
Sinəm əzdi yarpağı.

Torpağa yaxın oldum
Ürəyimlə, canımla,
Duydum onun səsini
Şair həyəcanımla.

Otu zərif torpağın
Tikanı necə kürmüş!
Demə tək ürək deyil,
Torpaq da döyünürmüş.

Ona yaxın olanda
Ürəkli söz dərirəm,
Ürəyimi torpağın
Üstündə gəzdirirəm.

Sinəm torpağın üstə
Nəğmə ötəcəm dil-dil.
Nə qədər ki, bu torpaq
Sinəmin üstdə deyil.

***Nabran.23.07.2001.***





## MƏNİM

Dərddən çələng hörən dünya,
Dərdin taxtı, tacı mənim.
Saçlarını çəndə yuyan
Ana mənim, bacı mənim.

Pəri çoxdur, perik çoxdur,
Salam varsa, ərik çoxdur.
Şəkərinə şərik çoxdur,
Baldan şirin, acı mənim.

Tüstüsü kəm bacaların,
Dərdi dağdan ucaların,
Dizi əsən qocaların
Gözlərinin gücü mənim.

Satılıbdır ələk göyə,
Sürmə çəkir lələk göyə.
Beş daş atıb fələk göyə,
Toxunmayın, üçü mənim.

Sərkərdəyəm zəfərim yox,
Öz yurduma səfərim yox.
Talan yurddan xəbərim yox,
Qalan yurdun köçü mənim.

***Bakı.01.03.2005.***

## DAĞLAR, MƏNİ BAĞIŞLAMA

Bulaqlarla
Təzə-təzə dil tapırdım,
Yaddaşımda yaşatmağa
Ay tapırdım, il tapırdım.
Keçən bahar yaylağında
Köç görmüşdüm,
Bir ulduzu
Gözlərimə köçürmüşdüm.
Çiçəyini qoyub gəldim,
Göyçəyini qoyub gəldim,
Dağlar, məni bağışlama!

Hələ sənin balan deyil
Qartalından yazan adam,
Nə şairdir, nə aşiqdir
İlqarını pozan adam.
Hər çiçəkdən
Arı kimi bal çəkərdim,
Bənövşənin qarşısında
Diz çökərdim.
Qucaq-qucaq
Çiçəklərin qarşısında
Əyilməyi bacarmıram,
Mərtəbələr bahalaşır,
Bir mərtəbə ucalmıram –
Dağlar, məni bağışlama!

Quzeyinə qurban olum,
Güneyindən xatirəm var,
Bir gözəlin
Gileyindən xatirəm var.
Nişanlılar
Toy çaldırıb məndən sonra,





Saatlarım məngənədir
O ömürdən, gündən sonra.
Bu gəlişlə
Görən hansı günahımı
Yuyub gəldim?
Mən özümü gətirmişəm,
Mən yerimi qoyub gəldim –
Dağlar, məni bağışlama!

Külün altda bir köz qaldı –
O köz mənim ürəyimdi.
Köynəyində bir saz yandı –
O saz mənim ürəyimdi.
Dağdan düzə bir qız baxdı –
O qız mənim ürəyimdi.
Bu yay sənin qucağında
Bir əlçim buz ərimədi –
O buz mənim ürəyimdi –
Dağlar, məni bağışlama!

*Bakı. 1 mart 1989.*

## BİLİRSƏNMİ?

Hörüklərin qara rəngi teldən köçür,
Toy xınası perik düşüb əldən köçür,
Əliyalın oğulların eldən köçür,
bilirsənmi?

Xırman-xırman bərəkətin qarət olur,
Yığarların yağılara qismət olur,
Qoşun-qoşun qayaların qürbət olur,
bilirsənmi?

Uduzmazdım, ulamazdım, ulun yoxdur,
Qurşağında qılınc yoxsa, qolun yoxdur,
Məmləkətsən, torpağın var, yolun yoxdur,
bilirsənmi?

Qeyrətlilər qan deyənə qan-qan deyib,
Qeyrətsizlər çor deyənə can-can deyib.
Kimlər bizi yağılara qurban deyib,
bilirsənmi?

Bu yaranı neştərləyib yaranı var,
Bu köpəyin arxasında duranı var,
Qış gələndə bu dağların boranı var,
bilirsənmi?

Qulac-qulac qanadları itən köçür,
Yurdumuzda palıd kimi bitən köçür,
Paralanıb Vətənimdən Vətən köçür,
bilirsənmi?

Gecələrin ağrısını səhər çəkər,
Ağaların şələsini nökər çəkər,
Sarayların keşişini səngər çəkər,
bilirsənmi?

*Bakı. 29 noyabr 1991.*





## BU BAHARIN GƏLİŞİNİ GÖRMƏDİM

Nə zamandan çal-çağırdır bu yerdə,
Çeşmələrdə neçə səhəng dolubdu.
Bir də gördüm dərələrdə bürkü var,
Bir də gördüm bənövşələr solubdu.

Qədəminə əyilmədim bir gülün,
Bir çiçəyi qoxlamadım, dərmədim.
Bu dağlardan ayrılmadım bircə gün,
Bu baharın gəlişini görmədim.

Söz almırdı qayaların qulağı,
Ağ buludlar-ağ paltarlı mələklər.
Tumurcuğu çırtlamayan budağı
Asta-asta yelləyirdi küləklər.

Fəsillərin mənzil yolu yuxuymuş,
Yaz yağışı pəncərəmi döymədi.
Aynabənddə yuva quran qaranquş
İlk baharda gözlərimə dəymədi.

Alaçıqlar haçan qalxdı dağlara,
Zirvələrdə qar qalmadı bir əlçim.
Ayağımın altındakı torpağa
Hər ləçəkdən şeh süzülüb bir içim.

Alışıbdır, qovuşubdur könüllər,
Gərək eşqi sevgi ilə dərəsən.
Qızları da görməmişəm, ay ellər,
Gözlərimi kim yummuşdu görəsən?

Günəşinə boylanmadım bu göyün,
Kəhərinin yalmanını hörmədim.
Bu dağlardan ayrılmadım bircə gün,
Bu baharın gəlişini görmədim.

Durna köçü vədəsində gəlməsə,
Yollarına boylanarıq qatarın.
Ürəyimiz bahar kimi gülməsə,
Gəlişini nə bilərik baharın?

*Xankəndi. 13 may 1988.*





## VƏTƏN BAYRAĞI

Qopuzumda, kamanımda
yad sim yoxdur,
Mənim laylam Bayrağımdır,
Ondan uca, ondan əziz
səsim yoxdur.
Babam mənim çırağımdır,
Balam mənim budağımdır.
Beşiyimin başındakı
anam olub,
Anam mənim Bayrağımdır.
O səhrada dağ qarıdır,
O dərədə bulaq deyil,
Hər zirvədə əzəmət var,
Hər əzəmət Bayraq deyil.
Taleyində Bayraq varsa
Tarixin də uzanacaq,
Eşqim məndən ucadırsa
Bayraq adı qazanacaq.
Bayrağımın rənginə bax-
Biri soyum,
biri boyum,
biri toyum.
Varlığımdır,
Varlığımdan necə doyum?
Bir gecənin zülmətinə
dözmək üçün
Mənzilində bir şam olsun,
Bayrağını öpməyənə
Ana südü, yar dodağı
haram olsun!
Sən zamana sinə gərib,
Sən tarixin
Cavabını verməlisən,

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 98804

Başını hər qaldıranda
Günəşdən də öncə, qardaş,
Bayrağını görməlisən.
Azadlığı soraqlayan
Xalqlar cıdır atındadır.
Bayrağını tanımayan
Vətən bulud içindədir,
Millət torpaq altındadır.

***Bakı. 19-20 aprel 1990.***





## QARABAĞ HİMNİ

Bu qürur milyon il onun bəsidi,
Dağında duman da, sis də tamaşa.
Nəsə yaradanın möcüzəsidi,
Burdan qanadlanan səs də tamaşa.

Şikəstə çağlayıb ötəndə dil-dil,
Ulu məhəbbətin, eşqin ahıdı.
Bura Azərbaycan gözəli deyil,
Bura Azərbaycan səcdəgahıdı.

Qavalı döyülüb, daşı qovrulub,
Qayası – qardaşım, qucağı – anam.
Gözümü açanda beşiyim olub,
Gözümü yumanda torpağı – anam.

Sualla bu yurdun qarşısına çıx,
Divarım danışar, qalam danışar.
Söhbətim harada qalsa yarımçıq,
Sabah davamını balam danışar.

Taleyim qovuşur müqəddəs oda,
Ocağa əl açan üstümə gələr.
Kimin Qarabağı varsa dünyada
Tarixdən ürəklə danışa bilər.

***Bakı. 21 fevral 1990.***

## GÜLLƏLƏR...QƏBİRLƏR

Sızlayan analar mənim, sənindi,
Qara buludlar var yurdun başında.
Güllərin ünvanı dəyişib indi,
Açanı soluxur qəbir daşında.

Günümü bələdi kim göy əskiyə,
Güllələr közərib keçir sinəmdən.
Bayraq qaldırmışdım azadlıq deyə,
Bayraq endirirəm matəmlərdə mən.

Yanan ürəklər yox, yalan təsəlli
Ölüm şərqisini bəstələyibdir.
Qəbirlər yolları boğur cütəlli,
Kəfənlər beşiyi üstələyibdir.

Qanını sorana yarınmaq əbəs,
Nə toyuna çağır, nə yasda hayla.
Ölümə, zülümə rəvac verən kəs
Yuyur günahını başsağlığıyla.

Hər kəndin bəxtində məzar, xiyaban,
Şəhidlər deyəndə öz dilim bişir.
Vaxtsız dəyişdikcə dünyanı insan
Bəlkə ana Vətən müqəddəsləşir.

Vətən övladları nəzir-niyazmı,
Ürəkləri susur, qanları axır?!
Yerlərdə verdiyim qurbanlar azmı,
Göylərdən başıma Şəhidlər yağır.

...Bu millət beləcə yatsa, ay Allah,
Kündəmiz təndirə yapılacaqmı?!
Vətəni qəbirlər tutsa, ay Allah,
Torpağı qoruyan tapılacaqmı!?

*Bakı. 22 noyabr 1991.*





## KÜLÜMÜZÜ HARA TÖKƏK

Baltamızı baltalayan, dəhrəmizi yonan gördüm,
Əyridimdik bayquşları uçuq dama qonan gördüm,
Dağlarımız dağlananda yurdumuzu yanan gördüm –
Külümüzü hara tökək?

Dabbağından "toş" deyənlər kəhər ata mindirilir,
Gic görəndə, bic görəndə hərə bir cür dindirilir,
Bacamızdan tüstü qalxır, ocağımız söndürülür –
Külümüzü hara tökək?

Qollarımız qara quldu, əlimizlə bağ salırıq,
Elə bil ki, yağıların gözlərinə ağ salırıq.
Külümüzü sovururlar, çiynimizdə tağ salırıq –
Külümüzü hara tökək?

Sən bulaqdan ömür istə, selin ömrü başqa şeydi,
Ləl yellənən lələk deyil, ləlin ömrü başqa şeydi.
Gülün ömrü göz qırpımı, külün ömrü başqa şeydi –
Külümüzü hara tökək?

Xam at kimi kişnəyən var xam şəkərin altda qalır,
Şah gədaya boyun əyir, xan nökərin altda qalır.
Gah qəlpələr parçalayır, gah təkərin altda qalır –
Külümüzü hara tökək?

Barmaq boyda qara kömür mat qoyursa beş kağızı,
Əlli yerə möhür gupa, neyləyirəm boş kağızı.
Yeri-yurdu qazanda da külün yaşı – yaş kağızı –
Külümüzü hara tökək?

Darağımız oraq olub – qabağında tel dayanmır,
Gözlərimiz bulananda qənşərində sel dayanmır.
Allah, sənə qurban olum, başımızda kül dayanmır –
Külümüzü hara tökək?

*Bakı.10.07.2005.*

## SAĞALMAZ QAN, DAĞILMAZ DƏRD

O at kəhər olmaz çulu seçibsə,
O torpaq qısırdır zəhər içibsə.
Bu yara işləyib qana keçibsə,
Bu yara sağalar, bu qan sağalmaz.

Təmiz adamların taleyi küskün,
Rəngi mis kimidir, görkəmi miskin.
Göyümdə bulud var, başımda çiskin,
Bu bulud sağılar, bu çən sağılmaz.

Başım kələklərlə yağlanar mənim,
Adım sərhədlərdə saxlanar mənim.
Qapılar üzümə bağlanar mənim,
Bu ürək sıxılar, bu əl sıxılmaz.

Kişi var fərədir, kişi var fələk,
Qatlayan biləkdir, qatlanan bilək.
Fərmanla gəlibsə bu dəli külək
Bu palıd yıxılar, bu çöp yıxılmaz.

Namərd arxalıdır, mərdlər təklənib,
Keçəllər, kosalar yaman tüklənib.
Bu dünya o qədər dərdlə yüklənib,
Bu dünya dağılar, bu dərd dağılmaz.

***Bakı. 1 mart 1989.***





## TƏNDİRBULAQ

***(Qarabağda bu adda bulaq var)***

Heç bilmirəm axı sənə
"təndir" deyim,
"bulaq" deyim.
Təndirbulaq,
bu sənətkar təbiətin
tişəsinin qarşısında
qoy baş əyim.
Hər qayada, hər dərədə
Bir muzeylik möcüzə var.
Zaman ötür,
qayalara öz sözünü
yazır sular.

Təndirbulaq!
Sən ada bax!
Ürəyimə buz bulağın
odu düşdü,
Ürəyimə əbədilik
bu bulağın
adı düşdü.
Təndir nədir,
bulaq nədir?
Bu dağlarda
həqiqət də
möcüzədir,
əfsanədir.
Bu dağlarda dərə çiçək,
zirvə qardı.
Bu dağların sinəsində
Buzdan soyuq, oddan isti
suyu vardı.
Alov bitib bu torpaqda
çinar-çinar.

Sularımın
Qılınc kimi soyuğu var,
Təndir kimi istisi var.
Vurulmuşam Vətənimin
Od dağına, buz dağına.
Od ilə su qoşa gəlib
Azərbaycan torpağına.

*Xankəndi. 19.10.1976.*





## QƏSDİMƏ DURAN QƏLƏM

Çırpılır qayaya, çapır qılınca,
Sehrində, sirrində, kələyindəyəm.
Düşür dəli kimi sözün dalınca,
Qandallı qul kimi yedəyindəyəm –
Bu qələm qəsdimə durubdur, Allah!

Qələmə yatmayan dilimə yatmır,
Kədərə bürünüb aləm gəzirəm.
Qan tökən silahlar əlimə yatmır,
Gözlərim dönəndə qələm gəzirəm –
Bu qələm qəsdimə durubdur, Allah!

Yazıram, neçəsi düşmənim olur,
Qılıncdan danışır, qından danışır.
Əlimə almıram, gözləri dolur,
Əlimə alıram, qandan danışır –
Bu qələm qəsdimə durubdur, Allah!

Göylərə qaldırır quru qeyrəti,
Yazmaqdan savayı sənəti yoxdur.
Əyri qıyıq qədər xətir-hörməti,
Qara qaşıq qədər qiyməti yoxdur –
Bu qələm qəsdimə durubdur, Allah!

Başı çox cəfalı, çox oyunludur,
Onu quzu yeməz, quzey götürməz.
Qızıla büksəm də üstü unludur,
Müftə bağışlasam, muzey götürməz –
Bu qələm qəsdimə durubdur, Allah!

Qarnımı ac qoydu, gözlərimi tox,
Hirsimdən, hikkəmdən alışıram mən.
Alnımı yazanın qələmindən yox,
Cibdəki qələmdən danışıram mən –
Bu qələm qəsdimə durubdur, Allah!

Qazanın yanında yerini salan
Nimçələr, çömçələr aşyeyən olur.
Şairin əlinə mehrini salan
Qələmlər həmişə başyeyən olur –
Bu qələm qəsdimə durubdur, Allah!

Yuxumda iynədir, yaxamda sancaq,
Bu nə möcüzədir, nə görəcəkdir?
Dəryada batırsam, üzə çıxacaq,
Torpağa basdırsam, göyərəcəkdir –
Bu qələm qəsdimə durubdur, Allah!

Nəsimi nə çəkdi onun əlindən,
Dərisi söz üstə soyulmadımı?
Sibirin yediyi qələm əhlindən
Hələ bu qələmə dərs olmadımı? –
Bu qələm qəsdimə durubdur, Allah!

Qələm var, bətnində yatalaq gəlib,
Dövrana, dərmana qane olubdur.
Mənimki ağlıma badalaq gəlib
Oğul-uşağıma mane olubdur –
Bu qələm qəsdimə durubdur, Allah!

Gözündə mürgüsü, yuxusu yoxdur,
Gözlərini tutub duman, qorxuram.
Ölü qələmlərin qorxusu yoxdur,
Diri qələmlərdən yaman qorxuram –
Bu qələm qəsdimə durubdur, Allah!





Ondan od istəsən, köz üstə çöküb
Vüsala yetişər, kama qovuşar.
Gözəllik önündə diz üstə çöküb
Gəlinə söz qoşar, qıza söz qoşar –
Bu qələm qəsdimə durubdur, Allah!

Gölü bəyənməyib, seli götürüb,
Baharda payızdan yazmaq istəyir.
Gözüm görə-görə beli götürüb
O mənim qəbrimi qazmaq istəyir –
Bu qələm qəsdimə durubdur, Allah!

Qar çətin laxlaya gün görənəcən,
Hələ Qarabağı isitmir ocaq.
Şuşa "Şur" üstündə hönkürənəcən
Dizimin üstündə Şəhid olacaq –
Bu qələm qəsdimə durubdur, Allah!

*Bakı, 24.08.2006*

## TÜFƏNGSİZ GƏL BU DAĞLARA

Ora təkə məskənidir,
Bura cüyür oylağıdır.
Dərə bizim qədim qışlaq,
Meydan elat yaylağıdır.
Tüfəngsiz gəl bu dağlara,
Qoy təkələr qayalara
yad düşməsin.
Cüyürlər də öz yerindən,
Öz yurdundan hürküşməsin.

Durna gözlü o buz bulaq
Bacıların sirdaşıdır.
Quzeydən boylanan qaya
Əsrlərin yaddaşıdır.
Tüfəngsiz gəl bu dağlara,
Dərələrdə səssizlikdir –
Qayaları oyatma sən
Səsə, küyə səbirsizdir.
Ətəklərdə turac ötür,
Zirvələrin qartalı var.
Dağların kəklik sədalı
Min qayası, min yalı var.
Tüfəngsiz gəl bu dağlara,
Bərələri çox güdmə sən,
Haray salıb zirvələrdən
Qartalları hürkütmə sən.
Kimsə orda tütək çalır,
Gör nə deyir dərədə ney...
Tətik çəksən tək çoban yox,
Dağ da edər bəlkə giley.

Tüfəngsiz gəl bu dağlara,
Eşitməyim güllə səsi.





Bu dağlara bəs deyilsə
Bulaqların zümzüməsi,
Sən çiynində tüfəng deyil,
Dodağında mahnı gətir.
Tüfəng nədir,
Mahnı gətir:
Bülbüllər də qanad çalıb
Görüşünə çıxa bilsin.
Elə gəl ki, barı sənə
Bu gözəllik
Məhəbbətlə baxa bilsin.

*Xankəndi. 16.02.1975.*

## PARA ÇÖRƏK

Para çörək aldım, paraca çörək,
Yol boyu düşündüm bu gün nə qədər.
Dostlar da, yadlar da dəstələnərək
Gözümün önündən gəlib keçdilər.

Hələ dadmamışam ondan bir tikə;
Fikirlər, xəyallar keçir beynimdən.
Onun kimliyini bəlkə bilərək
Çörəyi onunla bölməz idim mən.

Bəlkə bir dostumdur, ya əzizimdir,
Nə ola, biləydim təki kimdir o.
Bəlkə də arxada çörəyimiz bir,
Üz-üzə gələndə düşmənimdir o.

Bəlkə tələbədi, nə var beləsə,
Bəlkə bir nankordur?
Bəlkələrə bax!
O biri paranın qədri bilinsə,
Bu biri para da şirin olacaq.

Yox, keçə bilmərəm bu bərəkətdən,
Bərəkət kəsilməz dizimin üstə.
Bir buğda dənəsi görəndə yerdə
Mən öpüb qoymuşam gözümün üstə.

Bilmirəm dostumdur, yoxsa düşmənim,
Qəlbimiz bir olsa nə eybi, qardaş.
Ürəyim hər kəslə düz gəlir mənim,
Çörəyim onunla bölünəydi kaş.

Ruhumda, beynimdə bu gün, insanlar,
Nifrətlə məhəbbət baş-başa dəydi.
Para ürəkləri, deyirəm nolar,
Bu para çörəklər birləşdirəydi.

*Xankəndi, 8 noyabr 1976.*





## DÜNYANIN İŞİ

Dünya çox maraqlıdır,
Maraq içində üzür,
Tankı, raketi ilə
Yaraq içində üzür,
Diplomatı, alimi,
Şairi, müstəntiqi
Varaq içində üzür.
Kitab bağlayanları,
Qutab bişirənləri,
Qoldan yapışanları,
Atdan düşürənləri.
Oxuyanı, çalanı,
Dilənçisi, kalanı,
Malı pula satanı,
Pulu canla alanı.
Cil tutan, qamış basan
Arxına baxmayan var,
Bu dünyanın oxuna,
Çarxına baxmayan var.
Fırlanır təkər kimi
Başımız, bala-bala,
Yağır yollarımıza
Daşımız, bala-bala,
Enir dağdan arana
Qışımız, bala-bala.

Bir ağlayan uşağı
Kiridə bilmirik biz,
Beynimizin buzunu
Əridə bilmirik biz.

Özümüz əriyirik
Bu isti tavalarda,
Bir çəpərdən ötəri,
Bir toyuqdan ötəri
Qonşular davalarda,
Qohumlar davalarda.
Girov torpağımıza,
Əsir ellərimizə
Hər matəmdə arzumuz.
Hey çoxalır qazanlar,
Hey azalır duzumuz.
Neçə qanadlı dəvə
Koma tikir, dam qurur,
Sevgidən baş açmayan
Məhəbbətdən dəm vurur.
Qoça yaxın durmayan
Quzunu mələtdirir,
Baş kəsən bıçağını
Mənə itilətdirir.
Nə torpaqla dostluğu,
Nə bostanla işi var,
Tərəzinin dalında
Piy bağlayan kişi var.

Qonaq-qara əlindən
Təyyarələr yoruldu,
Maşınlar təng-nəfəsdi.
Üzə gülməyim bəsdi,
Sözə baxmağım bəsdi!
Turşsuyu, İstisuyu
Dərələrə axıdıb





Ziyafət şampanını
İçmək istəmirəm mən.
Saqqalım var, heç kəsin
Saqqalının altından
Keçmək istəmirəm mən.

***Bakı.15.03.2002.***

## QARA RƏNG

Mən qara qaşların dəlisi oldum,
Qara tüstülərdə boğuldu odlar.
Qara hörüklərə elə vuruldum
Göyümdən çəkilmir qara buludlar.

Qara kötük gördüm, sümüyüm yandı,
Neçə qara daşdan ötdüm, ölmədim.
Bəxtim qara əllə qara boyandı,
Yenə də qaradan doya bilmədim.

Qaralan çadırlar qar soyuğudu,
Qara şal didərgin köçündə gəlib.
Didən Qarabağın gözmuncuğudu,
Hopub gözlərinin içində gəlib.

Qəlbimin başında nəyim var idi
Qaysaq bağlamayan yaradan başqa?
Qarabağ rənglərin sərgisi idi,
Daha nə gətirdin qaradan başqa?

Qırmızı laləyə xal şərik kimi,
Damarda qanım da xal-xaldı bəlkə.
Başına dolanım üzərrik kimi,
Ağaran saçlarım qaraldı bəlkə.

*Bakı. 3 iyun 2000.*





## BƏRAƏT

İşi başdan aşıb başbilənlərin,
Gəzir əldən-ələ təzə qəzetlər.
Xəbərdən xəbəri yox ölənlərin,
Gündə fərman verir Ali Sovetlər.

Gözlə qaş kimidir cəza, mərhəmət,
Balışlar, yastıqlar yatmaq üçündür.
Dünənki başlara verilən qiymət
Bugünkü başları qatmaq üçündür.

Haqqı, ədaləti biz boğa-boğa
Nə ürək qoruduq, nə də ki beyin.
Ölümü ölüyə bağışlamağa
Ölüyə verilən azadlıq deyin.

Zillətlər yelləndi belədən-belə,
Sayını itirdik qiyamətlərin.
Arxiv qovluğundan dönən biletlə
Günahı yuyulmur cinayətlərin.

Zindanda boğuldu çoxunun ünü,
Başa çəkmişdilər biqeyrətləri.
Fərmanlar vermişdi güllə hökmünü,
Fərmanlar qaytarır bəraətləri.

Dizə hər çırpılan əl tövbə deyil,
Kefə baxmaq üçün kələkdi, kəfdi.
Bu günkü bəraət qələbə deyil,
Bu günkü bəraət dünənki səhvdi.

Alim də, şair də bəraət alıb,
Qayğını , xidməti unutmur dövlət.
Əla düşünülüb, əla tapılıb
Siyasi kələyə siyasi qiymət.

Yenə inamların tökülür qanı,
Yenə özümüzə gəlmirik hələ.
Dünənki ağrının yaralarını
Kəsirik bəraət bıçağı ilə.

Ağrımı yüklədim Ağrı dağına,
Özümün olan da özgəyə qaldı.
Qarabağ dönəndə qan çanağına
Berlin divarları bəraət aldı.

Neçə taciri var axı bir canın,
Bu qara zəncirlər harada sına?
Adı düşəcəkmi Azərbaycanın
Bəraət alanlar siyahısına?

***Bakı. 16 yanvar 1990.***





## KÜL

Sirrimi dil boğub, sözümü ağız,
Suyumuz boldusa, meşəmiz bitər.
Qulun salmayıbdır bizim sacımız,
Odumuz bol olub, külümüz yetər.

Dünyadan doymadı dünya özü də,
Demədik payızda köçər quşuq biz.
Qonşudan qonşuya gedən gözü də
Külün arasında qorumuşuq biz.

Kökünü aradıq döşə döyənin,
Külü bəllidirsə, ocağı agah.
Külü bir torpağa tökülməyənin
Torpağa əkdiyi toxum da günah.

Küldən danışanda köz dilində din,
Bilək yanğın nədir, umacağın nə.
Tüstüsü bacadan düz çıxan evin
Külü də arxadır kişiliyinə.

Külə mehir salıb millət get-gedə,
Tüstümüz əyilib tütək üstünə.
Ağzıma kül töküb anam bir vədə
Məni tullayıbdır yükək üstünə.

Sonra da yuxumda laylay qoxusu,
Ötdüm uşaqlığı yel atı ilə.
Ağlım kəsənəcən külün qorxusu
Qoymadı ağlayam hıçqırtı ilə.

Nə qanın sonu var, nə fəlakətin,
Kəsirli sözlərin kəsəri çökdü.
Sonra bu millətin, bu məmləkətin
Üstünə qapqara kül əsri çökdü.

Yedəkçi olubdu yollar, yalanlar,
Qanımız da külə qaynayır daha.
Bizim odumuza aşiq olanlar
Bizim külümüzlə oynayır daha.

Yükünü çox gördük yekə ciblərin,
Başıma şabaştək tökülhatökül.
Məni dilə tutan əcnəbilərin
Qoltuğunda qovluq, qovluğunda kül.

Vətən yarıcandır, ölkə mürgülü,
Ağız gizləyəni gözlər gizləmir.
Daha başımıza tökülən külü
Şollar təmizləmir, Kür təmizləmir.

Qurunun oduna yaşım yanmayır,
Yananı, yanmazı kül etdi körük.
İndi başımızda kül dayanmayır,
İndi gözümüzə kül üfürürük.

Gözə kül üfürür gətirən, gələn,
Quzu qoyun olmur qurd qəfəsində.
Gilavar adlanan, Xəzri deyilən
Əsən küləklər də kül həvəsində.

Sinəmdə atlanmır eşqin ədası,
İMən deyən olmadı bu ömür, gülüm.
Mənim gözlərimə gülmə, qadası,
Görmürəm, gözümə kül üfür, gülüm.

*Bakı.18 sentyabr 1995.*





**DAYAN, DÜNYA**

Qayalardan ləl əridib
Daşdan zərmi yoğurüursan?
Ay başına dönüm sənin,
Xışdan mərmi yoğurursan.
Dırnağından təpənəcən
Barıt iyi verə-verə,
Sıldırıma baxa-baxa,
Dərələri görə-görə,
Dünya, hara səfərin var?

Çiçəklərin, çəmənlərin
Bombaların hədəsində,
Görən kimin dədəsinin
Borcu kimin dədəsində?
Yüz ölkədə suyun qıtdır,
Min şəhərdə havan çatmır.
Yoxsa elə bilirsən ki,
Sənin təkcə davan çatmır?
Bir tərəfdə el qadağan,
Bir tərəfdə dil qadağan.
Qürbətlərin, qəriblərin,
Qəbir tökən qəliblərin,
Zindanların, qoşunların,
Neçə-neçə oyunların
yordu bizi,
Sənin dərdin qırdı bizi –
Dünya, hara səfərin var?

Ac ölkə var, silah alır,
Millətlər var, yetim qalır.
Ata gördüm beli oraq,
Ana gördüm – bir yumaqdır,

İş-gücümüz
Həlak olan oğullara
Daş abidə ucaltmaqdır.
Oyaqsansa, eşit, dünya!
Yatmısansa, oyan, dünya!
Gedər-gəlməz səfərdir bu –
Dayan, dünya!
Dayan, dünya!

*Bakı.13 may 1989.*





## O GÜNƏ İNANIRAM

Mənə yumruq göstərən
Quyruq bulayacaqdır,
Əlimi, ayağımı
Çöküb yalayacaqdır,
Ərlər nərə çəkərək
Meydan sulayacaqdır.
Zaman-zalım dərsindən
Çox mətləbi qanıram,
Mən o günü görürəm,
O günə inanıram.

Torpaq sipər olanın,
Çəpər güdənin deyil,
Cıdırlar, kəhər atlar
Pambıq didənin deyil,
Dünyada kişi varsa
Dünya gədənin deyil.
Bu alova bürünüb,
Bu inamla yanıram,
O gün dan yerindədir –
O günə inanıram.

Haçanacan özgənin
Yükünü çəkəcəyəm,
"Baş üstə" deyə-deyə
Diz üstə çökəcəyəm?
Qanımdan, qandalımdan
Mən mərmi tökəcəyəm.
Azadlıq – neştərimdir,
Kölәlik – ötmüş yaram,
O gün məndən doğacaq,
O günə inanıram.

Bu yolda çox kötüklər
Ayağıma dolaşdı,
Bu meşənin həmişə
Çaqqalları ulaşdı,
İstimizə əl açan
Üstümüzə əl açdı.
Vətən, sürgünə deyil,
Süngünə inanıram,
O günə qurban olum,
O günə inanıram.

*Bakı.15 oktyabr 1990.*









# 20 YANVAR 1990 - 26 FEVRAL 1992
# BAKI - XOCALI

## QIRMIZI QAN, QIZIL GÜL

Əmri ötkəm olub generalların,
Bakı başdan-başa qorxu, təhlükə.
Bəşərin qətlinə tökür pulların
"Aşkarlıq!", "Aşkarlıq!" bağıran ölkə.

Yolumuz bağlanıb toy-düyünlərə,
Bacılar nə barat, nə xalat verir.
Azadlıq haqqında düşünənlərə
Azadlıq ordumuz "mükafat" verir.

Bu xəncər itidir, bu yara dərin,
Ağlayan ata var, inləyən qarı.
Gizlində yazılan faciələrin,
Bakıda oynanır tamaşaları.

"Zakonlar"qoymayır nəfəs dərməyə,
(Yerin behişt olsun, ay Zakir əmi.)
Ölkənin gözünə kül üfürməyə
Qarabağ qumarbaz oyunu kimi.

Yanvarda şimşəyi gözləmə nahaq,
Qışın buludundan qar yağa bilər.
Sərvəti özünü kölə edən xalq
Kəniz doğa bilər, qul doğa bilər.

Beşi öyüd verdi, beşi məsləhət,
Yağlı vədlər ilə çıxdı qəzetlər.
Bazarda qiyamət, satanda minnət,
Qəpiyə dəymədi müraciətlər.

Əyib tərəzini dollar və frank,
Bu bankdan o banka rüşvət ötürür.

Mənim benzinimlə nərildəyən tank
Mənə gül gətirmir, güllə gətirir.

Canımın nə qədər cənazəsi var,
Gözlərdə yaş donub, küçələrdə qan.
Öldürən əsgərin icazəsi var,
Ölən oğullara matəm qadağan.

Tiflisdə müsibət, Bakıda fəğan,
Dərdə körpü olub arada külək.
Torpağım su içir göz yaşlarından,
Budaqlar nə üzlə çiçəkləyəcək.

Şöhrət ləyaqəti atır dizindən,
Nəfis quduranda vicdanı yıxır.
Xalqın boğulduğu qan dənizindən
Birinci katiblər birinci çıxır.

Padşaha, vəzirə ögeyik hələ,
Kimə arxalanıb, kimə söyəsən?
Ağzına su alan deputat ilə
Dərdini dünyaya necə deyəsən?

Siyasət baş qatan oyundur ancaq,
Onun da udanı, uduzanı var.
Ölkədə, dövlətdə ədalətə bax –
Öldürən haqlıdır, ölən günahkar.

İndi anlayıram, indi qanıram,
Nə vaxt nökər idim, nə vaxt şah idim.
İtkin – məzarlardır, qazancım – yaram,
Mənim Şəhidlərim – mənim şahidim.

Mən Qanlı Yanvarı yazdım ölümlə,
Siyrilən qılınclar tanımır qını.
Qırmızı qanımla, qızıl gülümlə
Açacam Azadlıq qapılarını!

***Bakı, 3 fevral 1990.***





## AZADLIQ YOLU

*20 Yanvar Bakı faciəsinə*

Ulu səfərdədir dərd mənim ilə,
Sinəmdə mərmi var, yollarımda daş.
Qanımı axıdan düşmənim ilə
Nə yolum yoldaşdır, nə qanım qardaş.

Sızlaya-sızlaya susub dözürük,
Ağrılı-acılı günlər ötəcək.
Bu gün məzarlara çiçək düzürük,
Sabah məzarlardan qəzəb bitəcək.

Nədir ləzzət verən baş nazirlərə,
Güclüdə haqq görür, gücsüzdə qüsur.
Dəlinin əlinə bel verə-verə
Susur, xəyanətkar ölkələr susur.

Həbsə qayda qoydu, ölümə qanun,
Bir ucu cinayət, bir ucu hədə.
Əlini cibimə dürtən "dostumun"
Dilini ağzımda gördüm bir vədə.

Bakının köksünü bişirdi bürkü,
Ev dustağı oldu el qeyrətimiz.
Yumruq özümünkü, baş özümünkü –
Fələkdən gəlmədi fəlakətimiz.

Açdım gözlərimi cahana mən də,
Dedim, haqqın yolu, üzü bəridi.
Ürəkdən bir dəfə haray çəkəndə
Vətənin üstünə ölüm yeridi.

Ay bacı, toxdaq ol, ay qardaş, mətin,
Bizə gendən baxır yadlar, yağılar.
Başını matəmdə əyən millətin
Qəddini düzəldib qalxmağı da var!

Sıraya düzülüb Şəhidlər necə,
Nə çiçək solacaq, nə ruh solacaq.
Bütün generallar qan-qan dedikcə
Bütün Azərbaycan əsgər olacaq!

Zaman zalımları devirə bilər,
İradəm poladdır, nifrətim almaz.
Əsirlər zindanda can verə bilər,
Azadlıq silahla əsir alınmaz!

*Bakı. 20 fevral, 1990.*





**RUS GENERALINA MƏKTUB**

Gördüm tufanını, gördüm dibini,
Nə hər ana qiblə, nə hər süd halal.
Mən sənin evində sənin cibini
Təftiş etmişəmmi, cənab general?

Vətənində yoxmu xeyirin, şərin,
Ayağın dəyən yer qızıl qan olur.
Arvadına ərlik etməyənlərin
Kişilik ədası nə yaman olur.

Bir ətək qoz düşməz bir səlbə ilə,
Ən böyük sərkərdə – haqqın əsgəri.
Sən ki bu zabitə, bu rütbə ilə
Hakim siyasətin çullu nökəri.

Səni bu torpağa kim çağırıb, kim?
Gör hansı tarixdi, gör hansı gündü.
Sənin qarnındakı mənim çörəyim,
Mənim belimdəki sənin yükündü.

Qudurmuş köpəyə ya ət, ya balıq,
Hərb ilə tərbiyə hərbi qumardı.
Süngünün ucunda gələn azadlıq
Təpiyin altında qalan tumardı.

Dil tapa bilmirik biz iki bəndə,
Mən "can" söyləyəndə, sən "çor" deyirsən.
Mən sənin qapına gül göndərəndə,
Sən mənim qapımı topla döyürsən.

Dinib danışmamaq qismətim oldu,
Neçə il doldurdum neçə xurcunu.
Sərvətim daşındı, dərim soyuldu,
Ödəyə bilmədim yenə borcunu.

Qollarımı verdim zindan tikəndə,
Gözümdə Ay yandı, kirpiyimdə şam.
Sən mənim qanımı yerə tökəndə
Mən sənin çiyninə ulduz taxmışam.

Siz kimlərə yağı, kimlərə əziz,
Sıxdı əlimizi yurdun kalları.
General əlində ölən dahimiz
Sayda üstələyər generalları.

Qonşudan minnətlə gələn sədəqə
Köçən zəmilərə yağan yağışdı.
Bir zəmi yer əksən, bir qış azuqə,
Bir tankı doğrasan bir anbar xışdı.

Bərabər deyilmi İvanla Həsən?
Gəl əyri oturub düz danışaq, düz.
Ağlını vicdana tabe etməsən
Amin deyəndən də əllərini üz.

Sənin baban ilə mənim babamın
Bağrımı badaşdır, malımı şərik?
Özünün əri var hər xarabanın,
Yüzümüz general ola bilərik.

Heç kəs iyləməyib hələ ki ovcun,
Kim qovhaqovdadır, kim qaçaqaçda.
Bilməmiş olmazsan, buynuzsuz qoçun
Qisası qalmayıb buynuzlu qoçda.

Dərədə oynama bahar seliylə,
Nə şimşəyim kordur, nə buludum lal.
Qanımı axıdıb qonşu əliylə
Əlini əlinə vurma, general!





Dişdən can istəmə, caynaqdan imdad,
Bu şirin sizdən də qurbanları var.
Mənim qollarımı bağlayan cəllad
Sənin qanın ilə əlini yuyar.

***Bakı. 12dekabr 1991.***

## ZİNDAN QARŞISINDA LÖVHƏ

*Azadlıq carçısı Xəlil Rzaya*

Haray qanadlanır, dil kilidlənir,
Fəqət damarında dəyişməyir qan.
Azadlıq yolunda döyüşən şair
Həmişə keçibdir azadlığından.

Qəlb sözə açılıb, ovuc urzaya,
Töküb lələyini qürbət durnanın.
Xəqani babamdan Xəlil Rzaya
Gözü şairdədir həbsxananın.

Sənət təlatümdə, fərman işində,
Hansı tez doğulub, hansı gec gəlib.
Tarixin nə qədər kəşməkəşində
Sərvət səfilinə sənət güc gəlib.

Haqq nahaq olanda qaranlıq düşür,
İşıq da, zülmət də mənə yad deyil.
Vətən dustaqdırsa, şair döyüşür,
Şair dustaqdırsa, yurd azad deyil.

Yaş yox, faciəmdir gözümdən daman,
Aqil ağıl deyər, cahil cəhalət.
Şair qıfıllarla danışan zaman
Əbədi taxtdadır əbədi sənət.

Hər dərdin önündə əyilmək çətin,
Könül gördüyünü göz görə bilməz.
Şairi zindanda yatan millətin
Qanadı qırılar, qanı tökülməz.

Buz kimi divarlar qonşudur ona,
Qələmi itidir tarix yazanın.
Bir vaxt bir zindanın divarlarına
Adı vurulacaq Xəlil Rzanın.

***Bakı. 6 mart 1990.***





## SALAM, XOCALI DƏRDİM

Mən qoynunda doğuldum, sən içimə köçmüsən,
Nağıl dili olmasın, qıl körpüdən keçmisən,
Nəyinə güvənmişəm, nəyimə and içmisən?
Toyuna, bayramına bir vaxt salam verərdim –
Salam, Xocalı dərdim!

Qırxqız mehi mizrabın, Qarqar qopuzun idi,
Çölün də, çınqılın da şəkərin, duzun idi,
Qoynuna qısılanda qolların uzun idi.
Sənə ana deyərdim, mənə oğul deyərdin –
Salam, Xocalı dərdim!

Əlim ətəyə çatmır, əlim göylərə dəyir,
Ələyənlər ələyib əyilməzləri əyir,
Yetim uşaq görəndə yaralarım göynəyir.
Bu dərd tək mənim olsa ürəyimdə çəkərdim –
Salam, Xocalı dərdim!

Qara, qərib daşı var hər əyilən xurcunun,
İstəyi gizli deyil burnumuzun ucunun,
Sağlığını istəyir axı borclu borclunun.
Sənin dərdin olmasa bəlkə çoxdan ölərdim –
Salam, Xocalı dərdim!

Məni daştək kündələ, məni qum kimi yoğur,
Bu dünyanın havası məni dördəlli boğur,
Üzümə bahar doğmur, üzümə payız doğur.
Əlim əlinə dəysə ayağını öpərdim –
Salam, Xocalı dərdim!

Mən qanımı görmüşəm düşmənin qaşığında,
Eşqim dəli olubdur həsrət yaraşığında,
Tonqal çatacağım mən bu dərdin işığında.
Sevincim inciməsin, mən dərdimə güvəndim –
Salam, Xocalı dərdim!

Ürəyin ülkər qızı, idrakın nizəsi var,
And mənə köhnə dostdur, sözümün təzəsi var,
Sevincin sirri bəlli, dərdin möcüzəsi var;
Pencər kimi biçilib, xəncər kimi göyərdim –
Sağ ol, Xocalı dərdim!
Sağal, Xocalı dərdim!
Salam, Xocalı dərdim!

*Bakı. 22 fevral 1996.*





## GÖZLƏ, XOCALI, GÖZLƏ

Sinəmizdən vurulub, gözümüzdən batmışıq,
Xumarlanan fillərin qulağında yatmışıq,
Adına küçə verib, abidə ucaltmışıq –
Gözlə, Xocalı, gözlə.

Bir məslək qulu deyil sözümüz, söhbətimiz,
Gözünü döyə-döyə dözəcək millətimiz.
Ha deyirik birləşək, tutmur məsləhətimiz –
Gözlə, Xocalı, gözlə.

Vəzifələr mübarək, işdah diş altındadır,
Əlimiz, ayağımız ağır daş altındadır.
Şuşa – Laçın düyünü deyən Daşaltıdadır –
Gözlə, Xocalı, gözlə.

Sökülüb tökülübdür çoxumuzun çuxası,
Çoxları kabinetin komendantı, koxası.
Əlimizə keçməyir bir xainin yaxası –
Gözlə, Xocalı, gözlə.

Hərə birtəhər çəkir evinin çax-çuxunu,
Adına ehsan verib yozmadayıq yuxunu.
Şəhidlərin ruhuna hələ yasin oxunur –
Gözlə, Xocalı, gözlə.

Başımda töhmətim var, başıma kül tökülmür,
Evim yıxılan eldə mənə çadır tikilmir.
ATƏT-də, BMT-də Şəhid adın çəkilmir –
Gözlə, Xocalı, gözlə.

Cəbrdən nə bilirdik, cibdə üst-üstə gəldik,
Ötməyə, ötürməyə bir-birdən ötə gəldik.
Ümidim üzülməyib, bəlkə qeyrətə gəldik –
Gözlə, Xocalı, gözlə.

Adam var barmağına bircə tikan batmayıb,
Mürgülü vicdanını yuxudan oyatmayıb.
Dərdini danışmağa hələ növdən çatmayıb –
Gözlə, Xocalı, gözlə.

Tarın ürəyindəki nağarada çalınmaz,
Xəyanətlə verilən siyasətlə alınmaz.
Gözlədik, gözümüzdə göyərdi neçə Araz –
Gözlə, Xocalı, gözlə.

*Bakı. 12 fevral 1995.*





## QƏLƏM KÖVRƏK, QƏM QOCA

Vay o gündən yükü çənələr çəkə,
Saqqal ha yellənsə, quruş gətirməz.
Arxadan arxayın olmayan ölkə
Torpağın üstündə duruş gətirməz.

Sinəmə tuşlanan düşmən gülləsi,
Kürəyimi dələn öz qəməm idi.
Ərşi silkələyən yurdun naləsi
Dünyanın kefindən möhtəşəm idi.

Təndirin dibinə çatmasa boyun,
Kütdü, çörək deyil evin kündəsi.
Salamat çıxmayıb od ilə suyun
Arasında qalan Allah bəndəsi.

Sənə medal düşmür, mənə bəraət,
Su tökmə qanımı tökən əllərə.
Satqına, xainə göz yuman millət
Gözünü dikəcək məhkəmələrə.

Danışdıq, eşitdik köhnə palandan,
Mən gah minnətdəyəm, gah möhnətdəyəm.
Qulağım ağıza nökər olandan
Xocalı Vətəndə, mən qürbətdəyəm.

Qələm kövrəlibdir, qəm qocalıbdır,
Sinəmə çəkilən dağı yazıram.
Canımda bir qaşıq qanım qalıbdır,
Oturub onunla ağı yazıram.

Səsim soraqlamır ünüm yetəni,
Şüşəni sındırıb div axtarıram.
Kirvəyə kirayə verib Vətəni
Bakıda kirayə ev axtarıram.

*Bakı. 16.02.2004.*

## KİŞİ KİMİ

Halal yurda haram toxum əkdiniz,
Gah yazıldı, gah pozuldu əhdiniz.
Bu torpaqla peymanı biz, əhdi biz
Bağlayanda, kişi kimi bağlayaq.

Qəmimi yox, qamətimi əyirəm,
Döyəni yox, gözlərimi döyürəm.
Vətən adlı əmanəti deyirəm
Saxlayanda, kişi kimi saxlayaq.

Nə can-can de, nə köks ötür, qəm elə,
Sirdaş edər qəhər bizi qəm ilə.
İçimizi bir yetimin qəmilə,
Dağlayanda, kişi kimi dağlayaq.

Yad şorunu tərifləyər yağ kimi,
Qara bizə görünməsin ağ kimi.
Tufanlara sinə gərək dağ kimi,
Laxlayanda, kişi kimi laxlayaq.

Qoy kövrəldək baharı da, qışı da,
Gizildəsın qəlbimizin başı da.
Zəfər günü öpək qara daşı da,
Ağlayanda, kişi kimi ağlayaq.

*Bakı. 22 fevral 1999.*





## DƏBDƏ OLUR

Dəryaların dəyəri
Dərində, dibdə olur.
Bədən başsız qalanda
Canımız cibdə olur.

Yağılar qarğıyanda,
Dağımı doğrayanda,
Dişimiz ağrıyanda
Əlimiz həbdə olur.

Torpağın daşlananda,
Bir savaş başlananda,
Düşmənə tuşlananda
Tətik də təbdə olur.

Özüməm asılan da,
Qınına qısılan da.
Məmləkət basılanda
Dəbilqə dəbdə olur.

***Bakı. 10.09.2004.***

## QALİB GƏLMƏYİ DƏ ÖYRƏNƏCƏYİK

Nə sirr əbədidir, nə sirr saxlayan,
Yurduna, yuvana əncamı sən çək.
Axı torpağını əsir saxlayan
Bir gün tarixinə yiyələnəcək.

Bizim zəmanətdə zillətə nə var,
Göldən boy göstərər, göydən ələnər.
Vətənsiz doğulan millətə nə var –
Torpaq da dilənər, top da dilənər.

İtən iynə üçün yanmayan ürək
Səngiyən yağışdı, sönən ocaqdı.
Yollarım zallara dirəndi, demək,
Əllərim səngərə yatmayacaqdı.

Gözləri tutulub neçə bulağın,
Eşqin buz bağlasa Vətən diz çökər.
Göyündə buludu ağlayan dağın
Selləri dərədə şaqqanaq çəkər.

Bu qara buludlar qapqara şaldı.
Əyninə bürünüb dağ kəfənimi.
Qarabağ – bağrımın başında xaldı,
Xocalı – dərdimin zirvəsi kimi.

Qarşıda döyüş var, batmayaq yasa,
Qılınc qurşanacaq, at minəcəyik.
Biz Şəhid olmağı bacarırıqsa,
Qalib gəlməyi də öyrənəcəyik.

*Bakı. 06.02.2001.*





## AĞLAMAQ ÖYRƏNƏN MİLLƏT

Xəmirə, kündəyə daş qarışıbdır,
Qoyur tərəziyə insan insanı.
Danışmaq dərsinə baş qarışıbdır,
Döyüşmək dərsini öyrədən hanı?

Tabeyə nə çatır öz tələbindən,
Açılan kartlardan təzə xal çıxır.
İndi kişilərin pencək cibindən
Az qala toyda da yaş dəsmal çıxır.

Sonu belə imiş zarafatların,
Yas üçün pulsuzdur biletlər bizə.
Naləsi ərşdədir diplomatların,
Ağlamaq öyrədir qəzetlər bizə.

Neçəmiz Şəhidik, neçəmiz əlil,
Evlərdə bir ucdan qaralır işıq.
Dilim paralansın, vallah elə bil
Vətənin dəfninə hazırlaşırıq.

Haçansa sözünü deyib Koroğlu,
Qan qanı yumadı əl əli yuya.
Ağlamaq öyrənən millətin oğlu
Ya kəfən biçəndir, ya ölüyuyan.

*Bakı. 30 yanvar.1992.*

## ÖLÜMDƏN SONRAKI AD

Ölümdən əvvəlki ad –
Səhrada sübh küləyi,
Ölümdən sonrakı ad –
Qəzetlərin bəzəyi.
Ölümdən əvvəlindir
Dizimin qızıl qanı,
Ölümdən sonrakı ad –
Bir küçənin ünvanı.
Ölümdən əvvəlki ad –
Ehtiyacım, harayım,
Ölümdən sonrakı ad –
Ələkdə ayran payım.
Hansı lülədə yatır
Hansı bəxtin qardaşı?
Ölümdən sonrakı ad –
Qəm karvanı, göz yaşı.
Ölümdən sonrakı ad
Ocaqda odun külü,
Sən demə bu dünyada
Adla ölüm sevgili.
Sonrakı şan-şöhrətin
Ünvanı mənə bəlli,
Ölənə verilən ad –
Qalanlara təsəlli.
Gülüm, gözünə baxdım
Ürəyimdən nə keçdi;
Məni sevsən indi sev,
Öləndən sonra gecdi.
Ölümdən sonrakı ad –
Quzeydə qış həyatım,
Ölümdən sonrakı ad –
Zindanda mükafatım.

*Bakı. 3 dekabr 1991.*





## YARALI ƏSGƏR

Alın yazısıdır, aparır bizi
Sazağa, tufana, borana, qardaş.
Nəğmə gətirmişəm tənzif əvəzi
Bağlayam mən sənin yarana, qardaş.

Odu köksündədir soyuq səngərin,
Qürbətdə qalan daş sinə dağımdır.
Yaranı başından alan əsgərin
Önündə baş əymək ucalığımdır.

Vətən göylərində quş olanların
Qanadı dumanı hecalayıbdır.
Sinəsi gülləyə tuş olanların
Köksü gülləleri parçalayıbdır.

Sus deyir, su deyir sular sonası,
Eşqinə güvənən andına qıymaz.
Oğul qoldan keçsə, əsgər anası
Büküb qollarını qoynuna qoymaz.

Gün gələr yaxana nəğmə düzərik,
Hələ yazılmayıb qalın kitablar.
Dizin parçalansa, dərdə dözərik,
Kürəyin cızılsa, torpaqmı tablar!?

Qarabağ nədirsə, duyulur indi,
Doğulur dağılan doğma kəndlərim.
Üzüqaralıqdan qıraqdı, gendi
Qaraqaş, qaragöz ər igidlərim.

Vətənin nə qədər ağrı-acısı,
Sükutun danışır səsindən qabaq.
Haçandan bəridir şəfqət bacısı
Gecə də oyaqdır, gündüz də oyaq.

Sinəmiz səngərdə paralanmasa,
O dağlardan bizə dağ olan deyil.
Vətənin əsgəri yaralanmasa,
Vətənin yarası sağalan deyil.

*Bakı. 1 fevral 1994.*





## HƏRBİ AND

Qəhrəman Mehdilərə,
Həzilərə həsədim,
Cəbhələrdən dönməyən
Atalara həsrətim –
Hərbi andımdır mənim.

Ünvansız ölənləri
Axı, necə unudum?
Bir naməlum əsgərin
Qəbri üstdə sükutum –
Hərbi andımdır mənim.

İnsanın od-alovlu
Tarixlərə heyrəti,
Anaların qırğına,
Sülhün hərbə nifrəti –
Hərbi andımdır mənim.

Mənə səadət verən
Vətənə sədaqətim,
Məni Vətənə verən
Anama məhəbbətim –
Hərbi andımdır mənim.

***Saaremaa adası, 18 noyabr 1973.***

## AND İÇ

Silaha sarılmısan,
Vətən oğlu, döyüşdü,
Daha güllərlə deyil,
Güllələrlə görüşdü.
Yurdun bir komasında
Qaralıbsa od-ocaq,
Sinəndəki od ilə
Səngərlər qızınacaq.
Didərginlikdən qismət,
Qaçqınlıqdan bəxt olmaz,
Mənzilini özün seç,
Taleyini özün yaz.
Bizə dəlləklik etdi
Dünyanın ölkələri,
Tariximə yazıldı
Çadır düşərgələri.
El yurdsuza oxşayır,
Yurdumuz qanlı gölə,
Vətən azad deyilsə
Anan kəniz, sən kölə.

And iç Vətən qızının
Yanağındakı yaşa!
And iç qəriblik çəkən
Bir bulağa, bir daşa!
And iç Cıdır düzünün
Sübhünə, toranına!
And iç ulu millətin
Müqəddəs Quranına!
And iç!
Dişini kəsən
Yurdun suyuna and iç!
And iç!





Səngər sinənə,
Çinar boyuna and iç!
Gərdək, gəlin gözləyən
Kişi toyuna and iç!

Üzüdönük tarixdə
Qanım qanla yuyulsun,
Sözünü yaladınsa
Andın haramın olsun!
Qulağımız qul kimi
Çox andları eşidib,
Çox papaqlar görmüşük,
Neçə nadan məktəbin
Dərsini götürmüşük.
Əsgər gördük borcunu
Daşıyır heybəsində,
Sərkədəmiz də oldu
Fərari rütbəsində.
Canından keçməli kəs
Qəpiyindən keçmədi,
Xalqın gözünə girən
Ürəyinə köçmədi.
Oğul da var, qəddini
Nə boran, nə qış əyir,
Oğul da var, ruhuna
Azərbaycan baş əyir.
Azərbaycan inanmır
Dərviş nağıllarına,
And iç Azərbaycanın
Şəhid oğullarına!
Silaha sarılmısan,
Vətən oğlu, döyüşdü,
Güllər açılanadək
Güllələrlə görüşdü.

*Bakı. 6 dekabr 1993.*

## BU DƏRDİ NECƏ YAZIM

Bu torpağın yağışı,
Küləyi haradadır?
Qərib düşən durnanın
Lələyi haradadır?
Yerin-göyün Allahı,
Fələyi haradadır?
Cinayət yüz ölçüdə,
Xəyanət bir biçimdə,
Kədər gözümdə deyil,
Kədər mənim içimdə –
Bu dərdi necə yazım?

Dodağımız qaçmamış
Gözümüzü sel örtür,
Bağrımızın başını
Od bürüyür, kül örtür,
Qol açıb məzarları
Qıpqırmızı gül örtür.
Başımdakı buluda
Duman demə, çən demə,
Vətənimin çörəyi
Duzsuz imiş sən demə –
Bu dərdi necə yazım?

Neçə dona bürünür
Hakimlərin bic üzü,
Məramın bir yolu var,
Siyasətin üç üzü,
Bağlı sandıqlardadır
Fərmanların iç üzü.
Məmləkət qumardadır,
Bazar açıbdır baqqal,
Cəza sel kimi gəlir,





Azadlıq misqal-misqal –
Bu dərdi necə yazım?

Gah dizimiz çapılar,
Gah yaramız deşilər,
Qadınların üzünə
Baxa bilmir kişilər,
Dərd mənim ürəyimdə
Tənbəkitək eşilər.
Qurban verdik Vətənə
Neçə Şəhid balanı,
Torpağın var, ay Vətən,
Topun-tüfəngin hanı? –
Bu dərdi necə yazım?

Birimiz hökm edənik,
Birimiz amin deyən,
Birimiz tər tökənik,
Birimiz müftə yeyən,
Sən qanun quraşdıran,
Mən qanuna baş əyən.
Mənim əlimdə qələm,
Səndə isə dəyənək,
Yoxmu bir insan oğlu
Bu dərdi yarı bölək? –
Bu dərdi necə yazım?

*Bakı. 1 mart 1990.*

## YOXDUR

Torpağımın altı altun,
Barmağımda ləlim yoxdur.
Saçlarımı xəzan vurub –
Daramağa telim yoxdur.

Halal kişi halal kəsib,
Qəm bəsləyən məlal kəsib.
Biləyimi qandal kəsib,
Vuruşmağa əlim yoxdur.

Dodaq varmı qanamayan,
Kimdi məni qınamayan?
Al qanımı tanımayan
Bircə dənə gülüm yoxdur.

Sandıq ver sirr saxlamağa,
Mil gətir göz dağlamağa.
Burda məni ağlamağa
Obam yoxdur, elim yoxdur.

Can atanda görünməyə,
Öyrənmişəm sürünməyə.
Qırmızıya bürünməyə
Ayım yoxdur, ilim yoxdur.

Ağlatmadıq biz düşməni,
Atdan salmaz söz düşməni.
Qeyrət üstə yüz düşməni
Öldürənə ölüm yoxdur.

Daşımda çən, başımda daş,
Yurd itirdim o baş-bu baş.
Danışdırma məni, qardaş,
Danışmağa dilim yoxdur.

***Bakı. 10.05.2005.***





## MÜQƏDDƏSDİR

Bir də gördün toy gecikdi,
Bir də gördün vay tələsdi.
Ağacları çiçək açan
Bağçalarda tufan əsdi.

Körpümüzdən keçmədiksə,
Kökümüzə köçmədiksə,
Soyumuzu seçmədiksə,
Dünya bizə dar qəfəsdi.

Qartalımız sar olanda,
Göy söyüddə bar olanda,
Qulağımız kar olanda
Aldığımız yad nəfəsdi.

Yayda yaylaq görməyəndə,
Çöldə çiçək dərməyəndə,
Daşdan qala hörməyəndə
Zəmidəki dən əbəsdi.

Biri gəlib yaşatmağa,
Biri gəlib daş atmağa.
Bir milləti ağlatmağa
Bir ananın ahı bəsdi.

Dan ulduzu sübh çağıdı,
Əllərimin uzağıdı.
İmarət var, göz dağıdı,
Qəbir var ki, müqəddəsdi.

***Bakı. 11 aprel 1990.***

## GÖRƏCƏKLİ GÜNLƏR

Qanımı içənlə qucaqlaşdıqca
Fırlandı başımda bu fəlakətlər.
Yurdumdan, elimdən uzaqlaşdıqca
Mənə yaxınlaşdı yad məmləkətlər.

Toz-duman geyindi külək külümdən,
Yaman yıxılmışam, yaxalanmışam.
Bu üzdə torpağım çıxıb əlimdən,
O üzdə iclasa arxalanmışam.

Kitablar açılır qanı örtməyə,
Mən torpaq umuram bu məzə ilə.
Qonaq çağırırlar dərs öyrətməyə,
Qapıma gəlirlər məruzə ilə.

Ötməyən, yatmayan nə qasırğadı,
Məni bulud qucur, məni çən qucur.
Mindiyim təyyarə qara qarğadı,
Hələ Qarabağın üstündən uçur.

Etibar da ölür, inam da ölür,
Öldürən doymayır, ölən dinləyir.
Çeçenin başına bonba tökülür,
Əfqanın başına mərmi ələnir,
Erməni barmaqla hədələnməyir.

Vətənin çatlayan dodağı indi
Susuz dəvə kimi qanımı içir.
Bir zaman bir Araz göz dağı idi,
İndi neçə Araz içimdən keçir.

Daşdan keçən sənəd indi biletdi,
Münəccim axtarma yuxunu yoza.
Xarici bizlərə su yolu etdi
Xarici pasportla xarici viza.





Siyasət – bazarın üzüboz bezi,
Qiymət dəllalın dilinə bənddi.
Siyasət o qədər usta tərəzi,
Çəkimiz çəkənin əlinə bənddi.

Görəcəkli günlər geridə imiş,
Sözüm də, sazım da sazağa düşdü.
London Laçından da bəridə imiş,
Şuşa Şanxaydan da uzağa düşdü.

***Bakı.10.02.2002.***

## ZURNA HAVASI

Köz qalayı əritdi, qazanda çömçə qızdı,
Kəfi yağa qarışıb odun üstünə sızdı.
Altını püfləyirlər, içində cızhacızdı –
Bu aş qazanı deyil, bu cızdaq tavasıdır.

Gah dili şəkər olur, gah bulanır quyruğu,
Gah qoşa qarpız ilə dolu olur qoltuğu.
Yumurtadan çıxmamış dili zəhər tuluğu –
Bu quş yuvası deyil, bu ilan yuvasıdır.

Olandan ölənədək tısbağa qında yatır,
Hər qarışqanın gücü bircə darıya çatır.
Elə ki uzunqulaq arpaya təpik atır,
Bu dost qınağı deyil, bu düşmən fitvasıdır.

Çeşmə dəniz yaradır, çay çaya qarışırsa,
Məhəbbət ucuzlaşır məsləkindən çaşırsa.
Bir qonşu bir qonşunun çəpərini aşırsa,
Bu top davası deyil, bu torpaq davasıdır.

Ay ötür, il dolanır, məclis yaman uzanır,
Görən hansı itirir, görən hansı qazanır?
Çalanlar da anlayır, oynayanlar da qanır –
Bu saz havası deyil, bu zurna havasıdır.

***Bakı. 24 mart 1990.***





## DƏRDİMİZƏ QARDAŞ BACIM

***(Xocalı Şəhidlərinin xatirəsinə ucaldılan "Vətən harayı"abidəsinin önündə düşüncələr.)***

Sinən neçə dağı görmüş,
Daş kürsüdən aşağı düş.
Başın üstdə qaldırdığın
körpənə bax,
Buz bağlayan çayını gör,
Yandırılan körpünə bax.
Başımızı daşdan-daşa
Döyə-döyə qocalırıq,
Ayaq üstə məhv oluruq,
Daş üstündə ucalırıq.
Daş atlarla daş çapırıq,
Daşdan çıxır çörəyimiz,
Daşa könül verən gündən
Daşa dönüb ürəyimiz.
Daş kürsüdən aşağı düş,
Xırmanın var, xəlbirin var,
Vallah sənin daş səbrin var.
Ay daş bacım,
Dərdimizə qardaş bacım.
Təndirini qalayaram,
Ayaqların dəyən yolun
Tozunu da yalayaram.
Nehrən susub, cəhrən susub,
Bəhrən köçüb, çöhrən susub.
O körpəni bağrına bas,
Kirit, bacı!
Buzumuzu ərit, bacı!
Daş önündə daş olmuşuq,

Daş yaxandan bizi keçirt,
Vətən üçün
Paralanan dodaqlara
Daş kasada zəhər içirt.
Bu mərmərdən
Yüyrük olmaz, beşik olmaz,
Bu mərmərdən
Evsizə ev-eşik olmaz.
Gündoğana boylanmağın
bəsdir daha,
Günbatana yeriməsən
İnamım yox bir sabaha.
Sən düşməsən daş kürsüdən
Öz sinəmi didəcəyəm,
Ayağına dəyir başım,
Daş dalınca gedəcəyəm.

*Bakı. 23.02.2002.*





**OĞLUM ƏSGƏR GEDİR**

*(Oğlum Elnura)*

Neçə mənə hopdu bir ömür-günə,
İllər ötüb keçdi nağıllar kimi.
Borcunu qaldırıb çiyinlərinə
Oğlum əsgər gedir oğullar kimi.

Təbrik çələnginə oxşayır Bakı,
Mehrini məktuba salacaq qələm.
Oğlum əsgər gedir, poçtxanadakı
Qızların adını öyrənəcəyəm.

Şərqi boylanacaq Yer kürəsindən,
Çinarlar da məğrur dayanacaqdır.
Oğlum əsgər gedir, ayaq səsindən
Qayalar yuxudan oyanacaqdır.

Qızlar əllərində gül gətirib ki,
Sevən ürəkləri dağa döndərə.
Körpələr yellənən əl gətirib ki,
Murova, Qoşqara salam göndərə.

Hələ bir tərəfim məndən gileyli,
Hələ bu Vətənin daşı göydədi.
Əsgər anasının alxışı, əli,
Əsgər atasının başı göydədi.

*Bakı. 14.07.2002.*

## YERİYƏCƏK BU DAĞLAR

Qollarını ayırmasa dizindən,
Qocalacaq, qarıyacaq bu dağlar.
Qar yağanda qara desə baxtına,
Ağ saçını darayacaq bu dağlar.

Dünya görüb, ululardan uludu,
Bağlı qalan qapısıdı, yoludu.
Başındakı neçə qara buludu
Papaq kimi qoruyacaq bu dağlar.

Əllərini kor dumanlar sıxdısa,
Cığırını çayır deşib çıxdısa,
Palıdını öz baltamız yıxdısa,
Kötük kimi çürüyəcək bu dağlar.

Bir söyüdü silkələməz ahımız,
Ah çəkməklə geri dönməz ahumuz.
Buz bağlasa ürəyimiz, ruhumuz,
Buzdan betər əriyəcək bu dağlar.

At belində qalxmadınsa belinə,
Tablamazsan sazağına, selinə.
Bu Vətəni gülünə yox, külünə
Bələyəcək, bürüyəcək bu dağlar.

Qara qanım, qazan kimi qaynama,
Dağ çiçəyi qısılmayır qoynuma.
Kəfənimi dolamasam boynuma
Cəsədimi sürüyəcək bu dağlar.

Öz ocağın kor olmasa tüstünə,
Min illik qar dözməyəcək istinə.
Üstündəki yağıyarın üstünə
Qoşun çəkib yeriyəcək bu dağlar.

***Bakı. 16.02.2006.***









# ÖZ ƏLİMİZ, ÖZ YAXAMIZ

## MİLLƏT ŞAİRİNİ AYAĞA VERSƏ

Kimisi itirər, kimisi tapar,
İtən də, yetən də gəldi-gedərdi.
Sənin tərəzində sənin nəfin var,
Mənim qələmimdə hamının dərdi.

Ağzımın içində dilim bişdisə,
Bir dəli nəğmənin toy-düyünüdü.
Şair kef üstündən yada düşdüsə,
Demək, sənətkarın edam günüdü.

Hədəmiz qardaşdır hədiyyəmizlə,
Sənət göylərində ötməyimiz var.
Soyub dərisini öz tiyəmizlə
Şairi qəhrəman etməyimiz var.

Çıxardım bir ulu səfərə, yola,
Ovcumun içində şam sönməsəydi.
Tale dağ çəkərdi Şah İsmayıla,
Qələmi qılınca söykənməsəydi.

Şirini acıdır, acısı şirin,
Qızıl tacımız da qara sac imiş.
Vəzirlik taxtına qalxan şairin
Ömrü girov imiş, başı bac imiş.

Bu göyün üzündə min illik duman,
Hələ də bu göyün gözü gülməyir.
Doqquz axca haqda verilən fərman
Doqquz manatla da ödənilməyir.

Yığdıq cəhənnəmin tökdüklərini,
Dahilər, alimlər, şairlər adi.

Mirzə Ələkbərin çəkdiklərini
Çəkdi ürəyində Məhəmməd Hadi.

Yazı od götürər kirpiklərində,
Açan güllərini payızı görməz.
Şair millətimiz dünyaya bir də
Cavidi, Vahidi, Müşviqi verməz.

Sənət haradadır, gör sən harada,
Ünvan vermisənmi qapını döyəm?
Yoxsa ki, qələmim karvansarada
Yerə xıxırdılan dəvədir bəyəm?

Söz ki sinədə yox, dildə ləngidi,
Səs şirin olsa da söhbət kal olar.
Vətən dindirəndə şair süngüdü,
Şair danışanda şah da lal olar.

Sən mənə baxırsan, səndə deyilsən,
Bəlkə anlayırsan şairlik nədi.
Sən mənim qarşımda danışa bilsən,
Onda söhbətimiz dirədöymədi.

Bilirəm, ucuzdur xətrim xətrindən,
Sözüm böyüdükcə səsim kiçilər.
Pulsuz şair var ki, hər sətirindən
Beş pullu kişiyə pencək biçilər.

Dodağım bir gülün şehini dərsə,
Ürəyim od tutar, külümə baxmaz.
Millət şairini ayağa versə,
Allaha and olsun, ayağa qalxmaz!

*Bakı. 28 noyabr 1993.*





## ÖZ SÖZÜMÜN AĞASIYAM

Barıt kimi alışanlar,
Qırma kimi dağılanlar,
Anasından
Top-tüfənglə doğulanlar,
Leş üstünə
Qarğa kimi, quzğun kimi
yığılanlar,
Bu cahanın qürbəti var,
qəribi var,
Bu Vətənin, bu millətin
sahibi var.
Hasarların arasına
Vətən demə,
Sarayların sırasına
Vətən demə,
Ciblərinin parasına
Vətən demə.
Çopur daşlar məndən qoca,
səndən qoca,
Qara torpaq məndən uca,
səndən uca.
Milyonları yola salan,
Milyonlara miras qalan
Yolu yola düyürsənsə,
Yolda ayaq döyürsənsə,
Yolu əymə, yola əyil!
Yolun ömrü, yolun bəxti
Mənlik deyil, sənlik deyil.
Qara-qara fikirləri
Yer üzündə, göy üzündə
dolandırma,
Bu suları bulandırma!
Çiçəyindən qarınacan,
Baharından qışınacan

Bu məmləkət
Bir kimsənin dədəsinə
borclu deyil,
Günah qərib düşəndədir,
Bizə qürbət olan Vətən
suçlu deyil.
Tarix boyu cibimizdən
Tiyə çıxdı, nizə çıxdı,
Badalaqlar dizə çıxdı.
Baltamızın sapı ilə
Pambıqların tökdüyü qan
bizə tanış,
Daş-kəsəklər, kör-kötüklər
dizə tanış.
Yük daşıyan kürəklərdə
şallaq izi,
Yurdu sevən ürəklərdə
şallaq izi,
Vaxtsız solan çiçəklərdə
şallaq izi.
Vaxt oldu ki,
İçimizdə bircə şamın
İşartısı görünmədi,
Dili yanan,
əli donan
Çuxamıza bürünmədi.
Çoxumuza
Ölü yalan, sağ yalandır,
Çoxumuza
Ağrımayan, tövşüməyən
Sinələrdə dağ yalandır,
Millətini sevmədinsə,
Yerdə qalan məhəbbətin
ağ yalandır!
Aşağıdan yuxarıya
boylananda





İnsan oğlu böyük olur,
Yuxarıdan
Aşağıya boylananlar
İnsanlığa bir yük olur.
Ölməliyə gülmək vaxtın
deyil sənin,
Bu torpağa nə vermisən,
Bu torpaqda
Ölmək vaxtın deyil sənin.
Qeyrətlidən
Qul düzəldən özümüzük,
Tükü-tükdən seçə bilən
açıq gözə
Qıl düzəldən özümüzük,
Milçək boyda ermənidən
Fil düzəldən özümüzük.
Neçə başa qara daş tək,
Neçə başa
Çiçək kimi yağasıyam.
Ömrüm boyu
Öz yurdumun nökəriyəm,
Öz sözümün ağasıyam.

*Bakı. 11.12.2003.*

## BAŞA DÜŞMƏZ

Qəlbi yox, qəməsi var,
Qəm məni başa düşməz.
Dirəyi qızıl olan
Dam məni başa düşməz.

Mənliyini itirən,
Mənə öyüd gətirən,
Yazda çayır bitirən
Şum məni başa düşməz.

Meh əsəndə səyriyən,
Meh susanda kiriyən,
Bir gecəyə əriyən
Şam məni başa düşməz.

Minnəti də borc alan,
Saf görəndə saralan,
Hər ələ mehir salan
Cam məni başa düşməz.

Nə hər canı can duyar,
Nə hər qanı qan yuyar.
Arif məni anlayar,
Xam məni başa düşməz.

*Bakı. 13.07.2003.*





## NƏSƏ ÇATMIR

Köç edərdik
Aranla dağ arasında,
Yaylaqla bağ arasında.
Çomağımdan qorxardılar,
Tütəyimdən qorxardılar,
Xəncərimə
Hürkək-hürkək baxardılar.
Dünəni də, sabahı da
heç elədik,
Məmləkətin güvəndiyi
Dağlardan da köç elədik.
Qara yellər qəh-qəh ilə
Keçdi mənim xırmanımdan,
Xəlbirim də dığırlanıb
Köçdü mənim xırmanımdan.
Xırmanlarım xəlbirləndi,
Ormanlarım xəlbirləndi.
Köçüm gəlib keçdi məni,
Güllə, mərmi
Oraq olub biçdi məni,
Ölümdən də betər töhmət
seçdi məni.
Yapıncımı qoyub qaçdım,
Qılıncımı qoyub qaçdım.
Göz danışdı, qol dinmədi,
Telli sazım
Cəngi üstə köklənmədi.
Qovulduq biz,
qırıldıq biz,
Qələmlərə sarıldıq biz.
Qalın-qalın kitab yazdıq,
Qəmli-qəmli qoşma yazdıq,

Dərdimizə qəbir qazdıq.
Tükümüzü qaldırmayan
musiqiyə
Qol qaldırdıq bala-bala,
Oxuyanlar peyda oldu
ətcəbala.
Səhnəmizdə səsi yoxlar
qoşun-qoşun,
Söz mülkündə
Əqidəsi, hissi yoxlar
qoşun-qoşun,
Bir qoşuna möhtac olan
Məmləkətin dərdinə bax,
oduna bax.
Dünya boyda ağrısına
Alışanı azalıbdır
bu millətin,
Çağıranı çoxalıbdır,
Çalışanı azalıbdır
bu millətin.
Gördüyüm dağ qar altında,
Hördüyüm ev uçulubdur,
Nə qaçqınım azalıbdır,
Nə gözlərim açılıbdır.
Qulaqlarım qulaq dələn
Bir haraya-səsə çatmır,
Azımızla çoxumuzun
Arasında nəsə çatmır.

***Bakı. 21.05.2002.***





## SUSUR BİR-BİR

Əsə-əsə evə dönür
Əsir bir-bir, yesir bir-bir.
Çatımızı, ipimizi
Bıçağımız kəsir bir-bir.

Oxuyuruq, avaz daşır,
Üşüyürük, ayaz daşır.
Ağlayırıq, Araz daşır,
Bağımızı basır bir-bir.

İçib Ayın işığından,
Doyduq qanın qaşığından.
Qəssab qardaş aşığından
Kəsdiyini asır bir-bir.

Dərdə düşdük biz dəlilər.
Ley olduqca bu leylilər.
Taleyindən gileylilər
Bu dünyadan küsür bir-bir.
Qapısını kim döyübsə,
Hürəninə kim söyübsə,
Qulağına nə dəyibsə
Danışanlar susur bir-bir.

***Bakı. 03.07.2005.***

## MƏNƏ SÖZ VERİN

Gözümüzün içində
Gözdən pərdə asan var,
Həqiqətin döşündən
İkiəlli basan var,
Danışmaq məqamında
Heykəl kimi susan var –
Mənə söz verin!

Quru şöhrətlər bizi
Yüz yerə dəstələdi,
Hərə öz sümüyünə
Bir şərqi bəstələdi,
Rüşvət tauna dönüb
Bizi xəstə elədi
Mənə söz verin!

Harda günəş sayağı
Bir parlayan ağıl var,
Orda alaq otutək
Boy göstərir paxıllar,
Gör kimdən geridədir
Kimdən yaxşı oğullar? –
Mənə söz verin!

Yetişmişin yerinə
Azmı dərdik kalları,
Qatırı kəhər etməz
Atın gümüş nalları,
Bizi qapana qoydu
Vəzifə dəllalları –
Mənə söz verin!





Neçə sirkə qabına
Bal dolub, şirə dolub,
Neçə Allahsız kişi
Məscidə, pirə dolub,
Söyləyəcəm kimlərin
Kürkünə birə dolub –
Mənə söz verin!

Şeir – köksümdə odum,
Şeir – başımda tacım,
Yoxuşlarda dizimdir,
Yağışlarda yapıncım,
Həyatım – itiyimdir,
Şairliyim – qazancım –
Mənə söz verin!

Hörümçək kişilər var
Ağ pambıqdan sap çəkir,
Dünya nə vecinədir,
İl boyu kabab çəkir,
Şairin bir dərdi var –
Susanda əzab çəkir –
Mənə söz verin!

*Xankəndi. 24 fevral 1986.*

## ÇAŞDIRIR

Hər tüstünün közü olmur ocaqda,
Tələ qurub təzək məni çaşdırır.
Neçə görkəm qaşda sürmə kimidir,
Gözgörəti bəzək məni çaşdırır.

Hər gəlindən inciməzlər, ay nənə,
Hər tufanı dağ gətirməz eyninə.
Bez bədənlər tül geyinir əyninə,
Boz ağılla ipək məni çaşdırır.

Gah nur olub əqidəmə sızıram,
Gah özümlə iki qütbdür öz aram.
Qarşıdakı tufanlara hazıram,
Arxadakı külək məni çaşdırır.

Mənə göy ver, qanadlanıb quş olum,
Görən göz ol, kirpik olum, qaş olum.
İnsanlara inanmasam daş olum,
Səni yıxan kələk məni çaşdırır.

Dil özünə ova bilmir umacı,
Bir parça ət gah şirindir, gah acı.
Deyirsən ki, ələyin var, ay bacı,
Çörəkdəki kəpək məni çaşdırır.

Yerişində ləngərlidir qoca kəl,
Bilir nədir boyunduruq, nədir vəl.
Öz itindən qorxun yoxdur, çox gözəl,
Əlindəki kötək məni çaşdırır.

Sandıqların sehirinə susandım,
Qan tökmədim, qana-qana usandım.
Qonşunuzla can-ciyərsən, inandım,
Həyətdəki köpək məni çaşdırır.





Nəslinizin dağ cüssəli döşüsən,
Aşırırsan dağdan ağır işi sən.
Papağın var, şalvarın var, kişisən,
Əl atdığım ətək məni çaşdırır.

Son tikəmi böləndə də döyaram,
Qayaları kündələyib yayaram.
Birnəfəsə yüzə qədər sayaram,
Beşdən sonra fələk məni çaşdırır.

*Xocalı. 16 sentyabr 1988.*

## QAÇQIN UŞAQLA SÖHBƏT

Dərdini, odunu canıma cala,
Müqəssir deyilsən, suçlu deyilsən.
Pambıqla baş kəsdik, onunçun, bala,
Çadırda göz açdın kainata sən.

Necə böyüdəcək səni yalanlar?
Yüz yerdən çat verib haqqın dodağı.
Böyük bir millətdən sənə qalanlar
Bozaran çadırdır, bir də göz dağı.

Küt olsan, təndirdə küt gedəcəksən,
Üstünə düşəcək çoban itləri.
Çörək axtaranda seyr edəcəksən
Xanımlı, kənizli imarətləri,
Ağalı, nökərli imarətləri.

Qarşında yarpaqtək titrəyir dizim,
Yerlərə girəsi baş gəzdiririk.
Daha ürəyimiz döyünmür bizim,
Daha sinəmizdə daş gəzdiririk.

Qəsdin mənə qənim – belə deyildim,
Yolum kəsiləndən səsim kəsildi.
Sənin yanağına baxanda bildim
İndi məmləkətdə hansı fəsildi.

Nə təzə söhbət var, nə təzə xəbər,
Bildiyin, qandığın sualları seç.
Alnına yazılan dilində əzbər,
Mənim yazdığımı əzbərləmə heç.

Vətən süpürülüb, yurd təmizlənib,
Naxır da, sürü də sağıldı, bala.
Sənin gözlərində ağıl gizlənib,
Mənim başımdakı nağıldı, bala.

*Bakı.2. iyul 1999.*





## DANIŞIRIQ

Səsimiz gur, sözümüz bol,
Sədaqətdən danışırıq.
Gah Vətəndən söhbət açır,
Gah millətdən danışırıq.

Kal meyvəmiz töküləndə,
Dizlərimiz büküləndə,
Qınımıza çəkiləndə
Cəsarətdən danışırıq.

Yox oluruq yox görəndə,
Çoxalırıq çox görəndə.
Acdan ötüb tox görəndə
Səxavətdən danışırıq.

Sənə haram, mənə nəsib,
Küllənəndə külək əsib.
Ya behiştdən kəlmə kəsib,
Ya cənnətdən danışırıq.

Alma deyib alçasına,
Umsunuruq xonçasına.
Minib şəhvət dayçasına
Məhəbbətdən danışırıq.

Bir gözümüz ləl bədəndə,
Bir gözümüz lal gedəndə.
Badə bizi kövrəldəndə
Biz qürbətdən danışırıq.

Çəmən solub çənim olsun,
Məndən ötən mənim olsun.
Qeyrət bizə qənim olsun,
Biz qeyrətdən danışırıq.

*Bakı. 13 oktyabr 1993.*

## ÇOXDAN BƏLƏDƏM

Bu dəryanın çalxalanan
Köksünə çoxdan bələdəm.
Çoxlarının çox üzünə,
Əksinə çoxdan bələdəm.

Əlim dəysə bir gülünə,
Sinəm keçər çəngəlinə.
Can deyənin cəncəlinə,
Tərsinə çoxdan bələdəm.

Gəl didəmə dərd bələmə,
Dörd əlinlə didələmə.
Dədə, məni hədələmə,
Hirsinə çoxdan bələdəm.

Enən zaman mən dərinə
Yıxılmışam təndirinə.
Qoca dünya, kəndirinə,
Kürsünə çoxdan bələdəm.

İti atda keçirmişəm,
Ocağa ot içirmişçm.
Gördüyümü köçürmüşəm –
Dərsinə çoxdan bələdəm.

*Bakı. 12.12.2003.*





## ADI POZULANDA MƏMMƏD ARAZIN

***(Azərbaycan yazıçılarının VIII qurultayında Məmməd Arazın əleyhinə tək bir nəfər səs verdi.)***

Bu ağac altında kim kölgələnər,
Ellər Vətən olmaz, el ölkələnər.
Salon uğuldayar, zal silkələnər
Adı pozulanda Məmməd Arazın.

Buğdalı, başaqlı xəlbirdi bəşər,
Çörəyi ağappaq unundan bişər.
Müşfiqlər, Cavidlər yadıma düşər
Adı pozulanda Məmməd Arazın.

Qazancın ürəksə, adın silinməz,
Torpaq çəpərlənər, oba bölünməz.
Qələmlə güllənin fərqi bilinməz
Adı pozulanda Məmməd Arazın.

Duman var yatıbdır külək dalında,
Kəndirlər görmüşük kələk dalında.
Bir nəfər gizlənər ələk dalında
Adı pozulanda Məmməd Arazın.

Bəzəkli xonçadan noğul istərəm,
Başımdan keçərəm, ağıl istərəm.
Gözünə baxmağa oğul istərəm
Adı pozulanda Məmməd Arazın.

Nə üstə vuruşum, nə ağlayım mən,
Nə yazdım, saçına gül bağlayım mən?
Hansı siyahıya bel bağlayım mən
Adı pozulanda Məmməd Arazın?

O, söz döyüşündə tökübdür qanın,
Araza tapşırıb ruh ilə canın.
Adını çəkməyin Azərbaycanın
Adı pozulanda Məmməd Arazın.

*Xankəndi. 15 noyabr 1987.*





## ƏLƏMDARAM MƏN

*(Hansı səbəbdənsə Azərbaycan yazıçılarının XI qurultayına dəvət olunmadım.)*

Kötük əkən kişi, daş əkən kişi,
Qara niyyətinlə qara ləkəsən.
Adımın üstündən xətt çəkən kişi,
Vətənin namını çətin çəkəsən.

Hisi öz pasına çökən şairin
Harda dəmlənibdir aşı, bilirəm.
Mənim ayağımdan çəkən şairin
Nələr çəkdiyini yaxşı bilirəm.

Yallanıb, yalmanıb yolunu azdın,
Yalayan, ulayan itinə əhsən.
Yazdığını belə gözəl yazmazdın,
Nə gözəl pozursan, xəttinə əhsən.

Axı haran qalıb daş arasında,
Allah haqqı, işin qaravəllidi.
Sənətin, qeyrətin boysırasında
Mənim də, sənin də yerin bəllidi.

Damarın sonsuzdu, qanın qısırdı,
Bənzədin yadların qaravaşına.
Dünən düşmən məni daşa basırdı,
Bu gün daşım düşüb sənin başına.

Andıma, eşqimə minnətçi idim,
Çəndən qorxmamışam, çəmən olmuşam.
Düşmənin içində millətçi idim,
Millətin içində düşmən olmuşam.

Ətəyində ət var, əlində ətək,
Min il bundan sonra yenə varam mən.
Əlindən gələni əlli qaba çək,
Ələmi enməyən Ələmdaram mən.

*Bakı. 17.05.2004.*

## NEYLƏSİN BUNA

Göydən yağış yağmasa
Bulaq neyləsin buna?
Ağac kökdən qurusa
Budaq neyləsin buna?

Qaçma sərraf gözündən,
Tanınarsan bezindən.
Dil çıxanda özündən,
Dodaq neyləsin buna?

Qulaq yaddır hər züyə,
Köhnə gülmür təzəyə.
Göz düşəndə üzüyə,
Barmaq neyləsin buna?

Püskürəndə körüklər
Hürkək olur əliklər.
Seyrələndə hörüklər,
Daraq neyləsin buna?
Kimi süd göləndədir,
Kimi qəm selindədir.
Şor ceyran belindədir,
Qaymaq neyləsin buna?

Kimisi beçə balı,
Kimisi göy gavalı.
Axmaqlasa ağıllı,
Axmaq neyləsin buna?

Kəmərin beldən qaçıb,
Sığalın teldən qaçıb.
Bir söz ki, dildən qaçıb,
Qulaq neyləsin buna?





Ya qanqal əkilibsə,
Ya kötük tökülübsə,
Yol əyri çəkilibsə,
Ayaq neyləsin buna?

Min naz satır hər qotur,
Yada demə dinc otur.
Yaxın yaxandan tutur,
Qıraq neyləsin buna?

*Bakı. 23 iyul 1991.*

## KİMDİR SONUNCU

Məqsədim düz idi, yollarım kəsə,
On adam içində oldum onuncu.
Bütün suallardan qabaq nədənsə
Öyrəndiyim budur:
– Kimdir sonuncu?

Ömrümün əliboş təcrübəsində
O qədər göynəyib burnumun ucu.
Bilet növbəsində, su növbəsində
Min yol soruşmuşam:
– Kimdir sonuncu?

Növbəsiz kişilər tanıdım bəzən,
İki tərəfə də kəsdi qılıncı.
Yeknəsək, üzücü qəbullarda mən
İkicə söz dedim:
– Kimdir sonuncu?

Baxmaq istəmədim gül əllərə də,
Başımın altına qoydum balıncı.
Könlünə sığmayan gözəllərə də
Qorxdum sual verəm:
– Kimdir sonuncu?

Könlüm inciyəndə, qəlbim küsəndə
Beynim qan olubdur, ürəyim şüşə.
Növbəyə öyrənib ağlım kəsəndən
Yerimi axırda tapdım həmişə.

Evin özündə də sonbeşiyəm mən,
Yaman tutulmuşam sonuncu dərdə.
Minnətli, minnətsiz mətbəələrdən
Çıxır kitabım da sonuncu yerdə.





Axıra çatmayan məhəbbəti də
Sonuncu olmayan haradan qanar?
Arxalı adamlar səadəti də
Rütbətək qazanır növbənənkənar.

Doğruya tutuşub haqqa yanmayıb,
Nə ilk şimşək olub, nə sonuncu şam.
Üz-üzə gələndə o utanmayıb,
Döş-döşə gələndə mən uduzmuşam.

Bir gün başlayaydı vicdan bayramı,
İtib-batmayaydı kimsənin borcu.
Görəydim növbəyə düzülüb hamı,
Gəlib soruşaydım:
– Kimdir sonuncu?

*Xankəndi. 28 dekabr 1985.*

## AT ARABASI, ARABA ATI

İki yola düşdük mənzildən bəri,
İki üzümüz var – ipəyik, bezik.
Millət deyə-deyə min ildən bəri,
Minilən də bizik, minən də bizik.

Dünyanın küləyi, yeli dəyişib,
Sənin bağ-bostanın bəhərə düşüb.
Minilən atların nalı dəyişib,
Minənin gözləri yəhərə düşüb.

Ülgücdən keçirik dəlləkxanada,
Qayçı qırxılanın telində gəzir.
Arıqdan bezibdir sallaqxana da,
Kökələn köhlənin belində gəzir.

Nə mən yorulası, nə sən yorası,
Bu qarlı dağlarda qırov yeri var.
Mənim damağımda yüyən yarası,
Sənin biləyində cilov yeri var.

Xurcunun, qırmancın fərqi yox bizdə,
Ələk toxuyuruq, qıl yoldaşıyıq.
Nə qorxu, nə xof var ürəyimizdə,
Yola qurban olum, yol yoldaşıyıq.

Sən altı təkərli yad arabası,
Mən iki ayaqlı xaraba atı.
Kimi bu dünyaya at arabası,
Kimi bu dünyada araba atı.

*Bakı, 14.06.2006.*





## QALMADI

Dünyanın ağlamayan
Qarışı da qalmadı.
Hanaların arğacı,
Ərişi də qalmadı.

Ağzı qopdu dəhrənin,
Yağı gəlmir nehrənin.
İp əyirən cəhrənin
Kirişi də qalmadı.

Qaz doldurdu qazanı,
Bəzən yudu qan qanı.
Dərənin baldırğanı,
Çirişi də qalmadı.

Kəmərə, dona kimi,
Gözəllər sona kimi.
Qızların durna kimi
Yerişi də qalmadı.

Sozaldı söyülməkdən,
Dağlandı döyülməkdən.
İkiqat əyilməkdən
Düz kişi də qalmadı.

*Bakı. 03.04.2002.*

## NİYƏ BU MİLLƏTİ SEVMİRSƏN, QAĞA

Könlün gül istəsə, gülünü verib,
Dağını, düzünü, gölünü verib.
Bağındakı itin yalını verib –
Niyə bu milləti sevmirsən, qağa?

Cibindəki pul da bu millətindi,
Qapındakı qul da bu millətindi.
Ağzındakı dil də bu millətindi –
Niyə bu milləti sevmirsən, qağa?

İmarət tikəndə daşını verdi,
Teştdə qırqovullu aşını verdi.
Ulaq görməyənə maşını verdi –
Niyə bu milləti sevmirsən, qağa?

Pişik tumarlayır, it oynadırsan,
Döşünə yatanı lüt oynadırsan.
Atasına nəhlət, at oynadırsan –
Niyə bu milləti sevmirsən, qağa?

Qoza atdığın daş qızına dəyər,
Qolların qayıdıb dizinə dəyər.
Sevən sevməyənin yüzünə dəyər –
Niyə bu milləti sevmirsən, qağa?

Nədi vicuduna darışıb belə,
Gülüşün gözündə qırışıb belə.
Qanın nə qanına qarışıb belə –
Niyə bu milləti sevmirsən, qağa?

Əlini qızdırıb çırpısı, şaxı,
Qarnında əriyib qaxacı, qaxı.
Anana, bacına neyləyib axı –
Niyə bu milləti sevmirsən, qağa?

*Bakı. 02.09.2004.*





## ALLAHSIZ DÜNYA

Qız-gəlinə şal ötdürür,
Ləçəksizdi özü dünya.
Dirək deyil dirəksizə,
Dirəksizdi özü dünya.

Kəpək yeyən köpək satır,
Köpək minən ipək satır.
Əlli cürə ələk satır,
Ələksizdi özü dünya.

Yandırmağa lələk gəzmə,
Tükdən qopsan tütək gəzmə.
Əllərinlə ətək gəzmə,
Ətəksizdi özü dünya.

Zindan döyüb, şiş bağlayıb,
Didişənə diş bağlayıb.
Sinəsinə daş bağlayıb,
Ürəksizdi özü dünya.

Dəryası var, ormanı var,
Gündə neçə fərmanı var.
Zəmisi var, xırmanı var,
Çörəksizdi özü dünya.

Tülküsündən tülək umma,
Bürküsündən külək umma.
Bu dünyadan kömək umma,
Köməksizdi özü dünya.

Dil tökəndə silahsızdı,
Qan tökəndə günahsızdı.
Allah haqqı, Allahsızdı,
Fələksizdi özü dünya.

*Bakı. 20.08.2004.*

## YOX NEYLƏSİN

Taxt da baxtın qismətidir,
Taxtdan küsmə, taxt neyləsin.
Baxtı yazan bəndə deyil,
Baxtdan küsmə, baxt neyləsin.

Lilli sular giley bilmir,
Gün biləni güney bilmir
Zaman doğma-ögey bilmir,
Vaxtdan küsmə, vaxt neyləsin.

Nə günah var – yaman edir,
Çox tamahı tuman edir.
Neyləyirsə kaman edir,
Oxdan küsmə, ox neyləsin.

Tufan olub qopmayanda,
Köhlən minib çapmayanda,
Qışda armud tapmayanda
Qaxdan küsmə, qax neyləsin.

Var görmüşük, yox görmüşük,
Ac görmüşük, tox görmüşük.
Dərd nədirsə, çox görmüşük,
Çoxdan küsmə, çox neyləsin.

İt apardı kütümüzü,
Qurd tanıdı itimizi.
Aclar yedi ətimizi,
Toxdan küsmə, tox neyləsin.

Sinədəki oxumuzdu,
Yozduğumuz yuxumuzdu.
Axtardığın yoxumuzdu,
Yoxdan küsmə, yox neyləsin.

*Bakı. 28.05.2005.*





## DÜDÜYÜ VAR DÜNYANIN

Yəhərindən, cilovundan savayı
Cidarı var, hörüyü var dünyanın.
Poladsansa zindanından qıraq dur,
Kömürü var, körüyü var dünyanın.

Qarmaq qurub qaymağının içində,
Maral çoxdur maymağının içində.
Halvasının, quymağının içində
Tikanı var, sümüyü var dünyanın.

Armuddan tez, ova çıxır ayısı,
Toy evində vay axtarır vayısı.
Hər addımda qırx arşınlıq quyusu,
Hər cığırda kötüyü var dünyanın.

Min dəfə de kəlam ölməz, söz ölməz,
Sözlə sərvət bir sıraya düzülməz.
Əyrisini min dirək də düzəltməz,
Əlli yerdən söküyü var dünyanın.

Gah doymuruq çiçəyindən, gülündən,
Gah deyinib dad döyürük əlindən.
Nə sirdisə, qozu bitib belindən,
Çapığı var, çürüyü var dünyanın.

Bez alanın bazarında cunadı,
Qaz vuranın qazanını qaynadır.
Ozanlara "Uzundərə" oynadır,
Tütəyi var, düdüyü var dünyanın.

*Bakı. 03.07.2005.*

# QƏPİYİNƏ DÜNYANIN

Qopan düşər dərəsinin dibinə,
Çapan düşər çapığına dünyanın.
Başın dəyər qayasına, daşına,
Daşın dəyməz topuğuna dünyanın.

Əli qanlı, dişi qanlı quduzdu,
Qan tökənlər qabağında uduzdu.
Fərə deyil, beçə deyil, xoruzdu,
Eşqi vurub pipiyinə dünyanın.

Kəsilənin qolu çıxır qazandan,
Kəsənlərin pulu çıxır qazandan.
Fəndkir çömçə dolu çıxır qazandan,
Kəfkir cumur köpüyünə dünyanın.

Tox kişilər top atmağa başlayıb,
Ot görəndə atın başın boşlayıb.
Ac kişilər tüfəngini tuşlayıb
Güllə atır qəpiyinə dünyanın.

Ucalanla zirvələrə ucalır,
Alçalanla pillə-pillə alçalır.
Gülənə də, ölənə də əl çalır,
Mat qalmışıq çəpiyinə dünyanın.

Axuruna, samanına güvənmə,
Qavalına, kamanına güvənmə.
Allı-güllü tumanına güvənmə,
Şalvar dözmür təpiyinə dünyanın.

*Bakı. 13.07.2005.*





# AĞLAYIR

Kəsə-kəsə, biçə-biçə
Əlimizdə çin ağlayır.
Dolu döyən sünbül kimi
Saçımızda dən ağlayır.

Xallı qıza çilli gülür,
Kəkilsizə telli gülür.
Halal cibdə əlli gülür,
Haram cibdə min ağlayır.

Gah çörəyi qaxınc kəsir.
Gah kürəyi qulunc kəsir.
Başımızı qılınc kəsir,
Dərdimizə qın ağlayır.

Ah çəkənlər aman deyir,
Yol görənlər yaman deyir.
Qanmaz var ki, qan-qan deyir,
Qanan var ki, qan ağlayır.

Ağlayanda qorxa-qorxa,
Göz yaşımız çatmır çarxa.
Kişilər var, yeddi arxa
Dönəninə gün ağlayır.

*Bakı. 21.08.2005.*

## QAZ VURANLAR

Qırqovullar qurban olur aşına,
Döş cibində qələm nədir, ülgüc var.
Kef çəkəndə sözü çəkir başına,
Kabab altda qalan sözdə nə güc var.

Varlı pulu yaradandan pay bilir,
Pulu kəmdir bu dünyadan doyanın.
Soyan kişi nə hesab, nə say bilir,
Soyulanlar pulun sayır soyanın.

Qərib qardaş, düşünürsən qəribə,
Görmürsənmi kimlər kimin qudası.
İt-pişiyə isti hamam, yun gəbə
İstedad yox, pul istəyir, qadası.

İstedadsız qına qoymur qılıncın,
Axar gəzmə, axırına çıxarsan.
Dahilərin, dühaların qazancın
Əzib-büküb bir sandığa yığarsan.

İstedadlı qoşulubdur kotana,
Ağıllılar nə dərd çəkir, nə fikir.
İstedadlı şəkil çəkir kətana,
Bir ağıllı ona baxıb ev tikir.

İstedadlı sözün üstdə qocalıb,
Gün ağlayıb nə qızına, oğluna.
Bircə kəlam budağını səhv salıb
Hələ gəlmir ağıllının ağlına.

Qaz vuranlar tüklüsünü yolurlar,
Qazan boşsa ağız dadı neyləyir.
Ağılsızlar istedadlı olurlar,
Ağıllılar istedadı neyləyir.

*Bakı. 10.07.2005.*





## PAYLAMIR

Ağıllı başın açıb
Ağıl-kamal paylamır.
Alışmağa bənd olan
Gözəl vüsal paylamır.

Tər dəydisə tər üzə,
Yaylığını sər üzə.
Hər yanağa, hər üzə
Yaradan xal paylamır.

Qalxma ağır qapana,
Baxma kəhər çapana.
Hər dırnağı qopana
Dəmirçi nal paylamır.

Mini yetim bezdirən,
Mini qəm yedizdirən.
Ağzında fal gəzdirən
Falçılar fal paylamır.

Əriyib axanlara,
Çağlayıb çaxanlara.
Paltardan çıxanlara
Şahsənəm şal paylamır.

Tikə qalsa tikənə,
Meşə düşər əkənə.
Hər işdahı çəkənə
Bal tutan bal paylamır.

Hürən düşmür çətinə,
Ağzı çatır ətinə.
Heç kəs küçə itinə
Küçədə yal paylamır.

*Bakı.15.03.2006.*

## MƏN SƏNƏ SƏS VERMİŞƏM

*(Bəzi millət vəkillərinə.)*

Döşünə döyən kişi,
beşinə dəyən kişi,
özünü öyən kişi,
özündən deyən kişi,
Qara söyləmə ağa!
Mən sənə səs vermişəm
Haqqın yoxdur susmağa!
Haqqın var ölkələrin,
Haqqın var sarayların,
Haqqın var ağaların,
Haqqın var nökərlərin
Yaxasından tutasan!
Haqqın var aminləri
Biryolluq unudasan!
Boğazdan yuxarı yox,
Ürəyimin içindən
Çağlayıb mənim səsim,
Gözlərim güləndə də
Hayqırıb mənim səsim,
Ağlayıb mənim səsim,
Od olub, alov olub
Düşmənimin gözünü
Dağlayıb mənim səsim!
Onu sənə vermişəm,
Səsimin üstündə əs.
Kökəlmək üçün deyil,
Köklənmək üçündür səs.
Ətəkdə daldalanıb,
Yedəkdə gedən deyil,
Sərvətinə, pulına
Səsim cangüdən deyil.





Mən sənə səs vermədim
Öz əlim - yaxam ola,
Mən sənə səs vermişəm
Kürəyim, arxam ola.
Barmaq boyda hörmətə,
Bir alqışlıq şöhrətə
Boyun əymək cinayət,
İclaslarda əsnəmək,
Mürgüləmək cinayət.
Bahar ılıq mehilə,
Dağlar coşqun selilə
Nəğmə doğar, səs doğar.
Bir millətin səsilə
Bir dünyanı, bir ərzi
İnandırmağa nə var?
Azları, azğınları
Dayandırmağa nə var?
Danışanda sən danış
Qeyrət elçisi kimi.
Haqqı itən millətin
Millət elçisi kimi.
Elə din hər sözünlə
Gözlərimin qarası,
Ürəyimin başı ol,
Qardaş şəhərlərin yox,
Çadır düşərgəsinin
Bir ağrılı, qəzəbli
Fəxri vətəndaşı ol.
Nə minnətə boyun əy,
Nə də töhmətlə barış!
Mən sənə səs vermişəm,
Öz səsindən utansan
Mənim səsimlə danış!

***Bakı. 14 noyabr 1995.***

## APARIR

Xanım var ki, süzdürməyə
Göz aparır, qaş aparır.
Gözəl var ki, sübhə qədər
Gözlərini yaş aparır.

Sinəmdəki dağı istə,
Köklənməyim ağı üstə,
Ər oğlunu yağı üstə
Ayaq nədir, döş aparır.

Uçub neçə bostana daş,
Dəyib neçə dastana daş.
Adam var ki, dostuna daş,
Düşməninə aş aparır.

Qabağında naşı əsir,
Divarında daşı əsir.
Dinləyən var, başı əsir,
Danışın var, baş aparır.

At ölübdür deyənlər var,
At ətini yeyənlər var.
Dimdiyinə döyənlər var,
Caynağında leş aparır.

*Bakı. 28.07.2005.*





## QIFIL

Bu qara qıfılın bəxtinə bir bax,
Nə qiymətdən düşdü, nə gözümüzdən.
Qılıncla döyüşüb yadlarla, ancaq
Qıfılla qorunduq bir-birimizdən.

Qala qapıları ovladı onu.
Artdı, kilidlərin artdı sayları.
Qıfılla bağladı qoşa qolunu
Bizim eramızın ilk sarayları.

Min ildir keşikdə dayanıb fağır,
Bağlı qapılarla yaşayır onlar.
Tarixin, zamanın dağlardan ağır
Qıfıl köləliyi, qıfıl dərdi var.

Biri ağa olur, biri qul olur,
Deyənlər bir cürə cəllad idilər.
Hakim iddialı qoluzorlular
Dilə, ağıza da qıfıl gəzdilər.

Evlər çoxaldıqca Yer kürəsində,
Kilid xəstəliyi bürüdü ərzi.
Qıfıl zavodları hələ bu gün də
Silkələyə bilmir düşüncəmizi.

Qaraj qapıları sehirlənibdir,
Maşınlar açarla bağlana gərək.
İngilis kilidi dəbə minibdir
Kabinetdən tutmuş evimizədək.

Bir kimsə bacarmır bu hökmü poza,
Hər qıfıl keşikçi, hər ev bir qoruq.
Kilid vurmayanda darvazamıza
Qonşuda bir saat qərar tutmuruq.

O bizə əl tutan, o dada çatan,
Sənə də, mənə də inam, etibar.
Qiymətli, qiymətsiz kağızlar yatan
Seyfin qapısında qalıb qıfıllar.

Boğazdan asılıb yazıqlar min-min,
Kölə yaşayırlar ömür-günü də.
Sizə mənə kilidsiz qapı göstərin,
Yerindən çıxarın çərçivəni də.

*Xankəndi. 28 iyul 1984.*





**GÜN O GÜN OLSUN Kİ...**

Dağlardan da böyük dərd dağımız var,
Doğulduq, yetişdik, saraldıq tağda.
Kefimiz güləndə sağlığımız var –
Gün o gün olsun ki, biz Qarabağda...

Gerisi bundan da əzəmətlidir,
Ağlayan da olur, alqışlayan da.
Söhbətimiz yaman bərəkətlidir
Bostan daşlayanda, bağ daşlayanda.

Nəsihət çaxlayır söz nehrəsi də,
Qatır kəlmələr var qatdan çıxıbdır.
Daha Şəhidlərin xatirəsi də
Nədənsə toylarda yaddan çıxıbdır.

"Gün o gün olsun ki"...ara söhbəti,
Nə döyüş adıdır, nə də ki, hədə.
Sən demə Qarabağ bütün milləti
Dilində tost görür, əlində badə.

Neçə cür səsləndi neçə dillərdə,
Girişdi ciblərə, soxuldu gözə.
Araqarışdıran yadellilər də
"Gün o gün olsun"u gətirdi bizə.

Bu söz qayalarda yazıya deyil,
Qazanda əriyən yağa oxşayır.
"Gün o gün olsun ki" arzuya deyil,
Vallah zarafata, lağa oxşayır.

Töküldü, tükəndi qanım qılıqla,
Bu səslə, bu sözlə haraya gedək?
Gün o gün olsun ki, biz hamılıqla
"Gün o gün olsun"u olan gün edək.

***Bakı. 22.09.2001.***

## ÜMİD

Bəxt istədik, murad umduq ağ atdan,
Bilən yoxdu arzu harda qurtarır.
Çiçək var ki, qışda çıxır qar altdan,
Gül var ömrü ilk baharda qurtarır.

Bu qəribin nə qeybəti, nə qeybi,
Oxleyimiz sac üstündə daş yayır.
Yay ötüşsə, payız gəlsə nə eybi,
Qışdan sonra yenə bahar başlayır.

Közü olmur, xəzi olmur xəzəlin,
Bar budağı boşalacaq, dolacaq.
Bu gün məni dara çəkən gözəlin
Sabah gözü yollarımda qalacaq,

Xəyallarım dumanlanıb azıbdı,
Ürəksiz var ürəyimə qənimdi.
Yaradanım qismətimi yazıbdır –
Mənim üçün doğulanlar mənimdi.

Ağ atlıdır ömrümüzdən köçən il,
Min yaşında düşməyəcək sözə dən.
Bu bostanın sövulması dərd deyil,
Bu torpağı əkən olsa təzədən.

*Bakı. 25.07.2002.*





## ŞAİRLİK QOYMADI ADAM OLUM MƏN

Qadası olana qadam demirlər,
Yadlar yad kişiyə atam demirlər.
Pulu olmayana adam demirlər –
Şairlik qoymadı adam olum mən.

Gah sürü otaran, gah sürüdəyəm,
Canımla, cibimlə bir dəridəyəm.
Bazar adamından mən geridəyəm –
Şairlik qoymadı adam olum mən.

Tox adam da adam, ac da adamdı,
Hiyləgər də adam, bic də adamdı.
Dələduz da adam, gic də adamdı –
Şairlik qoymadı adam olum mən.

Yalan yalmandıqca yaman uzandı,
Biri sızlayandı, biri sızandı.
Adam var susduqca rütbə qazandı –
Şairlik qoymadı adam olum mən.

Ölü adam görüb nə günə düşdüm,
Başa düşən gündən düşgünə düşdüm.
Həmişə insanlıq eşqinə düşdüm –
Şairlik qoymadı adam olum mən.

Toxun qoltuğunda qumral quzu var,
Acın qoltuğunda çil xoruzu var.
Adam qorxa bilər, adam qorxuzar –
Şairlik qoymadı adam olum mən.

Ətimi yeyənlər dərimi soymur,
Qanımı içənlər qanımdan doymur.
Zaman məni adam yerinə qoymur –
Şairlik qoymadı adam olum mən.

Yumruq döyə bilər, döyülə bilər,
Yeri gəlsə söz də yeyilə bilər.
Adam oraq kimi əyilə bilər –
Şairlik qoymadı adam olum mən.

Gülən kişilər var gül çalmalıdır,
Dedilər əl varsa, əl çalmalıdır.
Adam yeri gəlsə alçalmalıdır –
Şairlik qoymadı adam olum mən.

Adam var, başına daşı ələyib,
Adam var, ağlına qışı bələyib.
Adamlıq budursa, yaxşı eləyib
Şairlik qoymadı adam olum mən.

*Bakı. 19.05.2006.*









# QARABAĞ OYUNU

*(Poema)*

## DÜNYANIN İŞİ

Bu əyri yollarda gözümə düz bax,
Oturub danışaq düz, qoca dünya.
Qəlbimi ovladı nəyin, bilmirəm,
Deşir ürəyimi söz, qoca dünya.

Qalxmayaq göylərin yeddi qatına,
Dəyməyək heç kimin amanatına.
Gəl minək zamanın bədöy atına,
Dünyanı mənimlə gəz, qoca dünya.

Məni parçaladın, məndən doymadın,
Neçə kaşanəmdən nişan qoymadın.
Qışdan qışa qalan buza qıymadın,
Yarama bağladın duz, qoca dünya.

Bəzən əldə qopuz müdrik ozansan,
Bəzən ağ varağı qara yazansan.
Səni tanıyandan qəbir qazansan,
Qolun ağrımasın, qaz, qoca dünya.

Elə ki, buğdadan bahadır saman,
Səsimdə haray var, dilimdə aman.
Haqqın tərəzisi əyilən zaman
Necə bükülməsin diz, qoca dünya?

Zərli zirvələrdə qartalın süzür,
Ömrümüz illəri yaxana düzür.
Sənin qapazına dözənlər dözür,
Mənim qəzəbimə döz, qoca dünya!

Biri doğulandan südün gölündə,
Biri yarananda şələ belində.
Fərman dilindədir, qələm əlində,
Necə istəyirsən yaz, qoca dünya!

Yazıldı taleyimiz
Bu torpağa, bu suya,
Yazıldı taleyimiz
Bir əbədi yuxuya.
Varımızın üstünə
Tufan kimi əsdilər,
Başımızla balışa
Sanki kəbin kəsdilər.
Sərvətimiz sağaltdı
Yadların yad dərdini,
Sevib seçdik dünyada
Düşmənin namərdini.
Başımızdakı tacı
Verdik aca, möhtaca,
Necə yol çıxarıldı,
Azərbaycan hərraca.
Sərhəd-sərhəd paylayıb,
Tikə-tikə böldülər,
Bu torpağın üstünə
Quzğuntək töküldülər.
Öz selində doğulan
Öz suyunda boğuldu,
İki pəncənin altda
İki yad yamaq oldu.
Türk oğlunun qolları
Qandallara salındı,
O tarixdən indiyə
Bu yurd əliyalındı.
Vəsiyyət qüvvədədir:
"Parçalayıb hökm elə!"
Biz isə ayılmadıq,
Ayılmadıq yüz ilə.
Gah meydanda vuruşduq,
Gah sarayda ağladıq,
Hansı hissin gücüylə
Şimala bel bağladıq?!





Qapısı görünmür hələ cənnətin,
Sürü dalda gedir, keçi qabaqda.
Vətənə xəyanət edən millətin
Yükü çiynindədir, köçü qabaqda.

Mənim zaman babam haqq aşığıdır,
Cənnət qazanana minnəti yoxdu.
Ürək gözümüzdən çox aşağıdır,
Gözümüz doydumu, qəlbimiz toxdu.

Oduna qalandıq çox imdadların,
Sözümün yüz sual, yüz nidası var.
Qapıma qonaqtək gələn yadların
Evimə sahiblik iddiası var.

Neştəri göstərmə, yaram deşilər,
Fitnə-fəsadlılar tapdı girəvə.
Dünyanın sonunu görən kişilər,
Mənə qonşu tapdı, oğluma kirvə.

Göyçə başdan-başa çənə büründü,
Zəngəzur elləri yandı odlara.
Yurdumuz beləcə tapdağa döndü,
Aran mənə qaldı, yaylaq yadlara.

Təpədən dırnağa boyandıq qana,
Dərd min yol qaynadı, qeyrət bir buğum.
Yazıldı tarixin kitablarına
Mənim düşmənimlə mənim dostluğum.

Kimlər bələd idi qarğa-quzğuna,
Yadı çölü qarsdı, özünü içi.
Dünyanı bir vədə aldı ağzına
Qitədən qitəyə erməni köçü.

Həmişə pas atmır qılıncı haqqın,
Siyrilib çıxmağa ümidi çoxmuş.
Ağalıq eşqinə düşən bu xalqın
Sən demə, əbədi vətəni yoxmuş.

Ata ulaq deyib, xalıya keçə,
Ağı, qırmızısı qara ləkədən.
Kələklə özünə yer elədikcə
Kötəklə qovulub neçə ölkədən.

İştah tor hörübdür böyük şöhrətə,
Sümüyümə düşən səslər bəllidir.
Gözü yad torpaqda olan millətə
Tarixin verdiyi dərslər bəllidir.

Dizimə süzülüb alnımın təri,
İdrakım görübdür olacaqları.
Türkləri qılincdan keçirənləri
Qarşıda gözləyib dar ağacları.

Təpiklər, yumruqlar dəydi döşümdən,
Gördüm sümüyümü oyan bıçaqdır.
Tarixi təzədən yazmıram ki, mən,
Olanı deyirəm, küsmək nahaqdır.

Olanı deyirəm...
Çox iti dişlər
Gödən eşqi ilə çox dolanıbdır.
Ürəyi böyüklər, qəlbi genişlər.
Tarixdə həmişə cəzalanıbdır.

Yaylaqlarım qonaq otağı imiş,
Çəməni rəngbərəng, çiçəyi dən-dən.
Vətənimin dağı göz dağı imiş,
Yurdumun sərvəti – özümə düşmən.





Bağlanan sazişin çoxu qələtdi,
Göylərdən başıma tökdü odları.
Mənim qılıncımı babam düzəltdi,
Mənim qandalımı yad zavodları.

Təmkinim tükənib, səbrim azalıb,
Hər bahar yolumda duman-çən oldu.
Milli mənliyimi əlimdən alıb,
Milli siyasəti öyrədən oldu.

Demədilər yalan, doğru belədir,
Gözümə soxdular cənnət bağını.
Kitablar yetmiş il təbliğ elədi
Hakimlə məhkumun qardaşlığını.

Nə başlı, nə başsız cəsarət edib
Demədi, ey millət, uyma yalana.
İnandım yurduma xəyanət edib
Kölgəmin altında daldalanana.

Torpağa müştəri - namusa şərik,
Pambıqla tıxandı qulaqlarımız.
Unutduq kimlərlə dostluq edirik,
Çıxdı yadımızdan çomaqlarımız.

Vətənkən qürbətə döndü torpaqlar,
Kimi qıza satdı, qızıla satdı.
Əlində çəkici olan qonaqlar
Mənə ev tikmədi, tələ yaratdı.

Qonşum ...yanlar idi, rəhbərim ...yanlar,
Durub gendən baxdım halal varıma.
Mənim "Vağzalı"ma qol qaldıranlar,
Yiyəlik elədi holavarıma.

Buludmu seyrəlib, selmi durulub,
Babalar kim üçün tökmüşdü qanı?
Hansı siyasətin qurbanı olub
Açdıq Qarabağın qapılarını!?

* * *

Düşməni imtahan etmək nə lazım,
Sınaqdan çıxmırsa hər dost, Qarabağ?
Biz görə bilmədik qeylü-qalları,
Mən yuxulu idim, sən məst, Qarabağ.

İndi öz dizinin qanını yala,
Ya sön, ya əbədi bir ocaq qala.
Sərhəddən, səngərdən gəlmədi bəla,
Çəpərdən adladı bu qəsd, Qarabağ.

Əlimə uzatma gül dəstəsini,
Çiçəklər sağaltmaz dərd xəstəsini.
Oxuma "Qarabağ şikəstəsi"ni,
Mənəm zəlil, mənəm şikəst, Qarabağ!

## XAİNLƏR, QATİLLƏR

Göstəriş başdan gəlir,
Siyahılar tutulur,
Hər gecə neçə yerdə
Gizli yığıncaq olur.
Murdar milçəklər kimi
Qaynaşır millətçilər,
Moskvaya yollanır
Dəyyuslar, minnətçilər.
Məkrli maraqdadır





Okeanın o tayı,
Müdaxilə birbaşa,
Müdafiə dolayı.
Çıxır öz cızığından
Zamanın təkərləri,
Avropanı dolaşır
Kremlin nökərləri.
Ulduz müharibəsinin
Dəyişir ilkin donu,
Başqa şey düşündürür
İndi Vaşinqtonu.
Dünyanı dəstəkləyib
Paytaxtların yeddisi,
Hər millətə bir gözlə
Baxır London ledisi.
Parisin gözlərində
Mələkdi ermənilər,
Senatın bostanında
Nə əkdi ermənilər?
Əl əli yuyubdur ki,
Əl dönüb üzü yuya,
Göydən düşən qismətdir
Demə demokratiya.
Silahların çaxmağı
Çəkilib, ayaqdadır,
Yenidənqurmamızın
Qurğusu qabaqdadır.

88-ci il! Fevralın 13-dür,
Qədim Xankəndimizdə qaragüruh başlanır.
Fərqi yoxdur "Miatsün" bağıranlar nəçidir,
Qatığa qara deyən çıxışlar alqışlanır.

Dönüklər qarışqatək axıb meydana dolur,
Guya ki, boş qalıbdır kimlərinsə yalağı.

Azərbaycan torpağı böhtan altda qovrulur,
Üstündə yelləndikcə "Daşnaqsütun" bayrağı.

Bəs kimdən çəkinirlər görən bizim ağalar?
Qara qıfıl vurulur haqqı söyləyən dilə.
Evində at oynadır dəymədüşər dığalar,
Nankorlar Moskvadan məsləhət alır hələ.

Bəli, toxunmaq olmaz yolunu azanlara,
Gözün üstə qaşın var, demək qanuna ziddir.
Ayağımın altında quyunu qazanlara
Kimlər arxa durdular?
Tarix özü şahiddir.

Ekranlar dostluq haqda tövsiyə dərsliyidir,
Radio dalğaları mühazirə oxuyur.
Ürəyi şahə çəkir neçə yüz min igidi,
Qəzetlər başımızda hələ corab toxuyur.

İmperiya dediyin dişləri qanlı şirdi,
Nə istəyinlə nökər, nə xoşunla azadsan.
Ağılsız millətləri aldatmaqda mahirdi,
Siyasətdən baş açdın, məhəbbətinə yadsan.

Ürək dustaq olanda ağıl zindanda zəlil,
Sən düşünüb bu yolun birini seçməlisən.
Yolların açılanda sərvətin sənin deyil,
Gözlərin açılanda gözündən keçməlisən.

Başda yox, cibindədir qiyməti ulusunun,
Ağıllının yolunda daş-kəsək dizə çıxır.
SSRİ deyilən ölkələr toplusunun
Pencəyi söküldükcə astarı üzə çıxır.

Bir gün haqq-hesabı var doğanaqla örkənin,
Təndirdə küt gedənlər acımayan kündədir.





Göyün yeddi qatında at oynadan ölkənin
Yetmiş iki milləti dilənçi kökündədir.

Çiyəmiz, qatığımız çalxandı nehrəsində,
Verdiyimiz yağlıdı, aldığımız yavandı.
Çalğıçılar əyləşib Qərb yarımkürəsində,
Sümüyünə düşsə də, düşməsə də havandı.

Kəşfiyyat quldurları qatdı ayıq başları,
Milli özünüdərkin təbliğatı güclənir.
İmperiya sarayı sökülən də, daşları
Millətlər qırğınına səngər kimi xərclənir.

Yenə qıtlıq, bahalıq, ev yoxdur yatmaq üçün,
Mafiya, tayfabazlıq, rüşvət ölkəni sarmış.
Sən demə, millətlərin başını qatmaq üçün
Hökumətin cibində Qarabağ kartı varmış.

Nümayişlər uzanır acı bağırsaq kimi,
Qanuna qəsd edənlər ürəklənir bir az da.
Qarabağı çağırıb qonşular "Arsaq" kimi
Birləşib bağırırlar yenə həmin avazda.

(Yenə tuman geyinib tula tək tumarlanan,
“Ər”ə, “sak”a söykənib yeddinci göyə çıxır.
Dilimin kölgəsində fırlanan, xumarlanan
Dilimin dilənçisi sözümə yiyə çıxır.)

Ulularım görmədi müqəddəslik qiyməti,
Zəhərli ilanların çəkməyəndə dişini.
Qonağı ev elədi babamın mərhəməti,
Vətənimə dağ çəkdi günahları kişinin.

İndi torpaq davası, indi fəryad tufanı,
Məktəb qapıları da bağlanır yavaş-yavaş.

Dizlərinin altına alıb Azərbaycanı
Vəzifə nökərləri buğlanır yavaş-yavaş.

Göylərə əl açanın əli çörəkdən çıxır,
Xainlər qoşalaşır, söz-söhbət bizdən düşür.
Səbrinə qurban olum, göylərdən Allah baxır,
Öz yurdunda, elində bir millət gözdən düşür.

Qədim türk obaları türklərdən təmizlənir,
Bir ölkənin içində nə köçhaköçdür belə?
Arxalı bir millətin canisi əzizlənir,
Arxasız bir millətin dahisi quldu hələ.

Əldə saxlamaq olmur cilovunu nifrətin,
Yazılanlar yalandır, qurulanlar tələdir.
Düşmənini özünə dost anlayan millətin
Keçmişi belə olub, gələcəyi belədir.

Sarsıntı, inamsızlıq yorub, milləti yorub,
Yuxusuzluq gözləri qızıl qana döndərir.
Qanunun qollarına Baş katib qandal vurub
Ağıl-kamal barədə müraciət göndərir.

Əlahəzrət nə dedi, nə kəşf eylədi təzə,
Qaranlıqda itirdiek aşkarlıq adlı şeyi.
Qırxıncı otaq kimi sirli qalırdı bizə
İkibaşlı qartalın ikisifət mövqeyi.

Qara niyyətlər boğur Qarabağı beşikdə,
Cənubun dadı-tamı şimalın dişindədir.
Elçilər yollardadır, söhbətlər ikilikdə,
Siyasət maşınları yenə öz işindədir.

Sədaqətmi gəzirsən aşxana tulasında,
Sənin eşqin yağlıdır, sənin qəzəbin yavan.





Babamın tikdirdiyi Əsgəran qalasında
Düşmənin gülləsinə tuş gəlir iki cavan.

Soğan kimi soyulur həqiqətin qabığı,
Qarabağ dağlarında yazım qarla başlayır.
Düşmənə verəcəyim qurbanların qabağı
Əli ilə başlayır, Bəxtiyarla başlayır.

* * *

Öldürənlər əzabkeş,
Ölənlər isə qatil,
Dünyanın qulaqları
Darı dəlir elə bil.
Yuxusundan diksinir
Neçə qaya, neçə dağ!
Qəzetlərdə "Qarabağ"!
Dalğalarda "Qarabağ"!
Dünyanı şər-şəvədə
Gəzir həqiqət kimi,
Rəsmi rütbəyə qalxır
"Qarabağ problemi".
Qeyrət yox, qətiyyət yox
Vəzifə qullarında,
Yetim quzuya döndü
Millət qəbullarında.
O, əlinə dəyənək,
Bu, ağzına su aldı.
Başçımızın dili yox,
Qulaqları açıldı.
Filan şərhciyə cavab,
Filan qəzetə təkzib.
Hamı mühazirədən,
Müzakirədən bezib.
Siyasi xəritəmiz
Barmaqlarla yaşayır,

Qatarlar, təyyarələr
Bizə burun daşıyır.
Daşdıqca dalğalanır
Azərbaycanın kini,
İmperiya "həll edir"
İki vuraq ikini.

***

Moskvadan kulək, qar,
Şaxta, sazaq, çən əsir,
Arvadın kəbinini
İki kişiyə kəsir.
Hələ də görünməyir
Bu faciənin sonu,
Yeri isti nökərlər
Alqışlayırlar onu.
Marığa yatıbdılar
Rütbə dilənçiləri,
Bakıda lövbər salır
Hökumət elçiləri.
Tanklar, toplar yeriyir
Azərbaycana tərəf,
Namərdin gülləsinə
Kim bilir, kimdir hədəf.

***

Yuyulur, təmizlənir
Kommunizmin ləkəsi,
Avropadan çəkilir
Varşava təhlükəsi.
Bir yanda ocaq sönür,
Bir yanda qazan daşır,
Avropa kül-çiçəklə
Tanklarla vidalaşır.
Meydanlar, nümayişlər





"Beynəlmiləl" oxumur,
Yerə, göyə səpilib
Millətçilik toxumu.
Öz qınına qısılır
İnqilabın arxası,
İndi əfqan xalqının
Öz əli, öz yaxası.
Sahibini gözləyir
Anbardakı medallar,
Təzə iş yeri gəzir
Zabitlər, generallar.

## STALİNƏ HÜCÜM

Qeybət eləmirəm, bəxtdən küsmürəm,
Başım buludlarda, kökүm dərində.
Mən də anlayıram, dəyişir aləm,
Siyasət xanım da saymır yerində.

Yaxşını, yamanı vaxtında tanı,
Ölkəni talayıb çapmasın şöhrət.
Heç öləndən sonra padşahlarını
Məhşər ayağına çəkər hökumət?

Söylədin eşitdim, yazdın oxudum,
Bəs sən nəçi idin o vədə, oğlan?
Yaxşılar qalmırdı - yaxşı yuxudu,
Nə əcəb sağ çıxdın qır qazanından?

Mircəfər eylədi min bir cinayət,
Gördük qələtini, gördük zorunu.
Stalin qırdırdı - ona min nəhlət,
Beriya öldürtdü, onun gorunu...

Haqsız ölənlərə bəraət verib
Haqsız öldürəni məzəmmətləmək,
Ay əmi, ay dayı, görənlər görüb,
Nə bir kilo ətdir, nə də bir dürmək.

Bilirik, milləti zəmitək biçib,
Arxiv sənədləri ətək-ətəkdi.
Qurultay, sessiya hücuma keçib
Görən Stalinə neyləyəcəkdi!?

Qayadan daş qopmaz səsləmək ilə,
Xırman boş qalanda günahkar zəmi.
Məndən əvvəlkini pisləmək ilə
Nə Sabir olacam, nə də Nizami.

İndimiz nə ilə nəfəs alır bəs,
Tarixə çevrilir ötən saatlar.
Yenə də pələng var, yenə də qəfəs,
Yenə də furqona qoşulur atlar.

Stalin sözüylə ölüm, qada, qan
Sanki bir qazanda qaynayıb, bişib.
O fərqli deyildi bu tamaşadan,
Sadəcə olaraq, səhnə dəyişib.

* * *

Barıt qoxlayırıq dağ havasından,
Qanun əllərini bizdən üzdümü?
Onda da qovulduq öz yuvamızdan,
İndi də didərgin olduq, düzdümü?

Gördük o xaini, bu xəyanəti,
Mənim sevincimə dərd könül açıb.
Onda Sibir yedi bizim milləti,
İndi Qarabağda ölüm gül açıb.





Hələ Qarabağın bəlaları çox,
Kimə buyruq olan kimə quyruqmuş.
Etdiyim kişilik üzağlığım yox,
Demə özüm üçün boyunduruqmuş.

Ana Vətənindən gen düşənlərə
Familin unutmaq bir dağ deyilmiş.
Millətin adını dəyişənlərə
Əlifba dəyişmək yasaq deyilmiş.

Yağılar düşmənin qolundan tutdu,
Yol başla, çiçəyi başına səpim.
Alışan səsimi dilim soyutdu,
Bəs yanan dilimi haraya təpim!?

Qışı qabaqdadır neçə illərin,
Kommunizmin barı tökülur kal-kal.
Çıxaq qarşısına didərginlərin,
Mən yanıb-tökülüm, sən bax, ləzzət al.

## TALE KÖÇÜ, ÖMÜR YÜKÜ

Bu nə zülümdür, qardaş,
Bu nə köçdür, ay baba?
Niyə ellər-obalar
Qaldı viran, xaraba?
Əkdiyin ağacların
Barı kimlərə qismət?
Alın yazısıdırmı
Bu zillət, bu xəyanət?
Qolların niyə əsir
Dərdin alım, ay nənə.
Nanə yarpaqlarımı

Qonub çiyinlərinə?
Üzündə şırım yeri,
Yanağın qara kömür,
Hardan-hara daşıyır
Dərdimizi bu ömür?
Balanı neyləmisən,
Gözləri yaşlı bacım?
Başına mən dolanım,
Ay başı daşlı bacım!
Əlini qoynuna qoy,
Dağlar yenə borandı,
Gözümüzün yaşından
Göyçə gölü yarandı.
Körpə gülüm, ağlama,
Bu yerlər də Vətəndi.
Torpağında toxum ək,
Nə istəsən bitəndi.
Ağlasaq gözümüzdə
Qürbət göyərəcəkdi,
Döyüşsək sinəmizdə
Qeyrət göyərəcəkdi.
Qınımızdan çıxmışıq,
Gəlin qılınca gedək,
Başınıza dolanım,
Qeyrət dalınca gedək.
Başını sinəmə qoy
Ələsgərin nəvəsi,
Dərdim ərəb oğlunun
Cavan ölən dəvəsi.
Yurduma od vurulub,
Qeyrəti qala qardaş!
Duraq çiyin-çiyinə,
Verək qol-qola, qardaş!





Beləcə başlandı ölüm-itimlər,
Gəldi Yer üzünə təzə yetimlər.
Hörüklər dən gördü vaxtsız-vədəsiz,
Qanı tökülən biz, qanlı olan biz.
Qarabağ oyunu uzanıb gedir,
Həftədə bir fərman bir gediş edir.
Ölkə qoyulubdur sanki qumara,
Sumqayıt tələyə düşür bu ara.
Pusquda dayanan kameralardan
Alınan təsvirə diksinir cahan.
Xalqa müraciət, millətə ağıl,
Oyunun dalınca uzun bir nağıl...

Bu şivən, hay-haray qanuni bir iş,
Bu qurban deyilmiş, bu qazanc imiş.
Alçaqlar alçağı arayıb tapır,
Mərdlərin gördüyü qıfıllı qapı.
Özümüz susuruq, özgə dinməyir,
Doğmalar yatanda yad diksinməyir.
Düşmənim tərəfdə sıxdı cərgələr,
Arxamca sürünür qara kölgələr.

Dumanı soyuqdur, qarları qalın,
Dağları aşıram ayağıyalın.
Babamın gözündən qan damır yola,
Nənəmin dizləri tablamır yola.
Dərdimiz beləcə dərd üstə gəldi,
Ölənin kəfəni bumbuz xəzəldi.
Ata şimşək olub çaxmaq istəyir,
Ana bu dünyanı boğmaq istəyir.
Ürəyi dayanan körpəni hələ
Ağlayan gözlər də gətirmir ələ.
Soldurub bakirə bənövşələri,
Bağırır siyasət fahişələri.

"Zavallı millətin" istedadı var,
Onlar sızlamaqda ustalaşıblar.
Ağladı kürsülər, ağladı zallar,
Bizlərə tanışdır bu ərzi-hallar.
Bir millət gen düşür öz ulusundan,
Könül toxluğundan, göz dolusundan.
Batır neçə-neçə igidin qanı,
Təkləyib boğurlar Azərbaycanı,

Dəllallar tamahla buxovlananda,
Yadlar nə çalırsa ona oynayır.
Yurdun ayağına daş bağlananda
Vətənin köksündə tufan qaynayır.

Qarabağ mahalı öz yuxusundan
Ayılıb qalxıbdır aranlı, dağlı.
Qəzəblər siyrilib çıxaraq qından
Ədalət axtarır əliçıraqlı.

## QARABAĞDA TUFAN

Ağıl küt olanda dərdim eşilər,
Gücü birlikdədir sağ ilə solun.
Nüfuzu, hörməti olan kişilər
Minnətçi düşürlər:
– Təmkinli olun!

Qandala salınır xalqın qolları
Mənzili görünmür uzanan yolun.
Artır yurdumuzun ağsaqqalları,
Deyim həminkidir:
– Təmkinli olun!





Kotanın altında əkilən millət
Zəncirlə bağlamaz qeyrətin, qolun.
Torpağı altından çəkilən millət
Məsləhət öyrədir:
– Təmkinli olun!

Təmkin – danışmamaq, təmkin – dinməmək,
Lal olmaq, kar olmaq, kor olmaq – təmkin.
Sinəmdə ürəkdir, çiynimdə mələk,
Mənim torpağımda hövsələ əkin.

Biz ki danışmayıb daddıq toxmağı,
Sular lal apardı susan kəsləri.
Ay Allah, bu xalqa nə verib axı
Hövsələ kitabı, təmkin dərsləri?!

Qatarlar, maşınlar nələr daşıyır,
Təpədən dırnağa düşmən silahlı.
Biri yad ölkədə bəytək yaşayır,
Biri öz yurdunda suçlu, günahlı.

Sayıb saatları, sayıb günləri,
Elimiz toy görmür, əlimiz xına.
Qovub Qarabağdan didərginləri
Xəzəltək səpirik Azərbaycana.

Bu dərdlə tanışdır əvvəlki nəsil,
Mənim qan yaddaşım eşidir məni.
Tarixin təkrarı vecimə deyil,
Səhvlərin təkrarı üşüdür məni.

Niyə kürəyimi oyan qəməni
Öpüb gözüm üstə saxlamağım var?
Mən Əsli donunda sevdim düşməni,
İndi Kərəm kimi ağlamağım var.

Bu qar hardan yağdı yağışdan qabaq,
Qələmə, varağa söz küskün gəlir.
Sərkərdən, səngərin hanı, Qarabağ,
Görmürsən üstünə qara gün gəlir?

Şuşanın yolları dumandı, sisdi,
Ağdam dirigözlü açır səhəri.
Laçının üstünə qara yel əsdi,
Hər evin kişisi - Vətən əsgəri.

Qonşuluq qurtarıb, kişilik köçüb,
Yolu-yolağanı kəsibdir düşmən.
Yağı hara gəldi hücuma keçib,
Topxana meşəsi qopur yerindən.

Təmənna umanlar möhlət istədi,
Qapımın ağzında yüz qan, yüz qada.
Şuşa, Çıdır düzü tikan üstədi,
Bakı Xəzər kimi dalğalanmada.

Nə cəza görünür, nə də cərimə,
Erməni quldurlar meydan sulayır.
Bir şüşə arağa, bir qarın yemə
Sovet əsgərləri quyruq bulayır.

***

Gəzir bədənimdə qəlpələr hələ,
Mən necə döyüşdüm, gəl boynuna al.
Yurdunu qorudum öz sinəm ilə,
Yadından çıxartma, cənab general!

Bəs hardan qazandım qəzəbi, kini,
Çörəyimmi itir, qanımmı batır?
Oğul ordumuzun neçə yüz mini
Sənin torpağında uyuyub yatır.





Bir dəli sel idim, gur ümman idim,
Burub qollarımı qandala salma.
Mən sənin yurdunda qəhrəman idim,
Sən mənim yurdumda fərari olma.

Qəribə oyundur bu minnət, hədə,
Daha aldanmıram özüm özümə.
Silahı yanına endirəndə də
Nifrətin tuşlanır mənim gözümə.

Qanıma susayıb düşmən silahı,
Əlim ətəkdədir, ölüm lülədə.
Çəkib tərəzidə bütün günahı
Moskva bərabər bölür hələ də.

Sahibi o idi yağlı-yavanın,
Mütilər, kölələr yatdı döşünə.
Qızıl dediyimiz bir Moskvanın
Paxırı misini çəkib dişinə.

Deyən kommunizmin çit paltarları
Yaydan möhlət umur, payızdan imdad.
"Bütün ölkələrin proletarları,
birləşin!" papağı qəzetlərə yad.

Qəzeti qınama yaxandan tutsa,
(Qanun gəlməyirsə sənin tüstünə.)
Sahibi əlini kimə tuşutsa,
Köpəyi düşəcək onun üstünə.

Nədir öləziyən, nədir közərən?
Təşnə qovurduqca çeşmə quruyur?
Vətəni qurd-quşa tapşırıb görən
Azərbaycan oğlu kimi qoruyur?

Fərmanlar bürüyüb bütün aləmi,
Kağızdan kövrəkdir qərarın canı.
Kürsülər beş ildir yalquzaq kimi
Didir kişilərin şalvarlarını.

Nə yaman mərəzə tutulub bəşər,
Ağadan haqq umur, nökərindən pay.
Uçur göy üzündə nümayəndələr -
Dünən iclas idi, sabah qurultay.

Quru nəsihətlər atını çapır,
Dən kimi üyünür xalq kirkirədə.
Gah ərzaq qıtlığı "həllini tapır",
Gah milli məsələ müzakirədə.

Tətil dalğaları dönübdür selə,
Sular bulananda kükrəyib axar.
Yumruqlar birləşir:
- Ac qarın ilə
Nə meşə qırılar, nə kömür çıxar.

Aşkarlıq fəth edir yüz sirrimizi,
Gələn qəhqəh çəkir, gedən ağlayır.
Əsir yarpaq kimi hakimin dizi,
Ölkə silkələnir, ölkə laxlayır.

Bir xalq ki xeyrini şərdə tapıbdır
Niyə qınayırsan, axı, kirvəni?
Daşnaq partiyası yerdə tapıbdır,
Göydə axtardığı bu girəvəni.

***

Xocalı - xalqımın yaddaş kitabı,
Torpağı qızıldır, imzası qədim.
Tarixlər gizlədi neçə cavabı,
Tarix yazanları asıb-kəsmədim.





Qoynunda yaşadı tufanın, selin,
Özü cavanlaşdı, yaşı qocaldı.
Üstü bir kənd kimi tanınan elin
Altı şəhər kimi sehirli qaldı.

Gücü nəyə çatır bu gün gileyin,
Soyuq insanların yüzünü gördü.
Bu oba yüz illər biganəliyin
Qışını yaşadı, buzunu gördü.

Ürəkdə min kitab sözü var onun;
Güllə sinəsini qovurmadımı?
Erməni dığası iki yol onun
Külünü göylərə sovurmadımı?

Qoyub vəzifəyə neçə nadanı,
Altından torpağı çəkib aldılar.
Dolanım başına, alım qadanı,
Başında nə qədər müsibətin var.

Dili qabar oldu, ciyəri kabab,
Kotanla əkildi qəbir daşları.
Əlindən dad döydük, işindən əzab
Vətənə biganə vətəndaşların.

Bu xəncər itidir, bu yara dərin,
Kimlər ağac altda kölgələndilər?
Yaxşı oğulların, başbilənlərin
Yalanla, böhtanla ləkələndilər.

Şaxtada üşüdü ilk baharların,
(Çiçəyin sazaqda yaşaması var.)
Dişində qan qalan canavarların
Təzə qurbanlara susaması var.

Haqq-salam, duz-çörək harada qaldı?
Beləmi yoluxar qonşu qonşunu?
Günlərin bir günü üstünü aldı
"Qardaş" deyənlərin quldur qoşunu.

Xocalı çökmədi o gün diz üstdə,
Əyilib bükülmək yaşamaq deyil.
Gül ilə gələnin yeri göz üstə,
Gülləynən gələnin başı sağ deyil.

...Adı dastan olub dolaşır dildə,
Söhbət elədikcə söz sözü çəkir.
Torpağı qeyrətdən yoğrulan eldə
Bacım sudan gəlir, atam yer əkir.

(Haray çəkən qələm, qaralan varaq
Nə pendir, nə qatıq mayası imiş.
Mənim saydığımı fələk pozaraq
Sən demə təzədən sayası imiş.)

## QARANLIQ SİYASƏT

Mənim siyasətlə işim yox idi,
Küləklər ayırdı kösövü, külü.
Bir ulduz nuruyla gecəm tox idi,
Siyasət qaranlıq, fərman bürkülü,

Dedilər danışma, dedilər qanma,
Odla su dil tapsa gedərlər yola.
Dünya bir uzünə fırlanır, amma
Siyasət maşını qabağa, dala.

Çəmən nə gündədir, çən nə gündədir,
Kimlər kimin xətti-xalına baxır.





Qarabağ cadugər düyünündədir,
Hökumət siyasət falına baxır.

Ağrımaq mirasdır bədəndən bizə,
Qışda boyunduruq öküzü görmür.
Siyasət dədəlik edəndən bizə
Elə qaranlıqdır, göz gözü görmür.

Göyləri əlçatmaz, suları dərin,
Üzləri dönübdür nazirlərin də.
Dünən başımıza and içənlərin
Başımız baş deyil nəzərlərində.

Çeşnimiz toxunub hansı hanada,
Hələ ümidimiz bəlkə-bəlkəyə.
Amma it doğulur heyvanxanada,
Ekran muştuluqçu düşür ölkəyə.

Bu kibrit əritmir bu kölgələri,
Siyasət gizlədib bizdən üzünü.
O taylı - bu taylı Qərb ölkələri
Təriflə bağlayır haqqın gözünü.

Yuxuya verməyin yalandan bizi,
Bilirik kef kimin, dərd kimlərindi.
Sərhədlər çəpərə alandan bizi
Siyasət xalqın yox, hakimlərindi.

Gördük bu oyunun çox zadlarını,
Kimin fitfasına kim qulaq asır.
Moskva erməni bədzadlarını
Çiyninə qaldırır, bağrına basır.

Zindanın, silahın var, nə vecimə
Ağlın itisə də, ürəyin kaldı.

Ay siyasət xanım, məndən incimə,
Sənə yıxılanın qanı halaldı.

Gərək ki, dünyanın xoruz banıdır,
Oyansın yuxudan vicdan nəğməsi.
Axı, bu tökülən xalqın qanıdır,
Bəs hanı xalqların xalq məhkəməsi?!

İmperiya bayquşu
Volski cənabları,
Süfrəsində bütün gün
Qarabağ şərabları.
Bir də ...
Qoy özü desin
Kimlə oturub durur,
Xudmani kef evində
Kimlərlə badə vurur.
Müsibətin, bəlanın
Kökləri dərindədir,
Sülh qatarında gələn
Bu meyxana nökəri
Torpaq alverindədir.
Kimin əlinə baxır?
Kimin qoynunda yatır?
Qılıncla qorunanı
Qəpik-quruşa satır.
Hökmü, səlahiyyəti,
Moskva elçisidir,
Maaşlı, məvacibli
Şimal dilənçisidir.
Nə eşidir naləmi,
Nə eşidir sədamı,
Bakıya baş əyməyir
Baş katibin adamı.





Cıdır yarışındadır
Mənim köhlən atımla,
Qurultayda söz alır
Deputat mandatımla.
Gah yalayır Silvanı,
Gah öpür Balayanı,
Erməni lobbisinin
Bu quyruq bulayanı.

Mən nələri görmədim
Qışdan payıza qədər,
Qızarmış gözlərimlə
Oyaq qaldım gecələr.
Anam məni doğmuşdu
Vətən qorumaq üçün,
Ələ qələm almışdım
Yurda yarımaq üçün.
Qaçqınlıq, didərginlik
Gəlməmişdi ağlıma,
Qeyrət acı deyildim,
Arxam yox idi amma.
Qələmimlə anamın
Uman haqqı birləşir,
Üzüm yurddan dönübsə,
Nə oğulam, nə şair...

Bir gün yer tapılmadı
Avtobuslarda bizə,
Bir gün çörək dükanı
Bağlandı üzümüzə.
Bir gün işdən qovulduq,
Bir gün fitə basıldıq.
Dar ağacından qabaq
Ağlımızdan asıldıq.

Xocalıdan əliboş
Geri dönəndə qoşun
Evimizə od yağdı,
Başımıza qurğuşun.
Neçə evin alovu
Dirənib ərşə, Allah!
Ətimizi doğrayıb
Taxırlar şişə, Allah!
Yağılar yağmalayır
Evimizi bu gecə,
Türklərə divan tutmaq
Bir ləzzət, bir əyləncə.
Xankəndi qan ağlayır,
Gorun çatlasın, ey Xan!
Gör kimin əlindədir
Bu torpaq, bu xaniman!
Meşələrə dağılır
Nəvə-nəticələrin,
Kor başçının gözündən
Doğur kor gecələrin.

18 sentyabr!
Başına qara bağla!
Əhdü-peyman bağladı
Qanımız Qarabağla!

Dadı dəyişibdir yağın, balın da,
Nə əvvəlki bağ var, nə əvvəlki bar.
Padşahlar görüşür qapı dalında,
Bilmirsən nə qoyub, nə axtarırlar.

Dünyanı yandırır dərdin nəfəsi,
Gəlibdir kim kimin ibadətinə?
Daralıb kiçilir haqqın qəfəsi,
Ağlayır cahanın səadətinə.





Bəxtimiz od ilə su arasında,
Güclülər gücsüzü dişinə vurub.
Görmüşük həmişə boysırasında
Siyasət millətdən qabaqda durub.

Dinə sığınanlar yaman çoxalıb,
Qapazdan qorxanlar qabaqdan çıxır.
Dünyanın ipini əlinə alıb
Vatikan dəridən, qabıqdan çıxır.

Titrəyən dodağın, soyuq bənizin
Nə eşqi, nə andı, nə həyəcanı?
Mehi Avropaya əsən dənizin
Tufanı tutubdur Azərbaycanı.

Açarı tapılmır qıfılbəndlərin,
Şalvarda qayış yox, tumanlarda bağ.
Alovlu nitqlərin, buz kəməndlərin
Atom nüvəsində Dağlıq Qarabağ.

Yoxuşlar başlayır dərədən sonra,
Qalıb yaddaşımda Hələb nöqtəsi.
Beyrutdan, Kabildən, Bəsrədən sonra
Qarabaq – dünyanın əsəb nöqtəsi.

Zərgərdə üzük yox hər barmaq üçün,
Kişi az yalvarar, az minnət edər.
Donuzu darıdan çıxarmaq üçün
Bir zoğal çubuğu kifayət edər.

Özümüz yozmuruq öz yuxumuzu,
Qiyamət günü var qiymətsiz başın.
Dürtüb ciblərinə var-yoxumuzu,
Üzünə baxırıq "böyük qardaş"ın.

Görən hara dönüb zamanın çarxı,
Tor qorxağa düşüb, zor cürətliyə.
Qeyrət deyə-deyə gedirik axı,
Sonu görünməyən biqeyrətliyə.

## BAKI TƏLATÜMÜ, BAKI AĞRISI

Keçici azarla ölkə yoluxdu,
Keçdiyim cığırlar yaman daşlıdır.
Hökumətin qəti addımı yoxdur,
Partiyanın sözü ikibaşlıdır.

Toxumu riyadan, mayası kindən
Fərman peyda olur, qanun yozulur.
Qovub bir milləti öz vətənindən
Millətçilik haqda qərar yazılır.

Həyası görünməz söyülən yerin,
Bilmirsən kim kimin tulası olub.
Sovetlər Birliyi deyilən yerin
Azərbaycan ögey balası olub.

Üçrəng bayraqlarım göyə ucalır,
Xəyal cövlan edir, fikir tərəqqi.
Haçandır Bakını qoynuna alır,
Azadlıq meydanı, Azadlıq eşqi.

Bakı dalğalanır, Bakı qaynayır,
Gözlərdə qəzəb var, baxışlarda kin.
Qəzetlər mətnini aləmə yayır
Gündə neçə-neçə müraciətin.

Bu birlik Azadlıq fəlsəfəsidir,
Sümüyə, iliyə dirənib xəncər.





Dedik xalqın səsi haqqın səsidir,
Viçdanı susanlar eşitmədilər.

Bu nifrət, bu qarğış kimi tutası?
Torpaq haray çəkir, haray qoparır.
Yağışın nuru var, selin xatası,
Külək gətirəni tufan aparır.

Qan görən analar dözmür zülümə,
Ağaran, yolunan onun saçıdır.
Qan qana calanır, ölüm ölümə,
Partiya, hökumət tamaşaçıdır.

Qarğaya qır-qırı kəs demədilər,
Uzandı dimdiyi, dəyişdi donu.
Çölündə qalana bəs demədilər,
İçindən bölürlər Odlar Yurdunu.

Çinayətin sayı artır gunbəgün,
Nə cənnət qalıbdır, nə can qalıbdır.
Erməni nazına oynamaq üçün
Ordu Qarabağda lövbər salıbdır.

Ölkədə o qədər qəlbi kürsü var,
Kəhərə "toş" deyir, yüyənə "çatı".
Tabe olanlara şallaq dərsi var,
Tabe olmayana qanun sovqatı.

Cəllad fərman güdür qan içmək üçün,
Neçə hoqqa görüb nə qədər masa.
Kəşfiyyat yuz ölçur bir biçmək üçün,
Qafqaz əldən çıxar Bakı susmasa.

Tələ quranların dəyişmir halı,
Çən hopub, lil çökub ürəklərinə.

"Qadağan saatı" adlı qandalı
Taxırlar Bakının biləklərinə.

Söhbəti tutmayır kor ilə karın,
Həqiqət çoxunun döşünə yatmır.
Qadına uduzan bir hökmdarın
Qandalla udması ağlıma batmır.

* * *

Yaman mehir salıb qolum qoynuma,
Haqqım nərə çəkib səsin çıxartmır.
Qanunlar minibdir mənim boynuma,
Dərdimi deməyə hüququm çatmır.

Vəzifələr şirin, rütbələr yüksək,
Dilim haralarda kilidlənibmiş.
Demə filan bəndə istinad etsək,
Mənim etirazım qadağan imiş.

Dərdimlə öpüşdüm dodaq-dodağa,
Andım olmasaydı eşqim susardı.
Yolumda nə qədər qoruq-qadağa,
Hara tərpənirəm qəlbi hasardı.

Vətən alovlanır, yurdu od tutub,
Nə ümid verən var, nə bir qaşıq su.
Düşmənim boynumda elə oturub
Enmək istəyi yox, düşmək arzusu.

Açılıb yolların bəndi-bərəsi,
Ayağım yadların sirr tələsində.
Dağlıq Qarabağın müzakirəsi
Senatın gündəlik məsələsində.

Toyumun üstünü alanda zülmət
Sazım nə üstündə köklənəsidir?





İçində birliyi olmayan millət
Yetim quzu kimi təklənəsidir.

Mənim yaddaşımda min bir ağrı var,
Biz buyur söylədik, yadlar buyurdu.
Xalqının çibini soyan ağalar
Çəkilib xalqından kənarda durdu.

Qəzetlərdə çıxdı "ürək sözləri",
Ekrana qondular...
Yalvarış, hədə.
Torpaqdan pay olmaz, deyib özləri
Torpaqdan qaçırmış demə get-gedə.

Torpaq satıb sərvət qazananların
Yadlar şurundadır, biz şəltəsində.
Əlləri hərraca uzananların
Balaları hüquq fakultəsində.

Hakimə qul kimi əyilənlərin
Quyruğu tavada bişməli imiş.
Sözü Baş katibə deyilənlərin
Gözü Qarabağa düşməli imiş.

Düşmənə çatmadıq bu yeriş ilə,
Bizi hədələdi nə qədər barmaq.
"Ocaq"lar qalandı göstəriş ilə,
Qələt qırıldatdı Parisdə qonaq.

Tətillər, mitinqlər milləti yordu,
Yolunu axtardı xalq qurtuluşun.
Bakının üstünü kəsdirib ordu,
Mərkəzin əmrini gözləyir qoşun.

* * *

Ruhuma çilənən yaz yağışıdır,
Ürək göynəyəndə göz xəsis deyil.
Həmişə qabağı görmək yaxşıdır,
Bəzən də arxaya baxmaq pis deyil.

...88 gəldi, qulağı səsdə,
Hardan biləydik ki, nə zillət gəlir.
İl təhvil olmuşdu əjdaha üstdə,
Elə bilirdik ki, fəzilət gəlir.

Çınqılda töküldü atın nalları,
Kirpiyimiz ilə çox od götürdük.
Biz 88-də koramalları
Əjdahaya meydan oxuyan gördük.

89 gəldi!
Bu ilan ili
Tökdü zəhərini iliyimizə.
Dikəldi quyruğu, uzandı dili,
Köhnə bayatılar oxudu bizə.

İlk bahar gəlməyir hər dağ seliylə,
İl var ki, şahların mat ili imiş.
90-ı gözlədik, Şərqin diliylə
Murad ili imiş, at ili imiş.

Vüsalı axtarıb həsrəti tapdım,
Köksümdə od gördüm, gözlərimdə yaş.
Mən dəli kəhəri dördnala çapdım,
Arzum muradına yetmədi, qardaş.

Kədərim badəmi qaldırıb içəm?
Seygahın dalınca şikəstə gəlir.
Haradan biləydim mənim faciəm
Kəhər üstdə gəlir, at üstdə gəlir...





## ŞƏHİD YAĞIŞI

Tarixlər yadımda yalançı qalıb,
Yalandan başıma gül ələdilər.
Bakını gizlində zindana salıb,
Bakını aşkarda güllələdilər.

Canlı yaddaşıyam qara günlərin,
Yayın tülyanıyam, qışın ayazı.
Evini Vətəndən çox sevənlərin
Qanlı əlindədir xalqın boğazı.

Mənim harayım var sənin səsində,
Ellər, başımızı yaman qatdılar.
Qanımı vəzifə tərəzisində
Düşmən gülləsinə onlar satdılar.

Ağrı yaman əydi düz kişiləri,
Günahkar tapmadıq şilləməyə.
Gədələr gətirtdi bu vəhşiləri
Uşağı, qadını güllələməyə.

Tarixim qan ilə yazıldı burda,
Gəldi qaranlıqda qanlı ordular.
O gecə Şəhidlər gəlirdi yurda,
Şəhid anaları doğulurdular.

Əsgər təpiyini görən Bakının
Gözü düşməmişdi qızıla, zərə.
Varını Sovetə verən Bakının
Haqqı haram olsun hərbi nazirə.

Odlar yurduna od ələyənlərin
Çırağının nuru qeybə çəkilsin!
Bakını qanına bələyənlərin
Bakıdan aldığı gözündən gəlsin!

Çalınan tütəyin soyu qamışdı,
(Ağız yava idi, ağıl küt idi.)
Qılıncı bir az da ovxarlanmışdı,
Baş katibin adı prezident idi.

Gücünü göstərdi öz ölkəsinə,
Tankı guruldadı, gülləsi güldü.
Canını "qardaş"a vermişdi, yenə
"Qardaş"ın əliylə qanı töküldü.

Bu necə gün, necə aqibət idi,
Kimə inandılar, kimi qırdılar?
İlahi, o gecə müsibət idi,
Bakını tanklarla şumlayırdılar.

Azərbaycan yalqız, Bakı tək idi,
Ölüm yuxusumu ötür Vətəndən?
Bakını susdurmaq o demək idi,
Kəsib ayırdılar başı bədəndən.

Ölkə başçısının nəfəsi tiryək,
Ordu başçısında ölüm nəşəsi.
Neçə xəyanətin üstünü örtmək
Bu "şanlı" ölkənin işi-peşəsi.

Su başdan bulanıb, başdan lillənib,
Dözüm yox bu yolun düyünlərinə.
"Böyük Ermənistan" xülyası minib
Kreml kişinin çiyinlərinə.

Harada itirdi qanun qeyrəti?
Şər şəri axtarır, bəd bədi indi.
Erməni lobbisi – Sovet dövləti,
Bilmirsən kim kimə tabedi indi.





Siyasət samanın altına sızıb,
Zillətə, zülmətə yol çəkdiribdir.
Elə bil fərmanı İrəvan yazıb
Sonra Moskvaya qol çəkdiribdir.

Tarixin yadında 45-ci il;
Hamıya bəllidir uduzan, udan.
Bu gecə Bakını qoşunlar deyil,
Bəlkə də, Berlinin ahıdır tutan.

Kiminə dərd çatmır, kiminə hava,
Dilin uzunu var, kürəyin eni.
Qanlı əli ilə taxdı Moskva
Bakının döşünə güllə ordeni.

* * *

Qalıb millətimiz ayaqlar altda,
Vətənə ögeylik bəsdi Vətəndə.
Qara fikirlərə büründük deyə,
Yüz dəfə qara yel əsdi Vətəndə.

Həmişə hökm edən bilmə fələkdi,
Güllə yağışları min qəbir əkdi.
Xəlili zindanlar qoynuna çəkdi,
Zeynəbin nəğməsi susdu Vətəndə.

Sazım inlədikcə quzum mələsin,
Bağrı xallı olur yazın laləsi.
Ana ahı ilə bacı naləsi
İçimdə göynəyən səsdi Vətəndə.

Nə çəmən sevindi, nə çay çağladı,
Bir ölkə başına qara bağladı.
Elçilər dayandı, toylar ağladı,
"Vaqzalı" səsini kəsdi Vətəndə.

Gözdəki niskili üzümə vurma,
Ürəyim cızdıqdır, bağrım qovurma.
Mənə əl uzadıb halımı sorma,
Yay deyil, yaz deyil, yasdı Vətəndə.

***

Bu bağlar qara bağlar,
Çiçəyi qara bağlar.
Bakı qan ağlayanda
Qarabağ qara bağlar.

Bu qanı qafil dedi,
Güllələr qəfil dedi.
Ustad şairin biri
"Ağla, qərənfil" dedi.

Gah qapı döyən oldum,
Gah qəlbə dəyən oldum.
Dərd məni üstələdi,
Bayatı deyən oldum.

Arxım var, suyum çatmır,
Yarım var, toyum çatmır.
Ağlayan anaların
Ahına boyum çatmır.

Od aldı orman verən,
Dərd verdi dərman verən.
Şəhid bacılarına
Cavab ver, fərman verən!





## DÜŞÜNCƏLƏR

Şər kişi yalanı hodağa qoşdu,
Haqqın, ədalətin dərsi yox idi.
Ekran güllələnib efir susmuşdu,
Səsimi eşidən kürsü yox idi.

Oyun uzandıqça ağıl kütləşir,
Mən tactək qalacam, sən tacir kimi.
Vətəndən Vətənə qovulan şair
Yazıb yaradırmış mühacir kimi.

Elə vətəndaş var, ürəyi daşdı,
Dərdim çoxaldıqca dərim soyuldu.
Evimi yağılar yağmalamışdı,
Təknəmi dağıdan dostlarım oldu.

Dilimi dişimə bağlamamışam,
Elə ki ürəyim gəlib lərzəyə.
Mən giley edəndə ağlamamışam,
Nəğmə yollamışam mübarizəyə.

Siyrilən qəzəbim tanımır qını,
Sinəm mərmi olub, baxışım şimşək.
Eşqim bu Vətəni basıb bağrına
Ağı deməyəcək, cəngi deyəcək.

Ədalət canini alqışlayırsa,
Haqqın arxasınca dağ aşmaq əbəs.
Qanun quldurları bağışlayırsa,
Ölkədə qanundan danışmaq əbəs.

Xeyir gullələnir şərin yerinə,
Hakimlər tanımır namərdi, mərdi.
Həyat axarına düşmür gorünə
Ölkənin yamağı, millətin dərdi.

Yaşayış, güzəran çıxıbdır yaddan,
Matəmlər əyibdir qəddi-qaməti.
Ütulüb, bozarıb kirpiklər oddan,
Müsibət oyatmır iki milləti.

Hələ pərvanədir bəşər haqq üçün,
Nəçilər nələri nəmərə verdi.
Pullu qul zümrəsi yaratmaq üçün
Qarabağ oyunu səmərə verdi.

## SONU GÖRÜNMƏYƏN MÜHARİBƏ

Başında nələr var bizim məkanın,
Budaq uzdədirsə, kök dərindədir,
Barmağa toxunan bircə tikanın
Ağrısı bədənin hər yerindədir.

Ağrıyır Vətənin daşı, qayası,
Ağrıyır yolların intizar gözü.
Dunyadan, cahandan deyilik asi,
Amma siz gorməyin gördüyumüzu.

İşdən baş açmayır vallah fələk də,
Pıçhapıç erməni qulağındadır.
Vartanın, Petrosun əli ətəkdə,
Burnu Azərbaycan torpağındadır.

Xalqa nə bəxş etdi xalq vəkilləri?
Bulud ayazımır, duman çəkilmir.
Deputat ordusu illərdən bəri
Bir daşı quyudan çıxara bilmir.

Küt gedir təndirdə hələ kündələr,
Qanla suvarılır qara qayalar.





Bir ucdan qırılır bədbəxt bəndələr,
Bir ucdan doğulur komissiyalar.

Dəniz təlatüdə, göl səksəkədə,
Seçir qasırğalar acları, toxu.
Dünyanı lərzəyə salan ölkədə
Göy üzü təhlükə, yer üzü qorxu.

Badələr hallandı hansı yalaqdan?
Hansı buludlardan yağdı yağışlar?
Yurduma od vurub demə qıraqdan
Qarabağ oduna isinənlər var.

Fərmanlar fırlanmır bu cazibədə,
Qanunlar qanaddan qopan ləlkdi.
Sonu görünməyən müharibədə
Kim kimin yanında diligödəkdi?

Nə itirdik, bilmirəm,
Nə qazandıq, özün de.
Mən yalan yazmamışam,
Sən də sözün düzün de.
Matəm bayrağı gəzdi
Yurdumda hər obanı,
Taleyimdə göyərdi
Şəhidlər Xiyabanı.
İnandıq hakimlərin
Çəlpəşik sözlərinə,
Boylandıq dünyamızın
Gələn gündüzlərinə.
Bir ucuz bazar açdı
Diplomat baqqalları,
Hələ qoynuna alıb
Meşələr çaqqalları.

Gözlərimdən torpağa
Şeh yox, Şəhidlər damır,
Qurbanlar Bəxtiyarla,
Salatınla qurtarmır.
Bu bazarda işləmir
Nə xahiş, nə şikayət,
Qarabağ oyununun
Muəllifi siyasət.
Uduzmağım düşmənin
Toyudur, düyünüdür.
Ulu millətimizin
Olum – ölüm günüdür!

Bu dastan göz yaşı yox,
Nə də qaranlıq yuxu,
Bu dastan bir millətin
Düyunlənən yumruğu!
Bizi dişinə vurdu
Yadın əri, dişisi,
Qaydamı yaradaçaq
Evimdə yad kişisi?
Hələ Qızıl qayanın
Dözümü dizimdədir,
Dərd sinəmdə doğulub,
Dərmanı özümdədir.
Əlimdəki qılınçla
Öz köksümü yarmışam,
Yolları selimlə yox,
Qanımla suvarmışam!
Yuxusundan oyadın
Sərkərdəni, alayı!
Azərbaycan himnidir
Qarabağın harayı!

*Bakı. Dekabr 1990 – may 1991.*











# ŞƏHİD ŞƏHƏR

*(Poema)*

***1992-ci il fevral ayının 26-na keçən gecə erməni və keçmiş Sovet İttifaqı hərbi birləşmələrinin bəşər tarixində misli görunməmiş cinayətinə, şərəfsizlərin xəyanətinə qurban gedən Xocalı Şəhidlərinə, butun Xocalı zavallılarına, eləcə də həmin gecə 88 yaşında qətlə yetirilən atama həsr edirəm.***

**Muəllif.**

## AĞRILI BAŞ, YAŞ DƏSMAL

Bir almanı soymağa bıçaq gəzən deyiləm,
Almaz kimi qaya ver, dizlərimi soy deyim.
Qızımın qollarına düşən hava toy deyil,
Nənəmin sümüyünə hava çal ki, toy deyim.

İstəmirəm süfrədə könül versin bal yağa,
İstəyirəm çəməndə şeh çilənsin balağa.
Dodağımı söykəyib diş göynədən bulağa
Bir yol sinədolusu oxay deyim, oy deyim.

Bir lələk düşsə yerə durnanın sırasından,
Bir Qarabağ göyərər gözümün qarasından.
Çınqılı dolaşanda daşların arasından
Bir utançaq bənövşə boy göstərsin, boy deyim.

Cibimdə dəsmalım yox, bu yurdun ipəyindən,
Başımda çələngim yox çəmənin çiçəyindən.
Qürbətinə qarışan bu Vətənin nəyindən
Mən özüm doymuşam ki, bir sənə də doy deyim?

Səsim dalğa-dalğadı, sözüm axın-axındı,
Gözlərim qonşunuzdur, ünüm sənə yaxındı.
Ələkdə olanımdan ürəyim arxayındı,
Ürəkdə olanımdan yavaş-yavaş qoy deyim.

* * *

Dostlarım mənə baxıb, məni məndə görməyib,
Əlim çatmır özümə, illər yaman ötüşür.
Yaddaşımı hər yazan ürəyimə girməyib,
Ürəyimi oxumaq sənin boynuna düşür.

Mən susanda vulkanam, od tutanda kömürəm,
Əllərimi üşüdən səsimi üşütməyib.
Bir kabab süfrəsində sənə sağlıq demirəm,
Sənə dediklərimi kitab da eşitməyib.

Haqsız tutaşa bilməz haqqın yiyəsi ilə,
İtkimi axtarıram mən göz didəsi kimi.
Öz sinəmi yararaq həsrət tiyəsi ilə
Söz cənginə çıxıram söz sərkərdəsi kimi.

Nə Şəhidlər günahkar, nə fevralın geçəsi,
Ağalar, gizlətməyin çiblərdə çinayəti.
Soyqırımı adlanan Xocalı façiəsi
Düşünülmüş oyunun şüurlu xəyanəti.

* * *

Dünyanın baharı qışdan seçilmir,
Çillədə yağan qar nə bitirəcək?
Bu dərdi bir ölkə daşıya bilmir,
Bir qələm çiyninə nə götürəcək?

Sözü saqqız kimi çeynədi çənəm,
Bəzən yanağımda qəh-qəh çəkdi yaş.
Dedim, Qarabağda boşalar sinəm,
Hövsələm çatmadı o günə, qardaş.





Nifrət - gözümdə od, əlimdə əsa,
Bu torpağın üzü nə soyuq imiş.
Vətənə xəyanət edənlər varsa,
Əhdinə dönüklük muştuluq imiş.

Mənim ürəyimdə söz yumaq-yumaq,
Əsəri, kəsəri nifrətimdədir.
Ağrımaz başıma dəsmal bağlamaq
Ağlım kəsən gündən qismətimdədir.

Baxtımın taxtında bahar rəngi yox,
Gördüyüm, yazdığım qış xəyalımdır.
Başıma bağlanan söz çələngi yox,
Ağrıyan başımda yaş dəsmalımdır.

Gözlədim, üç alma göydən düşmədi,
Cəhənnəm dünyanın nağılı – cənnət.
Millətin çölündə düşmən heç nədi,
Millətin içində xain – xəyanət.

Əsgəri, şairi rütbəyə qulsa,
Xalq qəbirə sığar, qəlibə sığar.
Vətənin çörəyi uçuz tutulsa,
Torpağın qiyməti bir cibə sığar.

Xoflular xilqəti tərkinə almır,
Qıratın yalında həmzələr süzür.
Gül var, Xocalıdan sonra açılmır,
Əl var, Xocalının qanında üzür.

* * *

Dünyada neçə cür fəsil görmüşəm,
Payız dost olanda, qış xain çıxır.
Dizimə dolaşan kötük, dərd deyil,
Divara hördüyüm daş xain çıxır.

Üzümə güləndə dedim mələkdi,
Əli yağlı idi, başıma çəkdi.
Bəzən kotan olub sinəmi əkdi,
Toxum çüçərəndə xış xain çıxır.

Balıqçı balıqla tilovundadır,
Sərvət sorağında, pul ovundadır.
Şəkəri, zəhəri plovundadır,
Ayranı turş olur, aş xain çıxır.

Adım da, ağlım da axır cərgədə,
Görən nə qazandım mən bu ölkədə?
Əhdinə inanmaq olar bəlkə də,
Gözlər gülən zaman yaş xain çıxır.

Min kərə soyuldu haqqın dərisi,
Haldan-hala düşdü halva hərisi.
Bəzən bu millətə tamah pərisi,
Bəzən bu millətə baş xain çıxır.

## QARABAĞ - QARA BEŞİK...

Bu dağların quçağında
Bir İmarət-Qərvənd vardı –
oda yandı,
Bu torpağın sinəsində
Tuğ adında bir kənd vardı –
alovlandı.
Bu dünyanın möçüzəsi
Şüşə deyil, meşə deyil,
Meşəliydi,
At üstündə doğulmuşdu,
Ölən günü
yas evinin məşəliydi.





Bu ölkənin Cəmillisi
Düşmənlərə çəpər idi,
ayaqlandı,
Kərkicahan bu Vətənin
canı idi,
Kürəyindən bıçaqlandı.
Qadını da kişi olan
Quşçuların dizi altdan
yer sürüşdü,
Bu millətin yarısına
Məktəb olan Malıbəyli
perik düşdü.
Hər kişisi bir ər olan
Qaradağlı obasına
dağ çəkildi.
Bədən öldü, çəsəd itdi,
Torpaq yandı, səma yandı,
yurd əkildi.

* * *

Bu kəndlərin igidləri,
Ərənləri gör neçə il
Şirin yuxu yatmadılar.
Bizə namus qorudular,
Bizə torpaq qorudular,
Bu Vətəni satmadılar.
Silahları – qeyrət idi,
Allahları – qeyrət idi.
Belə olum möcüzədir,
Belə ölüm heyrət idi.
Nökərləri biçən oraq
Ağaları oyatmadı.
Qarabağda qopan tufan
Saraylarda boy atmadı.

Başsağlığı...
hədə-qorxu...
müraciət...
Yalançı vəd...
Zaman - qatil,
düşmən - güclü,
Yol - qaranlıq,
biz - nabələd...
Qarakənddən üzü bəri
Neçə yolçu izdən dönüb,
Qara-qara qutuların
Qara üzü bizdən dönüb.
Qarabağın qulağında
Qara yeşik sırğalanır,
Qarabağda Qarqar boyu
Qara beşik yırğalanır.
Elə bil ki, nə ölən biz,
Nə dağılan yurdumuzdu.
Boynu qılın, qarnı qulun
Çölü barıt, içi buzdu.
Bizi bizdən ayrı salan
Çəpərlərmiş, barılarmış,
Xəncər kimi qalxmayanlar
Pencər kimi qırılarmış.

* * *

Dağlar imanımız, dinimiz idi,
Sözdən don biçərdik gəlinə, qıza.
Vətənin bələyi nənnimiz idi,
Torpağı çevrildi məzarımıza.

Almazı, qızılı bezə bələdik,
Gözəli, göyçəyi asdıq saçından.
Vətən torpağına namus söylədik,
Endirdik namusu öz taxt-taçından.





Elə ki, çiynimdə gördüm əlini,
Sən Kür səsi idin, mən Araz səsi.
Meydanlar tutmadı insan selini
Tüğyan eləyəndə etiraz səsi.

Ellər birləşəndə el yaslarında
Harınlar güvəndi bəlkə-bəlkəyə.
Mötəbər partiya iclaslarında
Qarabağ adladı qabaq cərgəyə.

Ağılsız papaqlar başını açdı,
Hərə bu torpağın bir xanı idi.
Bakının yarası sağalmamışdı,
Qarabağ inşaat meydanı idi.

Şimalda qumara qoyulmuşların
Cənubda yiyəsi bu korlar oldu.
Cibi doluların, başıboşların
Məsləhət verəni viktorlar oldu.

Nuş etdiyi meydir, yediyi qaymaq,
Yumruğu, təpiyi qanun kimidir.
Başı boş olanın cibini soymaq
Dələduz əlində su içimidir.

Körük basıldıqça qızardı kürə,
Cəhənnəm odunda gülürdü cənnət.
Torpağı qoruya bilməyənlərə
Əkinçi dərsini keçdi siyasət.

Aldanıb kələyə, inanıb küyə,
Səpirdi sərvətin, tökürdü qanın.
Qara əllər ilə "Qarabağ" deyə,
Axırdı pulları Azərbaycanın.

Səhər adı ilə doğulan zülmət,
Qövr etdi qəlbimin yaralarında.
Bir bayraq altında birləşdi millət –
Milyonçu, dilənçi sıralarında.

Ağam namərd idi, ağıllım axmaq,
Tavada əridi gözümün yağı.
Kəndə "şəhər" deyib baş tumarlamaq
Demə tiryək imiş ölümqabağı.

Daşıb tökülürdü səbrin kasası,
Gəmimiz üzürdü buz qitəsində.
Neçə xəyanətin xeyir-duası
Yazıldı Təşkilat Komitəsində.

* * *

Söküb çəkirdilər kəndin yolunu,
Bina tikirdilər, biri bir şəhər.
Millətin, Vətənin çörəkpulunu
Daşa xərclədirdi başçı kişilər.

Beləcə dağladı özümü – içim,
Canım, bir şüşədə div canı idi.
Vətəndən Vətənə gələnlər üçün
Xocalı Azadlıq meydanı idi.

Toyun səhərisi gələn nağara
Kimlərə gərəkdir, axı, a sarsaq?
Qədim Zəngibasar elindən bura
Qaçqınlar cəm oldu neçə il qabaq.

Onları başından eləyən də siz,
Zavallı soydaşda günah görən də.
Millətin adından mələyən də siz,
Millətin gözünə kül üfürən də.





Millət xəzəl kimi verilib yelə,
Ölkə nəyi sökür, nəyi quraçaq?
Axı Xankəndindən qovulan elə,
Xocalı nə təhər dayaq duraçaq?

Hər yağış sındırmır qışın buzunu,
Hər çəmən sızlamır gül-çiçək üçün.
Düşmənə düşmənəm ömrüm uzunu,
Özümə düşmənəm gələçək üçün.

Daşan nifrətim var, coşan qanım var,
İçimdə mələyən haqqın səsidir.
Özümün özümə ittihamım var –
Bu, nağıl dərsi yox, tarix dərsidir!

## EŞİDİLMƏYƏN HARAY

–Oyan, Vətən!
Oyan, başçı!
Sellər, sular bəndi aşır!
Bir qara yel addım-addım
Xocalıya yaxınlaşır! -
Haray çəkən qızın dili
Kabab kimi bişə bilər,
Oyan, qardaş, tariximə
Qara ləkə düşə bilər!
Yox, qardaşım oyanmadı,
Tərpətmədi toplar onu.
Meydanlarda lövbər salıb,
Mitinqlərin marafonu.
Vəzifələr bayraq olub
Əldən-ələ keçir yenə,
Tamah həris kişilərin

Çökür meydan sinəsinə.
Maşınların müştərisi
Adam tapır, maya qoyur,
Bazarların qanunudur –
Pulun varsa, durma, buyur.
Bir Vətənin o tərəfi,
Nalə çəkir, od ağlayır.
Bir Vətənin bu tərəfi,
Yağlı gödən soraqlayır.
Saçlarını yolan nənə
Fəlakətdən xəbər verir.
Susan ölkə, yatan qoşun
Xəyanətdən xəbər verir.

* * *

Qarabağ bir qara düyünə düşüb,
Dağ boyda kişilər nə günə düşüb?!
Gündə müraciət, gündə teleqram,
Ürpənmir, tərpənmir Bakı bir qram.
Bağlı qapılardan görünmür işıq,
Dünyanın işləri qarmaqarışıq.
Ətək sahibidir ələkçilər də,
Kömək əli yoxdur köməkçilərdə.
Deyir başdan aşır başçının işi,
Gah Elman yalvarır, gah Atakişi.

* * *

Neçə gündür Gülşənin
Dilləri qabar olub,
Danışmaqdan üzülüb,
Yalvarmaqdan yorulub:
- Alo! Alo! Qərargah!
Təcili Bakını al!
Orda oturanları
Düz-əməlli başa sal!





Denən ki, Xocalıya
Mərmi dolusu yağır,
Güllə yağışı yağır!
Ay qardaş, qadan alım,
Çağır, Bakını çağır!
Soyuq səsli qərargah,
Danışır asta-asta,
Danışır usta-usta:
- Dözün, bacım, bilirlər,
Bir möhlət verin bizə,
Hər şeyi açıq-aydın
Deyə bilmirik sizə.
Qüvvəmiz var, xanım qız,
Azca dad döy, haray çək.
Xocalının başından
Bir tük əskilməyəcək.
- Ay qardaş, a qara daş!
Qırdı bizi qəlpələr,
Yemək yox, yanacaq yox,
Əldən gedir körpələr.
Çıxarın bu alovdan
Gəlinləri, qızları,
Oyadın yuxusundan
Şərəfsiz qansızları!
Vertolyot göndərin
Qoçaların dalınca,
Başa düş, başımızı
Söykəmişik qılınca!

Soyuqluq, biganəlik
İşləyibdir iliyə,
Göylərdən başımıza
Kül ələyə-ələyə
Dözür başçı kişlər,

Dözür rəhbər kişilər.
Ölüm ilə üzbəüz
Dayanıbdır bir şəhər.

Əsgərandan o üzdə
Nə yurd var, nə Vətən var.
Amma qəlbi kürsüdə
Bülbül kimi ötən var.
Gah barmaq silkələnir,
Gah yırğalanır buxaq,
Sanki buzun içində,
Çiçək açıb Qarabağ.
Kabab iyinə gəlib
Neçə bədən, neçə can,
Azərbaycan torpağı
Bakıdan Ağdamacan.
Tamahları şöhrətə,
Əlləri pula hürür,
Qeyrəti lüt kişilər
Hər şeyi çılpaq görür.
Qapısının çölündə
Silahlı keşikçilər,
Ürəyinin içində
Nələr gizlənib, nələr...
Sinəmi nişan alır
Zamanın təkərləri,
Ağa kimi fırlanır,
Kəşfiyyat nökərləri.
Sınaqdan, imtahandan
Üzüqara çıxan var,
Bu dağın o üzündə
Üzübəri baxan var.

* * *





Çölünə güvənib içini yeyən,
Gəlin köçən qızın donu biçilib.
Xocalı nağılı qurtarıb deyən,
Alması yeyilib, suyu içilib.

Torpağı torbada Daştəpələrin,
Məndən ötən daşın tarixi belə.
Yuxusu perikən bu körpələrin
Ahından qorxmayan kef çəkir hələ.

Hara boylanırsan, hara, zavallı?
Əsgəran qalası yıxılıb daha.
Cıdır atlarının tökülüb nalı,
Səninki qalıbdır böyük Allaha.

Dərdi mininindir, dadı beşinin,
Qanımız hopubdur yad iliyinə.
"Səbrli ol" üçün gələn kişinin
Şübhə eləyirəm kişiliyinə.

Diri candan çıxır dərilər indi,
Kimdən nə umursan bu quru səsdə?
Vətən dediyiniz bərilər indi
Didir bir-birini kabinet üstə.

Ay qız, xəzan vurub çiçəklərini,
Sızla ürəyincə, ağla doyunca.
Düşmənə çevirib kürəklərini
Sən də üzübəri boylanma, qoça!

* * *

Uzaq ellər, yaxın ellər,
Ürəyimi yaxan ellər,
Üzü bəri baxan ellər,
Üzü bəri boylanmayın!

Özü danıb, özü dönüb,
İlqarından yüzü dönüb.
Bərilərin üzü dönüb –
Üzü bəri boylanmayın!

Gəl qabaqda, vur daldadı,
Qürubunda qürbət dadı,
Bərilərdə "qaçqın" adı –
Üzü bəri boylanmayın!

Şaxtasınız, alovsunuz,
Qarqarsınız, Murovsunuz,
Qurbansınız, girovsunuz –
Üzü bəri boylanmayın!

Qanadını gərən yoxsa,
Sizə haray verən yoxsa,
Burdan sizi görən yoxsa,
Üzü bəri boylanmayın!

Solan güllər, viran bağlar,
Gözüm gülməz, ahım ağlar.
Üzübəri baxan dağlar,
Üzü bəri boylanmayın!

Evlər də veribdir kürək-kürəyə,
Ocaq küləklərdən odu borc alır.
Səsini bayraqtək qaldırıb göyə
Həyəçan təbili çalır Xocalı.

* * *

– Diqqət!
Diqqət!
Hamıya!
Qeyrəti olanlara!
Bəylərə, xanımlara!





Aclara, kalanlara!
Bir Vətən qızı kimi
Bunu demək borcumdur,
Xocalının üstünə
Bu hücum, son hüçumdur!

Meydanda baş-başadır
Qara millət, qara gün.
Dizimdə nişanı var
Yolumdakı kötüyün.
Közü közə canlanır
Xarici siqaretin,
Tükü də ürpənməyir
Bu isti kabinetin.
Mən arxayın, o xain,
Gözləyir mükafatı.
Sözüm yoxdur kişiyə –
Pozmayır təlimatı.
Yalan vəd, yalan ümid,
Bir də ərkyana hədə...
Bu dünyanın nəfəsi
Boğulur bir hücrədə.
Gözümüzə görünən
Ya quyruq, ya kölgədir,
Ortada fırlananlar
Qızla gələn yengədir.
- Son göstəriş verilib,
Başlayırıq bu saat.
Evindən-eşiyindən
Tərpənməsin camaat.
Lazım olsa, özüm də
Şirin candan keçəcəm.
Amma səhər çayımı
Xocalıda içəcəm.

* * *

O axşam sevincdən ağlayan oldu,
Qapıya qurbanlıq bağlayan oldu.
O axşam təbəssüm qondu üzlərə,
Yaman inandılar yalan sözlərə.
Açıldı, uzandı göylərə qollar,
Kefə yox, nəzirə ad oldu pullar.
Dedilər, çox şeyi dərk etmirik biz,
Yəqin tədbir töküb hökumətimiz.
(Tədbiri olsaydı əzəldən əlbət,
Qanda boğulmazdı yazıq məmləkət!)
Kimə pay düşdüsə yağlı tərəfdən,
Çəkildi döyüşdən, qaçdı hədəfdən.
Vəzifə verənin öz umacağı,
Vəzifə alanın öz qanacağı.
Fərmanlar əsdikcə aç külək kimi.
Artdı generallar göbələk kimi.
(Daşaltı dərsini alan yaramaz
Çiyninə general rütbəsi taxmaz!)
Nazirlər gah dağda, gah arandadır,
Dil dən üyütməkdə, əl Qurandadır.
Qəzəbi yavandır quru səsin də,
Kişilər rabitə əlaqəsində.

Gərdəyi bağlandı yüz toyun, Allah!
Qurbandan doymadı bu oyun, Allah!
Qazanın içində qaynayırıq biz,
Kimin çaldığına oynayırıq biz?!
Düşmən tapdağına çevrilib torpaq,
Vətəndə vəzifə qırğınına bax!
Sərvəti qoynuna sığmayan ölkə
Satılan başlardan ucuzdur bəlkə.





* * *

Yenə o yanıqlı səs,
Sızlayır qırıq-qırıq.
Bu sonuncu nidadır,
Bu sonuncu hıçqırıq.
– Düşmənlər Xocalını
Yandırıb – çatır daha!
Biz öldük Vətən üçün,
Siz batdınız günaha!
Ağdam!
Bakı!
Qərargah!
Bu xəyanətdir, anla!
Şuşa, denən sən niyə,
Susdun cəbbəxananla?
Qoşun qeybə çəkildi,
Tanklar, toplar qəhətə.
Sərkərdə nə deyəcək
Sabah yazıq millətə?
Bu müsibət Vətəni,
Kölgə kimi izləyir.
Bu gecə bizə olan
Sabah sizi gözləyir!
Əlvida, ey xainlər!
Əlvida, başkəsənlər!
Sərvət üçün, pul üçün
Yarpaq kimi əsənlər!

* * *

Əhdi gümana döndər,
Yolu dumana döndər.
Üzüm yox üzə çıxam,
Üzünü yana döndər.

Ağ deyib ağladılar,
Qolumu bağladılar,
Dağların nə günahı,
Dağları dağladılar.

Dərə sızlar, döş mələr,
Daşda qaldı eşmələr.
Bu üzdə gözümdədir
O üzdəki çeşmələr.

Qar altında qara bağ,
Qara kəmər, qara bağ.
Cənnət bolluğudurmu
"Yaddan çıxa Qarbağ?"

Gah balım heçə çıxıb,
Gah xalım keçə çıxıb.
Dan yeri heç ağarmır,
Talvara beçə çıxıb.

## 366...

İşıq vuruşurdu qaranlıq ilə,
Rəngi qızarmışdı soyuq suların.
366 - çörəyim ilə
Boy atan alçaqdır, piy basan qarın.

Bir anın içində neçə sarayın
Daşı dilə gəlib mələdi, qardaş!
Qanımı torpağa tökən alayın
Soyadı, ünvanı belədir, qardaş!

Kəsib bağlamışdı ölüm hər yanı,
Zabitlər öpürdü mey kuzəsini.





Vatikan oxuyub xeyir-duanı,
Moskva vermişdi icazəsini.

Nədi diri-diri dərimi soyan?!
Yol gəzdik çənnətə, behiştə kəsə.
İlahi, özünə umaç ovmayan
Gəldi bizim üçün əriştə kəsə.

Loğman həbi kimi uddum səsimi,
Şimaldan, cənubdan gəldi elçilər.
Düşmənin üzünə çəp baxan kimi
Aldı üstümüzü vasitəçilər.

Adını bilmirik neçə tələnin,
Zindanı siyasət, poladı baha.
Qovluqlarda gedən müqavilənin
"Barı" başımıza tökülür daha.

Qalıb tarix boyu neçə qan yerdə,
Dünya dönəsidir, dağılasıdır.
Əsrin xəyanəti yazılan yerdə
Əsrin faciəsi doğulasıdır.

Qanıma işləyən qanun deyilmiş,
Gördük qılıncını yüz Beriyanın.
Erməni sonuncu silahı imiş
Ölümlə çarpışan imperiyanın.

Qan dedi, qanmadı xeyirin, şərin,
Ona can-can demək, vallah, əbəsdir.
Özünə vurulan ermənilərin
Özünə vurduğu ölüncə bəsdir.

O ki vətən deyib çörəkli yerə,
Ulaq yoldaşına nə dağ, nə aran.

Külü tökülübdür küləkli yerə,
Beləcə yaradıb onu Yaradan.

Dünyanın hegemon saraylarında
Özü nökər olub, qızı beh olub.
Tarixin düyünlü dolaylarında
Özü öz hüsnünə müştəbeh olub.

Boğazı xaltalı, dizləri nallı,
İçi görünməyir onun çölündə.
Filosof, qəhrəman, müdrik, zavallı...
Adından qabaqkı sözdü dilində.

Qapına gələndə yalaq yalayar,
Döysən qapısını...
O günü görmə.
Sənə tabedirsə, quyruq bulayar,
Səndən güclüdürsə, üzünü görmə.

Təpik də ataraq yediklərinə
Yağı eləyirlər yağlı tavanı.
Böyük Puşkinlərin dediklərinə
Mənim söylədiyim cümlə davamı

"Erməni azarı" deyirlər buna,
Qınamaq nə lazım sənətçiləri?
"Böyük Ermənistan" viruslarına
Tutulub erməni millətçiləri.

* * *

Xocalı dəryada batan gəmidir,
Divarlar uçulub tökülür lay-lay.
Qapıda quduran köpək kimidir,
Ya nanəcib qonaq, ya muzdlu alay.





Bəşər görməmişdi bu qovhaqovu,
Danışa bilmirəm, dilim də əsir.
Bülənd olub ərşə qalxdı alovu,
Sağlar girov düşdü, Şəhidlər əsir.

Döşümdə atlanan oddu, buz deyil,
Yaram göynəyəndə yada qısılmır.
Bir igid öləndə yurd sonsuz deyil,
Bir şəhər öləndə Vətən basılmır.

366!
Açması çətin,
Beynimdə nə qədər fikir doğulur.
366!
Uzun illərin
Gecəsi, gündüzü bu sayda olur.

Bu kimin sitəmi, bu kimin nəfi,
Necə açacaqdır dilim ilgəyi?
Fizika elminin kürədə kəşfi –
366 – ölüm ilgəyi.

Onun çaqqal nəfsi, canavar dişi
Didib parçaladı bu torpaqları.
Günlərin sayını elə dəyişin
İllərin xətrinə dəyməsin barı.

Güllənin yarası sal daşlarımda,
Üstünə dönəcək dizimə dəyən.
Mənim itgin düşən soydaşlarım da
366 nəfərdir deyən.

Rüşvət gözlərini bağladı yaman,
Öldü yüz körpəmiz, soldu yüz çiçək.

Sən mənim atama əl qaldırmısan,
Mən sənin atana borcluyam demək.

Tarixin yaşı yox, zamanın sonu,
Bir vaxt torpağını qorudum axı.
Qalxıb qurşağına dünyanın donu,
Daha kefə baxır şeytan barmağı.

Haqqa arxalanıb yolu millətin,
Sinəmiz, sazımız sazaqda deyil.
Azadlıq qazanan ulu millətin
İntiqam nidası uzaqda deyil.

Bu alçaq şöhrəti, uçuz ad-sanı
Yurdumda yazdınız tariximizə.
416-nın "günahlarını"
366 qaytardı bizə...

* * *

Neçə xəyanəti yığdıq kisəyə,
Bəzən elçi düşdük kəndə-kəsəyə.
Heç cür sığışmayır müqayisəyə
366, 416!?

Sulara qərq olan gəmi görəsən,
Şəhərin yerində zəmi görəsən,
Kimi düşündürmür, kimi görəsən
366, 416!?

Tarixin yaddaşı, yadıdır bəlkə,
Ayranla qaymağın dadıdır bəlkə.
Ağ ilə qaranın adıdır bəlkə
366 - 416!





Qarabağ, süfrəmdə qara şanıdır,
Qələm, söz mülkünün cüt qoşanıdır.
Gədəynən kişinin döş nişanıdır
366 - 416!

Suyunu, selini dağlar tanıyır,
Köksümdə doğulur yeddinci qitə.
416-nı Berlin tanıyır,
366. Xocalı. Nöqtə.

## QANÇIÇƏYİ

Dörd il on dörd gün idi
Sinəsi səngər idi,
Ərəni ər oğludu,
Qadını əsgər idi.
Natiqlərsə kürsüdə
Hay-küylə söz alırdı.
Nə qan-qada azalır,
Nə qırğın sozalırdı.
Səbir kasası dolur
Yaz buludları kimi,
Başçılar dəyişirdi
Fayton atları kimi.
Biganəlik də həmin,
Xəyanət də əzəlki.
Heç kəs öz yaxasını,
Ələ verməyir gəl ki.
Çoxu marıqda yatıb,
İçində şeytan, kələk.
Yəqin ki, beş-üç günə
Vəzifə bölünəcək.
Yaddır qıyya, hıçqırıq

Xainin xislətinə.
Dağlarsa nalə çəkir,
Əsrin xəyanətinə.

* * *

Gecənin bir yarısı
Şəhər üzük qaşıtək
Mühasirəyə düşür.
Yanıb-sönən mərmilər
Başımızın üstündən
"Qəh-qəh" ilə ötüşür.
Ərşə qalxır evlərin
Sütun-sütun alovu,
Xocalı – düşmənlərə,
Mürgü döyən millətin
Könüllü bir girovu.
Sumqayıtda, Bakıda
Nərə çəkən tankların
Yolu buradan keçir.
Ölüm saçan güllələr
Biçir, milləti biçir.
Evimiz-eşiyimiz
Görünmür gözümüzə.
Qışın küləkli qarı
Çırpılır üzümüzə.
Baş götürüb qaçırıq
Meşələrə, çöllərə.
Dırmanırıq daşlara,
Atılırıq sellərə.
Beyni qan olanların
Damarında qan durur,
Ayağı yalınların
Ayağını don vurur.
Gecə yarı...





Qaranlıq...
Sanki yağan qar deyil,
Qışın buz ələyindən
Ölüm yağır elə bil.
Sıx cərgələr sozalır,
Seyrəkləşən meşətək,
Ömürlər çiliklənib
Ovxarlanır şüşətək.
Dan yeri ağaranda
Əsgəran qalasının
Bürcü görünür bizə,
Bir ümid işartısı
Çilənir üzümüzə.
Dayaq durur qocaya,
Əl yetirir uşağa
Kimin dizi var idi,
Kimin qolu var idi.
Qaladan gündoğana
Həyat yolu var idi.

Həyat yolu...
Sən demə
Zirehli maşınların
Burda imiş güdüyü,
Qanımız lalə kimi
Boyadı yüz gədiyi.
Qanımız xına olub
Kolların, ağacların
Budaqlarında qaldı,
Qarçiçəyindən qabaq
Qançiçəyi açıldı.

Haqqın üzü dönübdür,
Çən gedir, duman gəlir,

Tarix arxada qalır,
Qarşıdan zaman gəlir.
Cəbhənin bu başında
Millət oddan adlayır,
Cəbhənin o başında
Qoyun qurdla otlayır.

* * *

Günahkar axtarır dünyada güman,
Qəhər də qeyrətdir, milləti boğur.
Torpağı qürbətə çevrilən zaman
Vətən Şəhid doğur, Qəhrəman doğur.

Dərdə bax, dəyənək sənə dəyəndə
Məni nə qəm boğdu, dərd üstələdi.
Başçılar başını yerə əyəndə
Bəstəkar ürəyim qəm bəstələdi.

Meşələr su deyib quruyur hələ,
Gördüyün göylərin neçə sirri var.
Gizli sazişləri qoruyur hələ,
Qaranlıq otaqlar, soyuq divarlar.

Müharibə oyun, tale oyunçaq,
Onlardır sinəmi göynədən belə.
Kimə satılıbdır bu qara torpaq,
Kim üçün qorunur bu Vətən belə?

"Vətən", "Vətən" deyib ağlayanların
Eşqi badə kimi bir anlıq imiş.
Qapıya qurbanlıq bağlayanların
Sən demə, özləri qurbanlıq imiş.

Neçəsi döyüşdü qeyrət atında,
Sinəm tara dəyir, mizrabım simə.





Oğullar var imiş papaq altında,
Oğullar doğubmuş analar demə.

* * *

Baş aça bilmirik neçə kələfdən,
Uduzdum, özümə aldanan vədə.
Xocalı od tutdu neçə tərəfdən,
Yüz qat artıq idi düşmən qüvvədə.

Tanklar nərildəyib gəldiyi zaman,
Torpağı qovurub daşı didirdi.
Mənim göylərimə bələdçi olan
Hava limanı da əldən gedirdi.

Xülyadır, qələtdir güzəşt kökündən,
Nə ağ bəxti görür, nə qara günü.
Millət rütbə üstə çəkişən gündən,
Sübut eləmişdi gücsüzlüyünü.

Olumla-ölümdə əl yox, ətək yox,
Saçım qayçıdadır, üzüm ülgücdə.
Ərlər əldən gedir, hələ kömək yox,
Tükənir güllə də, tükənir güc də.

– Yandırın! –
Əmr edir çavan komendant,
Dispetçer otağı oda bürünür.
Kəmərdə qumbara, əldə avtomat
Əlifin dəstəsi geri sürünür.

– Yaxşı ki, sənədlər keçmədi ələ!
İndi özünüzü qoruyun görək!
Qadınlar, uşaqlar dağılıb çölə,
Onların dadına yetişək gərək.

Haray da, əmr də nərəyə döndü,
Köməyə yetdilər, dada çatdılar.
İgidllər neçə yol geriyə döndü,
Körpə şəlləndilər, qoldan tutdular.

Nalə zəlzələtək titrədir yeri,
Qarın üstdən yağan isti yağışdı.
Namərdin atdırı gülllədən biri,
Əlifin köksünü parçalamışdı.

Bir daha dönmədi Elçin geriyə,
Bu kimə hədədir, kimdən qisasdı?
Düşmənin əlinə keçməsin deyə,
Tofiq qumbaranı bağrına basdı.

Arazın gülləsi yayınmadı heç,
Aldı öz qanını ölümdən qabaq.
Ay Aqil, çox çəkməz belə köçhaköç,
Adın da, ruhun da yad olunacaq.

Rəşidi, Elxanı kirkirə yedi,
Qaçaya yetmədi Mürşüdün əli.
Yanaşı uyuyan məzarlar deyir
Əkbərin, Talehin taleyi bəlli.

Şöhrət belə öldü, Əbülfət belə,
Burda David dağı, Hidayət dağı.
Tahiri itirən bir ana ilə
Üz-üzə dayana bilmirəm axı.

Novruz da, Rövşən də canım, əzizim,
Allah, zülümə bax, Allah, zillətə!
İxtiyar yaşında Museyib, Əzim
Tablaya bilmədi bu müsibətə.





Bəxtimə yazılan o qara gündən
Analar bükülüb yolu izləyir.
Üç lay divar kimi igidlərindən
Hələ Kamran kişi soraq gözləyir.

Vaqif geri dönmür, Ələsgər gəlmir,
Əsəbim bənd olub dərdin zilinə.
Zahidin anası inana bilmir
Hələ də oğlunun son mənzilinə.

Alışdı sinəsi, əsdi dodağı,
Ölümündən qabaq kükrədi kini.
Savalan, gözümdə Savalan dağı,
Leş-leşə söykədi neçə düşməni.

Sonuncu zəng kimi səs qulağında,
Qazi olmaq üçün tək vuruşurdu.
Bu ölən şəhərin qaranlığında
Xəqani düşməndən dərs soruşurdu.

Sənə qurban olum, ay Nənəş xala,
Dilim oxumadı, ahım kişnədi.
Əli silah tutan igid yanında
Əli qələm tutan şair heç nədi.

Məni qamçıladı baxışın biri,
Dərdi gözlərimin qarasındadır.
Beşinin adını çəkdim, min biri
Vallah, ürəyimin arasındadır.

Qolum sizi gəzir, quçağım sizi,
Meyvəm kal töküldü budaqlarımdan.
Məhəmməd dayının atalar sözü
Sırğatək asılıb qulaqlarımdan.

## ƏSİRLƏR, GİROVLAR

Oyunun içində nə qədər pərdə,
Cilov gəmirən var, qızıl qıran da.
Hanı baş komandan, hanı sərkərdə?
Şuşa dağda susub, Ağdam aranda.

Gülü qorumayan kül dərəsidir,
Haqqa fırlanırdı zamanın çarxı.
Neçə gün qabağın xatirəsidir -
Xankəndi qınına girmişdi axı.

Toplar vulkan içib od ələyirdi,
Bülövlər öpmüşdü ülgücümüzü.
Mərmilər şəhəri silkələyirdi,
Göstərə bilirdik öz güçümüzü.

Halını, dərdini soran da susub,
Can deyən çox gəda can qəssabıdır.
Bu gün dağ da susub, aran da susub,
Xocalı, qumarda cibhesabıdır.

Başım yastıqdadır, mən səksəkədə,
Qaz qıya diksinmir, nərim nərəyə.
Xəbər qıtlığını çəkən ölkə də
Düşüb Xocalıtək mühasirəyə.

Yalanlar, kələklər girir yüz dona,
Sandıqda saxlanır neçə-neçə sirr.
Ekran xəbər yayır Azərbaycana:
– Şəhər quldurlardan təmizlənibdir!

Qulaqlarda pambıq, ağızlarda daş,
Kimə üz çevirim, kimə əl açım?
Yalandır, yalandır, inanma, qardaş,
İnanma bu sözə, inanma, bacım!





Saray başçıları "buyur-buyur"da,
Özləri qatıblar öz başlarını.
Kafərlər od vurub bu ulu yurda
Xəzəltək səpirlər şabaşlarını.

Köpək kötək görsə quyruq bulayır,
Kimin yalağında kim tazı idi!
O gecə quldurlar meydan sulayır,
Xocalı özünə tamarzı idi.

Dəli olacaqdır açılan səhər,
Pozacaq ömründən gündüzü, günü.
Qürbət taleyinə qovuşan şəhər
Necə yaşayacaq əsir ömrünü?

Qürbət ölkələrə Vətən deyilmir,
Yurdun içindədir yurdun sorağı.
Bu sular erməni dilini bilmir,
Bu torpaq atamla danışıb axı?!

Necə tablayacaq türbə yaddaşım,
Necə barışacaq qaya qardaşım?
Bulaqlar zəhərə dönməyəcəkmi,
Günəş göylərində sönməyəcəkmi?
Qızların bulağı qız görməyəcək,
Səmənim baharda göyərməyəcək.
Söyüdlər saçını yolacaq sabah,
Daşların da gözü dolacaq sabah.
Yumağa dönəcək haça təpələr,
Gülləri biçəcək qara qəlpələr.
Yağı gülüstanda ötməsin deyə,
Namusu əlindən getməsin deyə
Zəhər içəcəkdir neçə gəlin, qız.
Yağır, başımıza yağır daşımız,

Yağır başımıza ağır daşımız.
Burda yad toxumu cücərəcəksə,
Yağı bağçamızdan bar dərəcəksə,
Düşmən qazanımı yalayacaqsa,
Mənim ocağımı qalayacaqsa,
Yurda oğul olmaz məndən, ilahi!
Olumdan keçəndə ölümü göndər,
Özgə nə istəyim səndən, ilahi?
Qələmlə pozulub yüz daş kitabım,
Nifrətlə yazılır yaddaş kitabım.
Sözümü qanımla yazacağam mən,
Səngəri qələmlə qazacağam mən!
Şairtək başladım mən bu savaşa,
Ömrü əsgər kimi vuracam başa!

* * *

- Atın silahları!
- Çəkilin geri!
Yoxsa hamınıza çatar gülləmiz!
Belə qorusanız kəndi, şəhəri
Üç aya, beş aya Bakıdayıq biz!

Bu tünük hünərdə, bu çılpaq səsdə
Sən bir tələbə bax, təkəbbürə bax!
Lüləni tuşlayıb körpənin üstə
Şaqqanaq da çəkir saqqallı alçaq.

Uğunub hamını süzür çəpəki,
Bəbəklər boğulub qınağa, qana.
Barmaqlar tətiyə söykənən təki
Körpələr qısılıb analarına.

Bu dağlar, meşələr cəllad kötüyü,
Tülküdə bəxtə bax, aslan otarır.





– Qarabağ kimindir? –
çəkir tətiyi,
Havaya sovrulur güllə qatarı.

Göylər qar paltarda yerlərə çökür,
Kimi yaza yozur, kimi yazıya.
Leysanlar dərədə qəhqəhə çəkir,
Çaylar dəryalarda dönür quzuya.

Çəkdiyimi çəkdim mən için-için,
Xocalı – Vətənin Şəhid Məkkəsi.
Dığanı cızıqdan çıxaran eşqin
Sinəmə tüşlanıb quduz hikkəsi.

Baxır irəliyə, baxır geriyə,
O, cilov gəmirir bayaqdan bəri.
Millət sınsımasın, sınmasın deyə
Qabağa yeriyir Vətən əsgəri.

Avtomat əlində, daraq belində,
Onun görkəmində əzəmətə bax.
- Qəzər, nə söylədin?
Sənin dilində
Nə "qar" var, nə "bağ" var, nə də "Qarabağ"!

İştahan bu suda sınıq gəmidir,
Mən dağda seləmsə, dəryada dağam.
Öldürsəm, cəsədin qarğa yemidir,
Ölsəm, torpağıma qarışacağam.

Yaşın bu yerlərdə əlli, yüz əlli,
Nəyinə sahibsən sən Qarabağın?
Sənin sualının çavabı bəlli -
Qarabağ mənimdir, mən Qarabağın!

Deyəsən, yadına saldım keçmişi,
Dəvənin yükünü ulaqlar çəkməz.
Ölümün gözünə dik baxan kişi
Ölüm ayağında diz üstə çökməz.

Ər oğlu ər kimi dedi sözünü,
(Yağılar dəyməzdi bircə tükünə!)
– Yenə sualın var? –
Qıyıb gözünü
Baxdı saqqalının saqqal yükünə.
Erməni təntidi, tutuldu yaman,
Bu səs cəngi idi, bu söz məngənə.
- Ölüm ayağında dəli musurman
Pəlsəpə dərsini örgədir mənə.

– Beynin qanındadır, sənin, ay alçaq,
Mayadan qarışıb kəpəyin una.
Sənin dərs aldığın kitab çıxacaq
Sənin axırına, sənin sonuna.

Vətənəm, torpağam, eşqəm, qüruram,
Qoy sinəm yarılıb dərim soyulsun.
Sözümü mən elə başa vururam
Sabah danışmağa dilimiz olsun.

...Dil sözü çeynəyir, baxışlar səsi,
Buludlar ələnir, anlar ötüşür.
Üz-üzə söhbətin güllə nöqtəsi
Saqqallı dığanın alnına düşür.

Bu igid əsgərin, bu xan oğlanın
Yaşayır adı da, durur yeri də.
Ölümün gözünə baxan oğlanın
Sinəsi yandırır güllələri də...





Qışın soyuğu var, qarın istisi,
Cıdırda yağının yabısı yortur.
Sinib daş dalına çaqqal dəstəsi
Uşağı, qocanı gülləyə tutur.

Haray dalğa-dalğa, səs cilik-cilik,
– Büküldü dizlərim, qırıldı qolum!
Amandır, dayanın, əldən gedirik,
Atın silahları, ay qurban olum!

Saçını qar örtüb örpək yerinə,
El yasında ötür, el toyunda yox.
Nəvəsi köksündə can verən nənə,
Cavan hayındadır, can hayında yox.

Başları görünmür saqqallıların,
Qıvrılan bədənlər yumaq kimidir.
Qanına bələnən zavallıların
Nəfəsi sonuncu yarpaq kimidir.

Dilim də, dişim də dodaqlarımda,
Qəzəb tişə olub mənə büst yonur.
Çillənin şilləsi yanaqlarımda,
Düşmənin gülləsi köksümdə donur.

Bəmim qəmə tuşdur, zilim zillətə,
Bir söz unudulub – sabahın xeyir.
Baxıb qan gölündə üzən millətə
İgidlər silaha əlvida deyir.

– Çıxın kol dalından, çıxın eşiyə!
Hələ ki qələbəm qol qaldırmayıb.
Siz hardan biləsiz, kişi kişiyə
Qadının yanında əl qaldırmayıb!

Dabbağın nədir ki, gönün nədir ki,
Bədənə kürk çıxa, ayağa çarıq?
Bizimki o vədə gətirmədi ki,
Kişi oğlu ilə düşmən olmadıq!

– Səsini sus elə, dilini qısa,
Ara, əlimdədir ciyərin, canın.
Xocalı bizlərə məğlub olubsa
Yarısı gedibdir Azərbaycanın.

Keçib, sən dediyin kişilik keçib,
Evimiz, qarnımız tox olacaqdır.
Mənim donuzlarım Kürdən su içib,
Bərdədə şişlərə taxılacaqdır.

Görürsən Hayastan necə yekəlir,
Bütün ermənilər kep eləyəcək.
Amma musiqiniz xoşuma gəlir,
Aşığı türklərdən aparaq gərək.

– Canımın, cibimin ləzzətin, dadın
Bilənlər, görənlər hələ ölməyib.
Amma hamısını sadalamadın,
Qəzərcan, nəyimiz xoşa gəlməyib?!

Ağlın, təndirimdə bir küt kündədir,
Külünü sovurur zamanın yeli.
Bu gün silah səndə, sinə məndədir,
Boylanır yoluma Zəngəzur eli.

Bir gün qovuşaçaq Göyçə Qazağa,
Fərmana güc gələn qılınclar azmı?
Sözü uzatmıram, arvad-uşağa
Güllə atılmasın!
Anladınızmı?





– Bu başqa məsələ, bu pikir düzdü,
Onlar keçib getsin Şelli tərəpə.
Amma siz...
- Dedik ki, sözümüz sözdü,
Könüllü əsirik sizə bu dəfə.

– Ara, çox danışma, əcəl tamamdır,
Sıraya düzülün, vaxtınız gedir.
Vay mama, bu türklər necə adamdır,
Öləndə hamısı şairlik edir.

* * *

Xəyallar yol salır sona göləndən,
Hardasa analar toy əzizləyir.
Beş igid silahı töküb əlindən
Bu qarlı dağlarda ölüm gözləyir.

Əcəl, ölüm, vahimə
Güllələrin səsində,
Lülələr qəhqəh çəkir
Erməni ləhcəsində.
Varlığından keçibdir
Igidlərim, ərlərim,
Al qanına boyanır
Silahsız əsgərlərim.
Tülkü donuna girir
Oğlumuzun kirvəsi,
Dünyada kəşf olunur
Nakişilik zirvəsi.
Nə ağlamağa hənir,
Nə haraya ümid var,
Yumaq kimi yığılıb
Qeyrət boyda analar.
Bir dərədə qibləsiz,

Kəfənsiz ölüb yüzü.
Bir igidi itirsə,
Gülməzdi kəndin üzü.
Toylar qara bağlayar,
Nişanlar ləngiyərdi,
Gülüşlər qeyb olardı,
Təbəssüm səngiyərdi.
Mənim yurdum dağılıb,
Sənin odun qaralsın!
Bu kəndin taleyini
Yazan qələm qırılsın.
Harayını eşitmə
Haya gəlməyənlərin.
Həyat – ölənlərindi,
Ölüm – ölməyənlərin!

* * *

Qəzəb, tələb, quduz səs,
Pula, sərvətə həvəs,
Arxasında ağalar,
Gözündə qasırğalar,
Damarında yad qanı,
"Böyük Ermənistan"ı
Düşündükcə bu dığa
Baxmayır sızlamağa.
Təpikləyir qocanı,
Tükdən asılan canı
Çırpır ağaca, daşa,
Ürpənmir yalvarışa.
Tələb edir pulları,
Soyur bu yoxsulları.
Deyə bilmirəm axı...
Gəlinlərin barmağı
Qopur üzükqarışıq,





Hələ görünmür işıq,
Hələ açılmır səhər.
Qanlı-qanlı səhnələr
Gözlərimdə yaş olub,
Dizlərimdə daş olub.
Mən gücsüzəm, yük ağır,
Dərdim içimə yağır.
Söz qovrulursa dildə,
Qələm neyləsin əldə?
Qəm – qələmə çökənim,
Qələm – qayış çəkənim.
Xocalı – tac qurbanı,
Xocalı – xaç qurbanı.

Nələrə şahiddir bu dağ, bu dərə,
Canımı oda tut, ruhumu buza.
Əsirlər bölünür "xidmətə" görə –
Yüzü Əsgərana, qırxı Dəhraza.

Başıma tuşlanıb töhmətin daşı,
Qarabağ qıvrılan qan beşiyidir.
Sabah Xankəndində "qələbə" marşı,
Girov gedənlərin nümayişidir.

Gözlər soluxduqca bəniz bozarır,
Ötüb qırx arşını quyunun dibi.
Bazar açılacaq – baqqal bazarı,
Türklərin dəyəri – erməni cibi.

Biri qurban deyib qanlı "ovunu",
Biri ər gəzəçək xalası üçün.
Biri dəyişəcək öz girovunu
Baş kəsən, qan içən balası üçün.

Bizi soyub, bizə soyulanların,
Pakı, müqəddəsi pul bazarında.
Dərdi yox, dərmanı sovulanların
Milləti satılar qul bazarında.

Taleyim çalxanır belədən-belə,
Bunu mən yazmasam, kimlər yazası?
Peyda olacaqdır işbazlar hələ –
Qərbdə milyonadır insan əzası.

Son anda eşqini satmayanların,
Satılan didəsi, baha qanı var.
Dili ipə-sapa yatmayanların
Ürəyi, böyrəyi xaricdə dollar...

Mənə dərs olmayan müsibətim çox,
Xan gədəlik etsə, gədə xan olar.
Əsir düşənləri düşərgələr yox,
Hardasa gözləyir qəssabxanalar.

Nəfəsim körükdür, ciyərim kömür,
Gözlər bic-bic gülür, bic-bic oxuyur.
Ölkələr eşitmir, hakimlər görmür,
Xarici siyasət xaric oxuyur.

Başımda nə eşqim, nə nifrətim cəm,
Səsimlə səyyaham, babalımla bab.
Mənim tariximdə mənim faciəm,
Yazılan taledir, yaranan kitab.

Ulduzun altında ömür sürənlər
Gorumu kürüdüb, damımı yıxıb.
Millətin gözünə kül üfürənlər
Şairin ağzına güdükçü çıxıb.





* * *

Dünya çox görübdür bu get-gəlişi,
Döşümə tuşlanan dəyir Vətənə.
Torpağı qaytarmaq – sərkərdə işi,
Tarixi yazmağı tapşırın mənə.

Dolanda doluram buludlar kimi,
Qismət boxçasından alacağım kəm.
Axı Xocalıda itirdiyimi
Bakıda axtarıb tapa bilmirəm.

Laxlayıb hörmətim, kiçilib adım,
(Kişilər var, çəkir qadın ağrısı.)
Orda bu Vətəndən ləzzət alırdım,
Burda – o Vətənin qürbət yanğısı.

Özləri qızındı öz odlarında,
Tanıdım çoxunun bütün zatların –
Zamanın siyasət zavodlarında
İstehsal olunan diplomatların.

Səsim səcdəgahdır, qəlbim qibləgah,
Ağlayır odumla, gülür külümlə.
Atam o torpağda qalmışdı, Allah,
Görəsən neyləyir kişi ölümlə?!

Təbəssüm tək-təkdir, qan-qada min-min,
Ovxarlı qılınclar qınında qalıb.
Dörd aydır yolları bağlanan elin
Fəryadı Allahın yanında qalıb.

Biz ümid göyərdib xəyanət dərdik,
Çiçəkli çəmənə yağan qar kimi.
Yolları olmayan şəhərlər gördük,
Qapısı bağlanan qalalar kimi.

Torpağa bağlandıq gözüyumulu,
Nə qürbət görmüşdük, nə Vətən dərdi.
Neçəsi toy üçün yığdığı pulu
Ağaca xərclədi, divara verdi.

Harda istəsəniz qəbrimi qazın,
Onsuz da sədaqət, peyman pozulub.
Kənd kimi doğulan Xocalımızın,
Alnına şəhərtək ölmək yazılıb.

Vətənə, millətə biganələr biz,
Dərs ala bilmədik ahdan, ağıdan.
Yanıb külə döndü meşələrimiz,
Balta bizdən oldu, kibrit yağıdan.

Ölür kəndlərimiz, şəhərlərimiz,
Canını bizlərə tapşırır bir-bir.
İsti otaqlarda rəhbərlərimiz
Biznes qəbul edir, fermer gözləyir.

Vətənin qoynunda üşütmə gəzir,
Tamah qovuşdurur ac qardaşları.
Zirehli maşınlar əmrə müntəzir –
Döyüşə hazırdır xaç qardaşları.

Göylərin yerlərə çökdüyü andı,
Dumanlar gizlədir doğan səhəri.
Ölümün qolları elə uzandı,
Çəkdi sinəsinə bütöv şəhəri.

Alova bürünən bələnir külə,
Mərmilər doğrayırərəni, əri.
Tanklar nərə çəkir küçələr ilə,
Görür öz işini sovet əsgəri.





Dalınca erməni ordusu gəlir,
Kiçilir sərhədlər, daralır qəfəs.
Evində qalanlar evində ölür,
Qaçan zavallını nə gözləyir bəs?

Gözlər çıxarılıb, çəsədlər yanıb,
Başdakı kişini şaxta üşütmür.
Bakının qulağı elə tıxanıb
Fəryadı eşitmir, ahı eşitmir.

Bu, eşqin ürəkdən gen düşməsidir,
Qeyrətli başları daş gəzir hələ.
Ananın sinəsi qan çeşməsidir,
Körpənin dodağı döş gəzir hələ.

Namusa, qeyrətə güvənənlərin
Məşhər ayağıdır, divan günüdür.
Faciə mənimdir, müsibət sənin,
Amin günü deyil, aman günüdür.

Sərvətə qul olub paslı beyinlər,
Gah enib-alçalan, gah bütləşən var.
Dağılır dağlara qızlar, gəlinlər,
İntihar edən var, əsir düşən var.

Kürsülər çiynində saxlamır göyü,
Dəhlizlər evlərin çölündə qalır.
Nişanlı qızların nişan üzüyü
İlişib kolların əlində qalır.

Ruhlar oda döndü, çəsədlər buza,
Qırılıb qaldıqca dağda, dərədə.
Ölüm elə qıydı el-obamıza,
Əlimiz yetmədi Şəhidlərə də.

Dünyanın əməli, işi kələkdir,
Ləzzəti peşkəşdir şeytana, cinə.
Adi başsağlığı gecikəcəkdir,
Tarixin Xocalı xəyanətinə.

* * *

Qeyrətdən yoğruldu mayan, bünövrən,
İstərdim göylərdən sənə tac alım.
Günahın, təqsirin nə idi görən,
Qəhrəman Xocalım, bədbəxt Xocalım?

İki oynaşlının sifəti iki,
Ya kəhər kişnəyə, ya ulaq gələ.
Sinələr səngərə dönməmişdi ki,
Tülkülər şirlərə badalaq gələ.

Ağlımız küt gedən ac gündə idi,
Haqqı axtarmadıq haqqın səsində.
Sərkərdə səyahət eşqində idi,
Xocalı Vətənin ön cəbhəsində.

Yad baqqal qoşunu, o sənəm oldu,
Vətən doyurmadı bu ac bazarı.
Taxt-tac bazarında bəxti kəm oldu,
Cibini açmışdı hərrac bazarı.

Yaddaşı köçürün qana, iliyə,
Niyə bu ağrılar sinəmi deşmir?
Bəşər doğulandan hər yüzilliyə
Xocalı adında faciə düşmür.

Qayanın qoynunda nağıl bitirib,
Yazıldıq ərlərin siyahısına.
Biz Vətən yolunda oğul itirib
Torpaq qorumuşduq qan bahasına.





Yağışdan, tufandan köz qorumuşduq,
Çıraq qorumuşduq otaqdan əziz.
Ana qorumuşduq, qız qorumuşduq
Qeyrət bildiyimiz papaqdan əziz.

Yanğımı söndürmür qışın sal buzu,
Başımda dolanan payız çənidir.
Xalqa düşmən olan bir dələduzu
Başa çıxaranlar xalq düşmənidir.

Bu oda tutuşub od olmayanın
Gizilti, sızıltı yanından keçdi.
Halal kəbin ilə doğulmayanın
Kişiliyi bicdir, qeyrəti bicdi.

Bu qan yerdə qalıb, bu yalan yerdə,
Gözlər qəm yükünü daşıyır hələ.
Mənim uşaqlığım doğulan yerdə
Onun cinayəti yaşayır hələ.

Sərkərdə deyimmi, rəhbər deyimmi,
Çırtlamır çiçəyim, açmır yarpağım.
Ayağında zəncir olan qul kimi
Neçəyə satıldı mənim torpağım?

Bir gün açılmadı göylərdə səhər,
Üfüqdə qızaran al qanı oldu.
Dörd il yağılara dağ çəkən şəhər
Bir gün xəyanətin qurbanı oldu.

Bəyaz cığır düşdü hörüyə, telə,
Təbili döyülür bir həyəcanın.
Şəhid övladını demirəm hələ,
Şəhid şəhəri var Azərbaycanın.

* * *

Ləngidi, geçikdi sonuncu sabah,
Günəş millənmədi bəyaz göylərə.
Hər şey sonuncudur bu gecə, Allah!
Qapımız örtülür sonuncu kərə.

Dünya məhvərindən dönür az qala,
Dünya qisasını atamdan alır.
Evin sahibi də çıxır son yola,
Sonunçu şamımız yanılı qalır.

Torpağın üstündə qırılan, qıran,
Nə torpaq apardı, nə torpaq yedi.
Atamı evindən çəkib aparan
Dünyanın sonuna gedən yol idi.

Gözdağı boylanır bu yurddan bizə,
Kəsilir qaməti, qırılır qolu.
Sonunçu iz düşür həyatimizə,
Doqqaz açıq qalır, ev-eşik dolu.

Qocanın köksündə yarpaqdır ürək,
Göylər başımıza od ələyəndə.
Oğul bu Vətənin nəyinə gərək,
Ata, ata yurdun tərk eləyəndə?!

– Dədə, qurban olum, qalx, ayağa qalx!
– Dədə, dərdin alım!..
Boğulur səsi.
Yaqubun, İlhamın zülümünə bax,
Biri övladıdır, biri nəvəsi.

Məhəbbət dizini bükməyib yenə,
Gizlədir gözündən süzülən yaşı:
- Mən kimə gərəyəm, dəyməyin mənə,
Ömrümü sürmüşəm, siz uzaqlaşın.





Əgər bizimkilər köməyə gəlsə,
Çölçüyəm, çöllərdə ölməyəcəyəm.
Sizin başınızdan bir tük əksilsə,
Onsuz da yaşaya bilməyəcəyəm.

Hənirim, hünərim tükənib daha,
Sizə kömək olsun qıldığım namaz.
Gedin, and verirəm sizi Allaha,
Gedin, əcəl ilə oynamaq olmaz.

- Səni qoyub getsək nəçiyik, nəyik?
Bu sözü dilinə gətirmə bir də.
Getsək üçümüz də bir gedəcəyik,
Qalsaq üçümüz də...
Bildinmi, dədə!?

Tale yollarında qaranlıq gecə,
Sanki qan ağlayır çaylaq da, çöl də.
Vətəni qürbətdə qoyub beləcə
Atam yol gedirdi çiyində, beldə.

Bəxtin yeyini var, ömrün gedişi,
Hamısı sehirdi, hamısı sirdi.
Göydən ümidini kəsməyən kişi
Göylərə üz tutub nəzir deyirdi.

Tükənir barmaqdan gücü, tabı da,
Nəvənin belində yanır, qovrulur.
Əlində tutduğu ayaqqabı da
Qarqarın qoynunda görünməz olur.

...Üç nəsil gedirdi ümidə sarı,
Bu dünya o gündən başıma dardı.
Olum eşqi ilə çırpınanları
Ölüm düşərgəsi qarşılayırdı.

Son sözü nə olub sonuncu anda,
Bilmirəm, bu qüssə məni daş edib.
Güllələr köksünü nişan alanda,
Sonuncu sözünü göylər eşidib.

88 ili halal yaşadı,
Halal zəhmət idi imanı, dini,
Allahverdi idi atamın adı,
Bəlkə, Allah aldı öz verdiyini.

Xainin hökmüylə döyülən təbil
Altında at olub, barmağında ləl.
Möcüzə baş verdi o gün elə bil,
Yaquba, İlhama qıymadı əcəl.

## ÇİNGİZ MUSTAFAYEV

Yurdum kotan ilə əkiləndə də
Qoruyan tapıldı cəsədin, canın.
Gündüzü qüruba çəkiləndə də,
Çingizi var imiş Azərbaycanın.

Yeridi yağının bıçağına o,
Bezdi soyuq səsdən, buz sətirlərdən.
Atılıb ölümün qucağına o,
Həyat şərqisini oxudu birdən.

Atlanan iştahlar diş altındadır,
Mitinq şüar dedi, "istefa" dedi.
Dövlət "mus-mus" ilə baş aldadırdı,
Çingiz Mustafayev "Mustafa" dedi.





Sortda yüzün gördük, sərtdə birini,
Çoxunun ağzında danışan dişdi.
Kamera deyənin dörddə birini,
Dörd ildə dörd nazir söyləməmişdi.

Doğanaq var idi, örkən olmadı,
O üzdə, bu üzdə piylənirdi baş.
Döyüşdü, adını çəkən olmadı,
Xocalı öləndə tanındı, qardaş.

Dilinin dalınca açıldı cibi,
Çoxunun qazanı qoyuldu dəmə.
Faciə ölümlə bitsə, nə eybi,
Faciə ölümlə başlanır demə.

Qollarım sinəmə sıxıbdır qəmi,
Kürəyim yaralı, ürəyim ocaq.
Süngüdən qabağa keçən qələmi,
Hardan nişan alsan, qanı batacaq.

Söz şilləsi tutmur söz deyənləri,
Qeyrətdir qələmi zülümə çəkən.
Vətəndaş borcunu ödəyənləri,
Oğulluq borcudur ölümə çəkən.

Hələ haralardan keçəcək izin,
Gələn xəyanətlər ötəndən betər.
"Ələn-ələ keçən" hər kəndimizin,
Şəhidi, qurbanı qurbanlıq qədər.

(Sözlərim ləngidi deyən varaqda,
Ürəyim dərdimi içəndən bəri.
Mənə hava çatmır sərin otaqda,
Sən soyuq məzara köçəndən bəri.)

## TƏLATÜM

Ağacdan dördəlli asıldı aman,
Bir də bu yerlərdə bitməz bənövşə.
Dağların barmağı üşüyən zaman
İnsanı geyindi əyninə meşə.

Bu dərdi, naləni tutmaz yuz kitab,
Periklər meşədə uşaq kiritdi.
Körpələr aclığa gətirmədi tab,
Ana nəfəsində qarı əritdi.

Döyüb keçə etdi ayaqlar qarı,
Dodaqlar səyridi, üzlər saraldı.
Canını güllədən qurtaranları
Qabaqda əsirlik qoynuna aldı.

Arxasız bir torpaq son küvəncləri,
Söyülüb, döyülüb şillələdilər.
Əsgər paltarında olan gəncləri
Sorğusuz, sualsız güllələdilər.

Nə yaman susayıb erməni qana,
Hələ faciədən ləzzət dadır o.
Qəbrini qazdırıb öz atasına,
Oğlunun üstünü torpaqladır o.

Nə canda can qaldı, nə girovda baş,
Azalmır, sozalmır bu duman, tüstü.
Meyitin cibini soyub bu əyyaş,
Şəhidin dişini sökür əlüstü.

Ağdam başdan-başa geyindi qara,
Məscid əzan dedi, analar ağı.
Meyiti məzara tapşıranlara
Çatırdı muştuluq, gözaydınlığı.





Məzənnə doğuldu – meyitin behi,
Biri pul verirdi, biri göz yaşı.
İyirmi beşinçi gün, şükür, İlahi,
Çiçəyi çırtladı bacı, qardaşın.

Hamının oğluyam şair olanda,
Qəminə ortağam, dərdinə şərik.
Novruz bayramına bir gün qalanda
Atamı torpağa tapşıra bildik.

Ağla həzin-həzin, yağ narın-narın,
İçində olanı gizlət, hər nədi.
Gecə sübhə qədər yatan topların
Geçikən nərəsi gözdə pərdədi.

Yatıb şirin-şirin, yatıb Araz, Kür,
Vətən üzün yuyur göz yaşı ilə.
Qarabağ silinib, süpürülübdür,
Ordu Əsgəranla daşlaşır hələ.

Tankçıya gül verdik, tanklara salam,
Amma lilli idi suların dibi.
Dünən vertolyot yox idi, balam,
Bu gün göylər tutmur bu nanəçibi.

Mənim göylərimdə nə axtarırlar,
Onlar nəçidirlər, bilmirik niyə?
Oyunda Şimalın öz dəst-xətti var,
Beləcə qarışır başımız göyə.

Əcəb qıymayırıq sönən çırağa,
O üzdən neçə cür tələb gəlirdi.
Başsız qadın ilə başkəsən dığa,
Bazarda baş-başa dəyişilirdi.

Misalın çavabı bir vuraq iki,
Millət məhv olurdu milyardlar üçün.
Xocalı lövhədən pozulurdu ki,
İtsin cinayətin izi büsbütün.

Xəyanət ört-basdır edilir bəzən,
Hiylələr qanımı coşdura bilməz.
Nəyinsə naminə beş-on igiddən
Keçmək, vallah məni çaşdıra bilməz.

Cəhənnəm canımda, canım kürədə,
Əkdiyim toxumdan bostan olmadı.
Pərdənin dalında oturan gədə,
Deyən aramızda pərdə qalmadı.

## XATIN-XİROSİMA-XOCALI YOLU

Qan-qan deyən dünyamızda
Qalxanım yox, qılıncım yox,
Gəlişindən baş açmadım,
Gedişindən qazancım yox,
Zaman baba, zalım baba.

Sənin şələn kürəyimdə,
Şillən mənim, güllən mənim.
Ürəyimə dağ çəkmisən,
Ürəyimdə dillən mənim,
Zaman baba, zalım baba.

Əllərinə balta alıb
Ellərimdən baş istədin.
Bir sələmçi baqqal kimi
Bir vermişdin, beş istədin,
Zaman baba, zalım baba.





Səndən tiyə istəsəydim,
Siyrilməzdin, soyulmazdın.
Qəzəbini itiləyib
Tariximi qanla yazdın,
Zaman baba, zalım baba.

Cığırların məni yordu,
Təkərlərin məni əzdi.
Üzün qara olmasaydı,
Bəxtim qara geyinməzdi,
Zaman baba, zalım baba.

* * *

O bulaqlar mənim idi,
O budaqlar mənim idi,
O torpaqlar mənim idi,
yada qaldı.
Yaddaşımda
Torpaqları kömür olan
ada qaldı.
Kollarının arasında
qan bənövşə,
Bənövşənin ləçəyində
yaz qoxusu,
Qollarının arasında
yaşıl meşə,
Meşələrin kölgəsində
ney yuxusu.
Öyüdündən çıxmamışdım,
Söyüdünə söz demişdim,
Tərifini az demişdim.
Əqidəni bayraq edib
Dabanından soyulanlar
Nəsimidir.

Xocalıdan baxan yaz da,
əsən qış da
Əbədiyyət əsimidir.
Şairliyin bir zirvəsi,
Şəhidliyin bir zirvəsi
bu şəhərdi.
Gündüzünə kölgə salan
Gecəsi də bir səhərdi.
Qara daşı
dizlərimə doğma olub,
Qara qızı
gözlərimə doğma olub.
Ər görəndə, nər görəndə
Vətən ona
Həm anadı, həm bacıdı,
həm qardaşdır.
Heç görəndə, köç görəndə
yük üstündə
Qəribliyə gedən daşdı.

* * *

Bilmirəm bu yurdda daşam, çəmənəm,
Dəyirmana gələn dəndi, çiyitdi.
Sevdiyim düzlərdə qalan da mənəm,
Sevdiyim neçə dağ sinəmdə bitdi.

Payızın dalınca bahar gəldimi,
Soyuq qanunlara, əl çalan Vətən?
Mənə başsağlığı verən bildimi,
Ağlayan mən idim, alçalan Vətən?

Gözümdə qəm bütöv, sevinc yarımçıq,
Toplamaq olmayır külü tarixdən.
Mən ata yurdumu itirdim, yazıq,
Üzüldü millətin əli tarixdən.





Ələ nə gələcək köhnə palandan,
Ot bitmir, bağ olmur boz qayalarda.
Dibi olmayan da diplom alandan
Vuruşur məhəlli partiyalarda.

Köksümdə göyərən gözümdən yağar,
Çölümdə yaz gəzmə içim solanda.
Sinəsi səngərə söykənən də var,
Kürəyi kürsüdən ləzzət alan da!

Bizi yeyənlər var, bizə yiyə yox,
Qohumdan pay umma, qonşudan işıq.
Beş ildə beş nəfər sərkərdəyə yox,
Beş min "diplomata" qulaq asmışıq.

Asın boğazından "millət" sözünü,
Siyasətin dili haçalı imiş.
Kürsülər çırtladı "qeyrət" sözünü,
Qeyrətin axırı Xocalı imiş.

Kimlər papaq bildi bu qapazları,
Kimin ətəyində namaz qıldılar?
Dünyanın siyasət hoqqabazları
Dünyanı gözümdən yaman saldılar.

Axmağınkı qalıb Allah-Allaha,
Boş başı ac gördüm, ac cibi dolu.
Görən haralardan keçəcək daha
Xatın-Xirosima-Xocalı yolu?

* * *

Dünya min qan görüb, cahan min cəngi,
Həmişə bir olmur zamanın rəngi.
Bəşərin başında töhmət çələngi –
Xatın-Xirosima-Xocalı yolu.

Gələnlər gedənin nəvəsi imiş,
Kallar, kal zamanın meyvəsi imiş.
İdrakın vəhşilik zirvəsi imiş
Xatın-Xirosima-Xocalı yolu.

Silahlar, zindanlar rahat yatmayıb,
Deyən çox barmağa tikan batmayıb.
Hələ çoxlarına gedib çatmayıb
Xatın-Xirosima-Xocalı yolu.

Endirir, qaldırır bizi pillələr,
Döşünə düşürmü gülən güllələr?
Sənin də qapına at üstdə gələr,
Xatın-Xirosima-Xocalı yolu.

Kar üçün, kor üçün çaxmaq daşıdır,
Sərhədi olana yol yoldaşıdır.
Əsrin qan bazarı, qan yaddaşıdır
Xatın-Xirosima-Xocalı yolu.

Cilovu, quyruğu gəlməyir ələ,
Danışa bilmirəm susanlar ilə.
Hansı kürsülərdən başlanır belə
Xatın-Xirosima-Xocalı yolu?

* * *

Gah xəyanət, gah da xeyir,
Gah xatadır, gah Xan səsi.
Bu əsrdə nədir belə
Bu "Xe"lərin möcüzəsi?
Xarabalıq, xofdu yoxsa?
Xar etdiyim xırmandırmı?
Xor baxdığım xəlbirdirmi?
Xətirdimi, xəbərdimi?





Xankəndinin xan dərdimi?
Xıxırdılan dəvədirmi?
Xışıldayan xəzəldirmi?
Üzü xal-xal Xəzərdirmi?
Yoxsa onlar
Üç min illik bir mənzilə
Xata-bala xamutudur.
Ya xələtdir, ya xiffətdir,
Ya xam ata xam otudur.
Neçə məktəb, neçə dərsdə
"Xe"lər demir cavabını.
Məchul adlı,
"İks" adlı bu "xe"ləri,
Ey tanımaq istəyənlər,
Açın cəbr kitabını.

* * *

Elə düyün düşüb boğazımda qəm,
O yerdən, o yurddan dönmür xəyalım.
Bilmə min budağı silkələyirəm,
Dərd sapa düzülmür, dərdini alım.

Taleyim top kimi arada qalıb,
İtkimi, ağrımı başa düş barı.
Becərdiyim torpaq orada qalıb,
Üstündə əkdiyim bar ağacları.

Əlimdə olanı üzümə vurma,
Küləklər bilir ki, kül altda qoram.
Səsimdə, sətrimdə gülüş axtarma,
Mən Şəhid şəhərdən nəğmə yazıram.

O çaylaq, o söyüd, o bağ, o bulaq,
Dilimdə söz idi, əlimdə qələm.

Uşaq xatirəmdə yaşayan torpaq
Nəyimi yaşadır indi, bilmirəm.

Döyür pəncərəmi payız yelləri,
Gəl ötən zamanı geriyə qaytar.
Oyadıb yuxudan bütün elləri
Fevral gecəsinə gedir bu qatar.

Gedir Xocalının müsibətinə,
Bələdçi özüməm, sükançı özüm.
Barmaq silkələyir ağalar mənə,
Çünki döşlərinə yatmayır sözüm.

Qurumu tökülür əsəbin, hirsin,
Xəlbirdən umuruq neçə xəbəri.
Allaha, Tanrıya ağır getməsin,
Qibləm Xocalıdır o vaxtdan bəri.

## ALVER DÜNYASI

Şuşa dedim, yaddaşımdan min xatirə gəlib keçdi,
Yazdıqlarım, yozduqlarım acı-acı gülüb keçdi.
Üzüqara qız kimiyəm qayaların qabağında,
Səsim susdu, sözüm öldü bulaqların dodağında.
Əsir düşdü, girov düşdü gözəllərin toy xınası,
Namus batsa, qeyrət köçsə, yaşamağın nə mənası?
Ot göyərməz, od parlamaz yel aparan güllərimdən,
Ellər, məni dara çəkin Vətən deyən dillərimdən.
Torpaq deyib, papaq deyib bəy xörəyi yeyən gədə,
Ağlımızı cidarlayan, ağzımızda yüyən gədə.
Aldığından ucuz alçaq, satdığından bahasanmı?
Bu qalanı diz çökdürmək, xar eləmək çox asanmı?
Bu torpağı necə çəkdin axı baqqal tərəzində?





Yağılardan nə almısan Üzeyirin əvəzində?
Bu illərin cərgəsində kədər öndə, sevinc sonda,
Şuşa dedim, Vaqif durdu gözlərimin qarşısında.
Natəvanın bağçasında qızıl güllər qəzəl kimi,
Tüstüləndim tütün kimi, ovxarlandım xəzəl kimi.
Xan kükrədi, Bülbül ötdü, çiliкləndi Cıdır düzu,
Min dühası, min dahisi şişə taxdı könlümüzü.
Şuşa dedim, dilimdə söz, damarımda qanım dondu,
Ölüm-dirim savaşında, aman Allah, nə oyundu?
Neçə ilə cövhər tutur, şirə içir bar budağı,
Mikayıla* qıyan gündən yetim gördüm Qarabağı.
Neçələri Nəsimitək dabanından soyuldular,
Bu şəhərin əsgərləri hara belə qeyb oldular?
Tanklarını sürüdülər, toplarını sürüdülər,
Bir buluddan yağmışdılar, bir gecədə əridilər.
İnam itdi, əl soyudu, şəhər çaşdı, səngər çaşdı,
Bir gün Şuşa Ramiz** adlı igidlə də vidalaşdı.
Xocalıya yağan yağış bu şəhərdən yan ötmədi,
Bakı adlı bir kişinin gözlərini qan örtmədi.
Təslim etdik, təhvil verdik qayaları, qalaları,
Biz aldatdıq özümüzü, biz aldatdıq balaları.
Belə olmur müharibə, belə olmur mübarizə,
Ermənilər tarix yazır, mən şikayət, sən ərizə.
Şuşa dedim. Ta deməRəm.
Can – cəhənnəm, ciyər – cızdıq,
Asan olsaq, kəsən olsaq evimizdə basılmazdıq.

Şuşaya, şüşəyə düşmür əksimiz,
Aynanı, güzgünü qırdıq özümüz.
Düşmən quyusuna düşmədik vallah,
Özümüzə tələ qurduq özümüz.

* Mikayıl Gözəlov nəzərdə tutulur.
** Ramiz Qəmbərov nəzardə tutulur.

Döyüşə atılsa zər tunc yerinə,
Sümük şaqqıldayar qulunc yerinə.
Töhməti qaldırıb qılınc yerinə
Axı başımıza vurduq özümüz.

Basılmır, döyülmür kecə nağılla,
Samanın altından keçən ağılla.
Ütülü peysərlə, keçəl aqılla
Yorduq özümüzü, yorduq özümüz.

Bozaran sifəti şillə apardı,
Səngər sinələri güllə apardı.
Kürsü döşümüzü elə apardı
Üzümüz divara durduq özümüz.

Dağlar saçlarını üzünə töküb,
Qızaran buludlar qüruba çöküb.
Şuşanın belindən kəməri çəkib,
Şuşanın qolunu burduq özümüz.

* * *

Çəməndə kəhər yox, ulaq otladı,
Qılınç xar olanda, söz gərdəyindi.
Şuşada Pənahın goru çatladı,
Laçında bu qismət Sultan bəyindi.

Ətəyin işidir odu yelləmək,
Papaq altındadır kişi ədası.
Döyüşdə düşməndən aman diləmək,
Sərkərdə sənəti deyil, qadası.

Vətəndən Vətənin havası gedir,
Göstəriş verilib:





– Yolları açın!
Bakıda vəzifə davası gedir,
Təhvil-təsliminə inanmır Laçın.

Cırır yaxasını eşqi cılızlar,
Onları qovurmur, qovrulan torpaq.
Nə qədər ki, bizdə şöhrət hissi var,
Biri kəf gələcək, biri badalaq.

Rütbə qarşısında diz üstdə çökmək,
Sırğadır çoxunun qulaqlarında.
Dağları bir ucuz bazara çəkmək
Ağlına gəlməzdi heç dağların da.

Göz gördük, səyridi dodaqlarımız,
Ağzımız uzandı ağızlarına.
Hədiyyə verilən torpaqlarımız,
Qurban kəsilibdir yad qızlarına.

* * *

Adına, oduna qalanım sənin,
Qeyrətin qız idi, qanın qan idi.
Dəlidağ, başına dolanım sənin,
Üstündən adlayan nə duman idi?

Yayının ləzzəti, qışının dadı,
Torpağın eşqini mənə qandırıb.
Kəlbəcər deyəndə qartal qanadı
Şair xəyalımı pərvazlandırıb.

Görürəm, göylərin dumandı, sisdi,
Qapqara buludlar durub qəsdinə.
Suyun isti idi, nəfəsin isti,
Soyuqluq haradan yağdı üstünə?

Haqqımız yox idi xəcil olmağa,
Kim etdi bizləri başıaşağı?
Ağdamın adını eşidən dığa
Həmişə qınına qısılıb axı!

Donur damarında qanı qəzəbin,
Xədim kişilər də arvadlı olur.
Qapı arxasında kəsilən kəbin
Döyüş şərqisindən urvatlı olur.

Şəhər şəri gördü, kəndlər kələyi,
Beşiyi şöhrətdən, bələyi çəndən.
Qiymətli tutuldu düşmənin nəyi
Şəhid kişilərdən, zümrüd Vətəndən!?

Atdın öz göyünə sən öz daşını,
Qanqallar gül açdı, palıd bitmədi.
Füzuli babamın beş yüz yaşını,
Füzuli şəhəri bayram etmədi.

Köçdüm oba-oba, talandım el-el,
Atıb şeş qoşanı, oynadım yeki.
Qubadlı qübarı – sazda sınıq tel,
Cəbrayıl – cəbrdə kök altda iki.

Dünya qurd ağzında yırtıcı dişdi,
Odu ətəyində, suyu xəlbirdə.
Zəngilan Araza könül vermişdi,
Araz Zəngilanı apardı birdən.

Araz aşığından, Kür topuğundan
Bu apar-aparda ləkəsiz, təmiz.
Tək Arpa çayının apardığından
Neçə qərinədir dəm vururuq biz.





Xaric su yoludur, icazəsi var,
Yurdda bələləri nəyə yarayır.
Dağdan qaçaq düşən qaçaq oğlanlar,
Bakıda qənd satıb telin darayır.

Təzə ay doğulur, əl salavatda,
Yer göyə qovuşur, göy yerə dəyir.
Qardaş ölkələrin bayrağı altda
Çadır düşərgəsi doğub törəyir.

Qanıma susayıb qansız vuruşlar,
Ana yaddaşında körpə beşiyi.
Kəsir nəfəsimi qəpik-quruşlar,
Ağzımda daş olur yardım yeşiyi.

Kimində təmənna, kimində təlaş,
Nə düşmən Allahdır, nə mən amanat.
Çadır sayı ilə öyünmə, qardaş,
Adımı tutmusan, dadıma da çat.

Məni sınağa yox, qınağa çəkin,
Gözüm nə gözləyir, könlüm nə dərir!?
Gözü sərvətimdə olan ölkənin
Balası balama paltar göndərir.

Ağlım keçəldirmi, gözüm dardımı.
Görürəm kim necə gəlibdir cana.
Yarama bağlanan tənzif yardımı
Damğadır, töhmətdir Azərbaycana.

Bir köhnə məsəldir baltanın sapı,
Daha sandıqlara sığmır fərmanı.
Qonşum yardım alır mərmini, topu,
Mənə gələn yükdə yuxu dərmanı.

Nə xahiş yeridir, nə də ki minnət,
Tülkü aslan olmur şir qəfəsində.
Allahın yoluna qayıdan millət,
"Amin"i tərgitmək ərəfəsində.

Baş gəzir xəyanət xaltası indi,
Unudub namusu, itirib arı.
Xocalı – xəyanət nidası idi,
Zəngilan – nöqtəsi olaydı barı.

Döyüb sinəsinə "mən-mənəm" deyən,
Kainat ovcunun içində deyil.
Sərvəti, sənətə səcdə etməyən,
Sənəti ittiham gücündə deyil!

* * *

Oğul istəyirəm haqq-hesab çəkə,
Divara söykəyə bu gədaları.
Şöhrət oyunu da şahmatdır bəlkə,
Şahlar qurban verir piyadaları.

Torpağı düşməndə olan ölkənin
İmdad diləməsi, haray çəkməsi
Bu qanlı oyunda udan bəlkənin
Pələng pəncəsində pişik çəkməsi.

Sən şərqi dastanım, mən şərqi ötən,
Səcdəgah anladıq ölü canları.
Müqəddəs qoynunda axı, ay Vətən,
Kim əkdi, kim doğdu bu nadanları?

Xələfi kim oldu bəyin, paşanın,
Şəhiddən qopardıq yüz minləri də.





Zamanın yazdığı bu tamaşanın
Xanı da biz idik, xainləri də.

Bəylər nökər olur, xanımlar kəniz,
Əmdiyim haramdır, yediyim haram.
Laçının bağrından açılan dəhliz,
Bağlanan qapımdır, açılan yaram.

Qəlbimin başında gizilti gəzdi,
Çiçəyi çırtladı dumanın, çənin.
Milli Qəhrəmanı and yerimizdir,
Bəs milli xaini kimdir Vətənin?!

Görməyim dünyanın malın, minnətin,
Əvvəldə qəhqəhi, axırda ahı.
Qanıma susayan bu xəyanətin,
Harada yerləşir baş qərargahı?!

Bükdü belimizi qəm yollarımız,
Vədlər palanımdır, vədlər çulumdu.
Kürəkdən atılan oğullarımız
Döyüşdə bağlanan qoşa qolumdu.

Hələ neçə iblis qınına girmiş,
(İpəyə bab deyil bez yamaq üçün).
Millət kişilərdən təmizlənirmiş
Vətəni çörəklə sarsıtmaq üçün.

Şabaşla şapalaq şeytandı, çindi,
Bəzən buz kimidir, bəzən körükdü.
Bu gün mənim olan sabah sənindi,
Axı, bu dünyanın səbri böyükdü.

Öz tale taxtımdan umacağım çox,
Bilmirəm qələmim nələri yazdı.
Demə ki, söhbəti uzatmışam, yox,
Mənim dediklərim dərdimdən azdı.

Tanrı sınağıdır Tanrı gecəsi,
Doğulan hər kəsin bir yas günü var.
Torpağın başında yurd faciəsi,
Vətənin, millətin qisas günü var.

*Bakı. 1992 - 1994.*





# ALAY KOMANDİRİ

***Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant Şirin Mirzəyevin və Vətən uğrunda mübarizədə şəhid olan igid döyüşçülərimizin əziz xatirəsinə həsr edirəm.***

**Müəllif.**

Millət hara köçür, hara baş alır?
Qollar qoltuqdadır, yumruq döşdədir.
Kəndlər yandırılır, oba boşalır,
Vətən dara düşüb, haray ərşdədir.

Gah körpə doğulur güllə səsində,
Gah içinə çəkir ölkə ününü.
Zamanın, tarixin dönərgəsində
Qarabağ yaşayır qara gününü.

Qara qayaları gecə türk bilən
Bir misqal çəkməyib öz babasına.
Toran qovuşanda evə dürtülən
Erməni yığışmır xarabasına.

Səsin yağa tutub, sifətin hisə,
Bu quldur qulluğa qul kimi baxır.
Dabbaqda gönünü neyləyibdirsə
Dilinin dərisi ağzından çıxır.

Üstünə sürünür bu duman, bu çən,
Qartaltək, qılınctək sən qalx ayağa.
Düşmənə düşməntək qiymət verməsən,
Yazığı yağıdır, yaltağı ağa.

***

Döyüşdə deyəcək öz sözünü o,
Salamı, sinəsi səngərə hazır.
Bilirdi düşmənin hər üzünü o,
Bilirdi kitabı nə qələt yazır.

Kəlmə çıxmamışdı hələ yadından,
Onda Xankəndində evləri vardı.
Düşmənin dilində danışan zaman
Düşmənin özünü çaş-baş salardı.

Mənə səs verənlər bu gün mənə dost,
Mərmilər xəzinəm, tüfəngim ləldi.
Qonşu sənə düşmən, sən düşmənə dost, -
Yox, bu köhnə sözdür, köhnə məsəldi.

Qisas qeyrətini çəkirdi şişə,
Məsləki, şüarı, andı qana-qan!
Elə bu məramla qanlı döyüşə
Gedirdi evilə sağollaşmadan.

* * *

Soyuq şüşələri döyür nəfəsi,
Çölündə azaddır, içində məhbus.
Bakı. Avtovaqzal. Diktorun səsi:
- Bakıdan Ağdama gedən avtobus...

O, dağ görkəmlidir, o, dağ vüqarlı,
Millətə yaxındır, minnətə uzaq.
Qarşıda yollar var yağışlı-qarlı,
Soğan yox, daşlarda diz soyulacaq.

Göylərə çəkilir bir ulduz kimi,
Torpağa and içmir, imtahan verir.
Vətənin ürəyi burda buz kimi,
Vətənin qolları orda can verir.





Gəlir üstümüzə qışın karvanı,
Məni aparan sel Araz çayıdır.
Yurdun o başından maşın karvanı,
Köçkünlə qayıdır, köçlə qayıdır.

Ya nifrətlə danış, ya sükutla sus,
Yurdun igidinə, mərdinə qurban.
Dərd səni yumağa döndərsə, əfsus,
Dərd səni dikəltsə, dərdinə qurban!

Hamıdan kişilik uman ellərin
Qılığı kəmsə də, qınağı çoxdur.
Arxadan çiynini döyən əllərin
Hələ istisindən xəbəri yoxdur.

Susub sükut kimi, donub daş təki,
Payız yağışları şüşəni yuyur.
Uşaq əlini yox, ağır bir yükü
Elə bil kişinin çiyninə qoyur.

Arxaya çevrilir:
– Anladım, quzum,
Bunlar nə etimad, bunlar nə kələk.
Sənin gülüşünü qorumaq, qızım,
Elə bu Vətəni qorumaq demək.

Bətnində sehir var yaşıl yarpağın,
Hər şey möcüzədir öz aləmində.
Barmağı ulduza dəyən uşağın
Səsi bir ürəyin sarı simində.

Avtobus şütüyür, anlar ötüşür,
Bu yollar gedir ki, oda qalana.
Gahdan Elsevəri yadına düşür,
Aynuru qısılır onun qoluna.

Ha baxır ölkənin əlifbasına,
Gecədir, qarası ağdan seçilmir.
Üç ildir dartınır öz obasına,
Üç ildir sədləri adlaya bilmir.

İnam da, ümid də cilik-cilikdir,
Şimşəyə döndünsə, tufan qopacaq.
Qiymətlə gələnlər, qiyamətlikdir,
Qeyrətlə gələnlər, qılınc tapacaq.

Kəllər kələ olmur, müti – müqəddəs,
Şan-şöhrət həmişə ac-yalavacdır.
Vətənə, millətə arxalanan kəs
Vətəndə tarixdir, tarixdə tacdır.

Aşır kimisinin işi zər ilə,
Tamah pərvazlanıb, işdah qudurub.
Pulundan keçməyən kişilər ilə
Canından keçənlər üz-üzə durub.

Görmüşük kökündən gen düşənlərin
Kötüyü, kəsəyi özünü yıxar.
Evini elinə dəyişənlərin
Yorğanı, yasdığı yadından çıxar.

Yaşayıb dadla yox, halal ad ilə,
Balı barmağında tutandan deyil.
O, qırx beş yaşında təqaüd ilə
Oturub başını qatandan deyil.

Oxucum, intizar yormasın səni,
Sualına cavab verirəm indi.
Şirin yuxusundan keçən Şirini
Soyuq səngərlərdə görürəm indi.





* * *

Ağdam ah-nalə çəkir,
Şəhər ayaq üstədir,
Dodaqlarda, gözlərdə
Göynəyən şikəstədir.
Göylərdə qara bulud,
Qarqar hər gün bulanır,
Hər Şəhidin üstündə
Məscid qovrulub yanır.
Yandırılıb, uçulub
Neçə yazığın damı,
Qovulanlar, qaçanlar
Arxa bilir Ağdamı.
Payızın xonçasında
Xəzan yeli və xəzəl,
Mitinqlərin dalınca
Neçə səxavətli əl.
Evlər evlərə dolur,
Ellər ellərə sığır,
Ağdamın da başına
Mərmi yağışı yağır.
Rəngi göylərə hopub
Yurda tökülən qanın,
Adı, soyadı birdir
Tələbin, təmənnanın.
Ərlərim, ərənlərim
Yumruğunu sıxıbdır,
Hamı silah istəyir,
Qeyrət qından çıxıbdır!
Nə qədər Vətən oğlu
Düşmənlə üz-üzədir,
Bu eşq ilə yağıya
Uduzmaq möcüzədir.
Sevgi sinəyə sığmır,

Məhəbbətsə ürəyə,
Bu döyüşən dəstələr
Versə kürək-kürəyə,
Zəngəzurdan, Göyçədən
Eşidilər şərqimiz.
Qarabağ əldən gedir,
Nəyi gözləyirik biz?!
Sərkərdəsiz ölkənin
Qələmi var, qəmi var,
Qardaş, müharibənin də
Təlimi var, elmi var.
Neçə vaxtdır bir-biri
Didirik, deyişirik,
Hələ düşmənimizlə
Təkəlli doyüşürük.
Yurdumuzun adı bir,
Təkəbbürün adı nə?
Bu suallar dağ çəkir
Şirinin də qəlbinə.
Neçələri duyub ki,
Bu oddur, bu ocaqdır.
Ölsə də yurdu üçün
Ordu yaradacaqdır.

* * *

Qərəzin öz payı, haqqın öz payı,
Tufan neçə-neçə kitabı örtüb.
Qəhərdə boğulan cavanın sayı
Şöhrətə söykənən kişini ötüb.

Yaşı ərzi görüb, əsri aşanın
Kəlamı çətəndir, sözü dən-dəndir.
Bu millət haqqında bəd danışanın
Nə qanı, nə südü bu millətdəndir.





Qəlyan tüstülənər, tütün eşilər,
Alışar köksümdə sözümün xası.
Ölümə könüllü gedən kişilər
Torpağı könüllü verməz, qadası.

Nədən ürpənirəm, nədən qaçıram,
Kilkədən, kilimdən kim kimə desin?
Sizi qoruyandan söhbət açıram,
Satanlar barədə məhkəmə desin.

Selin, siyasətin dəyişir donu,
Yağışı uzaqdır, şimşəyi yaxın.
Ata məzarını, ata yurdunu
İtirən zabitin gözünə baxın!

Vəzifə tüklü qaz – yolan, yolunan,
Hər teknə xəmiri ağ kündə deyil.
Sovet ordusundan tərxis olunan
Zabit generallıq eşqində deyil.

Bu solan çəməndən nə dəribdilər?
Siyasət satqınlıq səyahətində.
Sükanı haraya döndəribdilər,
Kütlə də vəzifə siyasətində.

Harama dəyməyib damağı, dişi,
Bu fani dünyada kimə nə düşüb.
Gözü bir almada olmayan kişi
Yurdunda bağbanlıq eşqinə düşüb.

Qapılar, xahişlər...
Neçə soyuq səs,
Adam gördüyünə heyrət eləyir.
Niyə ölümünə razı olan kəs
Razılıq verənə minnət eləyir?

Daşların üstünü örtübdür mamır,
Topa diksinməyən turp əkməyində.
Kişi var, belinə örkən dolanmır,
Əsgər paltarında kef çəkməyində.

Tutduğum ayaqdır, yaxa deyilsə
Aslan gücü gəzmə biləyimizdə.
Əgər arxa cəbhə arxa deyilsə,
Qəmədir, bıçaqdır kürəyimizdə.

Yürüşün yüyrükdə, yerişin yavaş,
Hələ ki minnətçi, hələ ki təksən.
Axı ön cəbhəyə gəlmisən, qardaş,
Başla, başla görək nə edəcəksən?

***

Hər kənd, hər oba tanış,
Bu Tərnöyüt, Şahbulaq.
Şirin burda işləyib
Hələ neçə il qabaq.
Neçə yazı yaşayıb,
O, neçə qışı burda.
Xankəndindən didərgin
Düşən qardaşı burda.
Bir ümid alovlanır,
Bir inam doğulurdu,
Başına and içənlər
Başına cəm olurdu.
Əvvəl qardaşı oğlu,
Sonra əmi nəvəsi.
İnandıra bilmişdi
Şirin burda hər kəsi.
Obaları dolaşır,
Dağlara qalxırdılar,





Ovuc içinə bənzər
Arana baxırdılar.
Şimşək idi baxışı,
Təndir idi bədəni.
Təhlükə gözləyirdi
Əliyalın Vətəni.
Yurd özünə güvənsə
Milyon çıraq yandırar,
Oğluna arxalansa
Yağını dayandırar.
Yurd eşqi sinələrdə
Kükrəyirdi, daşırdı,
"Könüllülər" nidası
Ölkəni dolaşırdı.
Vətənin sinəsində
Səngərlər qazılırdı,
Kimi bəy paltarında
Orduya yazılırdı.
Əsgər olmaq istəyir
Gənc oğlan, yaşlı kişi,
Millətin yadındadır
Axı qanlı keçmişi.
Əsrə əsir düşmüşük –
Bu sonu, o əvvəli,
Neçə yol qanımızda
Çimib düşmənin əli.
Tabaqlar heç danışmır
Taraz deyil tərəzi,
Şimalı yoluxdurub
Ermərinin mərəzi.
Şirin isə vuruşur
Kösövlər, odlar ilə,
Dili dilimdən olan
Ürəyi yadlar ilə.

Qartallar məskənnində
Bayquşlar da ötərmiş,
Məramı ermənilər
Ermənidən betərmiş.

Gündə nə qədər adam
Bələnir al qanına,
Neçə milyonçu kişi
Çəkilibdir qınına.
Pullarının üstündə
Titrəyən var, əsən var,
Yurdun əsgəri ilə
Haqq-salamı kəsən var.
Xalqsa ayaq üstədir,
Qılınc tanımır qını.
El nə pul əsirgəyir,
Nə əziz balasını.
Üç il əvvəl yaylığı
Yerə sərən bir ana*
Bu gün yüz min ayırır
Vətənin ordusuna.

* * *

Görən bu bəlanın neçə adı var?
Dərdə dərd demirik.
Çox qəribədir.
Hələ dilimizdə qanlar, qadalar
Elan olunmayan müharibədir.

Niyə qıfılladın dodaqlarını?
Daranan xırmanın daranan telmi?
Bir ölkə qərarla torpaqlarını
Əlindən qoparır.
Elan deyilmi?

* Xuraman Abbasova nəzərdə tutulur.





Bəlkə kinli dəvə, mürgülü şirsən,
Əldən gedib yurdun neçə qalası.
Bəlkə qaytardılar fikirləşirsən,
Nəyin qayıdacaq, zalım balası?

Bir vaxtlar "molodes" evini yıxıb,
Sənin damağında hələ bal dadır.
Əlin Moskvanın əlindən çıxıb,
Başın hələ onun qoltuğundadır.

Nə haqqın yolunda, nə izindəsən,
Mən ki daş atmıram göyünə sənin.
Susmaqla tərəddüd dənizindəsən,
Nəyinə inanım, nəyinə sənin?

Çiyninə nə qədər ulduz taxılsa,
Nə alışmağın var, nə işığın var.
Dartıb ciyərini çıxaran olsa
Cibindən beş dənə partbilet çıxar.

Oyundan baş açmır axı oyuncaq,
Qulun qandalı var, qolları hədər.
Tabor and içməyə gedir, yaxşı bax,
Bu uzaq mənzildir, bu uzun səfər.

Təzəçə başlanır uzun nağıllar,
Gözümlə görürəm eşqi, təpəri.
Gedir and içməyə igid oğullar,
Ötür şərqisini düşmən çəpəri.

Avtomat köksünü döyən oğlanın
Amalı, arzusu özündən böyük.
Biri yüz düşmənə dəyən oğlanın
Addımı mətindir, sinəsi körük.

Qızarıb qaynayır didələr qanda,
Səsim içimdədir, sinəm od içir.
Şəhidlər uyuyan bu Xiyabanda
Vətənə, millətə tabor and içir.

Güllər körpələrin gül əllərində,
Elə özləritək təzədi, tərdi.
Gozləri yaşaran gözəllərin də
Ürəyi əsgərdir, eşqi əsgərdir.

Yurdu əfsunlayıb bu sehir, bu sirr,
Elə bil oynayıb Ağdam yerindən.
Özünü dağ boyda görən komandir
Gözünü gizlədir əsgərlərindən.

* * *

Təkəbbür, təşəxxüs məramına yad,
Həftələr dolanır, günlər ötüşür.
Təlim dəmir kimi, intizam polad,
Silah da, sursat da yoluna düşür.

Amalı ümmandır, ürəyi qitə,
Bəzən kötük görür, bəzən çal-çayır.
Hər gecə cızılır neçə xəritə,
Komandir bir saat gözün yummayır.

Onlara güvənir bu el, bu ulus,
Çölündə vüqarı, içində dərdi.
Çəkiclər çox olsa, nə eybi, əfsus,
Zindanların sayı çəkic qədərdi.

Biri bu üzdədir, biri o yanda,
İşıq xəbərsizdir qara niyyətdən.
Mərkəzdən idarə olunmayanda
Dəstələr uzaqdır məsuliyyətdən.





Gizlicə haqq-hesab çəkilir hələ,
Başı dumanlıdır, fikri qarışıq:
– Əl-ələ verməsək Qarabağ ilə
Bir ilə, üç ilə vidalaşarıq.

Sıravi özünü atır otağa,
Səsi avazıyıb, rəngi soluxdur:
– Uşaq yataqdadır, dərman almağa,
Sizdən nə gizlədim, pulumuz yoxdur.

– Hanı xəzinədar? –
Çatıb qaşını
Yenə ağır-ağır o nəfəs dərir:
- Könüllü komandir öz maaşını
Könüllü əsgərə könüllü verir.

Könlü tox veribdir Yaradan ona,
Haqqın cızığından çıxa bilməyir,
Gözünün içində qoruduğuna
Gözünün ucuyla baxa bilməyir.

Hara səmt alıbdır, hara gedəcək?
Dara çəkilsə də dar ağacı yox.
Silaha pul gərək, əsgərə çörək,
Çibinin paraya ehtiyacı yox.

Tətik ayıqdırsa, ayaqdadırsa,
Gözünün nuruna boyanır Vətən.
Övladın ordundan qabaqdadırsa,
Evindən arxada dayanır Vətən.

Qəti göstəriş yox hələ Bakıdan,
Danışmır, uyuşmur tələblə tədbir.
Fəxrəddin qapıda görünür bu an:
– İçazə olarmı, cənab komandir?

Ən çətin anlarda ayıqdı, şəndi,
Duzlu zarafatdan incimir heç kim:
- Sənin saqqalın var, sözün ötəndi,
Bəlkə nazirliyə səni göndərim?

Dodaqlar qaçsa da sozalmır qəhər,
İçində odlanır, haray qoparmır.
- Evindən ayrılıb evli kişilər
Evinə beş manat maaş aparmır.

Dağlara boylanıb xəyala dalır,
Susdusa, deməli sualları var.
Fəxrəddin Şirinin könlünü alır:
– Pulsuz-parasız da otüşmək olar.

Hamı alacaqdır nə vaxsa haqqın,
Gözü, könlü toxdur bu elin hələ.
41-dən 45-ə ac qalan xalqın
Dilindən düşməyir Stalin hələ.

Qaçır komandirin dodağı birdən,
Qoyur sağ əlini onun çiyninə:
- Böyük qələbəyə inanıram mən,
Əsl döyuşçüsən, afərin sənə!

Bir gün gülməlidir güllələrimiz,
Daha çıxmalıyıq bəy otaqından.
Taborun birinci yürüşünə biz
Sabah başlayırıq Fərrux dağından!...

* * *





Düzəlir, dəqiqləşir
Hamının cib saatı,
Yüz ölçüb, bir biçibdir
Şirin əməliyyatı.
Hələ dağlar yuxulu,
Lülələr sükunətdə,
Düşmən istehkamdadır,
Hər tərəf nəzarətdə...

Toplar alov püskürür,
Birdən yer silkələnir,
Düşmənin mövqeyinə
Göydən mərmi ələnir.
Komandir nə ovunu,
Nə anı ötürmüşdü,
Düşmən səngər qarışıq
Başını itirmişdi.
Hücumda, həmlədədir
Hər sərkərdənin zoru,
Hər döyüş həndəsədir,
Bu da Şirin düsturu.

O gün çox gözləmədik
Əməliyyatın sonun,
Qaçaqaçı başladı
Erməni muzdlusunun.
Neçə illik döyüşdə
Görünməyən bir işdi,
Cəmi on iki nəfər
Düşmənə dərs vermişdi.
Burnu qanamamışdı
Bir igidin, bir ərin,
Vətən alqışlayırdı
Öz oğlun, öz əsgərin.

Gələn günlər şərqidir,
Ötən günlər bayatı.
Qələbə yox, uğurdur
Fərrux əməliyyatı.

* * *

Uduzan yağıların
İtkisi, əsiri var,
Qalıb qənimət kimi
Mərmilər, avtomatlar.
Komandirin sevinci
Kükrəyib başdan aşır,
İstehkamdakı qurğu
Ermənicə danışır.
Dəstək yerə düşübdür,
Gəbərib iki dığa,
İkisi küçük kimi
Sinibdir qoduqluğa.
Əllərini qaldırıb
"Təslimik" söyləyirlər,
Həyasızlığa bax ki,
Mərhəmət diləyirlər.
Nə qədər günahsızın
Qanını tökən qatil
Elə sızıldayır ki,
Sanki müqəssir deyil.
Rabitə qurğusundan
Neçə parol, səs gəlir,
Dəstəyin o başından
"Arsax", "Avanes" gəlir.
Bilmirsən komandirin
Beynində nə dolaşır,
Dəstəyi qaldıraraq
Ermənicə danışır...





Gözlər heyrət içində,
Hamı səsini kəsdi:
-"Arsax", mən qəbuldayam
Danışan "Avanesdi".
-Ara, orda nə olub,
Niyə gəlməyir səsin?
Komandir gülümsəyir:
-Avanesin toyudur,
Aşota da de gəlsin!

Əlüstü tərcüməsi,
Hamı uğunub gedir.
Sonra da əsgərləri
Təbrik eyləyir bir-bir.
Dil boğaza qoymayır
Sözünün başı "diqqət",
Bu rabitə qurğusu
Göydən düşən qənimət.
Bu hədiyyə havatək,
Sutək gərəkdir ona,
Qurğunu yerləşdirir
Komandir maşınına.
-Belə bir mükafatı
Düzü gözləmirdim mən.
Bu qutu qiymətlidir
On düşmən əsirindən.

* * *

Düşmənlər başına od ələməkdə,
Xocalı o üzdə dad diləməkdə.
Bağlı qapıların arxasında hey
Baş-başa dayanır qeybətlə giley.
Neçə ad oğrusu, şöhrət oğrusu,
Mərkəzdən gələnin düzü, doğrusu

Hələ tanınmayır.
Maskalanıblar,
Bölünüb, paylanıb, şaqqalanıblar.
Sirdir çoxlarının yüyən, yalı da,
Gözdən pərdə asır generalı da.
Nə əməl görünür, nə əməliyyat,
Qazanlar paxırdır, əqidə boyat.
Bir ölkə beş kəndin əlində əsir,
Hələ anlamırıq kimdir müqəssir.
O buna, bu ona arxa çevirmir,
Çölünü göstərən içini demir.
Hərbin qanununu anlamayan kəs
Güçsüz düşmənə də güç gələ bilməz.

Neçə müddətdir ki, isitmir yerin,
Hərbin elmi ilə danışır Şirin.
- Əgər Ağbulağı ala bilməsək,
Xocalı duşmənə qurbandır demək.
Əsgəranın üstə hücumlarımız
Mənasız döyüşdür, itkidir yalnız.

...Onu eşitməyir çoxları hələ,
Günləri sovurub verirlər yelə.

* * *

Qəhərə təsəlli dərddən betərdi,
Tərs olaq, dərs alaq tökülən qandan.
Vətəni sarsıdan Xocalı dərdi
Qisas gözləyirdi oğullarından.

Kimisi peyğəmbər, kimisi mələk,
Cavanlar dəyişmir canı minnətə.
Xocalı qoruna bilmədi, demək
Ordu da ortaqdır bu xəyanətə.





Düşünür qocanı, girov gəlini:
– Yox, daha başqa cür döyüşəcəyəm.
Əsir aparılan dinc əhalini
Əsir əsgərlərə dəyişəcəyəm.

Xəyanət işləyib qana, iliyə,
Bu necə möcüzə, bu necə sirdi?
Sırxavənddən tutmuş Xatınbəyliyə
Əhali girovdur, kəndlər əsirdi.

Hələ sözümüzu deməmişik biz
Bu saz meydanında, ozan içində.
Niyə yuva qursun düşmənlərimiz
Qazançı deyilən qazan içində?

Gözü torpağında olan düşmənlə
Danışa bilməsən hərb dili ilə,
Qardaş, qərinələr ötüşsə belə
Neyləyə bilərsən Qərb dili ilə?

* * *

– Farağat!!!
Titrəyir zabitin səsi,
Körük kimi qalxıb enir sinəsi.
Yenə də qoşadır sevinclə qəhər,
Əsgərlər ox kimi düzlənibdilər.
Sükutu qılıncdır, baxışı nizə,
Komandir taborla durub üz-üzə
Salamı sevgidir, sevgisi aydın,
Hamının üstünə gərir qanadın.
- Əsgər paltarını geyinən oğlan
Gərək qisasını ala yağıdan.
Şuşa qaytarılıb Laçın dönməsə,
Düşmənin bayrağı yerə enməsə,

Səsimiz yetməsə Cıdır düzünə,
Biz baxa bilmərik elin gözünə.
Atalar didərgin, analar qaçqın,
Bacılar vədəsiz ağardır saçın.
Gözəllər qarıyıb qocala bilər,
Vətən köçə bilər, alçala bilər.
Bizdən asılıdır yurdun taleyi,
Kimin təklifi var, kimin gileyi?
Hamıdan birinçi dillənir Qədir:
– Ölümə hazırıq, cənab komandir!
– Belə şüarlarla, düzü aram yox,
Mən sizi ölümə aparmıram, yox.
Öldürmək gərəkdir yağını, yadı,
Sənin dediklərin məni açmadı.
Bu gün alacayıq biz Qazançını,
Düşmən itirəcək öz qazancını.
Döyüş əhvalınız yüksəkdir deyən,
Sizin sözünüzü gözləyir Vətən.
Bu yolda qələbə, bu yolda itki,
Torpaq bizimkidir, tale bizimki.
Sınağa çəkibdir bizi Yaradan,
Döyüşdən qorxanlar çıxsın sıradan!

Birinin gözündə təəccüb, sual,
Birinin gözündə bir şirin xəyal.
Arxada qalmağa varsa da könlü,
Sıranı tərk edən yoxdur könüllü.
Sözünü beləcə deyirdi Şirin,
Nələri anlayıb duyurdu Şirin.
Xəfif bir təbəssüm, pıçıltılı səs
Əsgərə heç zaman qorxaqsan deməz.
Bir-bir əsgərlərin əlini sıxır,
Bir-bir əsgərlərin gözünə baxır.
Ürəyi döyünən, əli əsən var,





Səsini, sözünü udan, kəsən var.
Biri əzab çəkir alın tərindən,
Birinin bəbəyi çıxır yerindən.
Onun baxışları mizan-tərəzi,
Ata əvəzidir, qardaş əvəzi.
Gözündən bir tük də yayına bilmir,
Səsindən küdurət, eyham sezilmir.
Sıradan çıxarır altı çavanı:
- Yüz yol görəcəksiz hələ davanı.
Bu bizim sənətdir, bu bizim peşə,
Gedin, hazırlaşın gələn döyüşə!

* * *

Azadlıqdan danışma
Torpaq xilas olmasa,
Yurdunun hər qarışı
Azad nəfəs almasa.
Düşmənə divan tutan
Sevgi dolu sinədi,
Sən Koroğlu olmasan,
Koroğlu əfsanədi.
Atılmısan tufana,
Atılmısan selə sən,
Güllələrdən qorun ki,
Güllə ata biləsən.
Bu aran da, bu dağ da
Babalardan amanat,
Yağıya can verməyən
Can üstədir bu saat!
Dağlarda, qayalarda
Təlimat sağ əlimdir,
Qələbənin, müjdənin
Təminatı təlimdir.
Bəzən güllə yerinə

Gərək olur bir kəlam,
Misgər min yol səhv edər,
Əsgər bir yol, vəssalam!
Qonağımın qovğası
Günahımdı, suçumdu,
Qazan xanlar qaynayır–
Qazançıya hücumdu!

Mərmi dolutək yağır,
Qorxu, hürkü ar idi,
Baş plandan başını
Qoruyanlar var idi.
Yeri mərmilər eşir,
Göydə şimşək çaxırdı,
Ölümün gözlərinə
Oğullar dik baxırdı.
Ciliklənib düşmənin
Sınır bərəsi, bəndi,
Bu da "alınmaz qala",
Bu da Qazançı kəndi!

Üzü bəri boylanır
Kirsimiz, Murovumuz,
Qandaldan azad olur
Nə qədər girovumuz.
Düşmənin sifətinə
Dəyir yağlı şillələr,
Evlərin arasında
Vıyıldayır güllələr.
Qaçanların dalına
Yaxşı dəyməyib şallaq,
Saqqallı quldurların
Leşi kəlləmayallaq.





Bir gəlin qapısında
Ağlayır zülüm-zülüm:
– Ay Allah, mən türklərin
Ayağı altda ölüm.
Qırın bu oğraşları,
Bunlar kinli dəvədir!
Ağdamlı qara Mirzə
Bizim ilə kirvədir.
Süprəsinə qoyardım,
Araq olsun, xaş olsun,
Kepi nə çəksə yeyib,
Yatıb, halal-xoş olsun.

Dil tökür kafər qızı
Elə bayaqdan bəri,
Susub qadına baxır
Azərbaycan əsgəri.
Barmaqları gəzişir
Soyuq tətiyin üstdə,
Əlləri boşalanda
Çökür kötüyün üstə.
Unudur ki, döyüşdür,
Yaddan çıxır silahı.
Düşünür, bu yazığın
Axı nədir günahı?
Girsin xarabasına
Öldürməyib ötərəm,
Mən buna əl qaldırsam,
Ermənidən betərəm...

Ay mənim mərd qardaşım,
Bunlar sənin saydığın.
İndi mənim sinəmə
Çəkiləcəkdir dağın.

Yerə çökür bu iblis,
Arxasında bir cani,
Nişan alır həmin an
Oğlanın sinəsini.
Niyə unutdun axı
Döyüşürsən şər ilə?
Arvadını qabağa
Verən namərdlər ilə?
Göz yaşına inanma,
İnanma bu iblisə,
Arvad dalında gedir
Moskvaya, Parisə.
Onun tək saqqalı yox,
Teli, döşu də olur,
Niyə unutdun axı,
Düşmən dişi də olur!?

Ölən tək döyüşçü yox,
Ürəyidir, bağrıdır,
Sarsılmaz komandiri
Bir tikan da ağrıdır.
Təzə postlar qurulur
Neçə döşdə, dərədə.
Qazançı üç tərəfdən
Qalır mühasirədə.
Bu zəfərin sorağı
Ölkəyə yayılacaq,
Səkkiz şəhidin qanın
Tabor sabah alacaq.

Komandir duyurdu qılığı, qını,
Güzgü tək görürdü çox kələyi də.
Yoxsa müharibə qanunlarını
Bilmir müdafiə nazirliyi də?





Bu dağlar ucadır, bu quyu dərin,
Gələnlər qayıdır yel atı kimi.
Sinəsi səngərə söykənənlərin
Arxası hələ də yalotu kimi.

Eşqi kor olanın itidir dişi,
Cibində qızdırır totuq əllərin.
Qeyrəti qarnında gizlənən kişi
Könlünə toxunur könüllülərin.

Nə tufan səngiyir, nə əriyir qar,
Komandir kibriti ləléyə tutur.
Səmtini "səhv salan" vertolyotlar
Onun taborunu gülləyə tutur,

– Komandir, sizindir bu yük, bağlama: –
Açılır kişinin qoşa qolları.
Ömründə siqaret çəkməyib, amma
Əlini uzadır siqara sarı.

Əvvəli bəllinin yox idi sonu,
Hər kəs şərqisini bəstələyirdi.
Bu şöhrət azarı, şöhrət qanunu
Hərbin qanununu üstələyirdi.

Neçəsi taxçada barama qurdu,
Özü asılırdı hordüyü tordan.
Kəşfiyyat hələ də "xəbər tutmurdu"
Üç gün bundan sonra olacaqlardan.

Fərmanlar yolunu dəyişir, dönür,
Gəlməyir vergülü, nöqtəsi ələ.
"Diqqət!" deyənlərin nəbzi döyünür
Hələ kimlərinsə diqtəsi ilə.

Sinəsinə gecə-gündüz
ətri hopub səngərlərin.
Anasına and içərək
Vətəninə ana deyən,
Dağlarını arxa bilib
göllərinə sona deyən
İgidlərin sırasına
tamaşa et, təzim elə,
Baş əyirəm bu ərlərə
səsim ilə, sözüm ilə.
Baxışlardan nifrət yağır,
sinələrdən sevgi daşır,
Necə aydır bu oğullar
silahlarla qucaqlaşır.
Alay hücum çəkən zaman
haray çəkmir, aman demir,
Vətən deyən qartallarım
şaxta demir, duman demir.
Dağ selinin nərəsi var
hər birinin gur səsində,
Ocaq nədir, tonqal yanır
igidlərin sinəsində.
Niyə azad olan kəndlər
əldən çıxıb düşür bəndə?
Son təlimat, son göstəriş...
Qazançıdan Sırxavəndə!

* * *

Sabahkı göz yaşı töhmət daşıdır,
Ütüklər, kötüklər Şirini yorub.
Çölündə düşmənlə qabaq-qarşıdır,
İçində xainlə üz-üzə durub.





Yayımdan çıxmasam yaram deşilər,
Yanan ürəyimi qəzəb soyutmur.
Vətəndən əzizi olan kişilər
Dar gündə Vətənin əlindən tutmur.

Qolun burulanda boyun burdunsa,
Mənzili məlumdur məndən ötənin.
Qərəzə, şöhrətə arxa durdunsa,
Demək axasından qaçdın Vətənin.

Necə yol daş uçub, kəsilib kəndir,
Kiminə piy düşüb, kimisinə pay.
Necə yol arxasız qalıb komandir,
Necə yol tələyə düşübdür alay.

Dərsini vermirik haqqa qıyanın,
Ölsə qəhrəmandır, yaşasa dahi.
Şifahi töhmətə maya qoyanın
Bu gün cəbhədə də əmri şifahi.

Hələ görünmürdü oyunun sonu,
Biri layla çalır, biri yatırdı.
Daşına qıymayan Vətən oğlunu
Sapandlı kişilər daşa tuturdu.

Gözlərdə dan yeri, ürəkdə səhər,
Oyandı, oynadı dağ məhvərindən.
Əsgərlər şahintək düzülmüşdülər,
Alay tufan kimi qopdu yerindən.

* * *

Bu qeyrətə, bu gücə
Dağlar da baş əyirdi,
Alay düşmənin üstə

Qara buludların havası harın,
Köpəyi, köməyi kötüyündədir.
Başını itirən başdakıların
Əlləri kimlərin ətəyindədir?

Cənnətlə cəhənnəm su qabındadır,
İçib içimizi yeyirik hələ.
Vətən müharibə girdabındadır,
Ona "münaqişə" deyirik hələ.

Bu soyuq divalar haçan çökəçək?
Haçan qurtularıq şeytandan, şərdən?
Millət nələr görüb, nələr çəkəcək
Yerində olmayan yerdəkilərdən.

Neçə rəngdə imiş sifəti, donu,
Zəlitək, cəlladtək calanıb cana.
Üç günün içində yağı qoşunu
Döndü Qazançının darvazasına.

Komandir anlayır bu get-gəlişi,
Nədən oyun gəlir onun başına.
Silahla düşmənə dərs verən kişi
Qələmlə yalvarır öz soydaşına.

Dalağı sancırdı sərkərdənin də,
Bu qoca dünyada nələr görürdü.
Siyasətdən uzaq əsgərlərin də
Siyasət başında corab hörürdü.

"Bəri bax" oxunur, baxan yox bəri,
Qübardır qaynayan yurdun köksündən.
Vətən savaşına qalxan əsgəri
Tufan da endirməz öz kürsüsündən.





* * *

Komandir qorxurdu ki,
Əsgər düşə həvəsdən,
Qeyrət tələb edirdi
Məktub yazdığı kəsdən.
Neçə gözləri acın
Kəməri bərk, qarnı tox,
Arxadakı rəhbərin
Cəbhədən xəbəri yox.
Öz bəxtindən razılar
Gecə-gündüz məst kimi,
Səngərlərə baş çəkir
Köhnə kommunist kimi.
Başını qatan da var
Manqalın şişi ilə,
Neçəsi maraqlanır
Kolxozun işi ilə.
Torpaq qalxıb hönkürür,
Göylər çöküb ağlayır,
Kimisi köpük qusur,
Kimi göbək bağlayır.
Zavallı yanan əli
Dodağına təpməkdə,
Ezamiyyət vərəqi
Möhürləri öpməkdə.

* * *

Biri yatdı yekəldi,
Biri yedi kökəldi.
Hamı birləşsə – ordu,
Təkləndisə, tək əldi.
Bir – canımda birədir;
Biri yerin bərkidir.

Biri tankına qıymır,
Biri topun ləngidir.
Biganəlik Şirinin
Varlığını üşüdür,
Deyir ki, bu güləş yox,
Bu mərmi döyüşüdür.
Söylədinsə, işimə
Tamaşa et, qarışma,
Onda mənim qardaşım,
Qələbədən danışma.

Komandirin imtahan
Verdiyi çağlar idi,
Artıq onun nüfuzu,
Etibarı var idi.
Bir alayın başında
Neçə xəbər dolaşır,
Nazir də, nazirlik də
Onunla hesablaşır.
Yüz kasaya paylanan
Bir qazanda bişməli,
Taborların hamısı
Alayda birləşməli!
Tələblərə cavabdır
Nazirin təzə əmri.
Şirin təyin edilir
Alayın komandiri.

* * *

Yurdun harayına qalxmışıqsa biz,
Köksümü parçala, gözümü istə.
Niyə fərmanımız, niyə əmrimiz
Sözün gərdəyində, kağızın üstdə?





İtən yurdumuzdu, tökülən qandı,
Nə hiyləni duyduq, nə də niyyəti.
Mənim harayımla alay yarandı,
Özünə çatmadı səlahiyyəti.

Nə dili sevdirdim, nə yurdu sənə,
Başından kürünən dul arvad deyil.
Sayı mini ötən bu ordu sənə
Mağazada min bir xırdavat deyil.

Nədirsə məni də özümdən alıb,
Sinəmin üstündən çəkibdir köçün.
Komandir evinə tamarzı qalıb
Elinə tamarzı qalmamaq üçün.

Göylərə hürürdü ağzı beşinin,
Bilmədik kimlərin sırasındadır.
Evi Xankəndidə qalan kişinin
Yolu səngərlərin arasındadır.

Nə qələbə məlum, nə də ki, qalib,
Komandir qədəhdə hələ qəm içir:
– İşə bax, erməni yurduma sahib,
Səngər Vətənimin içindən keçir.

Yenə dalğalarda bir hədyan, oyun,
Bir gizlənpaç gedir, bir isaq-musaq.
– Eviniz rahatdır, yorğanınız yun,
Kepinə dəyməsin, yasdıq yollasaq.

Ara, yeməyiniz yaman şirindi,
Qoyun otarırıq, inək sağırıq.
Sənin oxuduğun məktəbdə indi
Sizin xanımlarla kepə baxırıq.

Ardınca bir qələt, ardınca hədə,
Başının üstündə bir qaynar qazan.
Güllə girəvədə, söz girəvədə,
Təhqirə dözənlər – haqqa uduzan.

Əlləri daraqdır kirpiklərinə,
Xurcuna sığışmır ovçu tulası.
Ağzına yiyəlik eləmir yenə
Bu qaraçı oğlu, donuz balası.

– Ora oylaq deyil siz dovşanlara,
Bağda yemin otdur, bostanda kələm.
Sənə cənnət haqda danışanlara
Cəhənnəm dərsini mən verəcəyəm!

Qonaq oturubdur sənin gəmində,
Qapısında qıfıl, əlində açar.
- Dostlar, ermənicə "söyüş elmində"
Kimin təcrübəsi, istedadı var?

– Komandir, söyüşlə pis deyil aram,
Amma ki...
– Ammanı çıxar yadından!
Bir yaxşı "nitq" söylə keçsin bu axşam
Donuz balasının yeddi qatından!

* * *

Onu öz qoynuna çəkir meşələr,
Dalğa oyunudur, çox uzatmadıq.
Fərruxdan bu yana söyüşə qədər
Rabitə işini görmüşdü artıq.

Çox su aparacaq hələ bu xəmir,
Bilmir kimi söyür, kimi qınayır.





Bu dəyyus kimdirsə adını demir,
Amma komandiri əla tanıyır.

Buludlar qaynayır onun gözündə,
Oxuyan seygahdır, hönkürən tardı.
"Sənin oxuduğun məktəb" sözündə
Sənin doğulduğun məmləkət vardı.

Havadan yapışdı, daşa söykəndi,
Nəsə pıçıldadı yaşıl dərələr.
...65-çi il. Qədim Xankəndi,
Son zəng.
Son imtahan.
Son xatirələr.

Bu axşam arzular şamtək yanıbdır,
Açıq pəncərədən hələ daş gəlir.
Şirin sevincindən qanadlanıbdır:
– Həyat, qəbul elə, vətəndaş gəlir!

Dostlar qəh-qəh çəkir, gülüşlər şaqraq,
Ramilin köksündə yüz arzu, dilək.
- Elə alqışlandın, sevildin ancaq,
Birini sevmədin ardınca gələk.

Yubanır bir qızın gözlədiyi gün,
Alışır Şirinin ruhu, bədəni:
– Səndən gizlətdiyim məhəbbət üçün
Sənə qurban olum, bağışla məni.

Mizin üzərində əridikcə şam,
Əridi, ötüşdü vaxt gilə-gilə.
Nələr danışmadı dostlar o axşam,
Ömürdən gün keçdi danışa-gülə.

Nələr arxadadır, nələr öndədir,
Min bir sehiri var ərzin, cahanın.
Biri asayişin keşiyindədir,
Biri əsgəridir Azərbaycanın.

Simi tarımlanıb könül tarının,
Qayıdıb haradan baxtı cahana?
O qız, anasıdır övladlarının,
O dost, qardaşından əzizdir ona.

Döyündü ürəyi, sızladı qəlbi,
Xatirə xəyalla harda görüşür!
Onun müəllimi, onun məktəbi
Döyüş dərsində də yadına düşür.

Qoşa qanadındır məramla məktəb,
Ocağın yerində od bitməlidir.
Nizaminin adı verilən məktəb
Millətə "Xəmsə"ni öyrətməlidir.

* * *

Bir küləyə bənddir kösövün, qorun,
Tənbəki deyilsən bu təklik ilə.
Sənin yüksəlişin, sənin uğurun
Ölçülür aldığın yüksəklik ilə.

Öz cibində olan öz əlində yox,
Yükü daşlar deyil, başlar əyirdi.
Komandir həmişə hərb dilində yox,
Şairsayağı da fikir deyirdi.

Kim kimə ağlasın kimin yasında?
Hərə bir marığın həvəsindədir.
Alay – komandirin siyahısında,
Kiminsə cazibə qüvvəsindədir.





Quruyub içinə çəkilənlərin
Satdı dükanı da, satdı köşkü də.
Gözü kürsülərə dikilənlərin
Vətəni də yalan, Vətən eşqi də.

Əsgər çəkməsinin töküldü nalı,
Vallah dəli olur adam az qala.
Ağbulaq, ardınca Abdal, Gülablı,
Bir addım irəli, beş addım dala...

* * *

Umudluda duman, çiskin,
Murov yenə qar içində,
Qaynayırıq qazan kimi,
Qovruluruq xar içində.
Eldən elə köçür millət,
Evlər qalır ağzı günə,
İnadına güvənsən də
İnanmırsan gördüyünə.
Bu qayada səyyad idik,
Quş quşladıq, ov ovladıq.
Gah Araza kəmənd atdıq,
Gah Tərtəri cilovladıq.
Ləpələri qırçın-qırçın,
Sular soyuq, söz odludur,
Sərsəng adlı bir gözələ
Ümidimiz Umudludur.
Nə yarımız yaralıdı,
Nə yaramız bitişibdi,
Bir alayın əsgərləri
Neçə yerə pay düşübdü.
Əldən gedir bir ölkənin
Suları da, daşları da.
Komandirin üzü gülmür,

Düyünlənib qaşları da.
Güllələrdən özgə bir səs
Eşitməyir bu yal-yamac,
İki aydır bu kənddədir
Əlli igid ac-yalavac.
Dörd yanımız qatı duman,
Saralıb bağ, solub çiçək.
Bir ulduzun parıltısı
Bu dağlara nə verəcək?
Komandir də ayaq üstdə,
Haray susmur, alay yatmır,
Bu tərəfin o tərəfə
Ünü yetmir, əli çatmır.

* * *

Qəssab yaxşı bilir xeyirin, şərin,
Piyli keçilərsə can hayındadır.
Torpağın səsinə səs verən Şirin
İndi əsgərinin harayındadır.

Ocağım günahı məndə görürsə,
Od oda calanmır, kül külü çəkir.
Komandir əsgəri qurban verirsə,
Əlini Vətəndən könüllü çəkir.

Dünya dövrü görür, zaman işini,
Qınaq var qan kimi, qılınc kimidir.
Döyüşə könüllü gedən kişini
Ölümlə qorxutmaq gülünc kimidir.

Min ildir qazılır bu soyuq səngər,
Neçə yola düşür, neçə niyyətə.
Düşməndən qanını almayan əsgər
Sonsuztək qovuşur əbədiyyətə.





Yuxusuz dağların qoxusu yoxdur,
Nə havası loğman, nə suyu şərbət.
Övladsız ölməyin qorxusu yoxdur,
Vətənsiz olmağın qazancı dəhşət.

Biri zurnaçının tutur dəmini,
Bilmir yol alıbdır hansı mənzilə.
Qəlbin hökmü ilə hərbin elmini
Komandir dəyişik salmayıb hələ.

Qələmdən irəli lələyə düşüb
Bu yurdda qisməti günahın, kinin.
Alay Umudluda tələyə düşüb,
Açar cibindədir bu üzdəkinin.

Bu kimin qoşunu, bu hansı dəstə?
Örtüb komandirin gözlərini qan.
Çəkir avtomatı pilotun üstə:
– Havaya mənimlə bir qalxmalısan!

Nərilti, göynərti göyləri yardı,
Komandir özünü seçmişdi hədəf.
Əsgərin yarısı belə qurtardı,
Yarısı üz tutdu Murova tərəf.

Üzü ayazıyıb gözü gülmədi,
Xəyanət əyirdi onun qəddini.
Alayın harayı eşidilmədi,
Umudlu itirdi son ümidini.

* * *

Yenə tələb, həyəcan,
Yenə etiraz səsi,
Dəniz kimi qabarıb

Komandirin sinəsi.
Başdakı başçı susub,
Nə payızdır, nə də yaz,
Beyni olmayan ordu
Qoluna arxalanmaz.
Kimi sərvət hayında,
Kimi şöhrət ovunda,
Hakimlərin şallağı
Mərdi qovhaqovunda.
Görən hansı mənbədən
Məlumatlanır o tay?
Yerini həftədə bir
Dəyişməkdədir alay.

Göylərdə sayrışır ulduzlar necə,
Qış ötür, yaz gedir, payız tələsir.
Koroğlu qalası.
Şahbulaq.
Gecə.
Dağlardan arana sərin meh əsir.

Kəndlinin gözünü örtüb qızıl qan,
Kimi bağ salıbdır, kimi yer əkib.
Topun qorxusundan, güllə xofundan
İtlər də səsini içinə çəkib.

Qapanır kirpiyi, fırlanır başı,
Kimdənsə şikayət edir şikəstə.
Evi Xankəndində qalan qardaşı
Gəlib burda qoyub daşı daş üstə.

Şehlə bəzəyibdir güllər saçını,
Bu şehdən, bu güldən nə diləyir o?
Asılıb qolundan tut ağacının
Elə ayaq üstə mürgüləyir o.





Kim gəlib sözünü kimlərə deyə?
Hərə ocaq olub öz məkanında.
Bir ulduz işığı çəkilib göyə,
Bir şair dayanıb onun yanında.

ŞAIR

Səcdə eliyirəm əsgərlərə mən,
Bu duruş, bu döyüş möcüzə imiş.
Qələmlə gəlmişəm səngərlərə mən,
Sən demə bu yerlər mənlik deyilmiş.

KOMANDİR

Yeyənindən qorxma, yoxsa deyənin...
Eh, sən sözünü de, ilhamını yaz.
Cəbhədə top səsi eşitməyənin
Qələmi "Qələbə" sözünü yazmaz.

ŞAİR

Dediyin bu kəlmə ulu, müqəddəs,
Mənim silahımdır sinəmdə ürək.
"Qələbə" dediyin o müjdəni bəs
Bu millət, bu Vətən haçan görəcək?

KOMANDİR

Şairlər sevəndə müqəddəsləşir,
Qürub günəşi var quru söhbətdə.
Mən Şəhid, sən qazi olmasan, şair,
Qisas qiyamətdə, Vətən qürbətdə.

ŞAİR

Ha getdik, bir fərli gediş görmədik,
"Mən" deyib nə qədər mələmək olar?
Şuşada, Laçında bir iş görmədik,
Dərədən təpəyə neyləmək olar?

KOMANDİR

Dağlar əldən çıxsa, onun çıxarı
Dişə toxunmayan quyruq kimidir.
Yıxılan uşağın altdan yuxarı
Atdığı sonuncu yumruq kimidir.

ŞAİR

Ocaqdır, təndirdir bu çeşmə, bu su,
Köz kimi yandırır əli, ayağı.
Mənim suallarım əsgər sorğusu,
Sənin cavabların şairsayağı.

KOMANDİR

Çoxdan susamışam belə bir səsə,
Gücü sel olanın meşəsi bitər.
Şairin qələmi süngü deyilsə,
Əsgərin süngüsü qələmdən betər.

ŞAİR

Nə sözündən aldım, nə sellərindən,
Bu dolan buludmu, bu yağan qarmı?
Bir vədə Nevanın sahillərindən
Məktub yolladığın yadındadırmı?





KOMANDİR

Məni o illərə qaytardın düzü,
Onda sözüm vardı, indi savaşım..
Bir də tələbəyə deyilən sözü
Şairə söyləmək olmur, qardaşım.

* * *

Bir ətir yayılır isti qazandan,
Əziz nə bişirsə şəkərdi, baldı.
Fərzi qaranlığa boylanır bu an:
– Şirinlə Ələmdar harada qaldı?

Elə bil unudur bütün aləmi,
Torundan qurtulub düşüncələrin.
Əlini süfrəyə uzadan kimi
Həyəcan səsini eşidir Şirin.

Bir anda qırğıtək şığıyır çölə,
– Məni bağışlayın! – sözü bu qədər.
Baxır daşan çaya, kükrəyən selə
Qardaşı nigaran, şair mükəddər...

* * *

Ulduz-uzaq, işıq seyrək,
        külək küclü, sınaq çətin,
Şəkil-şəkil oğulların
        görürsənmi əzəmətin?
Hamısının sinəsində
        ocaq yanır, vulkan daşır,
Qollarına qurban olum,
        boylarına toy yaraşır.
Məktubları döş cibində
        əzizləyən əsgərlərin

Sinəsinə gecə-gündüz
ətri hopub səngərlərin.
Anasına and içərək
Vətəninə ana deyən,
Dağlarını arxa bilib
göllərinə sona deyən
İgidlərin sırasına
tamaşa et, təzim elə,
Baş əyirəm bu ərlərə
səsim ilə, sözüm ilə.
Baxışlardan nifrət yağır,
sinələrdən sevgi daşır,
Neçə aydır bu oğullar
silahlarla qucaqlaşır.
Alay hücum çəkən zaman
haray çəkmir, aman demir,
Vətən deyən qartallarım
şaxta demir, duman demir.
Dağ selinin nərəsi var
hər birinin gur səsində,
Ocaq nədir, tonqal yanır
igidlərin sinəsində.
Niyə azad olan kəndlər
əldən çıxıb düşür bəndə?
Son təlimat, son göstəriş...
Qazançıdan Sırxavəndə!

* * *

Sabahkı göz yaşı töhmət daşıdır,
Ütüklər, kötüklər Şirini yorub.
Çölündə düşmənlə qabaq-qarşıdır,
İçində xainlə üz-üzə durub.





Yayımdan çıxmasam yaram deşilər,
Yanan ürəyimi qəzəb soyutmur.
Vətəndən əzizi olan kişilər
Dar gündə Vətənin əlindən tutmur.

Qolun burulanda boyun burdunsa,
Mənzili məlumdur məndən ötənin.
Qərəzə, şöhrətə arxa durdunsa,
Demək axasından qaçdın Vətənin.

Neçə yol daş uçub, kəsilib kəndir,
Kiminə piy düşüb, kimisinə pay.
Neçə yol arxasız qalıb komandir,
Neçə yol tələyə düşübdür alay.

Dərsini vermirik haqqa qıyanın,
Ölsə qəhrəmandır, yaşasa dahi.
Şifahi töhmətə maya qoyanın
Bu gün cəbhədə də əmri şifahi.

Hələ görünmürdü oyunun sonu,
Biri layla çalır, biri yatırdı.
Daşına qıymayan Vətən oğlunu
Sapandlı kişilər daşa tuturdu.

Gözlərdə dan yeri, ürəkdə səhər,
Oyandı, oynadı dağ məhvərindən.
Əsgərlər şahintək düzülmüşdülər,
Alay tufan kimi qopdu yerindən.

* * *

Bu qeyrətə, bu gücə
Dağlar da baş əyirdi,
Alay düşmənin üstə

Çapırdı, yeriyirdi.
Kəşfiyyatçıda təhlil,
Nəzarətçidə xəbər,
Düşmənin mövqeyində
Bəlli idi qüvvələr.
Şirin yuxarılardan
Kömək umur, güc umur,
Komandan vəd edirdi
Üçtərəfli hücumu.
Vətənin qorunması
Baqqalın işi deyil,
Kişi tüpürdüyünü
Yalasa, kişi deyil.
Nə əhdini unudub,
Nə yolunu danmışdı,
Neçə dəfə inanıb,
Neçə yol aldanmışdı.
Səni, məni çaşdıran
Çit astardı, çit üzdü,
Göstərişlər şifahi,
Vədlər ağızda sozdü.
Qarnını döş bilənin
Qarnı döşdən aşırdı,
Vətəndən gen düşənlər
Vətəndən danışırdı.
Canından keçənlərə
Mükafat hədə idi,
Kimi istirahətdə,
Kimi cəbhədə idi.

Qələmimi yazanları
Bir dil bilsin, bir dodaq.
Gəl qeybətdən ayrılıb
Səngərlərə qayıdaq.





* * *

Sənin yazdığını yağılar silib,
Yoxsa ki, qazancın köçəri quşdu?
Qazançı düşməndən azad edilib,
Yenə də düşmənə təslim olmuşdu.

Qapı arxasında günahkar, günah,
Məram qeyrətindir, vəd minnətindi.
Hər dəfə sıfırdan başlasaq, vallah,
Sıfırdan yuxarı qalxmaq çətindi.

Söyülən usanmır, döyülən doymur,
Kim kimdən ürpənir, nə nədən keçir?
Dəmir dəllalları dəmirə qıymır,
Ürək sahibləri sinədən keçir.

Qınına girənlər qılığa girib,
Durub dayanıblar haqqın qəsdinə.
Yenə sinəsini qabağa verib
Alay yeriyirdi düşmən üstünə.

Dişə güvənəndən, döşə döyəndən
Gərək gözləyəsən müqəddəs yurdu.
Torpağı qorumaq istəməyəndən
Komandir hələ də kömək umurdu.

Yağışı ələkdən süzürdü bu yay,
Səs verən olmadı haraya, haya.
Arxaya arxayın olmayan alay
Bir günə yetişdi Ballıqayaya.

Susurdu fərmana qol çəkən saray,
Bu necə döyüşdü, bu necə sirdi?
Düşməni leş-leşə söykəyən alay
Gülləden, çörəkdən korluq çəkirdi.

Sinəsi atlanıb eşqi yanırdı
Ötüşən sıranın, ötən cərgənin.
Bayrağı beş kənddə dalğalanırdı
Barmağı beş yerə baxan ölkənin.

Bu hərbi xətalar özgə ədadır,
Qeyzi, qəzəbi var nazından betər.
Sağ cinah, sol cinah elə cidadır
Çuvalda kizlənib indiyə qədər.

Çiçəyin paydırsa, dərəcəyin vay,
Millət qismətini yeyə bilmədi.
Yerini neçə yol dəyişən alay
Sözünü yuxarı deyə bilmədi.

Orda nə dərs ara, nə də tərbiyə,
Alışan manqaldır, səngimir, sönmür.
Millətdən aşağı olan qəlbiyə
Ləzzətdən savayı heç nə görünmür.

Göstəriş, sərəncam şeytandan, cindən,
Yaxası açıqdır, yolu yoluxdur.
Hələ briqada komandirindən
"Dözün"dən savayı köməklik yoxdur.

Döyüşə-döyüşə düşübdür tora,
Bu necə kötükdür, bu nə çayırdı?
Tələ oyununda beş gündən sonra
Komandir yol gəzir, yol arayırdı.

* * *

Tankdan qabaqda keçdi
Komandir neçə bəndi,
Alay azad elədi





Düşməndən Sırxavəndi!
Qara bulud çəkilir
Qaraların başından,
Qaraların aq günü
Başlamışdı qışından.
Bu tərəfdə Şəhid var,
O tərəfdə gəbərən,
Bu qırğının sonunu
Hələ yox idi görən.
Lülələr od yağdırır,
Toplar od ələyirdi,
Daşdan da səs çıxırdı,
Başdan səs gəlməyirdi.

Düşür saçlarına təzə-təzə dən,
Mübariz çəkinmir mübarizədən.
Şairlər söyləmiş, gözəl gecədir,
Görür ki, komandir düşüncədədir.
Barmağı tətikdə, gözü o yanda,
Qovrulur qazanda, yanır tiyanda.
Amma inanmayır öləcəyinə,
Baxır sabahına, gələcəyinə.
Güllə paltarını yalayıb keçib,
Dava neçə dostun talayıb keçib.
Sınıb düyməsində qəlpənin dişi,
Ölüm də, qalım da Allahın işi.
Komandir hələ də xəyala dalır,
(Sərkərdə susanda əsgər qocalır.)
Tablamır bu qəmə, bu möhnətə o,
Uşaqtək gəlibdir məsləhətə o.
Qolundan güclüdür köksündə ürək,
Görən əmisinə nə söyləyəcək?

MÜBARİZ

Komandir görəsən nələri duyub,
Daşımız durmayır daşımız üstdə.
Əmim əllərini alnına qoyub,
Demək, təhlükə var başımız üstdə.

KOMANDİR

Qala tikən deyil, bürc qoyan deyil
Hələ gözlərinin yaşını tökən.
Şimali Qafqazdan bəs səni o il
Bilmirsən nə idi Vətənə çəkən?

MÜBARİZ

Bakıdan Ağdama səni gətirən
Müqəddəs döyüşə səslədi məni.
Kimisi becərən, kimisi dərən,
Çöldəmi, evdəmi gəzək düşməni?

KOMANDİR

Özgə vaxt olsaydı səni döyərdim,
Ağıllı balasan, qəlbin böyükdür.
Hitlerin əsgəri olsaq deyərdim,
Əsgərə döyüşdə ürəyi yükdür.

Vətəni qoruyan elin, ordunun
Düşməni çox olur, budur qısası.
Ana naləsinin, ana yurdunun
Qoyma qiyamətə qala qisası.





MÜBARİZ

Yurdun bir tərəfi südün gölündə,
Bir yanda qovrulur torpağı, daşı.
Mən ölsəm – Şəhidəm elin dilində,
Sən ölsən – mənimlə məzar yoldaşı.

Daşı dilim öpdü, torpağı dizim,
Köksümüz viranə, könlümüz talan.
Dörd gündür gözümüz dörd olub bizim,
Kömək də yalandır, hücum da yalan.

KOMANDİR

Qeyrət qıtlığı var döyülən döşdə,
Hərə öz sözünü yazası olur.
Hamıya mükafat düşmür döyüşdə,
Canını güdənin cəzası olur.

Gileyli danışma, gileyli dinmə,
Hələ sönməyibdir ümid çırağı.
Tufandan çəkinmə, çəndən çəkinmə
Axı qoruyursan ana torpağı.

Bəlkə dediklərin haqqın özüdür,
Bunlarsız da canım bir təndir kimi.
Hələ eşitdiyin əmi sözüdür,
İndi əmr edirəm komandir kimi!

"...Farağat!" əmridir bu soz əsgərə,
Sanki dərə susur, dağ qulaq asır.
Komandir bir ildə birinci kərə
Qardaşı oğlunu bağrına basır.

* * *

Anlar qurğuşun kimi,
Vaxtı ötürdü vədə,
Alay yol gözləyirdi,
Bölük mühasirədə.
Gözləri qızaranın
Yanağı saralmışdı,
Yuxusuzluq hamını
Yorub əldən salmışdı.
Nə arxadan xəbər var,
Nə bir cinahdan əsər,
El köçən yurd yerində
Payız yelləri əsər.
Əsirdi payız yeli,
Əsgərin ürəyində,
Güllə yeri var idi
Vətənin kürəyində.
Elinə qurban kişi
Yurd kimi alışırdı,
Gecənin bu vədəsi
Kimlərlə danışırdı?

NAZPƏRİ XALA

Görüm zalımları gəlsin zavala,
Bulaqdan arx çəkib gözümə kədər.
Bu gecə yuxuma girmişdin, bala,
Oyanıb ağladım səhərə qədər.

KOMANDİR

Ağlama, sındırır sular səhəngi,
Üç aylıq, beş aylıq yuxulardan keç.
Ay ana, o qədər güləçəksən ki,
Ağlamaq ağlına gəlməyəçək heç.





FLORA

Sənin Aynurunun açmır çiçəyi,
O dağlar şaxtamı, o yerlər qarmı?
Elsevər saxlayıb təzə köynəyi
Sənin Xankəndinə, xəbərin varmı?

KOMANDİR

Evdən söz açmıram mən əsgərlərə,
Bir də ki, sən varsan, nə qüssə, nə qəm?
Qorxuram uşaqlar yuxuma girə,
Onunçun gözümü yuma bilmirəm.

RAMİL

Ömür çiçəkləyir budaqlar kimi,
Dostlar fərəhlənir, Vətən öyünür.
Geri qaytardığın torpaqlar kimi
Ömür geri dönür, gun geri dönür.

KOMANDİR

Səsim bəndə düşüb, yolum düyünə,
Geçəm qaranlıqdır, gündüzüm zülmət.
Vallah zarafatdan qalmırsan yenə,
Nəyimlə öyünür, axı, bu millət?

Sənin də kirpiyin qapanmır axı,
Vətən başdan-başa səksəkəlidir.
Deyən içimizdə kök salan yağı
Çöldəki düşməndən təhlükəlidir.

ŞAİR

Şərqi də, haray da yanan dilimdə,
Yayda da, qışda da bir köynəyim var.
Mənim ürəyimdə, mənim əlimdə
Qələmdən savayı axı nəyim var?

KOMANDİR

Səmtini itirib bu ağır gəmi,
Nə hayın kükrəsin, nə ağın gəlsin.
Hələ döş cibində saxla qələmi,
Şair, varaqlara yazığın gəlsin.

Gah anası danışdı,
Gah da həyat yoldaşı,
İçinə süzülürdü
Komandirin göz yaşı.
Ayağının altından
Torpaq sürüşdü onun,
Dostlarından tək biri
Yadına düşdü onun.
Söz də qılınc kimidir
Belə vaxt, belə dəmdə.
Komandirin əmridir,
Söz də susur, qələm də!

* * *

Məktublarda tələb, zənglərdə haray,
Qurtula bilmirdi Şirin hədəfdən.
Siyasi oyuna girməyən alay
Nişangahda idi neçə tərəfdən.





Göydən od yağsa da sınmayırdı buz,
Gözümü yaş örtür, torpağımı qan.
Əsgər paltarında neçə dələduz
Vəzifə umurdu yuxarılardan.

Kimi villasında, vəzirliyində,
Haram qatmayırdı daş yuxusuna.
Hələ müdafiə nazirliyində
Gedib başbilənlər qış yuxusuna.

Şərəfsiz adama şillə də əbəs,
Fərman da, dərman da batan bütlərdə.
Vətən torpağını qorumalı kəs,
Milçək ovundadır kabinetlərdə.

Sabah bərq vuracaq çiyinlərdə çin,
Kimlərsə kimdənsə "malades" alır.
Biri tank istəyir döyüşmək üçün,
Biri arvadına "mersedes" alır.

Başımın üstündə tutub səlbəni,
Mənim öz əlimdir özümü döyən.
Düşmənlərlə deyil, müharibəni
Ölkə özümüzlə aparır deyən.

Qayalar diksinir güllə səsindən,
Əsgərlər nə yatır, nə də dincəlir.
Vallah mühasirə təhlükəsindən
Sanki məğlubiyyət qoxusu gəlir.

Çox görüb çox kütün kələklərini,
Uca səsləri var, soyuq qanları.
Yerə verməsə də kürəklərini
Komandir anlayıb bu oyunları.

Odun, közün içində,
Yolu yarğandan düşür.
Qanadları qırılmış
Bir qartalla görüşür.
Döyüşür zirvə üçün,
Səsindən tük ürpənir.
Nə diki çıxa bilir,
Nə qanadı tərpənir.
Ancaq dərəyə sığmır,
Gözləri göylərdədir,
Yaralı qartal bilir
Yarğan nə, göylər nədi.
Gündən-günə perikib,
Sonalar göldən gedir.
Qartallar can verəndə
Zirvələr əldən gedir.
Bu da Şirinə dərddir,
Bu da Şirinə qübar.
Şəhid oğullar kimi,
Şəhid qartallar da var.
Sinəsi körük təki,
Baxışlarında ocaq:
-Biz dağlardan endiksə,
Zirvə sara qalacaq.

Qırmızı güllələrdən
Lələkləri yanıbdır.
Çiçəklər qan içində,
Daşlar xınalanıbdır.
Sən də yurda sipərsən,
Sən də səngər yoldaşım.
Əlvida, dağlar oğlu,
Mənim qartal qardaşım!





Göz-gözə dayandılar,
Ürəklərində bir dağ.
Baxışdılar beləcə,
Ayrıldılar bu sayaq.

* * *

Hamı susub daş kimi,
Qəzəblidir pələngtək,
Gözləyirlər, görəsən
Komandir nə deyəcək.
Elə sınıb deyirsən
Qanadı qırıq quşdu,
Daha komandirin də
Təmkini pozulmuşdu:
– Başınızı dik tutun,
Düzəldin qəddinizi!
Bu döyüşdə gözləyir
Olumla ölüm bizi!
Andımızda haram yox,
Adımızda bir ləkə.
Cinahlar düşməndədir,
Çaylaq tələ, təhlükə.
Bu kişi döyüşüdür,
Qalib gəlin qorxuya.
Sol cinahı yararaq
Çəkilirik arxaya!
Ər kimi ölənləri
Analar bağışlayır,
Yarım saatdan sonra
Əməliyyat başlayır!

...Beş kənd, beş günlük hücum
Beş illik zülüm idi,
Bu döyüşdə ləngimək
Könüllü ölüm idi.
Başdakılar alaya
Nə sahib, nə yiyədi,
Sabahı görənlərin
Yolu gələçəyədi.

Neçə vaxdır dəstəyi
Yerə qoymur komandir:
- Diqqət!
Toplar başlasın!-
Dağlar lərzəyə gəlir.
Mərmilər yeri eşir,
O tərəfdə, bu yanda,
Buğda kimi qovrulur
Torpaq isti tiyanda.
Yenə qada, yenə qan,
Nərə çəkən, hayqıran!
Güvənib dizlərinə,
Ölümün gözlərinə
Baxır əsgərlərimiz.
Qanlı səngərlərimiz
Dastandır, ağı deyil,
Analar ağı deyir.
Yazımı qış aparır,
Gozümü yaş aparır.
Güllələr qıpqırmızı,
Lülələr qıpqırmızı.
Yer yerindən ayrılır,





Mühasirə yarılır!
Komandirin boğazı
Dodağı qupqurudu.
Şəhid versə də, amma
Bir alayı qorudu!
Qalib deyildi yağı,
Açıq-aşkar mat idi.
Alt-üst oldu çox niyyət,
Alay yaralı idi,
Alay salamat idi!

* * *

Dada yetişmədi yalançı dostlar,
Kimlərsə Vətənin qəsdində idi.
Yenə müharibə, yenə də postlar,
Komandir tikanın üstündə idi.

Rəngi bulansa da çeşmənin, çayın,
Yolundan, sözündən o dönməmişdi.
Köksünü düşmənə gərən alayın
Kürəyi kürəyə söykənməmişdi.

Necə yozulacaq cani, cinayət,
Millət tanımasa namərdi, mərdi?
Bilsəydi xainlər kimlərdi, əlbət
Elə yerindəcə güllələyərdi.

Hələ kömür kimi qaradı qanı,
Nələri əkmişdi, nələri dərdi.
Bir xəbər bürüdü eli, obanı:
– Şirinin alayı qırx itki verdi!

Saralıb yarpağı, solub çiçəyi,
Canı cəhənnəmdə, ruhu qisasda.

Qırx yerə bölünüb onun ürəyi,
Alay komandiri qırx evdə yasda.

Atlar cidarlanıb, yabılar yortur,
Əsgərlər bayılır bir soyuq səsdən.
Qulaqlar şayəni göylərdə tutur:
- Şirin uşaqları qırdırıb qəsdən.

Qızıl ağıl deyil gümüşü papaq,
Altındakı ləçək görünür bu gün.
Şərə şəraiti yaradan alçaq
Şərin quyruğunda sürünür bu gün.

Yenə qıl verənlə düzüb işləri
Corab hörürdülər, yun didirdilər.
Ellərin oğluna böhtanı, şəri
Elin ağzı ilə dedirdirdilər.

Gündə söz almasa kar olar qulaq,
Gədalar haranı iylәmişdilər?
Nazpəri nənəni neçə il qabaq,
Az qala erməni eləmişdilər.

– Əyləşin maşına, Qəzənfər, Həsən,
Gedib baş çəkəyin o biri taya.
Minib UAZ-ına bir gün obaşdan
Sürdürdü maşını Şıxbabalıya.

Anası yatmayıb gecə sübhəcən,
Sevindi, şadlandı bir zarafatdan:
– Ay ana, erməni olduğunu sən
Niyə gizlətmisən bu camaatdan?





O gün qəh-qəh çəkdi Nazpəri xala,
Sonra qaçqın gözü büründü nəmə:
– Bıy başıma xeyir, sən Allah, bala,
Evi "Quran"lıyam, günah eyləmə.

Dolacaq bulud da, daşacaq sel də,
Qar yazda yağırsa, qalan qar deyil.
Ay Nazpəri nənə, heç bir əməldə
Alay komandiri günahkar deyil.

Döyüş nə qeybətdi, nə də ki, nağıl,
Güllələr, mərmilər dəyir hədəfə.
Düşmənlə göz-gözə dayanan oğul
Ölümlə üz-üzə gəlib yüz dəfə.

Başı daşa dəyib bu məmləkətin,
Namərdin zatı var, mərdin əsli var.
Torpağı böhtana batan millətin,
İçində deyəsən şeytan nəsli var.

Ahıl döyüşçünün sözünə baxın:
– And olsun Allaha nə qədər sağam,
Adının üstünə qara yaxanın
Bir gün anasını ağladaçağam!

- Ay kişi, partlama, yenə bombatək,
Posta baş çəkirəm, bunlar hədərdi.
Gəlin içimizdə düşmən gəzməyək,
Bizim düşmənimiz ermənilərdi.

* * *

Əlli yaşlı döyüşçü
Hələ gözün döyürdü.
UAZ nərilti ilə
Gədikdə şütüyürdü.
Heç kəs deyə bilmədi
Dayan, cənab komandir!
Oyan, cənab komandir!
Getmə bu qara yolu,
Ölümü, itimi var,
Alayın yetim qalar!
Kimin dalağı sancsa
Varlığından keçərdi,
Başqa yolu seçərdi.
Həyatında bircə yol
Lənət deyib bir ömrə,
Tabe olmazdı əmrə.

Gah ayaq badalaqda,
Gah da başa daş dəyir,
Ordu bazar deyil ki,
Burda nizam-intizam,
Burda qanun işləyir.
Qaraların ağ günü
Hələ yaddaşımızda,
Sapand daşına dönüb
Bizim savaşımız da.
Qardaş, demə Qaralar
Qara taleli bir kənd.
Mərmi şumlayan yerin
Varlığı bir tükə bənd.
Bir Mübariz döyüşçü,
Bir Mübariz sürücü,
Mərdlikdə, mətanətdə





Hər biri qala bürcü.
Tahirin tankı hanı,
Gözləri yollardadır
Obada neçə qızın,
Köynəkləri qanlıdı
Yavər ilə Arazın.
Son tapşırığı verir
Komandir əsgərlərə,
Dastan deyir sinələr
Yenə də səngərlərə.
Maşın geri qayıdır,
Yox, bu son qayıdışdı,
Əcəllə araları
Bəlkə onca qarışdı!
Bu da son saniyələr,
Qaşla gözün arası,
İndicə doğulacaq
Yurdun təzə yarası!

Bir partlayış, təlatüm,
Bir qorxunc, vəhşi nida,
UAZ birdən elə bil
Topa dönür havada.
Elə bil yerə çökür
Qara şal, qara bulud,
Ardınca iniltilər,
Ardınça ölü sükut...

Danış, sonunu danış,
Ürək, susmağın nədi?
Yoxsa "ölüm" sözünü
Qələm yaza bilmədi?

* * *

İl yarım bu mahal ona güvəndi,
Hələ neçə tufan qoparacaqdı.
Sükuta dalıbsa Şahbulaq kəndi,
Göz yaşı Ağdamı aparacaqdı.

Bu millət nə quldu, nə qaravaşdı,
Doyüşdə nəyi var qanından şirin.
Bu Vətən kiminə qayadı, daşdı,
Bu Vətən Şirinə canından şirin.

Buludtək dolmuşdu, şimşəktək çaxdı,
Əlləri üşüdü, ürəyi bişdi.
Şirin torpaq deyə ayağa qalxdı,
Qəhrəmanlıq haqda düşünməmişdi.

Sona yetirmədi o haqq işini,
(Təpələr zirvəyə pillələr idi.)
Yorğanı bir şinel olan kişini
Yuxudan oyadan güllələr idi.

Alaya tapşırdı bu dağları da,
Özü o səngərə qayıda bilməz.
Daha anasının ağıları da,
Şirini yuxudan oyada bilməz.

Beş cəsəddən üçü Mirzəyev idi,
Döz görüm bu dağın qara daşına.
Üç tabut, üç igid...
Fərzi bilmirdi
Oğluna ağlasın, ya qardaşına,

Neçə qara xəbər, neçə qara qan
Yazıq anaların qara şalıdır.





Daha bir partlayış, daha bir qurban,
Gör nə qədər ölüm müəmmalıdır!?

Durnalar beləcə lələk salırdı,
Neçə yol sümüyə dirəndi bıçaq.
Bəlkə düşmən idi, qisas alırdı,
Bəlkə aramızda gəzir o alçaq.

Bizə nə çataçaq umu-küsüdən,
Əməli sirdirsə çox qəmələrin?
Hakim oxuyacaq qəlbi kürsüdən
Hökmünü gələcək məhkəmələrin.

Yatır Xiyabanda nərlər, igidlər,
Neçə and yeri var bizim ölkədə.
Burda sıravilər, burda zabitlər,
Eyni sıradadır, eyni cərgədə.

Gülən gözlər gördüm, açan könüllər,
Mənim taleyimə şikəstə düşüb.
Harda həlak olub qırmızı güllər,
Məzarın üstünə üz üstə düşüb?

Qəbir kimə harda qazıla, qardaş,
Kim harda tapacaq bir addım yeri?
Getmişdin Şəhidlər azala, qardaş,
Getmədin Şəhidtək dönəsən geri.

Gündə yüz nəmli göz öpəcək səni,
Qonaqlı-qaralı şəhər yeridi.
Bura kövrəldəcək Elsevərini,
Bura Aynurunun qəhər yeridi.

Ruhun nigarandı, adın təmizdi,
Şama vurulmuşdun, bu da od yeri.

Mənim dolaşdığım Vətən əzizdi,
Sənin uyuduğun torpaq – and yeri.

Adının üstünə qara çəkənlər,
Qara keçə kimi əriyəcəkdir.
Mənim sözlərimi dara çəkənlər
Sənin ayağına yeriyəcəkdir.

Ayağa qalxacaq bu qada, bu qan,
Axırı deyil ki axı cahanın.
Sənin uyuduğun bu lal Xiyaban,
Tarix kitabıdır Azərbaycanın!

***Bakı - Bilgəh. Yanvar 1998 - aprel 1999.***





# İLMƏLƏRİN DASTANI

*(Poema)*

***Torpaqlarımızın bütövlüyü uğrunda ermәni işğalçılaprına qarşı döyüşlәrdә Şәhid olan neçә-neçә Azәrbaycan övladının şәklini ilmәlәrlә xalılara köçürәn Bakıdakı 1№-li uşaq evinin balaca xalçaçılarına hәsr edirәm.***

**Müәllif.**

Oynayırlar, gülürlәr
Güllәrә sinә-sinә,
Uşaqlar oxşayırlar
Bәnövşә dәstәsinә.
Ayaqları xınalı
Kәklik xapaxap gәlir,
Adaq-çiçәkdәn keçib,
İndi mәni tap gәlir.
Ağ papaqlı ağ oğlan
Ağ atını çapacaq,
Harda gizlәnibdilәr,
Onları kim tapacaq?
Hәlә div yuxusunda,
Hәlә cırtdan oyaqdır,
Onlar gah bizә yaxın,
Onlar bizdәn uzaqdır.

Yuxulaprdan boylanır
Quzular әlçim yuna,
Sәn dә qolunu qaldır
Hәyatın oyununa.
Bu zavallı zamanın
Özgә gizlәnpaçı var,
Gizlәnmirik, görürlәr,
Gizlәnirik, tapırlar.
Gizlәnpaç oyunudur,

Qazanları qaynadır,
Bizə dirsək göstərir,
Uşaqları oynadır.
Səni itirənlərin
Dərdi sinəmdə dağdır,
Sən kimdən gizlənirsən,
Səni kim tapacaqdır?..

Canı var cinlərin də,
Damı var divlərin də.
Uşaqlar oynayırlar
Öz uşaq evlərində.
Günel – gün kimi gözəl,
Sevda – adına tuşdu,
Türkan – türk balasıdı,
Güllər – gülə uyuşdu.
Çinarə – çinar qızım,
Nərgiz – yaz çiçəyimdi,
Samirə – səs-səmirsiz,
Elmurad – biləyimdi.
Pərvanə – ocağımın,
Odumun pərvanəsi,
Ay nuru Aynurəmiz
Adımın pərvanəsi,
Bu Gülbəniz, bu Elvin,
Bu İbrahim, bu Rəşan,
Adları, muradları
Vətənimə yaraşan.
– Bəlkə bir hana quraq,
Mənası var hər sapın.
İlmələr söyləyəni
Siz axtarın, siz tapın.





Yaralı, yarımçıq gizlənpaç qalıb,
Hanı sinəsinə döyən varaqlar?
Mənim ürəyimi əlimdən alıb
Məni də oyuna çəkdi uşaqlar.

* * *

Bəzən qıfıllanır dodaqları da,
Göyündə, gözündə şimşəklər çaxır.
Uşaq evlərinin uşaqları da
Dünyanın gözünə sualla baxır.

Nədi kölgə salan baxışlarına?
Bu qoca dünyada intizar onun.
Yazın çiçəyinə, qışın qarına
"Niyə"dən savayı nəyi var onun?

Nələrə səngərdir bu körpə sinə,
Dadını, dərdini yoxsa dərən yox?
Onun taleyinin bir "niyə"sinə
Yiyə duran olur, cavab verən yox.

Doğulduğu gündən qəm yeyənlərin
Qələmdən qəbirə öz duası var.
Atasız, anasız böyüyənlərin
Dünyaya atalıq iddiası var.

Hardasa yaşayır özündən uzaq,
Əyninə, başına bəzək istəmir.
Yetimlik sözünü anlayan uşaq
Dünyanı özü tək görmək istəmir.

Sən də düşünürsən o qanan zaman,
Tutursan dumanın ətəklərindən.
Bir büstün önündə dayanan zaman
Sual oxuyursan bəbəklərindən.

İçində ağlayır o için-için,
Hər ayın, hər ilin öz kirkirəsi.
Qoltuq ağacına söykənən gəncin
Uşaq evindədir müzakirəsi.

Dünya qəm üstündə kökləyib onu,
Bunu mizrab ilə sim yaxşı bilər.
Davanın, qırğının nə olduğunu
Uşaq evlərindən kim yaxşı biləp?

* * *

Tüstüsünü yadırğayıb
Qaçqın evim, qərib bacam,
Dağı, daşı silkələyib
Yuxusundan oyadacam.
Bu torpağı kim qarğıdı,
Kim dedi ki, yan içində?
Məmləkətin bir tərəfi
Od içində, qan içində.
Ürəyimin giziltisi
Ərşə qalxır, göyə çıxır,
Torpağımda doğulmayan
Torpağıma yiyə çıxır.

Qazilərim, qaçqınlarım,
Şəhidlərim, yetimlərim...
Yağış kimi yurda yağıp
Ölümlərim, itimlərim.

Qaçanlar biz, köçənlər biz,
Öz qanını içənlər biz.
Dağlar qalır tapdaq altda,
Bağlar qalır tapdaq altda.
Salxım söyüd saçın yolur,





Tər bənövşə xəzəl olur.
Qan ağlayır buz bulaqlar,
Göy talalar, qız bulaqlar.
Od içində bişənlərdə,
Can hayına düşənlərdə
Nə qol qalır, nə diz qalır,
Evi olan evsiz qalır.
Pulu olan pula möhtac,
Qolu olan qola möhtac.
Ürəkli də imtahanda,
Çörəkli də imtahanda.
Xain əllər gülə baxır,
Xanım gəlin ələ baxır.
Atı olan piyadadır,
Bilmək olmur nə dünyadır.
Bu dünyanın vəhşiləri,
Kişiliksiz kişiləri
Nişan alır arxasızı,
Axan qanı arxa sızır.

Qana həris qırğınların
Tələbi bu, tərifi bu!
Yalı artıq köpəklərin
Kələyi bu, kələfi bu!
Ataların çəkdiyini
Bəla bilir, bala bilmir,
Neçə ana körpəsinə
Təzə paltar ala bilmir.
Başına cəm olmayırlar
Başı qatan balaların,
Daha nazın çəkən yoxdur
Şəkər-şeytan balaların.
Atasızlıq körpələrin
Ürəyində bir yük olur,

Davaların, qırğınların
Şeytanları böyük olur.
Söndürürlər çıraqları,
Soldururlar yanaqları
Böyük-böyük ölkələrin
Böyük-böyük barmaqları,
Böyük-böyük maraqları.

Tanıyıram alovundan küləcən,
Sazaq onun, şaxta onun, qar onun.
Ocaq yanır, tüstü qalxır beləcə,
İsinəni, kor olanı var onun.

Əli bir yol enməyibdir dizinə,
Dünyalıqdır belə ləzzət, belə dəm.
Anamızdır, ağ olmuruq üzünə,
Hikkəsinə, şilləsinə bələdəm.

Qayçılayır, qamçılayır qananı,
Dərdim bilmir hansı dağa güvənə.
Bir də gördün üç uşaqla ananı
Yola saldı dünya uşaq evinə.

Tufanları üstümüzə əsdimi,
Çillələri gözümüzdə qışlayır.
Dünya ilə haqq-hesabı kəsdimi,
Uşaqların öz dünyası başlayır.

Atalar var, astarında, üzündə
Həsrətimiz, qeyrətimiz odlanır.
Analar var, şaxta vuran gözündə
Uşaq evi pənah evi adlanır.





Saralıbdır bənizi,
Əlləri tir-tir əsir,
Soraqlayıb ünvanı
Ana hara tələsir?
Hara gedir zavallı
Yanağı yaş içində?
Bu dünyanın göyü də,
Yeri də daş içində.
Yaxşılarmı tükəndi?
Yamanlarmı çoxaldı?
Ata Şəhid olandan
Ana arxasız qaldı.
Yanaqları od tutur,
Sızıldayır qolları,
İki körpə fidanı
Dartır küləyə sarı.
Nəşəli, qəmli həyat
Ölümlə üz-üzədir,
Döyüş, zavallı qadın,
Həyat mübarizədir.
Sənin saydıqlarını
Fələk özü sayacaq,
Sənin kəbin kağızın
Muzey tanımayacaq.
Öz eşqinə güvənib
Öz nəfsini boğmusan,
Ölmə, ölsən körpəni
Demək ölü doğmusan!

Bu da həmin darvaza,
Ana heykələ dönür.
Arzuları diz çöküb
İmekləyir, sürünür.
Ananın son sözüdür

Bu ünvana gəlişi,
Qarışıb bir-birinə
Uşaqların gülüşü.
Onun kimi çox ana
Bu evi soraqlayıb,
Bu açılan qapılar
Neçə baxtı bağlayıb.
İrəli getmək çətin,
Geri qayıtmaq əbəs,
Onu düşüncələrdən
Ayırır mehriban səs:
Yazın da, payızın da
Durnaları köçəri,
Niyə durdun, dayandın?
Ay qızım, keç içəri.
Nə gözəl balalardı,
Hər birisi bir çiçək.
Onlar bu körpələrdən
Sabah seçilməyəcək...

* * *

Müdir sənəd soruşmur,
Bu nağıldı, yuxudu?
Anacan bu ananı
Gözlərindən oxudu:
– Həmişə soyuq-soyuq
Əsməyəcək küləklər,
Bir gün çanta götürüb
Məktəbə gedəcəklər.
Cərgəyə düzülərək
Şərqi oxuyacaqlar,
Ağacdan at düzəldib,
Xalı toxuyacaqlar.
Onları tanıyacaq
Düşərgə də, saray da,





Onlar boy atacaqlar
Gündə bir darı boyda.
Başlarına yağacaq
Çiçəklər qucaq-qucaq,
Neçə möcüzəli səs
Burdan qanadlanacaq.
Haçansa nur saçacaq
Onların da çırağı,
Vətən yetim deyil ki,
Vətən anadır axı!
Vətən yaşayacaqdır!
Vətən yaşadacaqdır!

* * *

Barmağı bal tutan kefini sürdü,
Belimiz əyildi daş şələsindən.
Məmləkət nə qədər qan-qada gördü
Qonşu hiyləsindən, yad tələsindən.

Dünya nəf görəndə bizə kəf gəlir,
Dünya hələ bizə naz satmayıbdır.
Uşaq öz dərdini unuda bilir,
Vətən öz dərdini unutmayıbdır.

Calaqdı, qaynaqdı şirinim, acım,
Dişimə sıxdığım baş barmağımdı.
Mənim mükafatım, mənim qazancım
Bəlkə itkilərdən danışmağımdı.

İpini, sapını yığa bilmədik,
Daşdan sonra gəldi dəmir səlbələr.
Dünyaya doyunca baxa bilmədik,
Qatdı başımızı müharibələr.

Bu sözdən diksindi dil də, qulaq da,
Bu isti tavada canımız cızdaq.
Qurub-yaradanlar dursun qıraqda
Davadan danışaq, qırğından yazaq.

Gözümüz kədərli, yanağımız yaş,
Dərsini vermirik qan hərisinin.
Birinin yarası sağalmır, qardaş,
Oduna yanırıq o birisinin.

Yarpaq tək titrədik haqqın üstündə,
Hər millət yaşatdı öz sənətini.
Bir cılız, bir cığal tayfa üstündə
Ölkələr köklədi siyasətini.

Dünyanın başında fırlanır yalan,
Bu yazıq dünyamız nə işə düşüb.
Mənim dünənimdən xəbərdar olan
Mənim sabahımdan təşvişə düşüb.

Qulağımda qılıq, çənəmdə hədə,
Başımdan tanıdı qara daş məni.
Sərhədim içimdən çəkilən vədə
Can mənimki oldu, caynaq düşmənin.

Yandıq içimizi biz yeyə-yeyə,
Yağı əllərinə qızıl cam aldı.
Mən öz tariximi yazmadım deyə
Tarix millətimdən intiqam aldı.

Qəzəbi, nifrəti qoyma dəmə sən,
Yaralı bir ölkə para-paradı.
Bu günkü sözünü bu gün deməsən,
Sabahın yanında üzün qaradı.





Başına bəladır bəşəriyyətin,
Əlində, dilində qıl kəməndi var.
Müharibə adlı quduz bir İtin
Bütün məmləkətdə möhür-bəndi var.

Dərdinə şərikəm obanın, elin,
Sevib əzizləyən deyiləm canı.
Vaxtınız var isə ardımca gəlin,
Bir azca dolaşaq Azərbaycanı.

* * *

Dünyanın dilinə yaddır tövbələr,
Dizinin altında çox qurbanları.
Uşaq bələməyib müharibələr,
Davalar doğubdur Xiyabanları.

Bu qanlı əllərdən yox sovqat uman,
Çillədən yaddaşda soyuq qış qalır.
Bir yol nərə çəkib bağıran zaman
Layla perik düşür, beşik boş qalır.

Nə gözüm kor oldu, nə dözüm qaldı,
Yüz eldə, obada çırağım söndü.
İgidlər Vətəni çiyninə aldı,
Şəhidlər çiyində geriyə döndü.

Dağı kündələyib daşı yoğursam,
Düşmən nifrətimdən dərd dərəcəkdi.
Soyuq məzarlarla yz-yzə dursam,
Xiyaban qarşımda hönkürəcəkdi.

Harayla bu yerə qonum-qonşunu,
Yoxsa başdaşını daş biləcəksən.
Ayaq üstündədir bu daş qoşunu,
Diz çöküb baxanda kövrələcəksən.

Ağlayan danışır, ağladan dinmir,
Sükut tac eləyib ağrı-acını.
Burda qızıl gülün ətri bilinmir,
Burda qızıl güllər yolur saçını.

Payıza baxıram, yaz gözə dəymir,
Qaralan yaylıqlar qaralan ocaq.
Qırmızı paltarda qız gözə dəymir,
Qəbirlər qırmızı geyinib ancaq.

Ləçəkdə şehi də müqəddəs, ulu,
Torpaq xınalanıb Şəhid qanından.
Səngərə dirənən Vətənin yolu
Başlanır Şəhidlər Xiyabanından.

Könlümə, ruhuma şirindən şirin
Ovcumun qabarı, alnımın təri.
Şəhidin ruhuna and içməyənin
Sevgisi yarımçıq, andı ötəri.

* * *

Bu alnımın yazısı,
Bu qismət, bu da təlaş.
Necəsən, Vətən oğlu?
Necəsən, qaçqın qardaş?
Necə badalaq gördün
Zamanın döngəsindən,
Hələ doya bilmədik
Çadır düşərgəsindən.
Cahını-cəlalını
Qiyamətə dəyişdin,
Daş evi, daş hasarı
Niyə çitə dəyişdin?





Qurban olduğum çörək
Səni sınağa çəkdi,
Qala qorumayana
Çadır neyləyəcəkdi?
Yardım, yanacaq, yalan...
Neçə cür pay verirlər,
Torpağından savayı
Sənə hər şey verirlər.
Sən baxırsan yadların
Əllərinə, üzünə,
Sən baxa bilməyirsən
Övladının gözünə.
Ahıllar köçün sürür,
Cavanlar qocalırlar,
Ərgənlər ev olmayır,
Qızlar yurdda qalırlar.
Gücün çatmaz bu dərdə,
Dərdi dağdır Vətənin.
Dağlara boylanmaqdan
Boynun əyilib sənin.
Göylərdə ulduzun var,
Qardaş, qəddini qaldır.
Sənə çadır quranlar
Bayrağını ucaldır.
Talehin, tarixin var,
Dünya bələddir sənə,
Sən sığışa bilməzsən
Çadır düşərgəsinə.
Muğan pambığı kimi
Papağın yandı gündə,
Oğlunun çapdığı at
Dövrə vurur yerində.
Çadırlar çiçək kimi
Saralacaq, solacaq,

Yaylaq bizim deyilsə,
Yaylıq bizim olacaq.
İndi əlim çatmayan,
İndi ünüm yetməyən
Hansı kənddən danışım?
Mən nə qədər od tutum,
Mən nə qədər alışım?
Uşaq bağçalarında
Uşaqlardan əsər yox,
Mənim göz yaşlarımda
Qətiyyət yox, kəsər yox.
Oyuncaqlar da əsir,
Oyuncaqlar da girov,
Hardan hara qədərdi
Bu qaçaqaç, qovhaqov?
Qaniçən cəlladları
Mənim qanım doyurmur,
Qışım qış üstə gəlir,
Daşım daş üstə durmur.
Anaların saçına
Çən düşür, qar ələnir,
Bağçalar yetim qalır,
Məktəblər güllələnir.
Güllələnir Üzeyir,
Güllələnir Natəvan,
Güllələnir Bülbülüm,
Gözümə yağır yağış,
Üzümə gülür ölüm.
Ruhu ilə sızlayır
Seyid əmi, Xan əmi,
Fatihələr bürüyüb
Bütün eli, aləmi.
Vətən yas içindədir,





Qarabağ qeylü-qalda,
Yuxusunu itirib
Bu millət də, mahal da.
Şuşa da əsir düşür,
Laçın da əsir düşür,
Həftələr həftəbazar,
Aylar belə ötüşür.
Çoxalır məmləkətdə
Hələ yetimlər, dullar,
Xocalının dərdinə
Dərman gəzir oğullar.
Vətəndən ayrı düşüb
Kəlbəcər aralanır,
Ağdam yarımcan olur,
Füzuli yaralanır.
Qubadlıdan köçürük,
Cəbrayıldan köçürük,
Zəngilandan köçürük.
Bayatı deyə-deyə
Biz Vətəndən keçirik.

Mən cəngə girməliyəm
Səsimlə, savaşımla,
Yoxsa neyləyə billəm
Döyüşməyən qolumla,
Düşünməyən başımla?
İynələrin gözündən
Gələn nur bizlik deyil,
Xanım kimi doğulan
Gözəl kənizlik deyil.
Bəsdi, mənim gül balam,
Ürəyinə qıymışam,
Yadları dinlədikcə
Ağızlardan bezmişəm,

Çənələrdən doymuşam!
Yurda qayıdacaqsan,
Zəfər günü öndədi!
Qələbənin sevinci
Sənin gözlərindədi!

* * *

Öyrət kövrəlməyi, öyrət döyüşü,
Sənə sevinc dərim, göz yaşı dərim.
Salam, uşaq evi, uşaq gülüşü,
Salam, böyük dərdim, böyük kədərim.

Hamıya hər yerdən görünən yolun
Bar verər bağçası, ucalar evi.
Uşaq evlərinə sürünən yolun
Sonuncu mənzili qocalar evi.

Təzəcə gül açan budaqlar gördüm,
Üstünə siyirdik söz baltasını.
Üstümə yüyürən uşaqlar gördüm,
Demə axtarırmış öz atasını.

Uşaqlar görəni görməmişik biz,
Bu ayrı zülmətdir, o ayrı işıq.
Dünyanı onlara verməmişik biz,
Dünyanı onlardan oğurlamışıq.

Bir hasar içində keçib günləri,
Olanı, qalanı sayımmı bir-bir?
Ana qollarından gen düşənləri
Ata nəvazişi isitməyibdir.

Çölündən qorxanda bu qoca cahan
İncəlib sığışar uşaq evinə.





Böyüklər evini dağıdan zaman
Uşaqlar yığışar uşaq evinə.

Burda çörək də var, burda can da var,
Onlara baxasan nəğmə ötəndə.
Burda ana da var, anacan da var,
Yuxusuz qalan da, dil öyrədən də.

Bəxti bəlayində neçə bəbənin,
Nə yadı söyürlər, onlar nə bizi.
Qırğının, savaşın müharibənin
Uşaq evlərində döyünür nəbzi.

Bəzən üzdə olur həyatın dibi,
Oyur sinəmizi qanlı tiyəsi.
Ana günahkarsa – qınaq sahibi,
Ata müqəssirsə – söyüş yiyəsi.

Biri gəlinciklə qol-boyun yatır,
Biri qol qaldırıb bu vurhavurda.
Bir zənbil hamının dadına çatır,
Bir qazan hamını doyurur burda.

Məhəbbət sarıdan könülləri tox,
Onlara haradan dərdik dərdi biz?
Uşaq evlərində böyük uşaq yox,
Uşaq evlərində böyük dərdimiz.

Başına dolanıb neçə bəlanın
Qəlbimlə gəlmişəm bu dağ evinə.
Atası cəbhədə Şəhid olanın
Neçəsi sığınıb uşaq evinə.

Kasıblıq da gördü yazıq millətim,
Vətən – cənnət bağı, Vətən – qan gölü.

Neçə imkansızın uşağı yetim,
Neçə papaqlının papağı ölü.

Davanın nə qədər bəd nəfəsi var,
Əllərində yaraq, gözlərində kin.
Arada bir güllə məsafəsi var
Soyuq səngər ilə uşaq evinin.

Bircə xarıbülbül dərməyən uşaq
Nə xına tanıyır, nə xallar bilir.
Hələ Qarabağı görməyən uşaq
Qarabağ barədə nağıllar bilir.

Dizini qucaqlayıb
Xəyallara dalıbdır,
Qızcığaz dünya ilə
Yenə tənha qalıbdır.
Əsir alıb uşağı
Öz aləmi, öz səsi,
Didir körpə qəlbini
Xəyalı, düşüncəsi.
Oxuduğu məktəb də
Sirdir, sehirdir hələ,
Kimi maşınla gəlir,
Kimi cangüdən ilə.
Ərköyünlərin çoxu
Dəbin bəhsabəsində,
Yaşıdının neçəsi
Əda mərtəbəsində.
Təriflənən, danlanan,
Susan, ağlayan, gülən...
Beşi yaşından yekə,
Beşi yerini bilən.
Dünya fəsil atında,





Yağışı, qarı, sisi.
Dünya yaman dünyadır –
Arşını, tərəzisi.
Dərdini alsalar da
Dərdi, qəmi azalmır,
Onun ata-anası
İclasa dəvət almır.
Kövrəkdir şüşə kimi,
Az danışır, az dinir,
Onun uğurlarına
Uşaq evi sevinir.
-Atam nəçidir mənim,
Anam hardadır axı?!-
Gecənin bir yarısı
Yuxu tutur uşağı.

* * *

Üfüqə yayılan öz qanımızdı,
Səhər edəcəyik gecələri biz.
Bu gün ən müqəddəs ünvanımızdı
Bizim Şəhid adlı küçələrimiz.

Alışan ürəyin, yanan bədənin
Yoxuşda qırılan yaşına çatdıq.
Vətən sevgisinə qurban gedənin
Toyuna gecikdik, yasına çatdıq.

Əsgər addımına şərqi gəzəndə
Ana yurdumuzdan muğayatıq biz.
Abidə önünə çiçək düzəndə
Dırnaqdan təpəyə farağatıq biz.

Bəlkə məktəblərdən başlanır Vətən,
Qapısı yaddaşdı, daşı oyaqdı.
Onun Şəhidinə baş endirməsən,
Məktəb salamını almayacaqdı.

Onlar ölən zaman yetir vüsala,
Tökülən qanları Şurdu, Şərqidi.
Şəhidlik zirvəsi söz deyil, bala,
Şəhidlik zirvəsi Vətən eşqidi!

Ürəyin atlanıb gözlərin dinsə,
Hələ damarında axan qan deyil.
Yurdun Şəhidinə and içmədinsə,
Bu Vətən andına inanan deyil.

Bir oda tutuşub yansa baxışlar,
Bir sevgi bir ömrün biyabanıdı.
Toyundan irəli ziyarətin var –
O da ki Şəhidlər Xiyabanıdı!

Torpaqdan göyərən qan da, qınaq da,
Cahana, bəşərə sual verməli.
Mənim Vətənimə gələn qonaq da,
Mənim Şəhidimə baş endirməli!

* * *

Sevinc gözdən çəkilir,
Gülüş dodaqdan qaçır,
Yenə uşaq evinə
Şəkillər ayaq açır.
Hər birisi qəhrəman,
Hər birisi əyilməz,
Şəhidini sevməyən
Vətəni sevə bilməz.
Uşaqların evinə
Şəhidlərin qəsdi nə?
Suallar ünvanlanıb
Anacanın üstünə:
– Onlar niyə ölübdü?





– Onlar harda ölübdü?
– Niyə uşaq evinə
Şəkilləri gəlibdi?
Bu adi sualların
Cavabları nə çətin...
Ona cavab verməyə
Gücü yox məhəbbətin.
Yanaqlara şeh damır,
Gözlərdə haray, hənir,
Atasını görməyən
Şəhidinə güvənir.
Nə taleyindən asi,
Nə bəxtdən gileylidir.
Atasız uşaqlara
Leyla xanım Leylidir.
Səngəri, sipəridir
Nə qədər bəlaların,
Anacanı da odur
Kimsəsiz balaların.
Sevil bacı dərdini
Arğaclardan keçirir,
Sevil bacı dərdini
İlmələrə köçürür.
Rənglər köz-köz alışır
Rəssam qızın ovcunda,
Fəxriyyə naxış seçir
İynələrin ucunda.
Dünyanın gözlərində
Ay doğur, günəş batır,
Xalılar damla-damla,
İlmə-ilmə boy atır.
Xalılar sirli sənət,
Çiçəyi, gülü üstə,
Bir davalı kinodur

Şəkillər xalı üstə.
Bir baxışın üstündə
Min bir ilmə doğulub,
Şəhid şəkillərinə
Uşaqlar ana olub.
Dünənki nağıllarda
Xalılar da uçarmış,
Bu günkü xalılarda
Nağıllar dil açarmış.

* * *

Sözlə ayaq açdı məhəbbətimiz,
Dilimi tanıdı kəlmələr ilə.
Tək sənət vermirik uşaqlara biz,
Sevgi öyrədirik ilmələr ilə.

Sabahkı kitabdır bu günkü hana,
Çeşnidə Vətəni, naxışda izi.
Bəzən dərdimizi danışdıq ona,
Bəzən də öyrəndik tariximizi.

Baxdıq, qarşımızda dünya açıldı,
Xalının önündə susdu salonlar.
Rənglər hıçqırtıdır, rənglər pıçıltı,
Sevgidi, həsrətdi, üsyandı onlar.

Onun yaddaşında min ilin səsi,
Mənə qopuz çalıb, toy göstəribdir.
Mənim torpağımın yüz möcüzəsi
Xalımdan, gəbəmdən boy göstəribdir.

Padşahlar, krallar vurulub ona,
Xalça – bəy evində gəlin xonçası.
Londondan başlamış Vaşinqtona
Qarabağ xalısı, Təbriz xalçası.





Frank ona aşiq, dollar ona bənd,
Cecimin başına para əlenir.
Dünya muzeyləri düşüb kəndbəkənd
Kilim soraqlayır, gəbə dillənir.

Ovum da, evim də talalardadı,
Uçdum yüksəklikdə, üzdüm dərində.
Adım qayalarda, qalalardadı,
Ruhum bir xalının ilmələrində.

Qopuzdan, qılıncdan üzü bu yana
Kəhər üstündəyəm, at üstündəyəm.
Yurdum bələnəndən bu nahaq qana
Hanamla, həvəmlə od üstündəyəm.

Mənim zənginliyim zinətlər deyil,
Hər naxış köksümdə bir sarı simdi.
Qiyməti olmayan millətlər deyil,
Sənəti olmayan millət yetimdi.

Gözlərim sevinər, rəngim solar da,
Səngiyib sönməyən özgə ocaqdır.
Cəbhədə topları susdursalar da
Hanamda ilmələr vuruşacaqdır!

Gözdən qorunubdur gözümün barı,
Qəlbim də, qələm də qəmə tutuşdu.
Bələkdən asılan göz muncuqları
Bilmirdik dünyada nələrə tuşdu.

Gəldik yad gözünə, yad nəzərinə,
Qaçdı özümüzdən öz birliyimiz.
Qonum-qonşuların bəd nəzərinə
Yandı çırthaçıtla üzərriyimiz.

Bu nə keçhakeçdi, nə ötüşmədi?
Qazanlar dəm alır buz çeşmələrdə.
Torpaq döyüşlərdə əsir düşmədi,
Vətən parçalandı didişmələrdə.

Aşı da, eşqi də müftə görənlə
Vətən nə yol çəkdi, nə koma qurdu.
Onun qiymətini kefdə görənlə
Səngərdə görənlər üz-üzə durdu.

Səsim kükrəyəndə sinəm uçundu,
Bəlası var imiş zilin, zillətin.
Vətənin var günü bir ovucundu,
Vətənin dar günü bütün millətin.

Qaçma, gözlərimin odunda dayan,
Min deyil, milyondur bu yoldan keçən!
Oğullar var imiş, canına qıyan,
Analar var imiş, oğuldan keçən!

Dünyaya gəlmirik kef-damaq üçün,
Qeyrəti, namusu ağıllar doğur.
Vətən daşını da qorumaq üçün
Qaraqaş, qaragöz oğullar doğur.

Bu səngər kimindir, bu sınaq kimin?
Səsim mərmiləri tikələyəcək.
Ofsunu olsa da ulu sevgimin,
Qəzəbi cahanı silkələyək.

Ruhu göylərimdə gəzən qəhrəman
Xalıdan, xalçadan boylanır bizə.
Sənətim tarixə söz deyən zaman,
Qələmim güvənir qələbəmizə.





Üzümə gülməsə nurlu səhərlər
Havam da boğular dərd adasında.
Ölümün gözünə dik baxan ərlər
Ölür əbədiyyət iddiasında.

Hövsələm tükənib, səbrim daralıb,
Nə sızlamaq vaxtı, susmaq vaxtıdı.
Xalımı ayaqlar altından alıb
Başımın üstündən asmaq vaxtıdır!

Təmənnası nədir dilin, diləyin?
Mürgülü milləti oyadanlar var.
Şairi dinləyin, sözü dinləyin,
Uçan xalçalarda qayıdanlar var.

Gah kal tökülmüşük, gah yetişmişik,
İtkin qazancından çox olub, Vətən.
Uçan xalçalardan çox eşitmişik,
Danışan xalçadan danışıram mən.

Nə şüar hayqırıb, nə "birlik" yazıb,
Nə həvə öyrənib ura, aminə,
Kəlmələr ilmənin bağrına sızıb,
İlmələr birləşib kəlmə naminə.

Bakı danışanda laldı milyonlar,
Onlar danışanda dinləyir Bakı.
Vətən torpağına qarışıb onlar,
Vətən torpağıdır qarşınızdakı.

"Ruhunuz şad olsun" söylədik gündə,
Ruhu torpaq ilə sevindirərlər.
Ayağa qalxanda Şəhid önündə,
Vətən torpağına baş endirərlər.

* * *

Köç edən durnalar qatar-qatardı,
Cövlan edə bilməz cəngi hasarda.
Adımı sordunuz, adım Eldardı,*
Dünyaya gəlmişəm Zəngibasarda.

Məni axtaracaq dodaqlar bir gün,
Kiriyəcək mərmi, susacaq güllə.
Qanıma boyanan torpaqlar bir gün
Qarşıma çıxacaq qızıl gül ilə.

Üzüağ gəzəcək Fidan, Sahilə,
Analı qızlarım üç bacı kimi.
Deyirlər harasa boylanır hələ
Üç bacım üç çinar ağacı kimi.

Adımı çəkməyin hər addımbaşı,
Onsuz da dillərdə adım qalacaq.
Bir gün o torpaqda bir bulaq daşı
Mənə ad olacaq, heykəl olacaq.

* * *

Arzusu tükənib yolu bitməyən
Bəhruzam,** Vətənə eşqim gərəkdi.
Yağıya, düşmənə nifrət etməyən
Yurdunu, elini sevməyəcəkdi.

Kəngərli qeyb olub qürbətdə qalıb,
Adımdan, andımdan Ağdam dilədim.
Yaylaqda dünyanın salamın alıb,
Səngərdə dünyaya vida söylədim.

Dünyadır...bir ucdan ölən, doğulan,
Qanadı olanın tökülür qanı.

*Eldar Babayev-Azərbaycanın Milli Qəhrəmanı.
**Bəhruz Nuriyev- Azərbaycanın Milli Qəhrəmanı.





Ağdərə, ağ çiçək, ağatlı oğlan,
Qırmızı güllənin qızıl qurbanı.

Matəm saxlamağa çox tələsmisən,
Boylandın haraya, baxdın hayana?
Nəğməni yarıda niyə kəsmisən,
"Oxu bülbül, bəlkə Bəhruz oyana".

* * *

Səfyaram,* dar gündə yurda yar idim,
Gözümü açandan gördüyüm Bərdə.
Şur üstə köklənən qəmli tar idim,
Güvəndim qeyrətə, dözmədim dərdə.

Çəkmək istədiyim şəkilləri də
Yığıb gözlərimə apardım, Vətən.
Qınaya bilmirəm bu illəri də,
Səni ölümümlə tapardım, Vətən.

Yandı dodağımda bulağın, çeşmən,
Məhəbbət sonuncu yarağım oldu.
Mənə diri-diri od vurdu düşmən,
Qolum başım üstə bayrağım oldu.

Canı qurban dedim Azərbaycana,
Bacılarım qara bağlamayacaq.
Dedim Şəhid olsam, ağlama, ana,
Anam söz veribdir, ağlamayacaq.

* * *

Mənim hünərimdən, şücaətimdən,
Fərmanlar danışır, kitablar yazır.

* Səfyar Behbudov-Azərbaycanfın Milli Qəhrəmanı.

Sinəmi səngərdən gizləmədim mən,
Aydın Mahmudoğlu* döyüşə hazır!

Nəsə əhd elədik qucaqlaşaraq,
Qolumu dağların boynuna saldım.
Torpağa tökülən qanımdan qabaq
Mən qada almadım, qanımı aldım.

Dilim qısa deyil elin yanında,
Amma yaralarım çox dərindədi.
Məzarım Şəhidlər Xiyabanında,
Ruhum Azərbaycan göylərindədi.

Mənə yüyrük qurdu dağlar saçında,
Bu da bəxtəvərlik, bu da vüsaldı.
Ürəyim yaranı aldı Laçında,
Ürəyim yenə də Laçınada qaldı.

* * *

Anamdan sormayın Məzahir** hanı?
Qəlbimdə kişilik türbəsi vardı.
Mənim damarımda Vətənin qanı,
Çiynimdə leytenant rütbəsi vardı.

Şınıxdan dünyaya uzandı izim,
Bu dağlar yurdumun qalası oldu.
Başımız nəyəsə qarışdı bizim,
Başkənd başımızın bəlası oldu.

Bu aylar, bu illər hara tələsir?
Gülü qönçə ikən dəribdir Vətən.
Min məktəb, min oymaq qandallı, əsir,
Adımı məktəbə veribdir Vətən.

---

* Aydın Mahmudoğlu Manerov – Azərbaycanın Milli Qəhrəmanı.
** Məzahir İzzət oğlu Rüstəmov – Azərbaycanın Milli Qəhrəmanı.





Sıxdım öz sinəmə qumbaranı mən,
Anama – Vətənə borclu qalmadım.
Mən xoşbəxt Şəhidəm, ey qarı düşmən,
Mən sənin güllənə qurban olmadım.

* * *

Həmişə bu Odlar Ölkəsindəyəm,
Qanlı yollar gördü arzum, muradım.
Mən də Şəhidlərin cərgəsindəyəm,
Gəlin tanış olaq – Rasimdi* adım.

Məni şöhrət doğub bəsləməmişdi,
Hələ tanımırdı dağ, dərə məni.
Bircə yol görüşə səsləməmişdi,
Döyüşə səslədi Ağdərə məni.

Yuxumu danışdım hər səhər suya,
Mən ləpəni sevdim, mən zəri sevdim.
Çilov adasından baxıb dünyaya
Günəşi tanıdım, Xəzəri sevdim.

Bir gün o dağlara köçəsi idim,
Havası loğmandı, daşı qızıldı.
Yollarım Şuşadan keçəsi idi,
Qarabağ kitabım qara yazıldı.

* * *

Məmləkətə sipər igidimizin
Dağı çəkilsə də ürəyimizə,
Sirrini verməyən Şəhidimizin
Sirrini xalılar danışır bizə.

Ətri var ilk yazın, ilk bənövşənin,
Sovqatı muştuluq payı qədərdi.

---

* Rasim İbrahimov - Azərbaycanfın Milli Qəhrəmanı.

Şəhidin ordusu susuz meşənin,
Əsgəri çinarın sayı qədərdi.

Tarixdən danışan kətanın,bezin
Çiçəyi saralıb gülü solmazdı.
Cəbhədə döyüşən əsgərimizin
Adını xalçalar köksünə yazdı.

Qanımla yazılıb qan əsərləri,
Möhnətlə dayanıb millət üz-üzə.
Sözünü səngərdə deyən ərləri
Sənət gətiribdi görüşümüzə.

* * *

Sibirdə gül-çiçək dərə bilmədim,
Borçalı sazında "Cəlili"* çaldı.
Qələbə gününü yaza bilmədim,
Yazdığım gündəlik yarımçıq qaldı.

* * *

Çəkdi çəkdiyini o için-için,
Ona doğmalaşdı ölüm də, qan da.
Vətənin dərdini anlamaq üçün
Əfqan** dərs almışdı Əfqanıstanda.

* * *

Mən ellə ağladım, ellə gülmədim,
Elşadam,*** elimin ömrü uzansın.
Oğlumun üzünü görə bilmədim,
Oğlum öz adını özü qazansın.

* * *

Telmanam,**** talehim dağ selindədir,
Könlüm yaylaqların gül oylağında.

---

* Cəlil Əziz oğlu Səfərov-Azərbaycanın Milli Qəhrəmanı.
** Əfqan Qaraxan oğlu Hüseynov-Azərbaycanın Milli Qəhrəmanı.
*** Elşad Saday oğlu Əhədov-Azərbaycanın Milli Qəhrəmanı.
**** Telman Əliməmməd oğlu Haqverdiyev-"Azərbaycan Bayrağı"ordenli.





Xatirəm – Xəzərin sahilindədir,
Ölümüm – Murovun ucalığında.

* * *

Mənə laylay çaldı Lənkəran bağı,
Hər ömür yoluna bir işıq düşər.
Anarı* yadına salanda yağı
Gecələr yuxusu qarışıq düşər.

* * *

İki ad yanaşı dayanıb yenə,
Həm "Yapon Samirəm", həm də Məhərrəm.**
Atamın adını verdilər mənə,
Mən ana Vətənin borcunu verəm.

* * *

Yandıq qəhərə də, yandıq qəmə də,
Hər anım, hər günüm imtahan oldu.
Düşmənin gülləsi dəydi Əhmədə,***
Qızıllı Kəngərli qızıl qan oldu.

* * *

Xaqani**** xalq dedi axır nəfəsdə,
Bayraq eləmişdi haqqın səsini.
Onu yad edənlər qəbrinin üstə
Oxusun "Qarabağ şikəstəsi"ni.

* * *

Vasiflər***** bu yurdun qalası olsa,
Yenə günəş doğub, dan söküləcək.

---

* Anar Rasim oğlu Əliyev-"Azərbaycan Bayrağı"ordenli.
** Məhərrəm Məhərrəm oğlu Babayev-"Azərbaycan bayrağı"ordenli.
*** Əhməd Suliddin oğlu Mehbalıyev-"Azərbaycan bayrağı"ordenli.
****Xaqani Xanıbəy oğlu Rüstəmov-"Azərbaycan bayrağı" ordenli.
***** Vasif İdris oğlu Hüseynov

Düşmənlər dağlarda qalası olsa,
Qəbrimə, ruhuma dağ çəkiləcək.

* * *

Sazı var, sözü var Azərbaycanın,
Bir şam işığında bir xonça bəzə.
Vüqarı*, Arazı* doğan ananın
Haqqı var Vətəni üzüağ gəzə.

* * *

Güvənib döşünə döyməsin yağı,
Vətən son qoyacaq qəm günlərinə.
İlmələr dağ idi, bu ağırlığı
Qaldıra bilmişdi çiyinlərinə.

Göylərimin üzü qara buluddu,
Mənim harayıma hay verdi hana.
Uşaqlar üzünü dünyaya tutdu,
Uşaqlar sözünü dedi cahana.

Səsim soyuq idi, sözüm qar idi,
Sazaqdan, şaxtadan baxdım Vətənə.
Od olub könlümə hopanlar idi,
Onu da danışdı xalılar mənə.

Yerə lələk düşər durna ötəndə,
Qürbətlər, qəriblər düşər yadıma.
Yetimlər də Şəhid olar Vətəndə,
Şəhidləri yetim görməyim amma.

Beləcə inandım eşqin səsinə,
Şaxtanı sındırıb buzu qıracıq.
Bir gün ataların qələbəsinə
Atasız uşaqlar hana quracaq!

***Bakı. İyun-iyul 2001.***

* Vüqar və Araz İbrahimov qardaşları.









# ŞƏHİD BACISI

*(Poema)*

***Azərbaycanın Milli Qəhrəmanı, polis mayoru Şahlar Əvəz oğlu Şükürovun bacısı Elmira xanım Şükürova söhbət zamanı dedi: "Tale elə gətirdi ki, Anarla Fəridə bir-birlərinə könül verdilər. Mən oğlan anası kimi Şəhid qardaşımın qapısına elçi gedə bilmədim..."***

**Müəlif.**

Qəm qaraçı kimi kəsib qapını,
Yolların saçını yel yolacaqdır.
Görən kim açacaq həmin qapını,
Sinəsinə döyən kim olacıqdır.

Baharın sevinci, dərdi bənövşə,
Bahar öz gülünü sazağa salıb.
Oğul evləndirən bacı həmişə
Görmüşük qardaşı qabağa salıb.

Belə tələsmisən kimi ötməyə,
Özünü, adını nəçi edirsən?
Qardaş "hə" veribmi elçi getməyə,
Sən qardaş evinə elçi gedirsən?

Ağaran saçına düzülüb dərdin,
Əlindəki nədir xına əvəzi?
O qızın toyunu özün edərdin,
Doyunca oynardın ana əvəzi.

Təpədə, dərədə duman görünür,
Dönüb ürəyimdə bəyaz xal olur.
Yazmaq istəyirəm, qələm sürünür,
Demək istəyirəm, dilim lal olur.

Ocaq olacaqsan, od olacaqsan,
Sözlərin kəsərsiz, gözlərin bulaq.
Sən toyda bir qardaş axtaracaqsan,
O gəlib səninlə oynamayacaq.

Sevinc dərddən ucuz, qəm müftə deyil,
Dünyanın havası çovğundur bir az.
Nişan maşını da o kefdə deyil,
Nişan gedənlər də tutqundur bir az.

Gah səsim şirindir, gah sözüm acı,
Tablayıb bu dərdə dözə biləydin.
Bəlkə ayrı qapı seçəydin, bacı,
Qolunu qaldırıb süzə biləydin.

Nə qədər nağıllar bəri bax idi,
Bəri baxanlar da bəxtdən incimiş.
Məhəbbət verməyə gücüm yox idi,
Məsləhət verməyim daha gec imiş.

Sevinc də sənindir, qəm də sənindir,
Sözə toy tutacam bu toy boyunca.
Oturub dizini qucaqla indi,
Sızla ürəyincə, ağla doyunca.

* * *

Birinin sözü qənd, yanağı lalə,
Kirpiyi ürəyin neştəri kimi.
Oğlundan xəbərsiz neçə gözələ
Ana göz yetirdi müştəri kimi.

Sümüyü üşüdü sisdə, soyuqda,
Biri gözdən saldı işvəni, nazı.
Saçı uzun gördü, ağlı topuqda,
Ağıllı qız gördü, saça tamarzı.





Ulu yaradandan bir təmənnası,
Əli düz, ayağı düz axtarırdı.
Hara gedirdisə oğlan anası
Əsilli-nəsilli qız axtarırdı.

Özünü incidib yorurdu hədər,
Ananın diləyi amanat idi.
Dili diplomundan uzun nə qədər,
Diplomsuz qız vardı, diplomat idi.

Xəyalı dolaşır yalı, gədiyi,
Sevdalı illəri lap unutmuşdu.
Adını kimsəyə söyləmədiyi
Bir-iki gözəli gözü tutmuşdu.

Ürəyi kövrəlib könlü daşandan
Qanad axtarırdı göydə uçmağa.
Bir himə bənd idi toydan, nişandan,
Nənədən, nəvədən söhbət açmağa.

Gülüşdəki giley, səsdəki qınaq
Oğlunun gözündən qaça bilmədi.
Ananın ürəyi çırpındı, ancaq
Ana ürəyini aça bilmədi.

Gəncliyin gecəsi aylı, ulduzlu,
Bənd olma həyatın keşməkeşinə.
Ana qarışmadı bu dadlı, duzlu
Sevginin işinə, bəxtin işinə.

Meh daraq çəkirdi onun telinə,
Nəyi düşünürdü, nə gördü ana?
Bir axşam bir məktub keçdi əlinə,
Çəkilib bir küncə hönkürdü ana.

* * *

Sevincin təşnəsində
Sükuta dalıb hamı.
Hansı qız adamıdır,
Hansı oğlan adamı?
İkisi də nəvədir,
Bir mənə qulaq asın;
Baba elçimi getsin,
Ya elçi qarşılasın?
Hər ikisi nənəyə
Bir güldü, bir çiçəkdi,
Nənə hansı tərəfin
Sözünü deyəcəkdi?
Ciyər cızdaqdan çıxdı,
Gözün yağı əridi,
Oğlanın xalaları
Qızın bibiləridi.
Oğlanın dayıları
Sevən qızın əmisi,
Özünü dağa çırpır
Sanki Nuhun gəmisi.
Kimə qabağa çıxmaq,
Kimə elçilik düşür?
Qohumlar bir təhərlə
Vəzifəni bölüşür.
Bacı nişan günündə
Gül olub yerə yağdı,
Gözün aydın deməyə
Qardaş tapmayacaqdı.

Gözündən şeh damır yanaqlarına,
Döş-döşə gəlibdir baharla payız.
Dəyməyin, oturub düşünsün ana,
Dəyməyin, dərdini dağıdarsınız.





Barmaqlar yol cızır qaşının üstdə,
Qar kimi sevinci qaragüruhda.
Bu gün Kəlbəcərin başının üstdə
Qara bulud da var, nigapran ruh da.

Qayalar oynasa, daşlar ayılsa,
Nə ürək kövrələr, nə göz dolardı.
Bu toy atasının yurdunda olsa,
Uşaqlar yol kəsib xələt alardı.

Bu yaz çiçəkləri sabah bir evdi,
Bəxtləri güləcək günəşə, aya.
Oğlan dayısının qızını sevdi,
Qolları uzandı xeyir-duaya.

İşığa boylandıq kor zağalardan,
Bizə qisməti də analar gəzdi.
Onun qəlbindəki qasırğalardan
Dəniz xəbərsizdi, göl xəbərsizdi.

Tək özü anlayır niyyəti nədir,
Sanki kənizidir öz qulunun da.
O, qardaş adının keşiyindədir,
Bəxtinə inanır öz oğlunun da.

Onun məşəl olan ürəyinə bax,
Xınasız saçları yüz xana olur.
Bacının qardaşa istəyinə bax;
Bacı quda olur, qaynana olur.

Qalıb xatirələr güllü çəməndə,
At minib elləri soraqlayacam.
Onun xəyalına qoşulub mən də
Ayları, illəri varaqlayacam.

* * *

Tələbəlik illəri
Xatirəyə dönürdü,
İzdihamlı Bakı da
Uzaqda görünürdü.
Şəkillərə baxırdı –
Hamı xoşbəxt, bəxtəvər,
Tale Allahın işi,
Adam Allahı sevər.

Anın da, saatın da
Yadda qalanı vardı,
Qızların arasında
Gəlin olanı vardı.
Ömür mənzil atında,
Ay ay üstə gəlirdi,
Şəkillərə baxdıqca
Gülürdü, kövrəlirdi.
Albomun arasında
Bu qız şəkil qoymadı,
Ötən günə qayıtdı,
Ötən gündən doymadı.
Pəncərədən otağa
Ay işığı düşürdü,
Yenə kəndin itləri
Ulayıb hürüşürdü.
Qızıl güllər dil açıb
Adam tək dillənirdi,
Hələ də güleyşə nar
Budaqda yellənirdi.
Çöldə qaranlıq, külək,
Evdə işıqlı ürək...





İnşa dəftəri vardı
Mizin üstdə bir qalaq.
Nə deyir, nə düşünür
Ürəklər varaq-varaq?
Dəstələyib qaytarır
Şəkilləri yerinə,
Əllərini uzadır
İnşa dəftərlərinə.
O, açıq düşüncəni,
Aydın fikri xoşlayır,
Bu da mövzunun adı:
"Vətən hardan başlayır?"
Nə məmləkət kiçilir,
Nə məhəbbət tükənir,
Bir qız öz yüyrüyünə,
Beşiyinə söykənir.
Biri dilindən ana
Qopan yerdən danışır,
Biri dizinin qanı
Hopan yerdən danışır.
Kimi kəhriz suyundan
Tutub söz şələsini,
Kimi tut ağacından
Başlayır cümləsini.
Yurdun hər ağacına,
Daşına da qılıq var,
Vətən başlanan yerdən
Vətənə bağlılıq var.

* * *

...Fikirlər müəlliməni
Uçurur qanadında,
Kəndinin hər qarışı

Yaddaşında, yadında.
Öz nəfəsim, öz səsim
Öz elimə bələdçi,
Şagirdlərin dəftəri
Müəllimə bələdçi.
Ağdamdan qayıdıbdır
Kəlbəcər dağlarına,
Dəlidağın havası
Dəyir yanaqlarına.
Bulağından su içir,
Çəmənindən gül dərir,
Zülfüqarlı dedikcə
Obasına güvənir.
"Ucqar Vətən" sözünü
O da eşidir hərdən,
Bəlkə Vətən başlayır
Vətən qurtaran yerdən.
Şehinə vurulmasan
Gölünü sevmək yalan,
Başdan-başa Vətəndir
Onun yadında qalan.
Tütəyi də, sazı da,
Lap udu da Vətəndir.
Başının üstündəki
Buludu da Vətəndir.
Sehiri sevgimizdə,
Sirri tapmacadadır,
Vətən "Vətən" sözündən
Qəlbidə, ucadadır.
Sözünü dəftərə yox,
Selə, yağışa yazır,
Müəllim şagird olub
Özü də inşa yazır.





* * *

Gördü körpəlikdən yağlı-yavanı,
Həyat neçə sirrin açırdı ona.
Şəhər – nağıl evi, nağıl karvanı,
Kənd – həyat dərsini keçirdi ona.

Bu kənd adamları sözə tamarzı,
Belə şirin deyil şəkər də, qənd də.
Sabirdən, Səməddən dərs deyən qızı
Qızım çağırırdı ahıllar kənddə.

Baxışı ədasız, duruşu nazsız,
Kiməsə köksünü ötürmədi heç.
Şəhərin küncünə qısılmayan qız
Şəhəri kəndə də gətirmədi heç.

O, sandıq içində sehir olmadı,
Saflıq öyrənmişdi dağın qarından.
Güzgünün önündə əsir olmadı,
Onu seçmədilər kənd qızlarından.

Çoxları pərvanə deyərdi ona,
Əməli, ürəyi işıq saçırdı.
Məsləhət möhtacı nə qədər ana
Yanaşıb bu qıza ağız açırdı.

Təpəni keçməmiş dağı aşmayaq,
Haraya gəlməsin harayçılar da.
Paxıldan, paxırdan gəl danışmayaq,
Ağaran üz idi Qalayçılarda.

Ağ gülü sevərdi ağ baxtı kimi,
Ağaran yollarda ağ atlı vardı.
Evləri yadında şah taxtı kimi,
Gözü bir nəfyəri hey axtarardı.

Qarabağ bağları gəbə kimiydi,
Gözlər qamaşırdı yaraşığından.
Ay göydən asılan kömbə kimiydi,
Bir oğlan tutmuşdu Ay işığından.

Cavab bir olsa da sual min idi,
Fələyə yalvardı fərşin yanında.
Bir cavan evindən didərgin idi,
Bir qızın yuxusu ərşin yanında.

Bəzən ötkəm idi, bəzən utancaq,
Sınmaq başqa şeydi, o sozalmışdı.
Hamıya əl tutan gülərüz qonaq
Eşqinin əlində əsir qalmışdı.

Maaşı az idi, gözü, könlü tox,
Bu da mübarizə, bu da cəngidir.
Ona zəng eləyən sevgilisi yox,
Ona zəng eləyən məktəb zəngidir.

Günlərin içində bir xandı bir gün,
Bir gün dodaqaltı qımışan oldu.
Məktəbin həyəti çalxandı bir gün,
Gözləri işıqdan qamaşan oldu.

Baxıb bu oğlanın qədd-qamətinə
Kəndin gözəlləri köks ötürdülər.
Qızlar qısılmadı qız ismətinə,
Səhəng götürdülər, su gətirdilər.

Qınında boğmuşdu çox qılıqları,
Könlü atlananlar yaman çaşdılar.
Gözünün ucuyla baxmadıqları
Gözünün ucundan uzaqlaşdılar.





Susanlar haçansa söz açasıdır,
Qızıl kərpiclərim saraydan qopub.
Bu oğlan elə bil nur parçasıdır,
Ya oddan yaranıb, ya Aydan qopub.

Baxışı mənalı, salamı rəvan,
Nə isə sehir var, söhbət var onda.
Müəllim otağı... məğrur bir cavan...
Qalıb gözlər onda, baxışlar onda.

Bu görüş görüş yox, möcüzə oldu,
Ağıl da, ürək də sözə baxmadı.
İstədi yeriyə, dizi tutuldu,
İstədi danışa, səsi çıxmadı.

Yaxşı ki, bu sevinc boğmadı onu,
Tül kimi qatlanıb büküldü yerə.
Qolları sözünə baxmadı onun,
Dəftərlər əlindən töküldü yerə.

Bir otaq sükuta qərq oldu birdən,
Kim isə qınaqdan özünü asdı.
Qızı çiçək kimi qaldırıb yerdən
Oğlan gülə-gülə bağrına basdı.

Bu görüş səyirtdi dodaqlarını,
Kövrəldi qız sübhün namazı kimi.
Hönkürüb oğlanın yanaqlarını
Öpdü öpüşlərə tamarzı kimi.

Bir kövrək ürəkdən çıxdı kor tikan,
Bir barmaq sızladı iynə-sancaqsız.
Pıçhapıç...lal baxış... ədəb və ərkan...
Müəllim otağı...həyalı bir qız...

Başının üstündən çəkilirdi çən,
Üzündə iz salan buludlar imiş.
Bu ara bir qızın keçdi qəlbindən:
– Zalım balasının bəxti var imiş.

Divardan asılan daş saat çapır,
Zamanı güdən yox, vaxtı güdən yox.
Çevrilib baxdı ki, sükut at çapır,
Susub boylandı ki, təbrik edən yox.

Çölü çiçəklədi budaqlarında,
Gülə bax, payızın, qışın içində.
Gözlərinin yaşı yanaqlarında,
Gözləri gülürdü yaşın içində.

– Deyən bu oğlanı tanımadınız,-
Nə xəcalət çəkir, nə əzab çəkir.
Suallara cavab verəsi bir qız
Elə bil qızlarla haqq-hesab çəkir.

Döşünə qoymuşdu beşi əlini,
Bu dəli görüşə dözmürdü ürək.
Alıb əllərinə kişi əlini
Sözünü deyirdi gülümsəyərək.

– Onun ürəyində ürəyim sızlar,
Bu oğlan həyatda vüqarlı başım.
Qardaşsız olmasın bacılar, qızlar,
Mənim ürəyimdir mənim qardaşım.

Gözümün kökündə şeh yerindədir,
Hələ Nəbi deyil, Koroğlu deyil.
Bacı ürəyinin şah yerindədir,
Şahlardır, amma ki, şah oğlu deyil.





O qəhqəh çəkmədi, o qanad çaldı,
Onları kəsən də, asan da susdu.
Bu istək gözlərdə elə ucaldı
Danışan da susdu, susan da susdu.

Qalayçı gecələri
Öz qara çuxasında,
Qardaş-bacı əyləşib
Bir mizin arxasında.
Gah söhbət eləyirlər
Uşaqlıq çağlarından,
Ötürlər allı-güllü
Vətən yaylaqlarından.
Taxta düzü, İstisu,
Alaçıqlar, sürülər...
Sonra da varaqlanır
Uşaqlıqdan bərilər.
Yayda diş gizildədən
Bulaqlar yada düşür,
Sinəsi sözlə dolu
Qonaqlar yada düşür.
Bacı barmağı gəzir
Qardaşının telində,
Onlar əsir-yesirdi
Ötən günün əlində.

Bacı biş-düş eyləyir,
Şahlar xəyala dalıb.
Bayaqdan soba üstdə
Kəkotu dəmin alıb.
Qardaşın ürəyində
Haray qoparır bir səs:
"Bura necə qızacaq,
Bir otaq, bircə nəfəs".

Bacısının adına
Nə isə yozan olar,
Axı kənddir-kəsəkdir,
Yolunu azan olar.
Heç kəsdən umacağı,
Nə kimsəyə qılığı,
Barmağında üzük yox,
Evdə nişan yaylığı.
Süfrədə neçə meyvə;
Heyvasından, narından.
Bacısı hey danışır
Qarabağ bağlarından.
Qardaşının gözündə
Qız soluxmuş kimidir.
Əl də işləyir, dil də,
Qız qızılquş kimidir.
– Çayın soyudu, qağa,
İç, bacın sənə qurban.
Mənə kəkotu gəlir
Kəlbəcər dağlarından.
Burda Dədə Şəmşirin
Sənəti var, sətri var,
Ağdamın kəndində də
Zülfüqarlı ətri var.
Otaq tamarzı idi
Yaylağa da, neyə də,
Gülüşə də oxşadı,
Bu söz göynərtiyə də.
– Elə bil ac toyuğa
Dən səpir qara saçım.
Səni Qalayçı kəndi
Yaman qaraldıb, bacım.
Dəmirçi körüyündə
Bişmisən, soyulmusan.





Özündən xəbərin yox,
Lap qalayçı olmusan.

Danışan da ürəkdi,
Dinləyən də ürəkdi,
Birinin gözü güldü,
Biri şaqqanaq çəkdi.

Dan yeri qaranlığın
Üstünə yeriyirdi,
Bir səhər açılırdı,
Bir gecə əriyirdi.

Gah köksünü ötürür,
Gah nəfəsini dərir,
Qardaşın dodağında
Bir söz cilov gəmirir:
– Bu güzəran, bu həyat
Şirinimdi, acımdı,
Mənim bacım gül deyil,
Başımdakı tacımdı.
Allaha şükür olsun
Əlin yatıbdır işə,
Adın gəlsə başımı
Dik tutmuşam həmişə.
Amma... –
Susdu bir anlıq,
Nə danışsın, nə desin?
Halva deyil, çiy sözü
Kim bişirsin, kim yesin?
Hələ xəyal atında,
Hələ həyəcanlıdı,
Elə uzaqgörəndi,
Elə bacıcanlıdı.

Bir oğlan neçə vaxtdı
Bacısını sevirdi.
Üzünü gülə-gülə
Bacısına çevirdi:
_Ürəyin tutan kəsə
Bəd deməyim yalandı,
Çingizi tanıyıram,
Çingiz yaxşı oğlandı.
Qaçırsan, gizlənirsən
Görünməkdən, görüşdən.
Sən də onu sevirsən,
Xəbərim var hər işdən.
Denən elçi yollasın,
Sən də susma daş kimi.
Xeyir-dua verirəm
Mən sənə qardaş kimi...

Qaranlıqların üstə
Sanki nur saçılırdı,
Qalayçılar kəndində
Bir səhər açılırdı.

Həyat da, tale də başqa döyüşdü,
Yetişib budaqdan hey düşdü illər.
O vaxtdan dünyanın dadı dəyişdi,
Şirin nağıl kimi ötüşdü illər.

Aşıq könül açdı telli sazına,
Köçənlər sazının telində köçdü.
Arana söykənən dağlar qızına
Nişan da taxtılar, gəlin də köçdü.

Bəxtəvərin qızı bəxtiyar idi,
Çəmənlə bir oldu gül-çiçəkləri.





Oğullu-uşaqlı evi var idi,
Görə bilmədiyi görəcəkləri.

Qara kəhərinə yatan buludlar
Tül olub bezimi bəzəmədi heç.
Başımın üstünü tutan buludlar,
Bahar buluduna bənzəmədi heç.

Gözündə bulağı, seli olanda,
Yarınan bacıdır, yanımcıl ana.
O, Dəlidağ üçün dəli olanda,
Bayatı qonurdu dodaqlarına.

İçdi qanımızı neçə dağ-dərə,
Qızıl qan gölünə döndü didələr.
Yağdı bu buluddan Şəhidlər yerə,
Göyərdi bu sudan daş abidələr.

Vətən dəlisiyəm gözüyumulu,
Sərvət harınları xəstədi məndən.
Evimin kənizi, qapımın qulu
Bir gün torpağımı istədi məndən.

Mən odu yüklədim ot şələsinə,
Mənim kişiliyim mənə də sirdi.
Ayağım yağının bic tələsinə,
Barmağım düşmənin gözünə girdi.

Bizim sevdiyimiz sevmədi bizi,
Qanuna and içən qanımı içdi.
Bir gün Kəlbəcərin yolu, irizi
Dağlarda erməni əlinə keçdi.

Şöhrət axtarırdı şərab da, şər də,
Yuxu bir milləti yıxıb gedirdi.

Yurdun o başından qoca Tərtər də
Yurdun bu başına axıb gedirdi.

Yağı pişik kimi marığa yatdı,
Al qanım dağların al gülü oldu.
Sərsəngi alnımın təri yaratdı,
Sərsəng bir gün dönüb qan gölü oldu.

Qana hazır tətiklər,
Vahiməli dağ, dərə.
Maşın karvanı gedir
Tərtərdən Kəlbəcərə.
Göyçə köçün sürmüşdü,
Qarabağ talanırdı,
Dəlidağın başında
Buludlar dolanırdı.
Toxlar toxmaq ucunda
Toxum əkirdi hələ,
Şimal şümal qarnına
Sığal çəkirdi hələ.
Sus deyənin maşını
Top-tüfəng daşıyırdı,
Kələyi bir lotunun
Felinə oxşayırdı.
Qartalın göylərində
Görünən qarğa idi,
Kölgədən qorxan dığa
Meşədə ağa idi.
Şahlar könül vermişdi
Dağların hər gülünə,
Hönkürmüşdü Qədirin
"Sona bülbüllərinə".
Şahları əsir edən
Dünən çiçək, şeh idi,





Amma bu gün karvana
Başla cavabdeh idi.
Bir az ürəkli idi
Ürəyi para yol da.
Aramla şütüyürdü
Ağ "Niva" qara yolda.
Karvan neçə gədiyi
Kündələdi, yoğurdu,
Yayın isti nəfəsi
Meşəni də boğurdu.
Tətiyin üstündədir
Barmağı ixtiyarsız,
Ona arxalanırdı
Neçə ana, neçə qız.
Düşmənlə yüz döyüşdən,
Sınaqdan keçmişdi o,
Doğulduğu dağları
Könüllü seçmişdi o.
Xidmətinə bab idi
Rütbəsi, vəzifəsi,
Vətənin aranında
Təngiyirdi nəfəsi.
Göz açandan gördüyü
Murov ilə Kəpəzdi,
Elimə yiyə duran
Ölümə ləngiməzdi.

Tülkü oyuqlarından
Birdən atəş açdılar,
Bayqaşlar qanadlanıb
Çaqqallar ulaşdılar.
Sinə gəzən güllələr
Ölüm hərisi kimi,
Yağılar hürüşürdü

Köpək sürüsü kimi.
Neçə düşmən gəbərir,
Neçə yağı bağırır,
Neçə kefli erməni
Mamasını çağırır.
Oğullar tərs kirvəyə
Yaxşıca dərs vermişdi,
Qabana dönən dığa
Dabana tüpürmüşdü.
Sərsəngin qırağında
Vay da var, vahimə də,
Neçə gəlinin əli
Ülgüc kimi qəmədə.
Analar ah donunda,
Amanın içindədir,
Şahlar başdan ayağa
Al qanın içindədir.
Bu da arzu, kam idi,
Öldürüb ölürdü o,
Doymadığı cahana
Son dəfə gülürdü o.
Qopdu qışın tufanı,
Yağdı payız yağışı,
Üzünə çilənirdi
Qardaşının göz yaşı.

* * *

Bayrağın göynəyir burda dağ üçün,
Orağın dəymirdi daha zəminə.
Oğullar doğulur yaşamaq üçün,
İgidlər ölürdü Vətən naminə.

Rütbəsi, ulduzu çiynində idi,
Yurdu qoruyurdu icazə ilə.





Şahlar bir karvanın önündə idi,
Karvan qayıdırdı cənazə ilə.

Başı duman idi başı qarlının,
Sınmışdı əzəmət, sınmışdı vüqar.
Həmin gün zal oğlu Zülfüqarlının
Üzünə çən endi, saçlarına qar.

Qaynayan çeşməyə bənzəyir didə,
Qəbirlər alınır ala, qumaşa.
Qoca Kəlbəcərin kəndlərində də
Şəhid çəkilirdi yuxarı başa.

Gözəllik bənzədi bir xarabaya,
Açıldı ölümün əli, ayağı.
Dərddən dəli olan elə, obaya
Baxdı Dəlidağ da dəlisayağı.

Tufanlar güc gəldi kilid, cəftəyə,
Ölüm qapılardan atdı özünü.
Saçını ağardıb bircə həftəyə
Üç bacı üç qarı etdi özünü.

Nə qədər pusqudan Azərbaycanı
Erməni gülləsi yaralayırdı.
Erməni xisləti, erməni qanı
Millәti içindən paralayırdı.

Gözümüz ağı da qara görürdü,
Qaralar ağları asırdı hələ.
Cavab verməli kəs corab hörürdü,
Cavab istəyənlər susurdu hələ.

Bir gün İstisudan soyudu əlim,
Bir gün əlim çıxdı yaylaqlarımdan.

Tərtərə bayatı söylədi dilim,
Tərtər qan istədi dodaqlarımdan.

Söydük bu dünyanın savaşlarına,
Yurdda nə bənd qaldı, nə bəndə qaldı.
Şəhidlər söykənib baş daşlarına
Torpağa çevrilib Vətəndə qaldı.

* * *

Gül çoxdur, gülmək olmur,
El yoxdur, ölmək olmur.
Yollar qan içindədir,
Yanına gəlmək olmur.

Şəhiddi, sağdı qardaş,
Sinəmdə dağdı qardaş.
Zülfüqarlının qarı
Saçıma yağdı, qardaş.

Keçdim qan bıçağından,
Qəm düşsün qucağından.
Qapına elçi gəlib
Bacının ocağından.

Göydən qəmər istəmə,
Qızıl kəmər istəmə.
Oğlanın dayısından
Aşıq, nəmər istəmə.

Kirpiyim qaşsız ölür,
Gözlərim yaşsız ölür.
Başımın daşına bax –
Bacı qardaşsız ölür.





Qardaşı uyuyan yurddan uzaqdır,
Uzaqdan boylanır şadlığa ana.
Gözlərinin kökü bulaq-bulaqdır,
Ayağı getmədi o gün nişana.

Düşdü neçə dəfə, o, haldan-hala,
Əlini sürüdü, qəddini əydi.
Qardaşın bacıya verdiyi pula
Aldığı sırğalar gözünə dəydi.

Dizinə söykəndi, boynunu bükdü,
Sevinclə kədəri cövlan edirdi.
Vətən Qarabağsız qaşsız üzükdü,
Bərdədən Bakıya üzük gedirdi.

Qanmayan qan deyib qaysaq qoparır,
Qananla təsəlli tapırdı ürək.
Nişana gedənlər üzük aparır,
Nişandan gələnlər nə gətirəcək?

Gözünü bürüyən göz yaşı üçün
Gözəgörünməzdən küsmədi ana.
Mücrü də, sandıq da açıldı o gün,
Heç nəyin üstündə əsmədi ana.

Buluddan tanıdıq tufanı, seli,
Oğullar süddən yox, səsdən yanıqdı.
Yerindən oynayan Kəlbəcər eli
Ellərə sığınıb, teli sınıqdı.

Belinə yüklənən şələ də şillə,
Şadlıq da var imiş yan-yörəsində.
Oğul evləndirən bir ana hələ
Özünün uşaqlıq xatirəsində.

Hələ qulağına inanmır qadın,
Hələ yolda neçə muştuluqçu var.
Bakıdan zəng gəlir:
— Gözlərin aydın,
Anarla Fəridə nişanlandılar.

Kirpiyin ucunda şeh dərə-dərə,
Şahların şəklini öpürdü hələ.
Aya, aydınlığa baxan gözlərə
Dan yeri göz yaşı səpirdi hələ.

Yerlərin bağrını çox yardıq, bacı,
Göylərdə süzməyi öyrənməliyik.
Biz dərdə dözməyi bacardıq, bacı,
Sevincə dözməyi öyrənməliyik.

* * *

Toğrul elə dəcəl, elə şirindi,
Yeri var nənənin gözünün üstdə.
Bir kişi qırığı böyüyür indi
Nənənin, babanın dizinin üstdə.

Tanıdığı qoldur, qonduğu sinə,
Yorulub yatdığı isti qucaqdır.
Günlərin bir günü öz nəvəsinə
Bir nənə bir dastan danışacaqdır.

***Bakı. Oktyabr-noyabr, 2001.***





# PƏNAH EVİ

*(İki hissəli on iki şəkilli mənzum pyes)*

## İŞTİRAKÇILAR

**TÜRKEL** - usta şagirdi, cavan daşyonan
**SONA** - Türkelin sevgilisi
**USTA ƏRDAŞ** - yaşlı bənna
**SUNAZ** - Usta Ərdaşın qızı
**GÜLZAR** - Usta Ərdaşın arvadı
**PƏNAHƏLİ XAN** - Qarabağ xanı
**MƏŞƏDİ VƏLİ** - papaqçı
**XANƏNDƏ OĞLAN**
**CARÇI**
**DƏLİ CƏBİŞ** - 18-20 yaşlarında
**SARAY ADAMLARI, OĞLANLAR, QIZLAR, UŞAQLAR, DİGƏR İŞTİRAKÇILAR**
**ZAMAN BABA** - Şuşanın süqutuna dözməyən kişi
**TURAN** - Zaman babanın nəvəsi

## *BİRİNCİ HİSSƏ*

## BİRİNCİ ŞƏKİL

*(Proloq əvəzi )*

*(1992-ci ılin may ayı. Şuşa şəhəri. Uçuq qala divarları. Uzaqda əzəmətli Kirs dağı görünür. Zaman baba başını qala dıvarlarına söykəyib. Turan nigaran baxışlarla ətrafı seyr edir. Əvvəlcə cəngi səslənir, qılıncların, qalxanların şaqqıltısından qulaq tutulur. Səs tədricən zəifləyir. Tar dilə gəlir.)*

**ZAMAN BABA**

Eh, nələr görmədi hər qala daşı,
Tarixə bəllidir sirri, sirdaşı.
Taleyi nə qədər bəlalara tuş,
Cahan daşları da qanla yoğurmuş.

TURAN

Bayaqdan göz qoyub baxıram sənə,
Kimlə danışırsan?
Cavab versənə?
Bu sehir deyil ki, bu görəcəkdir,
Daşlar yenidənmi göyərəcəkdir?

ZAMAN BABA

Dünya başdan-başa sualdır, bəli,
Daşlara dediyim mənə təsəlli.
Kirsin başı qışdır, ətəyi yazdır,
Dərələr yaşıldır, zirvə bəyazdır.
Daş qədər sevsəydik ana Vətəni
Başa çıxarmazdıq yoldan ötəni.

TURAN

Daşın ürəyi yox, məhəbbəti yox.

ZAMAN BABA

Bir də bu Vətənə xəyanəti yox.
Bünövrə tökmüşük, divar hörmüşük,
Hansı qara daşdan bəla görmüşük?
Nə vaxt düşmən bizə çəpəki baxıb
Daşlar qoşun kimi ayağa qalxıb.
Tarixdə min sınaq, min bir imtahan,
Qaladan ürpənib yağı hər zaman.
Özün vermədinsə onun sirrini,
Yağı nə biləcək daşın sehrini?

TURAN

Keçib dastanlardan, keçib nağıldan,
Yurd imdad diləyir ərdən, oğuldan.





ZAMAN BABA

Haqlısan, haqlısan, ağıllı balam,
Duman içindədir hələ ki qalam.
*(Qala divarlarını göstərir.)*

Bu cansız daşların hikməti dərin,
Nəbzi biləklərdə vuraydı gərək.
Qaynayıb qaladan daşan şəhərin
Qalası süngütək duraydı gərək.

Sən torpaq üstündə savaşlara bax,
Ot basan, kol örtən bu daşlara bax...
Onlar ləkəsizdir, onlar təmizdir,
Uçulan qala yox, tariximizdir.

TURAN

Gah ətək gəzənik, gah da saç yolan,
Daldan daş atılır – günah dabanda.
Mənim Zaman babam, elə hər zaman
Sən də səhv etmisən, sənin baban da.

ZAMAN BABA

*(Köks ötürür.)*

Bizə hürənlərin dizi olmadı,
Bizə yalmananlar bizləri yıxdı.
Buna çörək verdik, duzu olmadı,
Ona könül verdik, vəfasız çıxdı.

TURAN

Deyirsən daşlara oxşasaq əgər
Dünyanın işləri tamam düzələr?

ZAMAN BABA

Dizin qatlandısa, baş qısılacaq,
Başda görəcəksən yamanı, bədi.
Daş kimi susdunsa, yurd basılacaq,
Daş kimi durdunsa, Vətən əbədi.
Vətən bir cənnətdir dağlı, dənizli,
Yaşı qayasında, yaşı daşında.
Qərib düşən daşın taleyi gizli,
Qərib adamların daşı başında.

TURAN

*(Həyəcanlı.)*

Yenə hey yanırsan, hey alışırsan,
Nə qərib?
Nə qürbət?
Nə danışırsan?

ZAMAN BABA

Bilmirəm, ay oğul...
Sinəm göynəyir,
Qaranlıq fikirlər içimi yeyir.
Malıbəyli yandı, Xocalı yandı,
Nə qeyrət oyandı, nə baş oyandı.
Erməni dediyin bu xainlərin
Cinsindən, cildindən baş açmaq çətin.
Bəlkə keçmişinə güvənən millət
Qəflət yuxusundan doya nəhayət.

*(Zümzümə edir.)*

Susuz bağ bardan düşər,
Kor balta kardan düşər.
Başı daşqalaqlının
Daşı divardan düşər.





TURAN

Yaman bənd olmuşuq bu kövrək sözə,
Bayatı ağlamaq öyrədir bizə.

ZAMAN BABA

Məni silkələdi bu uçuq qala,
Dünya məhvərindən qopur az qala.

*(Qala divarlarını qucaqlayır.)*

Qolum yox, gözlərim gəlibdir gücə,
Gedirəm, ay daşlar, susun beləcə.
Görək fələk kişi nə sayacaqdı,
Yoxsa ürəyimiz partlayacaqdı?

*(Hardansa "Bu qala bizim qala" mahnısı səslənir.)*

TURAN

Baba, Qarabağın qara rəngi çox,
Amma şimşək kimi şərqisi də var.
Bu qədim qalanı top-tüfənglə yox,
Elə muğamatla qorumaq olar.

ZAMAN BABA

Torpağa qarışmamış
Necə dağı aşacam.
Oğul, sənə nağıl yox,
Mən tarix danışacam.

*(Turan babasının qoluna girir. Asta-asta gedirlər.)*

## İKİNCİ ŞƏKİL

*(Şuşa. XVIII əsr. Qala divarları hörülür.)*

USTA ƏRDAŞ

Əldən zirək olun, qoçaq balalar,
Göylərə ucalan bu daş qalalar
Yurdu qoruyacaq yağıdan, yaddan,
Vətənin sabahı çıxmasın yaddan.
Havası, torpağı loğman məmləkət
Çoxunun gözündə tikandır əlbət.
Aran ayağımın altındadır, bax!
Başımın üstündə buludlar papaq.

TÜRKEL

*(Zarafatla.)*

Ürəyin köklənib sarı sim üstə,
Yapıncın nədəndir, demədin, usta?

USTA ƏRDAŞ

Yapıncım ormanlar, yaşıl meşələr,
Bəzəyi, naxışı tər bənövşələr.
Döşünə düşürmü palım-paltarım?
Dəli çayları da sinəmdə tarım.

TÜRKEL

Əlin də, dilin də qızıldır, əhsən,
Vallah aşiq olub ustam deyəsən.

USTA ƏRDAŞ

Xətrinə dəyməsin, hələ naşısan,
Gözün görən kimi könlün dinəcək.





Oğul, bu torpaqda daş da daşısan,
Nə vaxtsa ürəyin muma dönəcək.
Bir gün bir gözəlin eşqi, ədası
Səni dəli edib çölə salacaq.
Bənnalığı məndən öyrən, qadası,
Aşiqlik dərsini verən olacaq.

TÜRKEL

Könlüm düşməyibdir həvəsə hələ,
Usta, tələsmirəm o dərsə hələ.
Ürəkdən sevdiyim bu daş, bu sənət,
Cahanımda addır, canımda qeyrət.

USTA ƏRDAŞ

*(Zarafatla.)*

Eləsə... bu daşı qaldır yerindən
Eşqinin gücünə bələd olum mən.

*(Türkel daşı qaldırır.)*

Daşdan, dəmirdəndir Türkelin qolu,
Lap pəhləvan imiş mehtərin oğlu!

*(Daşın üstünə çöküb köks ötürür.)*

Daha gücüm çatmır ağır daşlara...
Göylər də qanadı qırılmışlara
Zindandı, hasardı, dəmir qəfəsdi.

TÜRKEL

*(Əlini ustanın çiyninə qoyub könlünü almaq istəyir.)*

Belə gileylənmə, ay usta, bəsdi.
Mənim nə döşüm var, nə də ki, dişim?

Sən sözdən ötkəmsən, ağıldan iti.
Sənin yürüşün var, mənim yerişim –
Kim başa düşmür ki, bu həqiqəti?

USTA ƏRDAŞ

Hər çaxmaq daşına şam tək ərisən,
Həsrətin yaxında, kamın uzaqda.
Mən qürub çağıyam, sən dan yerisən,
Qələbən öndədir, baxtın qabaqda.
Kiməsə könülsüz könül verəndə,
Nə sular qaynayır, sellər durulur.
Sənin qollarında gücü görəndə
Yrəyim böyüyüb dağ boyda olur.

TÜRKEL

*(Qürrələnir.)*

Yaxamdan uzaqdır ələm də, qəm də,
Ürəyim çağlayıb coşur sinəmdə.

USTA ƏRDAŞ

Bəxti, taleyi var hər bir özülün,
Qalalar gərdək yox, sığınacaqdı.
Sığal verdiyimiz daşlarda bir gün
Neçə güllə susub, ox sınacaqdı.
Dünyanın şəltəsi ağır şələdi,
Xəyal yolçusuyuq çin yuxumuzla.
Yadların qurğusu elə tələdi,
Əlimiz dartışır öz yaxamızla.

*(Ud səsi eşidilir.)*

Gör neçə xanlığa bölünüb Vətən,
Göynərtim burnumun ucuna qədər.





Bayat qalasının bünövrəsindən
Çəkic işlətmişəm bürcünə qədər.
Başımızda dolu, başımızda qar,
Əkilən çürüdü, tikilən qopdu.
Şahbulaq qalası – boyu bir çinar,
Naxışı əlimə, ovcuma hopdu.
Torpaq varlı imiş, məmləkət vaylı,
Nabələd yolçuyuq kökdən budağa.
Əsgəran qalası o tay-bu taylı
Qolumun üstündə qalxıb ayağa.
Yatır qoynumuzda xoflar, xatalar,
Didir içimizi min ildən bəri.
Qonşu qonşu olsa, deyib atalar,
Ay oğul, bağ-bağat neylər çəpəri.
Zamanın təpiyi, yumruğu min-min,
Allah axırını xeyir eləsin.

TÜRKEL

*(Həyəcanla.)*

Könlümdə təpər var, gözümdə həvəs,
Təzəcə közərir sinəmdə ocaq.
İndi uçaldılan qalaların bəs
Görəsən taleyi necə olacaq?

USTA ƏRDAŞ

Ay oğul, ötəri bir giley idi,
Qartallı dağlarda nə aman, nə ah?
Bir də irəlini görmək çətindi –
Daşını biz verək, yaşını Allah.

*(Yaxınlıqda tütək səsi eşidilir.)*

TURKEL

Usta, nə danışır görəsən tütək?

**USTA ƏRDAŞ**

Deyir yaz gələcək, bahar gələcək,
Quzular irilib toğlu olacaq,
Qazanlar, tavalar yağlı olacaq...

*(Gülüşürlər. Qala divarları hörülür. Atlar kişnəyir, fayton səsi eşidilir.)*

**TÜRKEL**

Bu yol hara aparır
Atları, faytonları?

**USTA ƏRDAŞ**

Gözünü qamaşdırdı
Gözəllərin donları?
Bir ucunda Şamaxı,
Bir ucunda Gəncə var.

**TÜRKEL**

Ona görə deyirlər
Məhəbbət ölüncə var?

**USTA ƏRDAŞ**

Baçı oğlu, deyəsən
Qulaqların səsdədi,
Məhəbbət də, sevda da,
Əbədi taxt üstdədi.





**TÜRKEL**

Bu Gəncə qapısıdır,
Bu yol Gəncə yoludur.

**USTA ƏRDAŞ**

Denən, dilinə qurban,
Lap ürəyin doludur.

**CARÇI**

*(Əvvəlcə səsi eşidilir, sonra görünür.)*

Camaat, təzə xəbər –
Qoy eşitsin hər qoçaq!
Tək armudun yanında
Sabah cıdır olacaq!
Atına güvənənlər,
Adına güvənənlər!
Kəhəri ipək yallı,
Kəhəri gümüş nallı,
Yəhəri qotazlılar,
Nişanlısı nazlılar,
Ərənlər, ər igidlər,
Oğullar, nər igidlər,
Sınayın gücünüzü!
Camaat, Cıdır düzü
Sabah çiçək açacaq,
Atlar göylə uçacaq!
Ey özünə güvənən
Kişilər, ər oğullar!
Qalib gələn atlıya
Xanın mükafatı var!

*(Carçı gedir, səs tədricən uzaqlaşır.)*

Camaat, təzə xəbər –
Qoy eşitsin hər qoçaq!
Tək armudun yanında
Sabah cıdır olacaq!..

**TÜRKEL**

*(Həyəcanla.)*

Carçının sözündən atlandı sinəm!

**USTA ƏRDAŞ**

Oğul, gözlərindən bunu görürəm.
Sabah kəhərinin yatıb yalına
Cıdır meydanında özünü sına.
At çapmaq igidçün böyük sənətdir,
Bəlkə o mükafat sənə qismətdir.

**TÜRKEL**

Gözlərim alışdı, ürəyim yandı,
Hər gün bu dağlarda bir imtahandı.

**USTA ƏRDAŞ**

Çox gözəl.
Hələlik səhəngi götür,
Çinarlı bulaqdan sərin su gətir.

*(Türkel səhəngi götürüb gedir. Usta Ərdaş zümzümə edə-edə divar hörür.)*





## ÜÇÜNCÜ ŞƏKİL

*(Şuşa. Papaqçı Məşədi Vəlinin dükanı. Dəli Cəbiş cır-cındır içində, çiynində heybə qıçını çəkə-çəkə yüyürüb özünü dükanın qabağına yetirir. Bir neçə nimdaş geyimli oğlan uşağı onu dövrəyə alıb xorla oxuyur.)*

**UŞAQLAR**

Cəbiş – cibində kişmiş,
Cəbiş kəbinli imiş.
Cəbiş palazqulaqdı,
Cəbiş çaşdı, çolaqdı.
Kor qoyubdur Turanı,
Cəbiş sevir Siranı.
Cəbiş arvad alacaq,
Cəbiş kişi olacaq.

**DƏLİ CƏBİŞ**

*(Hirslənir.)*

Dədəniz arvad alsın,
Dədəniz kişi olsun.

**BİRİNCİ OĞLAN**

Nənəmi al, ay Cəbiş.

**DƏLİ CƏBİŞ**

Ağzında yoxdur bir diş.

**İKİNCİ OĞLAN**

Bibimi verim sənə.

DƏLİ CƏBİŞ

Meyit sırıma mənə.

ÜÇÜNCÜ OĞLAN

Xanım kimi ədası,
Xalamı al, qadası.

DƏLİ CƏBİŞ

Xalanın xalı mənim,
Yaylığı, şalı mənim.
Tumanı tutan boyda
Sərvəti, malı mənim.

*(Uşaqlar gülüşürlər.)*

BİRİNCİ OĞLAN

Mübarəkdir, mübarək,
Nənələr yurdda qaldı.
Dul xaladan birinin
Qara baxti açıldı.

*(Məşədi Vəli səs-küyə dükandan çıxır.)*

MƏŞƏDİ VƏLİ

Bu nə dava, bu nə iş,
Xeyir ola, a Cəbiş?

DƏLİ CƏBİŞ

Məşədi, qoyma yenə
Arvad alırlar mənə.





MƏŞƏDİ VƏLİ

*(Uşaqlara təpinir.)*

Ay dələduz küçüklər,
Ay xalası göyçəklər.
Əl çəkin bu Cəbişdən,
Anası ölməmişdən.

UŞAQLAR

*(Xorla oxuyurlar.)*

Kor qoyubdur Turanı,
Cəbiş sevir Siranı.
Kor qoyubdur Turanı,
Cəbiş sevir Siranı...

MƏŞƏDİ VƏLİ

*(Onların üstünə yeriyir.)*

Nəhlət sənə, kor şeytan,
Beynimə sıçradı qan!

*(Uşaqlar deyə-gülə qaçıb gedirlər.)*

Hamı qaçıb əkildi,
Məşvərətə gəl indi.
Gəl bu sirri aç mənə,
Bir papaq verim sənə.

DƏLİ CƏBİŞ

İstəmirəm papağı,
Kişi olaram axı.

MƏŞƏDİ VƏLİ

Ay gicbəsər, məgər sən
Hələ kişi deyilsən?

DƏLİ CƏBİŞ

Kişinin evi olar.

MƏŞƏDİ VƏLİ

Evlənsən, evin olar.

DƏLİ CƏBİŞ

*(Gülür.)*

Məşədi, dəli Cəbiş,
Çox da sarsaq deyilmiş.
Almasam səndən papaq,
Sirrim açılmayacaq.

*(Məşədi Vəli dükandan bir papaq gətirib onun başına qoyur.)*

MƏŞƏDİ VƏLİ

Papaq qurbandır sənə.

DƏLİ CƏBİŞ

Nə sualın var mənə?

MƏŞƏDİ VƏLİ

Yandırıb kül edirsən
Bu cüssəni, bu canı.





Axı arvad almağın
Kişiyə nə ziyanı?

DƏLİ CƏBİŞ

*(Uğunub gedir.)*

Səni bu günə salan
Arvad deyilmi, kişi?
Dəli yerinə qoyma
Sən də dəli Cəbişi.
Almasan, aldatmasan
Nə paran, nə üzün var.
Uşaq ac qalsa arvad
Ciyərini çıxardar.

MƏŞƏDİ VƏLİ

Sən canından qorxursan,
Yoxsa ki, ciyərindən?

DƏLİ CƏBİŞ

Qorxuram çıxa bir gün
Ciyərim kürəyimdən.
Arvad deyə tuman al,
Uşaq deyə filan al.
Bir gün bayramdır, gətir,
Bunlar haramdır, götür.
Bir papaqla bu yükü
Hər axmaq götürməyib,
Məşədi, dəli Cəbiş
Ağlını itirməyib.

MƏŞƏDİ VƏLİ

*(Təəccüblənir.)*

Sənin səfeh başına
Gərək heykəl qoyulsun.
Sənə dəli deyənin
Zatına nəhlət olsun!

DƏLİ CƏBİŞ

Məşədi, belə isə
Sənin zatına nəhlət.

MƏŞƏDİ VƏLİ

*(Düşünür.)*

Sənin bu söyüşündə
Həm haqq var, həm ədalət.
Dəlinin nə vecinə,
Qazancdır bəyin malı.
Ağıllılar papağı
Qarşısına qoymalı.

DƏLİ CƏBİŞ

*(Ağlayır.)*

Məşədi Vəli, vallah
Məı yalançı dəliyəm,
Nəyim gülməlidir ki,
Yalançı gülməliyəm.
Bir erməni gəlibdir
Yanında altı qızı,
Başımızdan alıbdır
Olmayan ağlımızı.





Beşini qapazladı
Bığıburma cavanlar,
Deyirlər altıncının
Cəbişə iştahı var.
Atası dəllək Petros
Deyir, Cəbiş, söznə ol.
Gündə məni tutur ki,
Ara, mənə yeznə ol.

MƏŞƏDİ VƏLİ

Toyunda oynayarıq
Kefə baxarıq biz də.
Dəli Cəbişin dərdi
Qalmaz ürəyimizdə.

DƏLİ CƏBİŞ

Bu donların dalınca
Donuzlar da gələcək,
Torpaqlar porsuq görsə
Papaqlar da öləcək.
Kimin nəyinə gərək,
Məşədi, mənim izim?
Bir vədə deyəcəklər
Məşədi Vəli bizim...
Yaxşı papaqçı olub,
Atasına xaç çəkin,
Dədəsinin gorunda
Soğan əkin, turp əkin.

MƏŞƏDİ VƏLİ

*(Onun yaxasından yapışır.)*

Məni təbdən çıxartdın,
Əlim batacaq qana!

Ay dəli, hardan gəlib
Bunlar sənin ağlına?

DƏLİ CƏBİŞ

Yaxamın nə günahı?
Ağıl ki, başda olar.
Sən verdiyin papağın
Qarı var, soyuğu var.

MƏŞƏDİ VƏLİ

*(Onun yaxasını buraxır. Kənara.)*

Nə söyləyir bu dəli,
Oynadır ağlı, huşu?
Hara buraxım əldən
Gül kimi Vartanuşu?

*(Dəli Çəbişə.)*

Ağlım çıxdı başımdan,
Gədə, itil gözümdən!
Qorxuram, xoflanıram
Vallah özüm-özümdən.

DƏLİ CƏBİŞ

Məşədi, bu papaqla
Qul olum, çoban olum.
Siranı verdim sənə,
Xalana qurban olum.

*(Dəli Cəbiş oxuya-oxuya gedir. Məşədi Vəli təkdir.)*





MƏŞƏDİ VƏLİ

Toxlar taxt həvəsində,
Aclar qılınca təpər.
Ataların sözü var –
Dəlidən doğru xəbər.
Xalanın bir xətri var,
Xəyanətin min əli.
Nə dedi dəli Cəbiş?
Düşün, Məşədi Vəli!

*(Qayıdıb dükanın qarşısında oturur. Başını əllərinin arasına alır.)*

## DÖRDÜNCÜ ŞƏKİL

*(Bulaq başı. Sona dolça ilə səhəngini doldurur. Zümzümə edir. Turkel səsi eşidib kənarda dayanır.)*

SONA

Çəməni çənə göstər,
Şehdə çimənə göstər.
Taxtını neyləyirəm,
Baxtını mənə göstər.

Şimşəklər çaxdı getdi,
Üzümə baxdı getdi.
Əlim bulağa dəydi,
Barmağım axdı getdi.

*(Sona birdən Turkeli görür. Mahnısını yarıda kəsir. Həyəcanlanır.)*

Sən Allah...bağışla...bilmədim, oğlan,
Mənim zümzüməmə qulaq asırsan...

TÜRKEL

Necə məlahətli səsin var, gözəl,
İnan, əfsunladı məni əlbəəl.
Sözlər də sənindir?

SONA

Ötəri şeydi,
Yarı zarafatdı, yarı gileydi.

TÜRKEL

Taxt ilə, baxt ilə zarafat olmaz.

SONA

Əgər elədirsə... gileydir bir az...

TÜRKEL

Bəlkə incidibdir xanım anası,
Kimdən gileylidir bu su sonası?

SONA

*(Əsəbləşir.)*

Oğlan, görməmisən dilimi hələ,
Yazıqsan, ağzına yiyəlik elə!

TÜRKEL

*(Tutulur.)*

Gözlərim kor olsun, dilim qurusun,
Gülüstanım solsun, gülüm qurusun!





Xətrinə dəydimsə od tutsun sinəm,
Bəsdirmi bu qədər qarğış, ay sənəm?

SONA

*(Gülür.)*

Bəsdir, qarğış etmə özünə, oğlan,
Əzrayil eşidib tutar yaxandan.

TÜRKEL

*(Ürəklənir.)*

Bircə xahişim var...

SONA

O nədir elə?
Ürəyini sıxma, sözünü dilə.

TÜRKEL

Gözəl qız, nə olar, nə Türkel canı,
Sularda axıtma barmaqlarını.

SONA

Deməli, adını söylədin mənə.
Bəlkə barmaqlarım gərəkdir sənə?

TÜRKEL

Mənə yox, baxtını göstərən kəsə,
Sənə könül açıb gül dərən kəsə.
Bir gün evinizə üzük yollayar...

**SONA**

*(Uğunub gedir.)*

Nə duzlu, nə şirin zarafatın var.
Gürzə ilanı da bu dillə, inan,
Çıxara bilərsən öz yuvasından.

**TÜRKEL**

Dilim şirin-şəkər olmasa əgər,
Məni elinizin qurd-quşu yeyər.
Qərib bir oğlanı çəkərlər dara.

**SONA**

*(Onu mənalı-mənalı süzür.)*

Təzəmi gəlmisən bizim diyara?
Amma ki qəribə yoxdur oxşarın,
Nə həsrətin bəlli, nə intizarın.
Bir az...

*(Gülür.)*

Bənzərin var dəyirmançıya,

**TÜRKEL**

Hər sözün elə bil dönür qamçıya.
Üstü unluların hamısına sən...

**SONA**

Niyə hamısına?..
Sükut edirsən...





Xətrinə dəydimsə, bağışla məni,
Gəlsənə unudaq beş-üç kəlməni...

*(Susurlar.)*

Eləsə, nəçisən, kimsən?
Desənə!

**TÜRKEL**

*(Ona yaxınlaşır.)*

Əvvəl o dolçanı doldur ver mənə
Sonra kimliyimi deyim, gözəl qız.

*(Sona dolçanı doldurub ona verir.)*

**SONA**

Bu da su...

*(Türkel dolçanı alıb başına çəkir.)*

**TÜRKEL**

Çox sağ ol.
Mən ötən payız
Uzaq bir diyardan gəlmişəm bura,
Məcnun tək vurğunam sizin dağlara.
Daş qırır, daş yonur, daş daşıyıram,
Sənət öyrənirəm, gün yaşayıram.
Başının üstündə qalalara bax! –
Bir gün bu qərib də xatırlanacaq.

SONA

*(Tutulur. Peşimançılıq keçirir.)*

Deməli... zəhmətin, işin müqəddəs...
Bağışla, könlünə toxundum əbəs...

*(Kənara.)*

Məni ovsunlayır onun gözləri...

TÜRKEL

Adını desənə, ay gözəl pəri.

SONA

Adımı?... Deyərəm bənna oğlana...
Demək, sən Türkelsən...
Mən isə Sona.

TÜRKEL

Hər gün bax bu vədə gələcəyəm mən.

*(Həyəcanla.)*

Yox, Türkel, nə deyib, nə söyləyirsən?
Atam xəbər tutar, qardaşım bilər,
Allaha and olsun evim "tikilər".
Bilsələr arada tanışlıq olub...

TÜRKEL

Sənətə vurulub, səsə vurulub
Sona, bu bulaqdan yolumu salsam,





Ömrüm hər arzuya, istəyə yetər.
Mən sənin nəğmənə həsrətli qalsam,
Niskilim gözümün kökündə bitər.

SONA

Durmuşuq bir sirli yolun səddində,
Söz də xalı kimi rəng-rəng olarmış.
Ay Allah, daş yonan bir igidin də
Qəlbi şüşə kimi kövrək olarmış.
Hər qızdan, hər sözdən incimək olmaz,
Mənim dediyimə şühbən qalmasın.
Sən ürək sözünü qalalara yaz,
Onu oxuyanla işin olmasın.

TÜRKEL

Taxtı haradadır talan olanın?
Bu dəyirman daşı dən üyütməli.
Ağıllı qız ilə dəli oğlanın
Söhbəti beləcə sona yetməli.
Salamat qal, Sona...

SONA

*(Nigarançılıqla.)*

Türkel... bir dayan...
İnciklik oxudum baxışlarından...

TÜRKEL

*(Səhəngi Sonaya verir. Sona səhəngi doldurur.)*

Qoy hamı görsün ki, sudan gəlirəm,
Səhəng də qənd olub, dil də qənd olub.

Çörək daşdan çıxır, bunu bilirəm,
Deyəsən eşqim də daşa bənd olub.

SONA

Allah eləməsin, sevgi şüşədir,
Ləçəyi ətirli bir bənövşədir.
Əlindən salarsan, sınar, bitişməz,
Budağı quruyar, barı yetişməz.

TÜRKEL

*(Səhəngi Sonadan alır.)*

Qanadım nə gəzir göylərdə uçam?
Gözəl, bu görüşü unutmayacam.

SONA

*(Gülümsəyir.)*

Deyirlər ki, sabah Cıdır düzündə
Yarış olacaqdır, gedəcəm mən də...

*(Təəccüblə.)*

Sən də at çapırsan?

SONA

Nə söyləyirsən?
Kənarda dayanıb seyr edəcəm mən.

TÜRKEL

Sabah bayram etsin qoy Cıdır düzü,
Gözəl qız, doğrusu şad oldum düzü.
Hər kəsin üstündə olsa alxışın,
Qalibi o kəsdir yəqin yarışın.

*(Türkel gedir. Yanıqlı tar səsi eşidilir.)*





SONA

Bu nə iş idi görən?
Tanımaza-bilməzə
Yad oğlanla, ay Allah,
Niyə durdum üz-üzə?
Qəlbim nəsə bir sirri
Dadmış, duymuş kimidir,
Ürəyim də sinəmdə
Çırpınan quş kimidir.
Tərpənmirəm yerimdən,
Yoxsa mən cansız daşam?
Səhəngi də səhərdən
Hələ doldurmamışam.

*(Sona səhəngini doldurur.)*

## BEŞİNCİ ŞƏKİL

*(İkinci şəklin təkrarı. Usta Ərdaş divar hörür. Türkel əlində səhəng gəlir.)*

USTA ƏRDAŞ

Bayaqdan dördgöz olub
Hey boylanıram yola,
Niyə gəlib çıxmırsan,
Harda qalmısan, bala?
Ürəyimdə su dərdi,
Dodağımda şikəstə.

TÜRKEL

Usta, bağışla məni,
Ləngidim çeşmə üstə.

USTA ƏRDAŞ

Yaman yandı təndirim,
Lap kəsildi kəndirim,
Parçı doldur, ay oğul,
Atəşimi söndürüm.

TÜRKEL

*(Gülür.)*

Ürəyinə, əlinə
Səcdə eləyirəm mən.
Daşdan dağ yaradırsan,
Sözdən ətirli çəmən.

USTA ƏRDAŞ

Güzgümüzə düşməyən
Könlümüzü doyurmaz,
Söz sözə bağlanmasa
Daş daşa arxa durmaz.

TÜRKEL

*(Suyu Usta Ərdaşa verir.)*

Bəs bu uca qayanın
Bərəsi nə, bəndi nə?

USTA ƏRDAŞ

*(Suyu içib parçı Türkelə qaytarır.)*

Yurdun şöhrəti qonub
Onun çiyinlərinə.





Bu adi qaya deyil,
Qızıldandır sütunu,
Səs üstündə köklənib,
Danışdır, dindir onu.

TÜRKEL

*(Təəccüblə.)*

Qayanı danışdırım?

USTA ƏRDAŞ

Hə, qayadan söz soruş,
Denən hardandır səndə
Bu əzəmət, bu duruş?

TÜRKEL

Qaya nə söyləyəcək?

USTA ƏRDAŞ

Nə bilim, onu səslə.
Əvvəl Qızıl qayadan
Bir xurcun qızıl istə.
Səsin gəldikcə çağır –
Qızıl qaya, qızılın var?!

TÜRKEL

*(Var səsi ilə qışqırır.)*

Qızıl qaya, qazılın var!?

*(Səs qayalarda əks səda verir. "Var", "var" nidaları geri qayıdır.)*

USTA ƏRDAŞ

*(Qəhqəh çəkir.)*

Bu qayanın sirrini
Bütün mahal, el bilir.
İndi inandınmı sən
Qızıl Qaya dil bilir?

TÜRKEL

*(Gülür.)*

Doğrudan möcüzədir,
Qayalar da danışır.

USTA ƏRDAŞ

Demək çoxaldı sənin
Bir dostun, bir tanışın...

*(Ara verir.)*

Səslə uşaqları da
Bu daşı bir qaldıraq.

TÜRKEL

Özüm tək qaldıracam,
Məni danlama ancaq.

*(Daşı qaldırıb divara qoyur.)*

USTA ƏRDAŞ

Ay uşaq, nə edirsən,
Bu daş tək işi deyil...





*(Fərəhlə.)*

Maşallah, göz dəyməsin,
Oğlan fildir elə bil!

TÜRKEL

*(Köksü atlanır.)*

Usta, mən işləyəcəm,
Sən dincini al bir az.
Bu daşların hərəsi
Yeddi put olar, olmaz...

*(Daşları bir-bir qaldırıb divara qoyur.)*

İsmayıl, xırda gətir,
Ələddin, palçıq gətir!
Sözümü bu qalaya
Yazacam sətir-sətir!

USTA ƏRDAŞ

*(Rahat nəvəs alır.)*

Gözünə dönüm, qoçaq,
Bu güc hardandır səndə?
Adam pələngə dönür
Vurulanda, sevəndə.
Gözlərimə yaxşı bax!

TÜRKEL

*(Gülür.)*

Heç nə yoxdur gözümdə,
Ərdaş dayı, gücümə
Mat qalmışam özüm də.

### USTA ƏRDAŞ

Gözündə ocaq yanır,
Ürəyinin toyudur,
Sənə bu gücü verən
O bulağın suyudur.
Kimi gördün, bilmirəm,
Gözündən sevgi yağır.
Məhəbbətin mübarək,
Oğul, baxtını çağır!

*(Usta Ərdaş zümzümə edə-edə divar hörür. Türkel onu seyr edir. Donub yerində qalıb.)*

## ALTINCI ŞƏKİL

*(Usta Ərdaşın mənzili. Gecədir. Otaqda şam yanır. Usta Ərdaş yerdə süfrənin arxasında bardaş qurub. Fikirlidir. Gülzar çay gətirir.)*

### GÜLZAR

Çaşdınmı mənzili, azdınmı yolu?
Yenə fikirlisən, palançı oğlu.

*(Usta Ərdaş susur.)*

Yaşın o yaş deyil, bu daşdan əl çək,
Hər qayada mamır göyərməyəcək.

### USTA ƏRDAŞ

Əzəldən çıxıbdır çörəyim daşdan,
Amma yoğrulmayıb ürəyim daşdan.





O məni əymədi, mən onu əydim,
Daşıma dəymədim, dişimə dəydim.

### GÜLZAR

*(Təəccüblə.)*

Ay kişi, falçısan, yoxsa ki, dərviş,
Axı nə deməkdir bu daşla, bu diş?

### USTA ƏRDAŞ

Ərdaşı qocaldan yaş oyunudur,
Dünya binəsindən daş oyunudur.
Bu daşlar yaşımla beşdaş kefində,
Yaşım zillətində, daşlar nəfində.
Amma bu peşədən üzülməyim yox,
Elə əlenmişəm, əzilməyim yox.

### GÜLZAR

Bir kəlmə qandımsa, atama nəhlət,
Sözünün canını söylə nəhayət.

### SUNAZ

*(Onlara yaxınlaşır.)*

Atamın qəlbi od, sənəti daşdır,
Çəkicə vurğundur, daşa sirdaşdır.
Hördüyü qalalar övladdan əziz,
Onun bu eşqini duymalıyıq biz.

### GÜLZAR

*(Heyrətlə)*

Atan eşqə düşüb?

SUNAZ

Guya ki, olmaz?
Kişinin qəlbini kimsə ovlamaz?
Çavankən könlünü alan gözələ
Nə qısqanclıq elə, paxıllıq elə.

GÜLZAR

*(Başını yelləyir.)*

Ağıl da köçhaköç, huş da köçhaköç,
Bu qarğa dilindən baş açmadım heç.

USTA ƏRDAŞ

*(Çay içir.)*

Molla kəsdirəcək doqqazımızı,
Vallah qocalmısan, zərgərin qızı.

GÜLZAR

Kim can əsirgəyib can ələyindən,
Dünyanı tutası deyiləm ki mən.

*(Xanəndə oğlanın oxuması eşidilir. Sunaz pəncərəyə yaxınlaşır. Pıçıltılı səslə.)*

SUNAZ

Qəlbi kösöv imiş, ürəyi qanmış,
Nə gözəl oxuyur bu canı yanmış!
Yuxudu, nağıldı, bülbüldü, nədi,
Bu ya möcüzədi, ya əfsanədi!





USTA ƏRDAŞ

*(Qızına yaxınlaşır.)*

Daşdan səsə keçir deyəsən ovsun,
Təki bu dağlarda bülbül oxusun.

XANƏNDƏ OĞLAN

*(Səs aydın eşidilir.)*

Narınca bax narınca,
Saxladım saralınca
Məndə ürək qalmadı
Səndən cavab alınca.

Mixək əkdim ləyəndə,
Ay mixək boynun əyəndə.
O günə qurban demişəm
Yar gözümə dəyəndə.

SUNAZ

*(Həyəcanla.)*

Ata!

USTA ƏRDAŞ

Nə olub, qızım?

SUNAZ

Bəyəm mixəyi...

*(Susur.)*

USTA ƏRDAŞ

*(Gülür.)*

Ləyəndə əkmirlər... Mənim çiçəyim.
Sevgi gah məxmərdi, gah da mixəkdir,
Ürəyin səsini duymaq gərəkdir.

SUNAZ

Ürəyimə qulaq asmaqdır peşəm,
Di gəl ki, səsini eşitməmişəm.

*(Qapı döyülür.)*

GÜLZAR

Qapının səsinə qulaq as barı,
Atanın vədəsiz bu qonaqları
Yerindən çıxartdı çərçivələri,
Gah dostları gəlir, gah kirvələri.

USTA ƏRDAŞ

Mən daşla sevişdim, anan ipəklə,
Gahdan ipək olduq, gahdan qara daş.
Bir damın altında iki ürəklə
Öc etmək nə qədər çətindir, qardaş.

*(Gedib qapını açır. Türkel gəlir.)*

TÜRKEL

Axşamınız xeyir!

*(Gülüşürlər.)*





Xoş gördük, bala,
Bu vədə nə gəliş, kaş xeyir ola!

TÜRKEL

Heç, usta, cıdırın həyəcanından
Deyəsən başımı bürüyüb duman.

USTA ƏRDAŞ

*(Əllərini onun kürəyinə vurur.)*

Sənin məzən olsun, yurdun qalası,
Çıdırda uduzsan sənə nolası?
Dövlət itirirsən, var itirirsən?
Niyə könül sıxıb köks ötürürsən?

GÜLZAR

Əgər qorxursansa, yarışa çıxma,
Atın da adına layiqsə, qorxma.

SUNAZ

And olsun Allaha, inanmıram mən
Çəkinə, ürpənə Türkel kimsədən.
Qəmərdir, qəmzədir, qəşəngdir Qaşqa,
Elə bil at deyil, şimşəkdir Qaşqa!
İnan ki, mən qalxıb yatsam yalına
Tufan da, külək də yetişməz ona!

TÜRKEL

Çıdır çiçək deyil qona yaxana,
Döyüş asan gələr gendən baxana.

Bir də utandırdın məni, ay bacım,
Qınağa boğuldum, nədir əlacım?
Yolum meydanadır, uduzsam nə qəm,
Sevinci sevmişəm, dərd öyrənəcəm.

**SUNAZ**

*(İncik halda.)*

Canına həyan ol, həyəcanlısan,
Bacın bəxtəvərdir... bacıcanlısan.

**USTA ƏRDAŞ**

Olandan, qalandan verin əlüstü.

**GÜLZAR**

Otur, qadan alım, çayımız isti.

**TÜRKEL**

*(Pəncərədən çölə işarə edir.)*

Yanıqlı səsi var, yanar ürəyi,
Ya bəxti qınayır, ya da fələyi.

**SUNAZ**

Onun nəğməsindən nə anlayırsan?

**TÜRKEL**

Açması çətindir, anımı asan,
Ya Aya vurulub, ya Ay tək qıza.

*(Astadan.)*





Səsi əsər etmir bir insafsıza.

*(Gülümsəyir.)*

**SUNAZ**

Səsə yox, ağıla inanır ürək,
Səsə vurulan qız, ağıldan seyrək.

**TÜRKEL**

Əgər bir gözəli sehirləməsə,
Nifrət edəcəyəm bu gözəl səsə.

**USTA ƏRDAŞ**

Arvadda hökmə bax, sən mənim canım,
Daşı qucağımdan alır bu xanım.

**GÜLZAR**

*(Rişxəndlə.)*

Ömür geri dönməz, ağıl qayıtmaz,
Ona fikir vermə, qocalıb bir az.
Daş ilə əlləşən, güləşən bala,
Otur qulluğunda dayansın xala...

*(Usta Ərdaş, Türkel bardaş qurub süfrə arxasında əyləşirlər. Gülzar süfrəni düzəldir.)*

***PƏRDƏ***

# İ K İ N C İ   H İ S S Ə

## YEDDİNCİ ŞƏKİL

*(Şuşa. Cıdır düzü. Camaat toplaşıb. Təbillər döyülür, atlar kişnəyir, adamların səs-küyü bir-birinə qarışıb. Cəngi səslənir.)*

*(Qarışıq səslər.)*

Çoban oğlu ağ atda,
Onundur mükafat da!

* * *

Qızışdı qırmanc görən,
Oynayır dəli kürən!

* * *

Möhkəm yapış yalından,
Şimşək çaxdı nalından!

* * *

Birinçi yer boz atın!
Bugünkü mükafatın
Qalibi qara kəhər!
Gözünə dönüm, Qəmər!

* * *

Aslan güvəncimizdir,
Baş mükafat bizimdir!

CARÇI

Hövsələnizi basın,
Camaat, qulaq asın!
Bu nərlər, bu igidlər
Göstərəcəkdir hünər!





Hamısı pəhləvandı,
Gözləri qızıl qandı.
Qaşları qətran kimi,
Atları ceyran kimi.
Dizləri daş sındıran,
Gözləri can yandıran
Oğullara min əhsən!
Qiymətini biləsən
Gərək igidin, ərin.
Bizim qədim ellərin
Bir toy-büsatı cıdır,
Bir amanatı cıdır!
Bu gün müqəddəs gündür,
Qoy eşitsin hər qoçaq!
Xan qələbə çalana
Bəxşiş bağışlayacaq!

*(Hər tərəfdən alqış yüksəlir.)*

Eşq olsun böyük xana!

* * *

Hamı baş əyir ona!

* * *

Qalın olsun kölgəsi!

* * *

Xoşbəxt olsun ölkəsi!

* * *

Bəla ondan yan olsun!

* * *

Ömrü qalacan olsun!

*(Dəli Cəbiş ağac atında daxil olur.)*

DƏLİ CƏBİŞ

Köhlən atım, kök atım,
Əyil, yalına yatım.
Yandıraram dədəni,
Öt bu gədə-güdəni!
Aşın kişmişi mənim,
Xanın bəxşişi mənim!

*(Uşaqlar onu dövrəyə alırlar. Xorla.)*

UŞAQLAR

Dəli Cəbiş dəm imiş,
Lap ağıldan kəm imiş.
Bir eşşəyə çul oldu,
Bir Sirana qul oldu.
Dəli Cəbiş qız alar,
Yanaqları qızarar.

DƏLİ CƏBİŞ

Bığlarımı eşərəm,
Bacanızdan düşərəm.
Xalanızı alaram,
Mən də kişi olaram.

UŞAQLAR

*(Xorla.)*

Cəbiş arvad alacaq,
Cəbiş kişi olacaq!

*(Cəbiş ağac atını çapıb gedir. Uşaqlar da onun dalınca səhnədən çıxırlar.)*





CARÇI

Qırx pilləkan tərəfə
Yürüş edin bu saat.
Qalibi Mıxtökəndə
Qarşılasın camaat.

*(Şeypurların, təbillərin səsi adamların səs-küyünə qarışır.)*

SONA

*(Həyəcanla.)*

Türkelə oxşayır o igid necə,
Hərdən mən tərəfə baxır gizlicə!
Qırmancı şimşəkdir, atı qızıl quş,
Elə bil özü də oddan doğulmuş!
Yoxsa ki, gözlərim məni aldadır,
Ürəyim nə yaman qeylü-qaldadır!
Qaçdı dodaqları!
Türkeldir vallah!
Qalib gələçəkmi?
Allaha pənah!
Dünən dəyirmançı dediyim oğan
Bu gün seçilməyir bəy balasından.
...Atını üstümə çapır, bu nədir?
Zalımın balası lap divanədir!

TÜRKEL

*(Onlara tərəf gəlir. Qırmancı yelləyir.)*

Ehehey, oynasın göydə gül əllər,
Mənə xeyir-dua versin gözəllər!

*(Qızlar onu alqışlayırlar.)*

Atın büdrəməsin!

* * *

Adın batmasın!

* * *

İgid, sınaq günü baxtın yatmasın!

**SUNAZ**

Güvən qeyrətinə, güvən özünə,
Atına yalvar ki, baxsın sözünə.

**SONA**

*(İncik halda.)*

Sən bir bunlara bax, muma dönürlər,
Bilmirsən sevirlər, ya sürünürlər.

*(Türkelə müraciətlə. Səsini ucaldır.)*

Bir də mənə baxıb sorma hal-əhval,
Yeri gözəllərdən xeyir - dua al!

**TÜRKEL**

*(Usta Ərdaşa tərəf gəlir.)*

Usta, çəkicim var boyumdan uca,
İndi də gedirəm qılınc dalınca!





**USTA ƏRDAŞ**

Çəkiclə qurulan hər ev, hər qala
Həmişə qılıncla qorunub, bala!

*(Türkel gedir.)*

Bu yarış, bu gülüş varın səsidir,
Vətən torpağında qeyrət dərsidir!
Nərlər öyrənməsə nəriltilərə,
Torpaq oyanmasa kişnərtilərə,
Çəkiclər sevməsə çopur daşları,
Qana qan deməsə qan qardaşları
Vətən də yetimdir, millət də yetim!
Elə ki çağladı yurd məhəbbətim,
Qüdrətli orduyam, basılmaz ərəm,
Canımı Vətəndən əsirgəmərəm.

**SUNAZ**

Ata, görmək olmur səni özündə,
Sinəndə döyünmür, atlanır ürək.
Yarış paltarını geyinib sən də
Bir dəli kəhərə minəydin gərək.

**USTA ƏRDAŞ**

Yüz saray tikilsə, yüz ev qurulsa,
Nə xalı mənimdir, nə gəbə mənim.
Şagirdim yarışın qalibi olsa,
Mükafat onundur, qələbə mənim!

**SONA**

*(Kənara.)*

Bu oğlan şeytandır, bu oğlan cindir,
Bilmirsən sevinci, eşqi kimindir.

*(Səs-küy, atların kişnərtisı, nal səsləri getdikcə yaxınlaşır. Qarışıq səslər yüksəlir.)*

Bax belə, bax belə, başına dönum!

* * *

Ay mənim səhərim, ay mənim günüm!

* * *

Qaşqa at qabağa keçdi təzədən!

* * *

Ayğır o qaşqanı ötəcək hökmən!

* * *

Xeyir-duamızın xeyiri varmış,
Yoxsa igidimiz dalda qalarmış.

**SUNAZ**

*(Kinayə ilə.)*

Şam kimi əriyib əldən getdi qız,
Hələ bu tərəfə baxmır imansız.

**USTA ƏRDAŞ**

*(Sevinclə.)*

Göylərə qaldırdın, oğul, ustanı,
Bu gündən başlandı cıdır dastanı!
Sevdin gülünü də, çiçəyini də,
Gördüm dilini də, dilçəyini də!





*(Müxtəlif səslər.)*

Görən adı nədir qalib gələnin?

* * *

Tələsmə, indicə deyərlər yəqin.
Onu sındırmadı Qaşqa bu yerdə!

* * *

Gərək hər gün ona kişmiş yedirdə!

* * *

Bir az sakit olun, ay qardaş, bacı,
Görək nə söyləyir, nə deyir carçı?

**CARÇI**

Bu gün Çıdır düzündə
Bir bayramın, bir toyun
Bünövrəsi qoyuldu.
Camaat, bu yarışda
Türkel birinci oldu!
Sevindirdi mahalı,
Sevindirdi bir eli!
Alqışlayaq Türkeli!

**QARIŞIQ SƏSLƏR**

Eşq olsun, igid bala!

* * *

Şad oldu bütün Qala!

* * *

Yaşasın igidimiz,
Əlini sıxırıq biz!

**CARÇI**

Ellər, əldən verməyin
Bu anı, bu saatı!
Qalib kəsi gözləyir
Böyük xanın sovqatı!

*(Adamlar axışıb gedirlər. Sona donub yerində qalıb. Bir dəstə çiçəyi köksünə sıxıb ağlayır. Usta Ərdaş ona yaxınlaşır.)*

**USTA ƏRDAŞ**

Yoxsa qocalmışam, çaş görürəm mən?
Qızım, gözlərində yaş görürəm mən,
Niyə ağlayırsan?

**SONA**

*(Tərəddüdlə.)*

Heç... elə-belə...
Ala bilməyirəm özümü ələ.
Yrəyim sevinir, gözüm yaşarır...

**USTA ƏRDAŞ**

Onda çox ağlama, damla daş yarır.
Əlindəki nədir?

**SONA**

Birtəhər güldür...

**USTA ƏRDAŞ**

*(Çiçəklərə baxır.)*

Ay qızım, gül deyil, xarı bülbüldür.
Heç yerdə görməzsən sən bu çiçəyi,





Bu yurda bənd olub eşqi, ürəyi!
Sən də diqqət yetir, can verir bülbül,
Bu da məhəbbətə qurban gedən gül.
Sevib ayrılırlar bir budaq üstə,
Qovuşub ölürlər bir yarpaq üstə.

**SONA**

*(Sevinir.)*

Bunları bilmirdim!

**USTA ƏRDAŞ**

Öyrənəcəksən,
Bir şirin xəyalı gözünə çəksən.
Gedək təbrik edək Türkeli biz də,
Sözümüz qalmasın ürəyimizdə.

**SONA**

Deyən qohumsunuz... Türkel nəyiıdir?

**USTA ƏRDAŞ**

*(Gülür.)*

Deyirsən hər şeyi söyləyim indi?

**SONA**

İndi ki tanıdı onu el-oba,
Bəlkə həqiqəti söyləyə baba.

**USTA ƏRDAŞ**

Qızım, mən ustayam, Türkel şagirdim,
Qala ucaldırıq... olanı dedim.

SONA

*(Həyəcanla.)*

Sən usta Ərdaşsan, baba, eləmi?

USTA ƏRDAŞ

Adım da, peşəm də dediyin kimi...
Daha yubanmayaq, indi böyük xan
Xeyli ləzzət alıb yəqin cıdırdan.
Gedək təltifi də görək.

SONA

*(Onun qoluna girir.)*

Nə olar,
Gedək, əlimdəki çiçəklər solar.

*(Gedirlər.)*

## SƏKKİZİNCİ ŞƏKİL

*(Pənahəli xan hündür bir yerdə. Yanında saray adamları, xidmətçilər. Usta Ərdaş, Sona, Sunaz və digər adamlar kənarda dayanıblar. Arxada Topxana meşəsi, uzaqda Kirs dağının qarlı zirvəsi görünür. Təbillər döyülür, şeypurlar səslənir. Əsl bayram təntənəsidir.*

*Türkel Pənahəli xana tərəf addımlayır. Pənahəli xan da irəli gəlib qollarını açır. Aralığa sükut çökur.)*

PƏNAHƏLİ XAN

Afərin! Qoçaqsan, igidsən, oğlum!
Sizlərdir qanadım, sizlərdir qolum!
Qoy səni bağrıma basım...





*(Onu bağrına basır.)*

Bax belə!
Böyük uğurların öndədir hələ.

TÜRKEL

*(Baş endirir.)*

Sevincdən ürəyim döyündü yaman,
İzn ver əlini öpüm, böyük xan.

*(Onun əlini öpmək istəyir. Xan əlini geri çəkir.)*

PƏNAHƏLİ XAN

Yox! Yox! Dodağını öyrətmə ələ,
Ömrü verməmişik tufana, yelə!
Torpağı, daşı var ana Vətənin,
Hamısı möhtacdır eşqinə sənin!
Sevsən də bu yurdun taxtü-tacını
Nəfəsin oxşasın ana saçını.
Müqəddəs xan deyil, bu xanimandır,
Ucaldın fəxrimsən, enmə amandır!

TÜRKEL

*(Məğrur dayanır. Ötkəm səslə.)*

Bu da məhəbbətdir, bu da istəkdir,
Əqidə məramla öyünəcəkdir.
Əlin istisi var, dodağın səsi,
Yaraq qını sevmir, ürək qəfəsi.

**PƏNAHƏLİ XAN**

Hər öyüd, nəsihət fərman deyil ha,
Hər kəlam çevrilmir bir qibləgaha.
Baharın selisən, dağın çayısan,
Yurdumun, elimin oğul payısan.
Türkelin mənası, tutumu dərin,
Bir də...

*(Gülür.)*

Qız qaytarır qara gözlərin.

*(Hamı sevinir. Pıçhapıç başlayır. Pənahəli xanın işarəsi ilə qılıncı gətirirlər. Xan qılıncı iki əlində tutub. Səs-küy kəsilir.)*

Götür bu qılıncı qurşağına tax,
Adınla öyünsün bütün Qarabağ!

**TÜRKEL**

*(Qılıncı alıb öpür, xana təzim edir.)*

Böyük xan sağ olsun, qədim yurd abad,
Verdiyin bu qılınc, verdiyin bu ad
Üstümə o vədə salacaq kölgə
Qorxudan, təlaşdan qurtula ölkə.

**PƏNAHƏLİ XAN**

*(Heyrətlənir.)*

Bunu gözləmirdim, ağlına əhsən!
Ulu məmləkətin oğluna əhsən!
Zəkan dayanmasa qılıncdan başda,





Allah da köməyin olmaz savaşda.
Onunçun tikirik qalaları biz
Qorunsun, ucalsın məmləkətimiz.
Yenə dırnaq tökür öküzlər, atlar,
Xanın da, xalqın da bir məramı var –
Ocağı gur yansın hər bir komanın,
Amma unutmayaq oxu, kamanı...

**TÜRKEL**

Qübarlı qəlbimlə qabarlı əlim
Vətənimə quldur, eşqimə təslim.

**PƏNAHƏLİ XAN**

Əgər əllərinin qabarı varsa,
Əgər ürəyinin qübarı varsa,
Eşqinə inandım!

**TÜRKEL**

Sağ ol, böyük xan,
Bizə güc də verib bizi yaradan.

**PƏNAHƏLİ XAN**

*(Əlini onun çiynınə qoyur.)*

Eşqin də, gücün də öz arşını var,
Qüdrət də, şöhrət də sevən kəsindi.
Dağı dağ üstünə qoymasan olar,
Daşı daş üstünə qoysan bəsindi.
Kimdən dərs almısan?

TÜRKEL

Ustam Ərdaşdan.

PƏNAHƏLİ XAN

*(Camaatın arasına göz gəzdirir. Usta Ərdaşı görür.)*

O mənə yaxındır doğma qardaşdan.
Mənim taxt-tacım var, onun sənəti,
Fərmanın çəkicə olsun minnəti.
Yaxın gəl, usta.

*(Usta Ərdaş Pənahəli xana yaxınlaşır. Əl tutub görüşürlər.)*

Şakirdinə sən
Kişilərə layiq peşə verirsən.

USTA ƏRDAŞ

Türkel doğulubdur atın belində,
Cıdır qəlbindədir, çəkic əlində.
Çəkic işlədəndə şagirddir mənə,
Yəhərə qalxanda ərdir Vətənə.

PƏNAHƏLİ XAN

Daşı sevmədinsə, at murad deyil,
Ata minmədinsə, yurd abad deyil.

USTA ƏRDAŞ

Torpağı qoruyur daş ilə dəmir,
Daş basan torpaqda zəmi göyərmir.





PƏNAHƏLİ XAN

Tarixlərdə sinə dağımız çoxdur,
Düşmənimiz çoxdur, yağımız çoxdur.

USTA ƏRDAŞ

Bir də ki, böyük xan, öz qılıncımız
Çox vədə enibdir öz başımıza.

PƏNAHƏLİ XAN

*(Ani duşuncədən sonra.)*

Usta, üstümüzü alanda payız
Özümüz duz töküb öz aşımıza
Kəsilib, bölünüb, paralanmışıq,
Bizlər yadlandıqca yaralanmışıq.
Hərə qısılıbdır öz qeyrətinə,
Böyük bir ölkənin aqibətinə
Mən də acıyıram hamıdan betər.
Qardaş qardaşına qılınc siyirsə,
Sən demiş, yurdunda qara daş bitər.
Gözümüz çox görüb zavalı, yeli,
Ellərin sel gücü dağ aşımaqda.
Gör neçə ildir ki, Qarabağ əhli
Uşaqdan böyüyə daş daşımaqda.

*(Türkelə.)*

Hansı obadansan?

TÜRKEL

Təbriz elindən.

PƏNAHƏLİ XAN

Belə de...demək
Qılınc Qarabağdan uzaq düşəcək...

*(Gəzinir.)*

Zaman üstümüzdə bir dağ selidir,
Bizim tariximiz kəşməkəşlidir.
Hopdu qanımıza bu daş qəsrdə
Şöhrətin zəhəri, sarayın balı.
Vətən, Allah bilir hansı əsrdə
Bir də yetirəcək Şah İsmayılı.
Mənim qardaşlarım neçə yol, bala,
Qılıncdan keçirib bizi az qala.
Vətəndən Vətənə duman sürünür,
Düzü, Pənah xan da gücsüz görünür.

TÜRKEL

*(Dili dolaşır.)*

Təəssüf edirsə...əgər böyük xan...

*(Qılıncı əllərinin üstündə ona uzadır.)*

PƏNAHƏLİ XAN

*(Türkelin əlini aşağı salır.)*

Qətiyyən! Ağlına gətirmə, oğlan!
Bu öz mükafatın, bu öz qazancın,
Ürəyimə yatdı ruhun, inancın.
Odda bərkiyənlər keçəcək oddan,





Qoy Təbriz elini qorusun yaddan.
Güvənsin həmişə qana, qeyrətə,
Təki xidmət etsin bu məmləkətə.

*(Qürurla.)*

Ucalır Vətənin qüdrət qalası,
Bütün tarixlərə şöhrət olası!

TÜRKEL

Torpağı min cürə çiçək bitirir,
Məmləkət Qalaya pənah gətirir!

USTA ƏRDAŞ

Qala da deyirik, Pənahabad da,
Xana məhəbbət var hər iki adda!

PƏNAHƏLİ XAN

Dilə yox, ürəyə yataydı bu ad,
Pənah evi olsun qoy Pənahabad!

*(Qarışıq səslər.)*

Xan bizim dayağımız,
Şamımız, çırağımız!

* * *

Qalın olsun kölgəsi,
Xoşbəxt olsun ölkəsi!

* * *

Toy görək, bayram görək,

Çiçək dərək, gül dərək!

* * *

Zaval yetməsin ona,
Eşq olsun Pənah xana!

*(Pənahəli xan camaatı sakitləşdirir. Əlində gül tutan Sonaya yaxınlaşır.)*

**PƏNAHƏLİ XAN**

Könlünü açıbdır yenə gül-gülə,
Sevənlər vurğundur xarı bülbülə.

*(Sonanın saçlarını sığallayır.)*

Qayanın döşündə bitməsə lalə,
Yatmaz əzəmət də gözə, könülə.
Məndən qılınc alan bir qəhrəmana
Mələk sevgilidir, məmləkət ana.
Hansı ər dilbərdən aldısa çiçək,
Yurdun qiymətini onda biləcək.
Məhəbbət giribsə əgər qəlbinə,
Qızım, çiçəkləri ver sahibinə.

**SONA**

*(Çaşır.)*

Soluxan çiçəklər bənzər qüruba,
İgidin gözünə qılınc görünər.
Yarağın yanında, axı, xan baba,
Mənim çiçəklərim gülünc görünər.





**PƏNAHƏLİ XAN**

Hikməti bəllidir torpağımızın,
Haqq sözü həmişə həqiqət olur.
İsməti eşqindən ağıllı qızın
Qisməti həmişə səadət olur.
Ayaq səsləri var yolların altda,
Ləçəklərə qonan şeh şikəstədir.
Bu gün Cıdır düzü nalların altda,
Sənin çiçək könlün murad üstədir.
Hər eldən, obadan toy gözləyirəm,
Andına, eşqinə özün ağasan.
Səni qızım kimi əzizləyirəm,
Bir ocaq qalayıb oğul doğasan.
Eşqin çıraq olsun can sarayında,
Xəlbir özünündür, xırman sənindir.
Xanın öz hökmü var xan sarayında,
Burda ürək sənin, fərman sənindir.

**SONA**

*(Yavaş-yavaş Türkelə yaxınlaşır. Əlindəki çiçək dəstəsini ona verir.)*

Görüm arzuların çin olsun, igid,
Adın bir, qələbən min olsun, igid1!

**TÜRKEL**

Vətən dünya boyda tac verdi mənə,
Borcumu qaytaram gərək Vətənə!

**PƏNAHƏLİ XAN**

Ləçəyi xonçada qənd olan gülün
Qanı quruyacaq, rəngi qaçacaq.

Kökü bu torpağa bənd olan gülün
Qönçəsi hər bahar ətir saçacaq.

*(Üzünü carçıya tutur.)*

Köklə boğazını, çal ilhamını,
Carçı, ziyafətə çağır hamını!

*(Təbillər döyülür, şeypurların səsi adamların səsinə qarışır. Pənahəli xan, usta Ərdaş, Turkel, Sona gedirlər. Adamlar da yavaş-yavaş onların ardınca çıxırlar.)*

**CARÇI**

Ay camaat, eşidin,
Süfrə açdırıbdır xan,
Hindistan düyüsündən
Aş dəmlənib qırx qazan!
Bağdaddan xurma gəlib,
İrandan qara kişmiş,
Gürcüstandan qırx tuluq
Şərab da gətirilmiş!
Şırlanın qaymağı var,
Sarıbabanın balı,
Kababımız doyurar
Bütün eli, mahalı.
Heç kəs Cıdır düzündən
Ac qayıtmasın geri,
Xan bayrama çağırıb
Böyük xanəndələri.
Çadırlara buyurun,
Özünüzü doyurun!

*(Tar, qaval səsi eşidilir, muğamat oxunur. Dəli Cəbiş qarğı atını çapa-çapa daxil olur. Bir neçə uşaq da onun dalınca.)*





**DƏLİ CƏBİŞ**

Ay camaat, kefdir, kef,
Heç kim olmasın bikef.
Bu gün qarın bayramı,
Halal ilə haramı
Qatın biri-birinə,
Çaxır gətirin mənə.
Mən də içim kökəlim,
Mən də yeyim yekəlim.

**UŞAQLAR**

*(Xorla.)*

Yekəlmə, dəli Cəbiş,
Kökəlmə, dəli Çəbiş.

**DƏLİ CƏBİŞ**

Nənəniz yekəlməsin,
Xalanız kökəlməsin.

*(Mindiyi ağac atı əlinə alıb onlara hücum çəkir.)*

Qeyrətiniz çatırsa
Bir-bir gəlin yaxına.
Sizin də, Petrosun da
Söyərəm var-yoxuna.

*(Uşaqlar "Cəbiş, çibində kişmiş" deyə-deyə qaçıb gedirlər. Dəli Cəbiş söyə-söyə onların dalınca götürülür.)*

# DOQQUZUNCU ŞƏKİL

*(Dördüncü şəkildəki təsvir. Sona zümzümə edə-edə bulaqda səhəngini doldurur. Sunaz bulağa tərəf enir. Sonanın səsini eşidib dayanır.)*

SONA

Saçlarımı hörəydim,
Şirin yuxu görəydim.
İpək yorğana dönüb
Yatağına girəydim.

SUNAZ

*(Öz-özünə.)*

Ölmüş elə bil ki, ay parçasıdır,
Çiçək açasıdır, gül açasıdır.

SONA

*(Başını qaldırıb gülür.)*

Ürəkdən bircə yol oxuyan kimi
Bütün Qala bilir mənim sirrimi.

SUNAZ

*(Pıqqıldayır.)*

İpək yorğana dönüb
Yatağına girəydim...





*(Qəh-qəh çəkir.)*

Deyək ki, könlünü verəsi oldun,
Bəlkə çit yorğana girəsi oldun.

SONA

Qol-boyun yatsa da daşların üstdə,
Sevənlər xoşbəxtdir dəmir qəfəsdə.

SUNAZ

Bəlkə Leyli eşqi səndən öyrənib,
Onun da yolları daşa dirənib.
Bir də ürəyinə yol tapan oğlan
Niyə gileylənsin belə sonadan?

SONA

*(Təəccüblə.)*

Adımı nə bildin?

SUNAZ

Gözlərin dedi.
İndi göylər sənin, yerlər sənindi.

*(Ani sükutdan sonra)*

Ay qaşları qara, saçı səməni,
Vallah harda isə görmüşəm səni.

SONA

Ya hamamda olar, ya da bulaqda,
Çuvala yoldaşam evdə, otaqda.

Gah alxış mənimdir, gah qarğış mənim,
Sil-süpür, qab-qacaq, yır-yığış mənim.

SUNAZ

*(Barmağını dişləyir.)*

Bu sözü ulduzlu göyə demirsən,
Bəs Cıdır düzünü niyə demirsən?
Dəni yetişəndən sarı sünbülün
Çiçəyi çırtlayıb xarı bülbülün.
Çöküb çəmənlikdən çiçək dərmədin?
Qələbə çalana könül vermədin?

SONA

*(Dili dolaşır.)*

Günah məndə deyil, hökm edən ürək,
Dərdsizlər dərdimi hardan biləcək?

XANƏNDƏ OĞLAN

*(Oxuması eşidilir.)*

Könlüm köklədi sazı,
Dağ çəkdi mənə nazı.
Yuxuda itirmişdim,
Suda tapdım Sunazı.

*(Qızlar oturub qulaq asırlar. Sunaz uğunub gedir.)*

Çaylar avazla axar,
Ördəklə, qazla axar.





Sunaz suya gələndə
Sular da nazla axar.

SUNAZ

*(Səhəngini doldurur.)*

Nə gözə görünür, nə sönür həvəs,
Üç aydır dalımca sürünür bu səs.
Üzünü göstərmir tanıyam, görəm,
Bu cin balasının payını verəm.

SONA

*(Təbəssümlə.)*

Sunaz sənmisən?

*(Sunaz başını yelləyir.)*

Nə gözəl addır,
Allaha and olsun, bu səs muraddır.
Arxanca sürünür, yolunca gəlir,
Sehrinə düşübdür, dalınca gəlir.

SUNAZ

Eşqin atəşinə mən də tuş oldum,
Yurdumda, yuvamda qaranquş oldum.
Mənə deyiləsi sözümü yoxdur?
Üzə çıxmaq üçün üzümü yoxdur?
Çobanmı, mehtərmi, ya dilənçidir,
Anlaya bilmirəm o kəs nəçidir.

SONA

Kimdirsə gələcək günün birində,
Duracaq qəlbinin qəlbi yerində.

*(Səhəngini götürür.)*

Sunaz, yubanıram, məni bağışla,
Babam qurşaq tutub çəkiclə, daşla.
Qalaya qalxıram...

SUNAZ

*(Təəccüblə.)*

Baban kimdir, qız?

SONA

Bu dağlar olmasın qoca qartalsız.
Eşitmiş olarsan usta Ərdaşdan,
Kişi heykəl yonur qayadan, daşdan.

SUNAZ

*(Kinayə ilə.)*

Sənin heykəlini harda qoyacaq?

SONA

*(Qürur hissi keçirir.)*

O mənim qəlbimdə qudrətdir ancaq.
Hər gün su verməsəm babama, inan,
Bir qurtum su keçməz öz boğazımdan.





SUNAZ

Açılan qapını üzünə örtmə,
Ağsaqqal kişini bəhanə etmə.
Sözün nə doğmadır, nə ağıl kəsən,
Sən ki bir cavana könül vermisən.

SONA

Könüllü girovam, könüllü əsir,
Adı çəkiləndə ürəyim əsir.
Bircə gün görməsəm Türkeli əgər,
İnan ki, göylərdə günəşim sönər.

SUNAZ

Çiçəyi açanda gülab çəkməyə
Ürəyi öyrənir əzab çəkməyə.
Çoxu nə toy görüb, nə vüsal dadıb,
Allah gözəlləri bədbəxt yaradıb.

SONA

Hər sevda bir qəlbin qismətindədir,
Sevginin dəyəri həsrətindədir.
Məhəbbət yağıdır çırağımızın,
Yaşıl budaqların çiçəyi xoşbəxt.
Yuxuları ərşə çəkilən qızın
Gözləri bəxtəvər, ürəyi xoşbəxt.

SUNAZ

Qarğaşan çox imiş, qəhrin çox imiş,
Sənin pərvanədən fərqin yox imiş.

### XANƏNDƏ OĞLAN

*(Oxuması eşidilir.)*

Çaylar avazla axar,
Ördəklə, qazla axar.
Sunaz suya gələndə
Sular da nazla axar.

### SONA

*(Səhəngi çiyninə alıb gülümsəyir.)*

Allah, ulduzları göydə qoşa ver,
Mən getdim, bu səslə sən baş-başa ver.

*(Sona gedir. Sunaz səs gələn tərəfə boylanır. Hürkək-hürkək oğlanı çağırır.)*

### SUNAZ

Ay oğlan... atginən gizlənpaç daşın...

*(Oğlandan səs çıxmır.)*

Görüm başı batsın səsi batmışın.

*(Döyükə-döyükə qalıb.)*

### XANƏNDƏ OĞLAN

*(Oxuya-oxuya daxil olur.)*

Saçın ucun hörməzlər,
Gülü qönçə dərməzlər,





Səni mənə verməzlər,
Aman, sarı gəlin.

*(Oxumasını kəsir. Sunaz altdan-altdan onu süzür.)*

Məni eşqə salan qoşa xalındı,
Başım qurbanındı, səsim qulundu.

### SUNAZ

Bülbüllər ötəndə nərgizlər bitər,
Özün saralmısan heyvadan betər.

*(Sinəsinin üstündəki hörüklərinin ucunu hörür.)*

### XANƏNDƏ OĞLAN

Haçan ürəyimdən bir istək keçir,
Saçlarının rəngi üzümə köçür.

### SUNAZ

Qərib durna kimi nə təklənmisən,
Nə əcəb bu səhər ürəklənmisən?

### XANƏNDƏ OĞLAN

Sən ayaq açandan bulaq başına,
Səsim mehir salıb elçi daşına.
Saçın tək saraldım mən sevə-sevə,
Ürəyim yollardan yığışmır evə.

### SUNAZ

Demək bacarmırsan öz ürəyinlə.

XANƏNDƏ OĞLAN

Ürəyim döyünür toyla-düyünlə.

SUNAZ

Səsin bulaq kimi, özün buz kimi,
Yaxamdan yapışma qır-saqqız kimi.

XANƏNDƏ OĞLAN

Sərin çeşmə olsan, duzum əriyər,
İsti günəş olsan, buzum əriyər.

SUNAZ

*(Gülümsəyir. Kənara.)*

Səsindən şirindir zalımın oğlu,
Lap çıxır başından adamın ağlı.

*(Hörüklərini kürəyinə atır. Səhəngini çiyninə qaldırıb Sonaya əks istiqamətdə gedir.)*

XANƏNDƏ OĞLAN

*(Ovuclarını doldurub bulaqdan su içir. Sunazın arxasınca.)*

Saçın ucun hörməzlər,
Gülü qönçə dərməzlər,
Səni mənə verməzlər,
Aman, sarı gəlin.

*(Tütəyini kəmərindən çıxarıb dodaqlarına yaxınlaşdırır.)*





ONUNCU ŞƏKİL

*(Qala divarları tikilir. Barılar daha əzəmətlidir. Qala burcləri qurulub. Çəkiçlərin səsi eşidilir. Usta Ərdaşla Türkel divar başındadırlar.)*

USTA ƏRDAŞ

Gün yaman istidir, beynim qaynadı.

TÜRKEL

Ay usta, mənimsə ruhum oynadı.
Gül-gülü çağırır, çəmən-çəməni,
Xəlifəli çayı gözləyir məni.

USTA ƏRDAŞ

Gül də səninkidir, bulaq da, çay da,
Çəməndən, çiçəkdən mənə nə fayda?
Sən gözləri yolda, qulağı səsdə,
Mən...

*(Gülür.)*

Bir az qocayam, bir az da xəstə.

TÜRKEL

Usta, qocalığı alma boynuna,
Bircə mələk səni salsa qoynuna
Bir gündə otuz il çavanlaşarsan.

USTA ƏRDAŞ

*(Ah çəkir.)*

Yox, oğul, ağaca bənzəyir insan.
Əvvəl qol-budağı quruyur, sonra
Döşündən, başından çəkilir dara.

*(Qoyun-quzu mələrtisi, at kişnərtisi eşidilir.)*

**TÜRKEL**

Kimin ilxısıdır, kimin sürüsü?
Ay usta, görünmür sonu, gerisi.

**USTA ƏRDAŞ**

Hər il elat çıxır bu uzaq yola,
Qurur yaylaqlarda çadırın, damın.
Qışlaqdan qayıdır, nə bilim, bala,
Hansı bəyinkidir, hansı xanımın.
Kimi Göyçə deyir, kimi Zəngəzur,
Hərə alaçığı bir yerdə qurur.
Motallar tutulur Muradtəpədə,
Qovurma, sarı yağ saxsı küpədə.

**TÜRKEL**

*(Heyrətlə.)*

Atın üstündədir gəlinlər, qızlar!

**USTA ƏRDAŞ**

*(Gülür.)*

Hələ hərəsində bir xəncər də var.
Hamısı gözəldir, hamısı kişi,
Çayçı işi deyil çölçünün işi.

*(Xanəndə oğlanın zümzüməsi, ardınca tütəyin yanıqlı səsi eşidilir.)*





**TÜRKEL**

Daşları kövrəldir onun naləsi,
Lap yaxından gəlir tütəyin səsi.
Əkiz doğulublar sanki anadan,
Fərqini görmürəm qərib durnadan.

**USTA ƏRDAŞ**

Qıvrılan alovdu, dəli haraydı,
Zalımın balası Məcnuna taydı.

**TÜRKEL**

Təqsir gözəllikdə, günah obada,
Pənah gətiribdir Pənahabada.

**XANƏNDƏ OĞLAN**

*(Yanıqlı-yanıqlı oxuyur.)*

Taleyim yatdı mənim,
Başımı qatdı mənim.
Telin üzünə düşdü,
Günəşim batdı mənim.

Eşqim pərvanə oldu,
Ürəyim nanə oldu.
Dərdimə tablamadı,
Tütək divanə oldu.

**TÜRKEL**

Bu həmin oğlandı, bu həmin səsdi,
Sözü qılınc kimi səbrimi kəsdi.

*(Bir az qəzəblə.)*

Özün ayağınla düşdün kəməndə,
Sənin ürəyinin açarı məndə.

*(Türkel səs gələn tərəfə gedir.)*

USTA ƏRDAŞ

Külçə-külçə qopur söz dodağından,
Hürkütmə bülbülü öz budağından.

*(Türkelin ardınca.)*

Gözü açılanda, sanki tərlandı,
Qolu açılanda, gözləri qandı.

TÜRKEL

*(Xanəndə oğlanın biləyindən tutub gətirir.)*

Dedilər dəvəyə minibdir Məcnun,
Sən demə dağlara dönübdür Məcnun.

XANƏNDƏ OĞLAN

Biri daşı sevər, biri dağları,
Sən Qalanı seçdin, mən yaylaqları.

TÜRKEL

Kimə bağışladın ürəyini bəs?

XANƏNDƏ OĞLAN

Hərənin qəlbində bir istək, həvəs.
Hər barmaq dindirmir sinədə simi,





Könül ver ürəyi dolu dağlara.
Çəkiclə söyləyə bilmədiyimi
Tütəklə deyirəm ulu dağlara.

USTA ƏRDAŞ

Bilirsən and nədi, ad nədi, bala,
Çomaq var, qılıncdan ötədi, bala.
Budağın sözüdür yarpağın səsi,
Ürək hər insanın öz xəzinəsi.

XANƏNDƏ OĞLAN

Cıdırda qələbə qazanan oğlan
Ley kimi şığıyıb aldı yaxamdan.
Qurbanlıq doğmayıb oğlunu anam,
Nə də ki, düşmənənəm əsir alınam.

USTA ƏRDAŞ

Gah ruha çevrildik, daha diri olduq,
Biz sənin səsinin əsiri olduq.

TÜRKEL

Tütəyin nalədir, səsin od-ocaq,
Bir az tikanlıdır sözlərin ancaq.

XANƏNDƏ OĞLAN

Mələk şeytan olur gözü dönəndə,
Dağları da görmə üzü dönəndə.

USTA ƏRDAŞ

Qalalara söykə sən kürəyini,
Nə üzünü döndər, nə ürəyini.

*(Ara verir.)*

Bu yerin çeşməsi, havası hikmət,
Söz də bu torpaqda yurd salacaqdır.
Nə qədər sənətkar, nə qədər sənət
Hələ indən belə doğulacaqdır.

XANƏNDƏ OĞLAN

*(Ürəklənir.)*

Usta, incimişəm özüm özümdən,
Bircə daş qoymadım bu qalaya mən.
Bir azca acıdır dilimin ucu,
Amma can deyənə mən can demişəm.
Yunundan yağ daman yeddi ağ qoçu
Qala daşlarına qurban demişəm.

USTA ƏRDAŞ

Səxavətin artıq, payın çox olsun,
Qubarın yox olsun, dərdin yox olsun.

XANƏNDƏ OĞLAN

*(Türkelə.)*

Çiçək verən qıza elçi gedəndə
Qırmızı yaylıqlı qoşa qoç məndə.
Toyunda "Məcnün"u unutma amma,
Bir ağız oxumaq mənim boynuma.





TÜRKEL

*(Xanəndə oğlanı qucaqlayır.)*

Bir dağam, yerimdən qopmuşam vallah,
Usta, sağdışımı tapmışam vallah!

XANƏNDƏ OĞLAN

Uca qalalarla verin qol-qola,
Di salamat qalın, düşürəm yola.

USTA ƏRDAŞ

Oğlan adını da söyləyəydi kaş.

XANƏNDƏ OĞLAN

Adım qalanızda yumruq boyda daş.

*(Gedir və oxuması eşidilir.)*

Sel olub buzu kəsim,
Qənd olub duzu kəsim.
Mənə qız verən kişi,
Qızına quzu kəsim.

USTA ƏRDAŞ

*(Əllərini bığına çəkir. Düşüncəyə dalıb.)*

Kürkümü yandırır söz yavaş-yavaş,
Deyən bostanıma tuşlanıb bu daş.

*(Ani sükut.)*

Hər zərbəyə atdan salınan deyil,
Ötkəmdir, amma ki, pis oğlan deyil.

*(Bığının altında gülümsəyir.)*

Sonadan nigaran qalmışam düzü,
Yollarda qoyubdur qız gözümüzü.

**TÜRKEL**

Ustam da durubdur canın qəsdinə,
Bəlkə özüm enim çeşmə üstünə.

**USTA ƏRDAŞ**

Eh, çeşmə neyləsin sənin dərdinə,
Qaynatan gəlməyir imana, dinə.
Qız da qalıb odla – su arasında,
Doğrusu bir günah görmürəm onda.
Bir az yuxarıdan gedir avazı,
İstəmir qırağa köçürə qızı.

**TÜRKEL**

Onda qaçıraram...

**USTA ƏRDAŞ**

*(Əsəbi.)*

Dayan, tələsmə!
Sözüm qurtarmayıb, sözümü kəsmə!
Düzü atasıyla pis deyil aram,
Özüm elçi gedib ağız açaram.





*(Alnını ovuşdurur.)*

Adın yayılıbdır bütün ölkəyə,
Getsin papağını tullasın göyə!

**TÜRKEL**

*(Sevinir. Onu qucaqlayır.)*

Usta, qurban olum kəramətinə,
Yaradan səni çox görməsin mənə!

*(Həvəslə divar hörməyə başlayır.)*

Ehehey!... Dünyanın harasındayam?
Göydə buludların arasındayam!

**USTA ƏRDAŞ**

*(Təbəssümlə.)*

Sənin məzən olsun, dəcəlsən, dəcəl,
Özünü çox yorma, bir azca dincəl.

**TÜRKEL**

*(Divar hörə-hörə zümzümə edir.)*

Bu daşlar – tala daşı,
Üst-üstə qala daşı.
Bacım – çinarlı bulaq,
Qardaşım – qala daşı.

Bu qala, bizim qala,
Həmişə bizim qala.
Tikmədim özüm qalam,
Tikdim ki, izim qala.

## ON BİRİNCİ ŞƏKİL

*(Çəmənlik. Gül gülü çağırır, çiçək çiçəyi. Sona gəlir. Səhəngini yerə qoyub qala divarlarına baxır.)*

**SONA**

Türkel... gəlib çıxdım.

*(Bir azdan Türkel gəlir.)*

**TÜRKEL**

Şükür, çox şükür...

**USTA ƏRDAŞ**

*(Özünü yetirir.)*

Səhərdən gözünün yaşını tökür.
Su deyib alışdıq, su deyib yandıq,
Amma dəvə kimi dözdük, dayandıq.

**SONA**

*(Səhəngin tıxacını çıxarır, dolçaya su süzür.)*

Su da gətirmişəm, günahımı da.

**USTA ƏRDAŞ**

Günahı su ilə yuyarıq onda.
Ciyərim alışdı, qızım, sərin su...

*(Sona dolçanı ona uzadır. Usta Ərdaş alıb içir.)*





Oxəy! Nə şirindir! Şərbətdir ki, bu.
Yudun günahını, baxtın ağ olsun!

**SONA**

Günahımdan keçən babam sağ olsun.

**USTA ƏRDAŞ**

Oturun, danışın indi üz-üzə,
Mən də bir baş çəkim o biri üzə.

*(Usta Ərdaş gedir.)*

**SONA**

Babamız nə gözəl insandır, oğlan,
Nur yağır üzündən, baxışlarından.

**TÜRKEL**

Əlləri qızıldır, ürəyi ipək,
Bu axşam o sizə elçi gələcək.
İndi nə deyirsən?
Gözlərimə bax!
Yox desən...

**SONA**

Yox desəm...

**TÜRKEL**

Şimşək çaxacaq,
Baş-başa gələcək qara buludlar,
Sinəmi köksümdə didəcək odlar.

SONA

Yerin olmasaydı qəlbimdə əgər,
Gündə görüşünə gələrdim məgər?
Çinarlı bulaqdan eşqimi dərdim,
Sənə su vermədim, könlümü verdim.

*(Tərəddüdlə.)*

Məni Təbrizəmi aparacaqsan,
Bu eldən, bu yurddan qoparacaqsan?

TÜRKEL

Bu yerin səfası, o yerin ətri
Dilimin əzbəri, sözümün tacı.
Sona, nə gizlədim, Təbrizdən ötrü
İnan ki, göynəyir burnumun uçu.
Anam da yuxuma girir hər gecə,
Başımda, beynimdə xəyal, düşüncə.

SONA

Boşla xəyalları, qəlbini qısıb
Dərd çəkmə, yolunda dağlar aşaram.
Bir ovuc torpağı bağrıma basıb
Bir gün Qarabağla vidalaşaram.
Bu yurdu, qoy bilsin bir dil, bir dodaq,
Gözümdə, könlümdə saxlayaram mən.
Yadıma düşəndə Çinarlı bulaq
Çəkilib bir küncə ağlayaram mən.
Cəfaya, zillətə dözər məhəbbət,
Gah susar, gah sönər, gah yanarıq biz.
Bir sinidə vüsal, bir teştdə həsrət,





Vətəndən Vətənə boylanarıq biz.
Gözün bələnməsin qəmə, ələmə,
Bu da xoşbəxtlikdir, fikir eləmə.

TÜRKEL

Göz yaşı içində gülən səadət
Kiminə cəhənnəm, kiminə cənnət.
Eşqin sevincində Vətən qübarı,
Acımı, şirinmi bəhəri, barı?
Nəğməsi qonubdur dodaqlarıma,
Qüdrəti güc verib dizlərimə də...

SONA

*(Sevinir.)*

İnana bilmirəm qulaqlarıma,
İnana bilmirəm gözlərimə də.

TÜRKEL

İnan, mənim Sonam, bu qalaları
Yarımçıq qoymağa ürəyim gəlmir.
Gündə arşın-arşın ucalır barı,
Qollarım yorulur, ruhum dincəlmir.
Əgər daş qoymasam gündə bir bürcə,
İşim nə zövqümcə, nə ürəyimcə.
Eşqim düşən yurddan köçə bilmirəm,
Bir də qılıncından keçə bilmirəm.
Halallıq öyrəndim duz-çörəyindən,
Yurda yarınmaq yox, yarımalıyam.
Tikdiyim bu uca qalaları mən
Aldığım qılıncla qorumalıyam.

Orda da, burda da qınayan, qanan,
Görək nə söyləyir, nə sayır fələk.
Eşqimə ev tiksəm, adi daşyonan,
Eşqimi qorusam, əsgərəm demək.

**SONA**

*(Kövrəlir.)*

Mən nə bəxtəvərəm, xoşbəxtəm, Allah!
Bu qürur, bu vüqar dağdan ucadı.
Sənin ürəyinin yanında vallah
Yer də, kainat da çox balacadı!

*(Susurlar.)*

Gəl verək baş-başa...

**TÜRKEL**

Verək baş-başa...

**SONA**

Gəl həmin nəğməni oxuyaq qoşa...

**TÜRKEL**

Gəl həmin nəğməni oxuyaq qoşa...

*(Baş-başa verib oxuyurlar.)*

Bu daşlar – tala daşı,
Üst-üstə qala daşı.





Bacım – Çinarlı bulaq,
Qardaşım – qala daşı.

Bu Qala – bizim qala,
Həmişə bizim qala.
Tikmədim özüm qalam,
Tikdim ki, izim qala..

*(Usta Ərdaş kənarda dayanıb onları seyr edir.)*

**USTA ƏRDAŞ**

*(Kövrəlir.)*

Xudaya, çox şükür bu ömür-günə,
Bir daha inandım qəlbin hökmünə!..

*(Həzın tar səsi eşidilir.)*

## ON İKİNCİ ŞƏKİL

*(EPİLOQ ƏVƏZİ)*

*(Uzaqdan qərib-qəmgin qaçqın qəbristanlığı görünür. Ud yanıqlı-yanıqlı səslənir. Turan zabit paltarında bir qəbrin önündə dayanıb. Zaman babanın tutqun, dumanlı silueti görünür.)*

**TURAN**

Salam, Zaman baba, bağışla bizi,
Azad etməmişik Vətənimizi.
Hələ qılınc qından sıyrılmayıbdır,
Amma həmin günə çox qalmayıbdır.

## ZAMAN BABANIN RUHU

Hər soyuq qəbirdə dərd dolanırsa,
Ətirli güllərə köklənmir sazın.
Ruhum o dağlarda dörd dolanırsa,
Bu soyuq daşlara qulluq nə lazım?

## TURAN

Kədərlə göz yaşı qol-boyun gəldi,
Şöhrət nökərləri daş atdı bizə.
Millətin başına min oyun gəldi,
Torpağın ağrısı gec çatdı bizə.

## ZAMAN BABANIN RUHU

Dünyanın üzünə sığışmadıq biz,
Çevril sağ tərəfə, dönginən sola.
Sağ ikən bir yerə yığışmadıq biz,
Öləndə bir yerə cəmləşdik, bala.
Evimiz, elimiz bir qara qutu,
Qaçqınlar, qəriblər töhmətdən bezdi.
Bizim birliyimiz – qəbir sükutu,
Sizin birliyiniz qələbəmizdi.

## TURAN

Obalar talandı, çapıldı, baba,
Vətənin yarası çox dərindədi.
Millətin sahibi tapıldı, baba,
Yurdun sərkərdəsi öz yerindədi.
Qüdrətli ordunun əsgəriyəm mən,
Vətəndən Vətənə yeriyəcəyik!





Şuşa qalasından, Cıdır düzündən,
Düşməni, yağını kürüyəcəyik!
Yurda qovuşacaq üzülən, itən,
Ruhunu elinlə barışdıracaq.
Külü göylərimə sovrulan Vətən
Bir bayram tonqalı alışdıracaq!

## ZAMAN BABANIN RUHU

Bu sözü ürəkdən, candan dedinsə,
Məzar daşları da döyünən ürək.
O yurdda tar dinsə, şikəstə dinsə,
Ruhumuz göylərdən yerə enəcək.
Sizlərə uzanıb dağların əli,
Mətin addımlayın, məğrur dayanın.
Böyük sərkərdənin qızıl heykəli
Başıda tac olsun Qızıl qayanın!
Bu nahaq qanları yerdə qoymayın,
Vuran əlləriniz, oğul, var olsun!
Bizim qalaları darda qoymayın,
Bizmm igidlərə uğurlar olsun!

*(Səhnə qaralır. Daha sonra dan yerində Azərbaycan Respublıkasının uçrəngli Bayrağı dalğalanır. Azərbaycan əsgərlərinin Şərqisi eşidilir.Turan sinəsini irəli verib, qollarını açıb.)*

## TURAN

Sinəmdə tonqal var, səsimdə ocaq,
Məhbus doğulmayıb sənət məbədi!
Daş kimi susduqsa, yurd basılacaq,
Daş kimi durduqsa, Vətən əbədi!

Tanrının, taleyin üzü bəridir,
Hər qara daş üçün sızlayır ürək.
Şərqilər də Vətən əsgərləridir,
Qədim Qarabağda görüşənədək!

*(Əsgər Şərqisi daha da ucadan səslənir. İşıqlaşan havada Şuşa qalası aydın görünür.)*

## PƏRDƏ

(Son)

**Bilgəh-Bakı. 1997.**





## KİTABDAKILAR

Ön söz əvəzi
Qanımla yazılan Qarabağnamə ........ 3

### *DÜNYANIN QARABAĞ AĞRISI*

Qadan mənə, Qarabağ ........ 7
Eşqimsən gücüm olsa... ........ 9
Nə qədər ki.. ........ 10
Mənim ........ 11
Dağlar, məni bağışlama ........ 12
Bilirsənmi? ........ 14
Bu baharın gəlişini görmədim ........ 15
Vətən bayrağı ........ 17
Qarabağ himni ........ 19
Güllələr...qəbirlər ........ 20
Külümüzü hara tökək ........ 21
Sağalmaz qan, dağılmaz dərd ........ 22
Təndirbulaq ........ 23
Qəsdimə duran qələm ........ 25
Tüfəngsiz gəl bu dağlara ........ 28
Para çörək ........ 30
Dünyanın işi ........ 31
Qara rəng ........ 34
Bəraət ........ 35

Kül ....................................................................37
Dayan, dünya ....................................................................39
O günə inanıram ....................................................................41

## 20 YANVAR 1990 - 26 FEVRAL 1992
## BAKI - XOCALI

Qırmızı qan, qızıl gül ....................................................................45
Azadlıq yolu ....................................................................47
Rus generalına məktub ....................................................................49
Zindan qarşısında lövhə ....................................................................52
Salam, Xocalı dərdim ....................................................................53
Gözlə, Xocalı, gözlə ....................................................................55
Qələm kövrək, qəm qoca ....................................................................57
Kişi kimi ....................................................................58
Dəbdə olur ....................................................................59
Qalib gəlməyi də öyrənəcəyik ....................................................................60
Ağlamaq öyrənən millət ....................................................................61
Ölümdən sonrakı ad ....................................................................62
Yaralı əsgər ....................................................................63
Hərbi and ....................................................................65
And iç ....................................................................66
Bu dərdi necə yazım ....................................................................68
Yoxdur ....................................................................70
Müqəddəsdir ....................................................................71
Görəcəkli günlər ....................................................................72
Zurna havası ....................................................................74
Dərdimizə qardaş bacım ....................................................................75





Oğlum əsgər gedir ....................................................................77
Yeriyəcək bu dağlar ....................................................................78

## ÖZ ƏLİMİZ, ÖZ YAXAMIZ

Millət şairini ayağa versə ....................................................................81
Öz sözümün ağasıyam ....................................................................83
Başa düşməz ....................................................................86
Nəsə çatmır ....................................................................87
Susur bir-bir ....................................................................89
Mənə söz verin ....................................................................91
Çaşdırır ....................................................................93
Qaçqın uşaqla söhbət ....................................................................94
Danışırıq ....................................................................95
Çoxdan bələdəm ....................................................................96
Adı pozulanda Məmməd Arazın ....................................................................97
Ələmdaram mən ....................................................................99
Neyləsin buna ....................................................................100
Kimdir sonuncu ....................................................................102
At arabası, araba atı ....................................................................104
Qalmadı ....................................................................105
Niyə bu milləti sevmirsən, qağa ....................................................................106
Allahsız dünya ....................................................................107
Yox neyləsin ....................................................................108
Düdüyü var dünyanın ....................................................................109
Qəpiyinə dünyanın ....................................................................110
Ağlayır ....................................................................111
Qaz vuranlar ....................................................................112
Paylamır ....................................................................113
Mən sənə səs vermişəm ....................................................................114
Aparır ....................................................................116

Qıfıl ....................................................................................117
Gün o gün olsun ki.....................................................................119
Ümid ....................................................................................120
Şairlik qoymadı adam olum mən .................................................121

*POEMALAR*

Qarabağ oyunu.........................................................................123
Şəhid şəhər ...........................................................................167
Alay komandiri .......................................................................235
İlmələrin dastanı .....................................................................299
Şəhid bacısı ...........................................................................333

Pənah evi (Mənzum pyes)...........................................................358





* * *

**Qədəhdəki qanımdı, əlimdəki qədəhdi,**
**Soyunduğum zirehdi, geyindiyim qədəkdi,**
**Sənin dastanın uzun, mənim dilim gödəkdi.**
**Mənim gödək dilimi bük kəfənə, Qarabağ!**
**Qadan mənə, Qarabağ!**

* * *

**Texniki redaktor:** **Cəsarət Qasımov**
**Rəssam:** **Sultan Məmmədov**

**ƏLƏMDAR QULUZADƏ**

# QADAN MƏNƏ, QARABAĞ

*(Şeirlər, poemalar, mənzum pyes)*

Çapa imzalanmışdır: 20.09.2006
Kağız formatı: 60x90 1/16
Çap vərəqi: 28,5
Sayı: 500. Sifariş:132

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05

mətbəəsində çap olunub

